AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN TEXNOLOGİYA
UNİVERSİTETİ

# *İNNOVASİYALI İQTİSADİYYAT VƏ MENECMENT*
# *ИННОВАЦИОННАЯ ЭКОНОМИКА И МЕНЕДЖМЕНТ*
# *INNOVATIVE ECONOMY AND MANAGEMENT*

**№1/3**

**GƏNCƏ - 2020**

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
Azərbaycan Texnologiya Universiteti
« ***İnnovasiyalı iqtisadiyyat və menecment*** »

***Redaksiya heyəti***

***Baş redaktor***
Süleymanov Akif Şamil oğlu
Texnika elmləri doktoru, professor

***Baş redaktorun birinci müavini***
İsmayılov Vüqar Ağamusa oğlu
İ.f.d, dosent

***Baş redaktorun müavini***
Əliyev Şakir Hüseynqulu oğlu
t.f.d, dosent

***Məsul katib***
Hümbətov Yusif Əbülfət
i.f.d, dosent

***Redaksiya heyətinin üzvləri***

Səmədzadə Ziyad Əliabbas oğlu
i.e.d.,professorAMEA həqiqi üzvü

Balayev Rəsul Ənvər oğlu
i.e.d.,professor

Quliyev İlqar Qurban oğlu
xarici dil üzrə mütəxəssis.

Hüseynov Məhərrəm Cəlal oğlu
i.e.d., professor

Vəliyev Vilayət Məmməd oğlu
i.e.d.,professor

Süleymanov Elçin Bəhman oğlu
- i. f.d., dosent

İmanov Nazim Müzəffər oğlu
i.e.d. professor

Məmmədov Zahid Fərrux oğlu
– i.e.d.professor

Alıyev İsa Hüseyn oğlu
İ. e.d., professor

Hacıyeva Nüşabə Aslan qızı
i.f.d. dosent

Səbzəliyev Sifariz Mirzəxan,
i.e.d.profesor

Ataşov Bəyalı Xanalı oğlu
- i. e.d., professor

Məhərrəmov Amil Məmmədəli oğlu, i.e.d., profesor

İmanov Telman İman oglu
i.e.d., professor

Kompüter tərtibatçısı: E. İ. İslamova
Korrektor: Z. Ə.Cavadov
Dizayner: A.F. Sadıqova

*İldə iki dəfə çıxır*

Redaksiyanın ünvanı:
AZ2011, Azərbaycan, Gəncə ş. Şah İsmayıl Xətai prospekti, 103
Azərbaycan Texnologiya Universiteti
Tel: +(994-22) 57-56-29, Faks: +(994-22) 57-29-61
*E-mail:* info@atu.edu.az

© *Azərbaycan Texnologiya Universiteti 2020*

**MÜNDƏRİCAT– СОДЕРЖАНИЕ- CONTENTS**

**Umumi iqtisadiyyat**

Hüseynov M.C., Salahov E.A. Kənd təsərrüfatının iqtisadi problemlərinin nəzəri aspektləri.......... 4

İsmayılov V.A., Hacıyeva N.A., Məmmədova A.V., Məmmədov S.C. Yüngül sənayedə innovasiyali məhsullara olan tələbin həcminin təhlili və qiymətləndirilməsi.......... 13

Paşayev C. M. Sağlam cəmiyyətin formalaşmasinda insan resurslarinin rolu.......... 23

Quliyev S.M. İstehlakçı davranışının formalaşmasına təsir edən amillərin analitik qiymətləndirilməsi.......... 32

**Sahə iqtisadiyyatı**

Сулейманов А. Ш., Филатов В. В., Косикова Ю.А. Стратегические альтернативы оптимизации производственной деятельности предприятий пищевой промышленности.......... 42

Əsgərov M.A.Sənaye parklarının yaradılması və inkişafı : beynəlxalq təcübə... 48

Əfəndiyev S. Q.Azərbaycanın emal sənaye müəssisələrinin iqtisadi inkişafda rolu.......... 60

Qurbanova X. V. Bank sektorunda marketinqin və informasiya texnologiyalarının rolu.... 66

İsmayılov F.İ., İsmayılov K.M. Aqrar sektorun innovasiya yönümlü inkişafinin əhəmiyyəti.......... 71

Əliyev M.O. Toxuculuq sənayesinin inkişaf səviyyəsi, ona təsir edən amillər.......... 77

Zeynallı L.V. Sənayedə insan kapitalinin inkişafinin innovasiya aktivliyinin artirilmasina təsiri.......... 89

Bayramov V. E. Uçot siyasətində dəyişikliklərin aparılması metodikası.......... 101

Qarayeva Ş. N. Azərbaycanda rəqəmsal marketinqin inkişafı istiqamətləri………… 107

Məmmədova X.F.Yüngül sənaye istehsalın rəqabət qabiliyyətinin nəzəri-metodoloji əsasları.......... 110

Gəncəyev F. İ. Aqrar sferada risklərin qiymətləndirilməsi………… 117

**Dünya iqtisadiyyatı**

Qasımova Y. İ. Beynəqlxalq maliyyə münasibətləri və Azərbaycan respublikasının onlarda yeri.......... 123

**Müəssisələrin təşkili və idarə olunması**

Məcidov R.H., Abdiyeva G.Z. Biznes təşkilatlarinda rəhbərlə tabeçilikdə olanlarin qarşiliqli münasibətlərinin etik – psixoloji xüsusiyyətləri.......... 132

Rəsulov Z.Y. İşgüzar təşkilatlarda karyeranin idarə edilməsi sisteminin bəzi parametrləri.. 141

**Sənayenin təşkili və dövlət siyasəti**

Hümbətov Y. Ə., Məmmədli Z.T. Respublikamızda sənayeləşmə siyasətinin əsas prioritetləri.......... 151

**№ 1/2020** **səh. 4 -12**

**UOT 330**

# KƏND TƏSƏRRÜFATININ İQTİSADİ PROBLEMLƏRİNİN NƏZƏRİ ASPEKTLƏRİ

*[1]Məhərrəm Cəlal oğlu Hüseynov*
*[2]Elçin Arif oğlu Salahov*

**Azərbaycan Dövlət Aqrar Universiteti,**
**Gəncə şəhəri, Atatürk pr.162**
[1]***h-tural@rambler.ru***, [2]***elchinsalaho@mail.ru***

***Xülasə:Məqalədə kənd təsərrüfatında kooperasiyanın və onun təşkili forması olan kooperativ müəssisələrin yaranmasının nəzəri məsələləri təhlil olunur. Kənd təsərrüfatında sistem problemlərdən sayılan tələbin qeyri-elastikliyi və təklifin elastikliyi bu sahədə mövcud olan "məhsuldarlıq paradoksunun" səbəblərindən biri hesab edilir. Digər tərəfdən isə kənd təsərrüfatı məhsulları bazarının quruluşunun tipi bu paradoksu daha da dərinləşdirir.***

***Təcrübə göstərir ki, kooperativ müəssisələr mövcud problemin həllində əhəmiyyətli rol oynayırlar. Müasir dövrdə inkişaf etmiş ölkələrdə kooperativ müəssisələrin formalaşmasının iki istiqaməti müəyyən edilmişdir: istehsal və xidmət kooperativləri. Tədqiqat nəticəsində istehsal kooperativlərində ən böyük problemlərindən sayılan gəlirlərin ədalətli bölgüsü problemləri ön plana çəkilərək ətraflı təhlil edilir. Xidmət kooperativlərinin üstünlüklərinin səbəbləri izah olunur.***

***Tədqiqatların əsasında belə nəticəyə gəlinmişdir ki, kooperativ hərəkatı kənd təsərrüfatı məhsulları istehsalında risklərin azaldılmasında və məhsuldarlıq paradoksunun həllində əhəmiyyətli rol oynaya bilər.***

***Açar sözlər: tələbin qeyri-elastikliyi, təklifin elastikliyi, təkmil və qeyri-təkmil rəqabət, məhsuldarlıq paradoksu, gəlirlərin bölgüsü,istehsal və xidmət kooperativləri,kənar migyas effekti,transaksiya xərcləri.***

**Giriş;**Məlumdur ki, kənd təsərrüfatı məhsullarının istehsalı yüksək riskli sahədir və onun səbəbləri haqqında kifayət qədər elmi ədəbiyyatda tədqiqatlar aparılmışdır. Adətən aqrar sahədə risklərin yüksək səviyyəsi və onun nəticəsi kimi gəlirlərin minimal səviyyəsi bu sahədə mövcud olan spesifik xüsusiyyətlərlə izah olunur.Ümumiləşdirilmiş formada bu xüsusiyyətlər kənd təsərrüfatında mövcud olan bioloji, iqlim şəraiti, mövsumilik, yüksək kapital tutumluluq və s. amillərlə izah olunur.Fikrimizcə, bu səbəblərlə yanaşı, digər vacib amillərin də kənd təsərrüfatı məhsulları istehsalında oynadığı rolun təhlili bizə bu sahədə kooperasiyanın, onun təşkilati forması və əsas institutu sayılan kooperativ müəssisələrin inkişaf istiqamətlərinin müəyyən olunmasında nəzəri cəhətdən əsaslandırılmasına imkan verə bilər

**Tədqiqatın metodikası:** Məgalədə təhlil olunan nəzəri problemlər dünyada tanınmış igtisadçı alimlərin elmi-nəzəri tədqiqatlarına əsaslanmış və aparılan tədqiqatda öz əksini tapmışdır.Tədqiqatda istifadə olunan praktiki materiallar yerli və xarici ölkələrin rəsmi statistik materiallarından götürülmüşdür.

**Tədqiqatın praktiki əhəmiyyəti**:Nəzəri hroblemlərin təhlili kənd təsərrüfatında mövcud olan problemlərin səbəblərini araşdırmasında və onların həlli yollarının müəyyən edilməsində böyük praktiki əhəmiyyətə malikdir.Tədqiqat nəticəsində belə bir nəticəyə gəlinmişdir ki, kənd təsərüfatında kooperativ müəssələr,xüsusi ilə də xidmət kooperativləri, institusional guruluş kimi

igtisadi problərin aradan qaldırılmasında rolu danılmazdır. Qeyd edək ki, tədqiqatın nəticələri hazırda aparılan aqrar siyasətin ıstiqamətinin və metodlarının düzgün müəyyənləşdirilməsində nəzərı və praktiki baxımdan əhəmiyyətli ola bilər.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

**Kənd təsərrüfatında "məhsuldarlıq paradoksunun" səbəbləri:**İlk növbədə qeyd edək ki, elmi ədəbiyyatda qəbul olunub ki, kənd təsərrüfatı məhsullarına olan tələb qiymətə və gəlirə görə qeyri-elastikdir. [1,2] Nəzərinizə çatdırırıq ki, qiymətə və gəlirə görə qeyri-elastiklik o deməkdir ki, kənd təsərrüfatı məhsullarının qiymətinin dəyişməsinə tələb cüzi reaksiya göstərir. Nəticədə, aqrar sahədə məhsuldarlığın artması adətən qiymətlərin bazarda enməsi ilə müşahidə olunur. Çünki tələbin ümumi həcmi dəyişməz qalır. Qida məhsullarının qiyməti iki dəfə düşdükdə, insanlar gün ərzində üç dəfə əvəzinə, altı dəfə qidalanmayacaqlar. Bu səbəbdən, aqrar bazarın tutumu, yəni məhsulları həzm etmək qabiliyyəti qeyri-çevik və məhduddur. Digər tərəfdən kənd təsərrüfatı məhsullarına məcmu tələbin sərhədi ölkədə yaşayan insanların sayı və məcazi mənada desək, onların mədələrinin həzm etmək imkanları ilə müəyyən olunur. Hətta gəlirlərin artması qida məhsullarına olan tələbin miqdarına çox az təsir göstərir. Hesablamalar göstərir ki, gəlirlərin səviyyəsinin 10 % artması qida məhsullarına olan tələbin həcmini ancaq 2 % artırır. ABŞ-ın orta statistik ev təsərrüfatları ərzaq məhsullarına öz büdcəsinin ancaq 9,7 %-ni xərcləyir. [3] Avropa İttifaqı ölkələrində müvafiq orta göstərici bir qədər çoxdur – 12,1%. (Almaniyada – 10,8%, Fransada – 13,1%, Niderland – 11,4%) [4] Bu rəqəmlərə istinadən, böyük ehtimalla demək olar ki, kənd təsərrüfatı məhsullarına tələbin ümumi həcminin 10 % artması üçün onların bazarda qiyməti 40-50% enməlidir. Deməli, kənd təsərrüfatı məhsullarına tələbin müəyyən qədər artmasına nail olmaq üçün qiymətlər əhəmiyyətli dərəcədə düşməlidir.

Digər tərəfdən isə kənd təsərrüfatı məhsullarının təklifi yüksək qiymət elastikliyinə malikdir. Yəni, hər hansı bir məhsulun cari dövrdə qiymətinin qalxması həmin məhsulların təklifini əhəmiyyətli dərəcədə stimullaşdırır. İstehsalçılar qiyməti aşağı olan məhsulun istehsalını məhdudlaşdıraraq diqqətlərini cari dövrdə yüksək qiyməti olan məhsula yönəldirirlər. Bu isə növbəti mövsümdə həmin məhsulların istehsalının artması və müvafiq olaraq qiymətlərin düşməsi ilə nəticələnir. Beləliklə, kənd təsərrüfatı məhsullarına tələbin qeyri-elastikliyi və təklifin yüksək elastikliyi kənd təsərrüfatı məhsullarının istehsalında **qapalı dairə** yaradır. Bu qapalı dairə yüksək gəlir əldə etmək istəyən kənd təsərrüfatı istehsalçılarını bir məhsulun istehsalını artırmağa, digərini isə azaltmağa məcbur edir. Nəticədə, kənd təsərüfatı məhsullarının istehsalında paradoks yaranır – **"Məhsuldarlıq paradoksu".**

Bu paradoksun mahiyyəti ondadır ki, eyni zamanda yüksək məhsuldarlığa nail olan kənd təsərrüfatı istehsalçıları mənfəət əvəzinə, zərər əldə edirlər. Məhsuldarlıq az olan sahədə isə qiymətin qalxması nəticəsində yüksək gəlir yaranır. Göründüyü kimi, kənd təsərrüfatında spesifik xüsusiyyətlərindən bir odur ki, bazar qiymətinə tələb yox, təklif təsir edir və onun dəyişməsi ancaq təklifin həcminin dəyişməsi ilə bilavasitə bağlıdır.Bu səbəbdən, o ölkələrin kənd təsərrüfatı yüksək inkişaf etmişdir ki, istehsal olunan məhsulun 60-75%-i xarici bazarlara ixrac olunur. Məsələn, Niderlandda istehsal olunan məhsulun ancaq 27,6%-i daxili bazarda satılır, 72,4%-i isə ixrac olunur. [5] ABŞ-da məhsullar üzrə ixracın həcmini götürsək pambıq istehsalının 76%-i, qoz 79%, soya (soybean) 50%, taxıl 46%, düyü 55% təşkil etmişdir. [6] Müqayisə üçün bildiririk ki,

**№ 1/2020** **səh. 4 -12**

bizim hesablamalara əsasən 2018-ci ildə Azərbaycanda kənd təsərrüfatı məhsullarının təxminən 16,5 %-i ixrac olunmuşdur. [7]

**Kənd təsərrüfatı məhsulları bazarının quruluşunun tipi:**Kənd təsərrüfatı məhsullarının istehsalında risklərin yüksək səviyyəsi və məhsuldarlıq paradoksunun yaranmasının səbəblərindən biri də orada mövcud olan bazarın quruluşunun spesifik vəziyyəti ilə də bağlıdır. Məlumdur ki, müasir dövrdə bazarın quruluşunun iki tipi mövcuddur: təkmil və qeyri-təkmil. Onların əlamətləri ədəbiyyatda geniş təhlil olunmuşdur. Biz isə qeyd edək ki, bu əlamətlərin içində ikisi mərkəzi yer tutur; istehsalçıların sayı və qiymət yaranma mexanizmi. Təkmil rəqabət quruluşlu bazarda istehsalçıların sayında heç bir məhdudiyyət olmadığına görə, istehsal etdikləri məhsulun qiymətinə təsir göstərə bilmirlər və qiyməti bazar diktə edir.Qeyri-təkmil bazarda isə istehsalçının sayının məhdud olması onlara qiyməti diktə etməyə şərait yaradır. Belə bazarlara inhisarlaşmış bazarlar da deyilir. Kənd təsərrüfatında iqtisadiyyatın digər sahələrindən fərqli olaraq, istehsalçıların sayı minlərlədir və hər bir istehsalçı xalis rəqabət şəraitində fəaliyyət göstərməyə məcburdur. Bu isə rəqabətin yüksək intensivliyi və bazarın qiyməti diktə etməsi deməkdir. Onlar məhsullarını bazar qiymətinin diktəsinə uyğun reallaşdırırlar. Lakin məhsul istehsalı üçün zəruri olan resursları qeyri-təkmil tipli bazarlardan əldə etməyə məcburdurlar harada ki, qiyməti istehsalçı diktə edir. Məsələn, bu gün şəkər çuğunduru Azərbaycanın müxtəlif regionlarında yüzlərlə təsərrüfatlar tərəfindən istehsal olunur. Amma onu emal edib şəkər tozu istehsal edən bir müəssisə mövcuddur. Eyni zamanda kənd təsərrüfatı istehsalçıları texnika, toxum, gübrə, xəstəlik və zərərvericilərə qarşı mübarizə vasitələri və s. istehsal üçün zəruri olan məhsulları əldə etdikdə yenə də bazarda bir neçə satıcının olduğu, yəni qeyri-təkmil bazar tipi ilə rastlaşırlar. Belə vəziyyət kənd təsərrüfatı məhsulları ilə sənaye məhsulları arasında qiymət paritetinin pozulmasına gətirib çıxarır. Nəticədə, kənd təsərrüfatında məhsuldarlıq paradoksu gəlirləri azaldır, amma sənaye məhsullarının qiyməti isə dəyişməz qalır.

Bazarın belə ümumi quruluşu demək olar ki, dünyanın bütün ölkələrində mövcuddur. Məsələn, ABŞ-da pomidor minlərlə fermer təsərrüfatlarında istehsal olunur. Ancaq ondan ketçup istehsal edən cəmi üç şirkət fəaliyyət göstərir[8]. Deyilənlərdən belə nəticə çıxara bilərik ki, kənd təsərrüfatı istehsalçılarının məhsulları rəqabətli bazarda satılır, amma onlardan hazırlanan qida məhsulları qeyri-təkmil bazarda reallaşır.

Məhsulun xüsusiyyətindən asılı olaraq, onların istehsalı da müxtəlif təsərrüfatlarda həyata keçirilir. Məsələn, buğdanın, arpanın, günəbaxanın, qarğıdalının, tərəvəzin istehsalı ilə minlərlə təsərrüfatlar məşğuldurlar. Quş əti və yumurta istehsalı isə əsasən respublikada iri müəssisələrdə sənaye üsulu ilə istehsal olunur.

Şərh olunanların əsasında belə bir ümumi nəticəyə gəlmək olar, kənd təsərrüfatı məhsullarına tələbin qeyri-elastikliyi, bu məhsulların intensiv rəqabət şəraitində istehsalı, onların qiymətləri ilə sənaye məhsullarının qiymətləri arasında qiymət paritetinin pozulması qeyri-iqtisadi amillərlə yanaşı, riskləri daha da şiddətləndirir. Kənd təsərrüfatında riskin yüksək dərəcəsinin son nəticəsi isə məhsul istehsalçılarının gəlirlərinə bilavasitə təsir göstərir.

**Kənd təsərrüfatı kooperativ müəssisələrinin yaranması zərurəti:**Hər bir dövlətdə, o cümlədən respublikamızda aparılan aqrar siyasətin əsas məqsədi məhz risklərin azaldılmasına və gəlirlərin sabitləşdirilməsinə istiqamətləndirilməsidir. Lakin istənilən aqrar siyasət o zaman bəhrəsini verir ki, kənd təsərrüfatında məhsul istehsalçılarının fəaliyyətinin institusional quruluşu müasir tələblərə cavab versin.

**№ 1/2020** **səh. 4 -12**

2016-cı ilin statistik məlumatlarına görə, Respublikamızda kənd təsərrüfatında 892 min torpaq mülkiyyətçisi qeydiyyatdan keçmişdir. Lakin torpaq sahəsinin bölgüsündə 71 % mülkiyyətçinin payına cəmi 3 hektara qədər torpaq sahəsi düşür. [9] Rəqəmdən göründüyü kimi, xırda mülkiyyətçilər torpaq mülkiyyətçilərinin ümumi payında mütləq üstünlük təşkil edirlər. Təsadüfi deyil ki, həmin ildə kənd təsərrüfatı məhsullarının istehsalının 92%-i xırda təsərrüfatların (ailə-kəndli, ev təsərrüfatları və fərdi sahibkarlıq), 8%-i isə nisbətən iri torpaq sahiblərinə malik kənd təsərrüfatı müəssisələrinin payına düşmüşdür. [10] Torpaq üzərində mülkiyyətin belə strukturu kənd təsərrüfatında dayanıqlı inkişafa nail olmağın qarşısında duran əsas manelərdən biridir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, kənd təsərrüfatında mövcud olan və yuxarıda göstərilən xüsusiyyətlər istehsalçıları kütləvi surətdə kiçik təsərrüfatları konsolidə edərək iri təsərrüfatlara çevrilməsinə gətirib çıxarmışdır. Məsələn, ABŞ-da 1935-ci ildə 6,8 milyon, 1960-cı ildə 4 milyon fermer təsərrüfatı var idisə [11], hazırda onların sayı 2,05 milyona qədər azalmışdır [12].

İri təsərrüfatların üstünlüyü ondadır ki, kənd təsərrüfatında rəqabətin intensivliyini azaldır və qiymətlərin müəyyən qədər sabitləşməsinə şərait yaradır. İri təsərrüfatların yaradılmasının yollarından biri bütün dünyada sınaqdan çıxmış və səmərəliliyini isbat etmiş təsərrüfat fəaliyyətinin institusional forması olan kooperativlərdir. Kooperasiya və onun təşkilati forması olan kooperativ müəssisələr məhz kiçik və orta mülkiyyətçilərin fəaliyyətini əhatə edir. Onun əsas məqsədi xırda kəndli təsərrüfatlarının risklərini azaltmaqla yanaşı, daxili və xarici bazarlarda iri təsərrüfatlarla rəqabətdə davamlılığını təmin edərək orada sabit və möhkəm mövqe tutmaqdır.

Müasir dövrdə dünya təcrübəsi göstərir ki, kənd təsərrüfatında kooperativlərin iki əsas tipi formalaşmışdır: 1.istehsal kooperativləri, 2.istehsalçılara xidmət göstərən kooperativlər. [13] Onların hər birinin ayrı-ayrı nəzəri təhlili bizə əsas verir ki, respublikamızda hansı tipin inkişafına üstünlük verilməlidir.

**İstehsal kooperativlərinin çatışmazlıqları:**İstehsal kooperativləri kiçik təsərrüfatların əmlakının, ilk növbədə torpaqlarının birləşməsi nəticəsində yaranır və əldə olunan mənfəət kooperativin nizamnaməsinə uyğun olaraq bölünür.İstehsal kooperativlərinin üzvləri hüquqi və təsərrüfat müstəqilliklərini tamamilə itirərək istehsal prosesində şəxsən iştirak edirlər. Lakin istehsal kooperativiləri yarandığı andan daxilində həll olunmaz problemlərlə üzləşirlər. Bunun əsas səbəbi kooperativdə mövcud olan gəlirlərin və demokratiyanın bölünməsində ədalət prinsipinin pozulmasıdır. Eyni zamanda kooperativə daxil olan üzvlərin sayı artdıqca ədalət prinsipinin pozulması daha geniş miqyas alır və onların davranışına bilavasitə təsir göstərir. Belə halın yaranmasını aşağıda göstərilən səbəblərlə izah etmək olar.

Birinci - əgər üzvlərinin sayı çox olan kooperativdə gəlirlərin bölgüsü bərabərlik prinsipi əsasında həyata keçirilirsə, o zaman resurslardan səmərəsiz istifadə problemi yaranacaq. Çünki gəlirlərin bərabər bölünməsi prinsipi kooperativin hər bir üzvünü məhsulun istehsalında bütün ağırlığı digərlərinin üstünə yönəltməyə məcbur edəcək. Bu fikri belə də izah etmək olar - istehsalda digər üzvlərə nisbətən az əmək sərf edərək gəlirlərin bölgüsündə bərabər hüquqa malik olmaq. Aydındır ki, kooperativ üzvlərinin hər biri buna bənzər formada hərəkət etməyə cəhd edəcək. Nəticədə, resursların istifadəsinin səmərəliliyi və məhsulun istehsalının həcmi azalacaq.

İkinci - əgər bölgü prinsipi əmək sərfinə müvafiq olaraq təyin olunsa, bu halda resurslardan zəruri olduğundan daha çox, qısa desək, “vəhşicəsinə” istifadə olunacaq. Kooperativin üzvlərinin arasında belə bir fikir yaranacaq: kim əmlakdan (torpaq, texnika , texnologiyadan və s.) çox

istifadə etsə, onun gəlirlərinin həcmi digər üzvlərin gəlirlərinə nisbətən yüksək olacaq. Bu isə istehsal vasitələrinin sürətli aşınması və tez sıradan çıxması ilə nəticələnə bilər.

Üçüncü–mülkiyyətçilərin sayı artdıqca, əmlaka görə bölgünündə istehsal kooperativlərində reallaşması tədricən mümkünsüzləşir. Məsələ ondadır ki, əmlakın kəmiyyəti və keyfiyyəti fərdi mülkiyyətçilərdə müxtəlif səviyyədə ola bilər. Bundan əlavə, xırda mülkiyyətçilərin fərqli sosial durumu da nəzərə alınmalıdır. Gəlirlərin əmlaka görə bölgüsü kollektiv mülkiyyət əsasında fəaliyyət göstərən iri müəssisədə reallaşması böyük problemlər yaradır.

Dördüncü–üzvlərin sayı çoxaldıqca, kooperativin idarə olunmasında demokratiyanın bölgüsü yarana və səsverməvasitəsilə resursların istifadəsi haqqında qəbul olunan qərarlar ziddiyyətli ola bilər. Kollektiv mülkiyyət əsasında fəaliyyət göstərən kooperativlərin üzvlərinin sayı artdıqca, onun daxilində qruplaşmaların sayı da artacaq. Birliyin daxilində yaranan qruplaşmaların hər biri səsvermə yolu ilə resursları kollektivin marağına uyğun deyil, öz məqsədləri üçün istifadə etməyə çalışacaqlar.

Məlumdur ki, kooperasiya sözünün hərfi mənası, əməkdaşlıq deməkdir. Əməkdaşlıq isə, öz növbəsində ancaq ədalət prinsipinin hakim olduğu halda baş tuta bilər. Beləliklə, kooperativin üzvlərinin sayının artması onun qeyri-stabil olmasını və fərqli maraqların yaranmasını labüd edir. Bu prosesin kooperativin daxilində yayılması onun dağılması və süqut etməsində əsas arqumentə çevrilir.

Məhsul istehsalının texnoloji zəncirinin bir iri istehsal kooperativində birləşməsi yuxarıda göstərilən səbəblərdən böyük problemlər yaradır. Gəlirlərin və zərərlərin məsuliyyətinin bölüşdürülməsi kimi suallar birbaşa iqtisadi maraqların toqquşmasına səbəb olur və istehsal kooperativinin ömrünü qısaldır. Rəsmi statistik məlumatlara görə, Azərbaycanda kooperativ əsaslarla yaradılmış kənd təsərrüfatı müəssisələrinin sayı 2000-ci ildə 250 olduğu halda [14], 2018-ci ildə 45-ə qədər azalmışdır. [15] Düşünürük ki. istehsal kooperativlərinin sayının belə əhəmiyyətli dərəcədə azalmasının əsas səbəbi yuxarıda şərh olunan amillər olmuşdur.

Bu səbəblərdən də kənd təsərrüfatı istehsal kooperativləri sadə və kiçik formada olurlar. Adətən 2-10 ev təsərrüfatı birləşdiyi halda belə təsərrüfatlar daha səmərəli ola bilərlər. Çox zaman isə istehsal kooperativləri qohumluq əlaqələri olan kiçik ev təsərrüfatlarından ibarət olur. Çünki praktiki təcrübə göstərir ki, istehsal kooperativlərinin üzvlərinin sayı artdıqca və onun miqyası böyüdükcə onlarda yuxarıda göstərilən bölgü ilə bağlı problemlər yaranır. Bu fikri Sabirabad rayonunda yerləşən “Muğan -1” istehsal kooperativində apardığımız sorğunun nəticələri də təsdiq etmişdir. “Muğan -1” istehsal kooperativində 8 ailə-kəndli təsərrüfatının torpaqlarının birləşdirilməsi sırf ailə qohumluğu əsasında baş vermişdir. Kooperativin ümumi torpaq sahəsi 120 hektardır. Ondan 45 ha-ı pay torpaqlarının birləşməsi, 75 ha isə bələdiyyədən icarəyə götürülmə nəticəsində yaradılmışdır. Gəlirlərin bölüşdürülməsində yuxarıda göstərilən prinsiplərin kombinasiyasından istifadə edilir. İcarəyə götürülən torpaq sahələrindən əldə olunan gəlir bərabər, kollektiv mülkiyyət torpaq sahəsindən götürülən gəlir isə pay torpağına uyğun qaydada bölüşdürülür. Kənd təsərrüfatı texnikası istifadə edildikdə isə ona sərf olunan pul vəsaitləri kooperativin istehsal xərcinə daxil edilir və texnikanın sahibinə ödənilir.

Fikrimizcə müasir şəraitdə yuxarıda göstərilən səbəblərdən Azrbaycanda istehsal kooperativlərinin vasitəsi ilə effektiv fəaliyyət göstərən irimiqyasli təsərrüfatların geniş inkişafı mümkqün deyil.

**Xidmət kooperativlərinin üstünlükləri:**İkinci tip kooperativlər (xidmət göstərən) istehsalçılar tərəfindən yaradılır və məqsədi kooperativin üzvü olan fermerlərin istehsalla bağlı tələbatlarını ödəmək üçün xidmətlər göstərməklə məşğul olmaqdır.

Bu xidmətlərə adətən daxildir: 1) kiçik təsərrüfatları texnika ilə təmin etmək, 2) istifadə olunan texniki vasitələrə servis xidməti, 3) yanacaq və sürtkü vasitələri ilə təmin etmək, 4) mineral gübrə və toxumla təchizat, 5) informasiya və marketinq xidməti, 6) məhsulların uzunmüddət saxlanılması ilə bağlı xidmətlər, 7) məhsulların daxili və xarici bazarlara çıxarılması və s. Xidmətlər göstərməklə məşğul olan kooperativlərin üzvləri təsərrüfat müstəqilliyini saxlayırlar və gəlirlərin səviyyəsi bilavasitə istehsalın həcmindən asılı olaraq bütövlükdə hər bir istehsalçının sərəncamında qalır. Belə kooperativlərin üstünlüyü ondadır ki, fermerlər istehsalla və məhsulun mübadiləsi ilə bağlı bir çox məsələlərin həllindən azad olunaraq bütün səylərini məhsulun istehsalına yönəldirlər. İqtisadi dildə desək, xidmət kooperativlərinin əsas məqsədi istehsalçıların **transaksiya** (əməliyyat) xərclərinin azaldılmasına xidmət etməkdir. Xidmət kooperativlərinin üzvləri rəqib deyil, əməkdaş qismində çıxış edirlər. Deməli, onlar arasındakı rəqabətin intensivliyi minimuma endirilir. Bu isə onlara imkan verir ki, gələcək məhsulu konkret sifariş əsasında istehsal edərək **məhsuldarlıq paradoksunu** aradan götürsünlər və iqtisadi riskləri minimuma endirsinlər. Məsələn, Niderlandda gül və göbələk satışının 75%-i belə tip kooperativlər tərəfindən həyata keçirilir. Danimarkada toxumla təchizatın 35%-i, İrlandiyada 55%-i, Fransada isə 73%-i kooperativlərin payına düşür. Avropa Birliyinə ümumilikdə, fermerlərin texnika ilə təchizatının 50%-i kooperativlərdə cəmləşir.[16] Rəgəmlərin təhlilindən aydındır ki. belə formada yaranan müəssisələrin üstünlüklərindən ən mühümü kənar miqyas effektinin yaranmasıdır. Kənar miqyas effekti iqtisadiyyatın bir sahəsində fəaliyyət göstərən müəssisələrin əməkdaşlığı nəticəsində hər bir müəssisə çərçivəsində məhsul vahidinə çəkilən orta xərclərin azalmasına səbəb olur. Başqa sözlə, "Kənar miqyas effekti bir vahidə düşən xərcin hər hansı bir şirkətdən deyil, sənayenin həcmindən asılı olduğu halda yaranır" [17]. Bu fikri uğurla xidmət kooperativlərinin fəaliyyətinə də tətbiq etmək olar. Kənar miqyas effektinin artması nəinki istehsal xərclərini. eyni zamanda transaksiya xərclərini əhəmiyyətli dərəcədə azaldır. Daha aydın desək, kənar miqyas effekti nəticəsində xidmət kooperativinə daxil olan fermerlər istehsalın həcmini dəyişmədən orta xərclərin enməsinə nail olurlar.

Xidmət kooperativinin digər üstünlüyü ondadır ki, orada gəlirlərin və demokratiyanın bölgüsü ilə bağlı problem yaranmır. Xidmət kooperativlərinin idarə olunmasında istehsalçıların ya özləri iştirak edir, ya da kənardan işçilər cəlb olunur. Onların idarə olunma xərcləri üzvlük haqqı və gəlirlərin müəyyən hissəsinin yönəldilməsi hesabına kooperativ üzvləri tərəfindən maliyyələşdirilir.

## Nəticə

Təhlilimiz əsasında deyə bilərik ki, müasir dövrdə kənd təsərrüfatında kooperasiya hərəkatını stimullaşdırmaq məqsədi ilə aparılan aqrar siyasətdə əsas diqqət kiçik və orta həcmli kənd təsərrüfatı istehsalı kooperativi yaratmaqla yanaşı xidmət kooperativlərinin yaradılması və inkişafına yönəlməlidir. Bu fikri təsdiqləyən əsas arqumentlərdən biri də dünya təcrübəsində fermerlər arasında kooperasiya əlaqələrinin geniş inkişafında xidmət kooperativlərinin tutduğu yerdir.

**Tədqiqatın elmi yeniliyi:** Aparılan tədqiqatın əsasında aşağıdakı elmi yeniliklər irəli sürülmüşdür

- Kənd təsərrüfatı məhsullarının istehsalında təklifin elastikliyi və ona olan tələbin qeyri elastikliyi bu sahədə yaratdığı problemlərdən biri məhsuldarlıq paradoksudur. Bu paradoks fermerlərin gəlirlərinin sabitliyinə mənfi təsir göstərir.
- Məhsuldarlıq paradoksunun yaranmasının səbəblərindən biri də bu sahədə təkmil rəqabətli bazarın hakim olmasıdır. Qiymətin bazar tərəfindən diqtə edilməsi və rəqabətin yüksək intensivliyi fermerlərin bazara təsir etmək imkanını məhdudlaşdırır.
- Bu hal Azərbaycanın kənd təsərrüfatına xas olan bir xüsusiyyətdir. Azərbaycanda torpaq üzərində mülkiyyət hüququnun təhlili göstərir ki, kiçik torpaq sahibləri mütləq üstünlük təşkil edir. Fermerlərin rəqabət qabiliyyətinin artırılması və satış bazarlarının genişləndirməsində kooperasiya əlaqələrinin gücləndirilməsi mühim rol oynaya bilər.
- Dünya praktikasında kooperativlərin iki əsas tipi mövcuddur. İstehsal və xidmət kooperativləri. Onların fəaliyyət mexanizminin təhlili göstərir ki, istehsal kooperativlərinə xas olan gəlirlərin və demokratiyanın bölgüsündə ədalət prinsipinin pozulması onların inkişafı qarşısında maneə yaradır. Bu səbəbdən Azərbaycanda istehsal kooperativlərinin sayı əhəmiyyətli dərəcədə azalmışdır. Hesab edirik ki, xidmət kooperativlərinin inkişafına diqqət yetirilməsi və stimullaşdırılması məhsuldarlıq paradoksunun aradan qaldırmağa, kənd təsərrüfatı istehsalçılarının nəinki daxili bazarda, həm də xarici bazarlarda rəqabətqabiliyyətinin artırılmasında önəmli rol oynaya bilər.

## ƏDƏBİYYAT


1. П. Э.Самуельсон. В.Д. Нордхаус. Экономика, Москва - Санкт Петербург-Киев.2015 г.С.149-171.
2. К.Р.Макконнелл, С.Л.Брю,Ш.М.Флинн.Экономикс. Москва.2015 г. С.90-103.
3. United States Department of Agriculture (USDA), Economic Research Service, Food Expenditure Series, 2018. https://www.ers.usda.gov/data-products/chart-gallery/gallery/chart-detail/?chartId=76967
4. Eurostat, European Commission, 2018. https://ec.europa.eu/eurostat/en/web/products-eurostat-news/-/DDN-20191209-1
5. CBS, Wageningen Economic Research, based on estimates. https://www.cbs.nl/en-gb/news/2019/03/agricultural-export-value-over-90-bn-euros-in-2018
6. USDA-Foreign Agricultural Service, Production, Supply and Distribution System, Reference years: Marketing Year 2016/16-2017/18. https://www.fas.usda.gov/data/percentage-us-agricultural-products-exported
7. Azərbaycan Dövlət İnformasiya Agentliyi https://azertag.az/xeber/Aqrar_sahede_olkenin_ixrac_potensialinin_guclendirilmesi_istiqametinde_feal_siyaset_aparilir-1286183
8. IBISWorld Industry, Ketchup Production Industry in the US - Market Research Report https://www.ibisworld.com/united-states/market-research-reports/ketchup-production-industry/

**№ 1/2020** **səh. 4 -12**

9. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. Bakı.2016. səh. 19
10. Azərbaycan Respublikasının Dövlət Statistika komitəsi. Azərbaycanın kənd təsərrüfatı. Bakı. 2017. səh. 22
11. The Eighteenth Decennial Census of the United States, Census of Population: 1960, Volume. I, Characteristics of the Population. Part 18. Kansas. p.19
12. USDA, Economic Research Service using data from USDA, National Agricultural Statistics Service, Census of Agriculture and Farms and Land in Farms: 2017 Summary. https://www.ers.usda.gov/data-products/chart-gallery/gallery/chart-detail/?chartId=58268
13. Salahov E.A, İbrahimova G.A "Kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasında kooperativlərin rolu". Azərbaycanda Aqrar Sığortanın Tətbiqi: Problemlər və imkanlar. Elmi – praktik konfrans. Gəncə,15 mart. 2019.
14. Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı. 2017
15. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanın kənd təsərrüfatı. 2019. səh. 64
16. Salahov E.A. Kənd təsərrüfatı məhsulları istehsalının dövlət dəstəyinin dünya təcrübəsi. Kənd təsərrüfatının iqtisadiyyatı elmi-Tədqiqat İnstitutunun elmi əsərləri "Elmi - nəzəri jurnal" №1 2017.
17. Paul R. Krugman, Maurice Obstfeld,Marc Melitz. International Economics: Theory and Policy, 10th Edition. Pearson 2015. p.163

**УДК 330**

## Теоретические аспекты экономических проблем сельского хозяйства

***Магеррам Джалал оглы Гусейнов***
***Эльчин Ариф оглы Салахов***

### *РЕЗЮМЕ*

В статье анализируются теоретические вопросы формирования сельскохозяйственной кооперации.Считается,что неэластичность спроса и эластичность предложения как системообразующие проблемы являются одной из причин возникновения «парадокса продуктивности» в сельскохозяйственном производстве. С другой стороны, структура рынка сельскохозяйственных товаров углубляет этот парадокс.
Мировая практика показывает, что кооперативные предприятия могут играть значительную роль в решении этой проблемы. На основе анализа опыта кооперативного движения в развитых странах выделяются два основных типов кооперативных предприятий в сельском хозяйстве: производственные и кооперативы оказывающие услуги. На передний план выдвигаются и подробно анализируется основной недостаток производственных кооперативов - проблема распределения доходов. Далее подробно объясняется причины широкого распространения кооперативов, оказывающих услуги.

**№ 1/2020** **səh. 4 -12**

На основе исследования авторы приходят к выводы, что кооперативное движение в сельскохозяйственном производстве могут играть существенную роль в снижении рисков и решении проблемы «парадокса продуктивности.

***Ключевые слова*:** неэластичность спроса,эластичность предложения,парадокс продуктивности,пронзводственные кооперативы и кооперативы,обслуживающие услнги,рапределение доходов,трансакционные издержки.

**Heoretical aspects of economic problems of agriculture**

Maharram Jalal oglu Huseynov
Elchin Arif oglu Salahov

**SUMMARY**

The article analyzes the theoretical issues of the formation of agricultural cooperation. It is believed that the inelasticity of demand and the elasticity of supply as system-forming problems are one of the causes of the "productivity paradox" in agricultural production. On the other hand, the structure of the agricultural commodity market deepens this paradox.

World practice shows that cooperative enterprises can play a significant role in solving this problem. Based on the analysis of the experience of cooperative movement in developed countries, two main types of cooperative enterprises in agriculture are distinguished: production and service cooperatives. The main drawback of production cooperatives, the problem of income distribution, is being brought to the fore and analyzed in detail. The following explains in detail the reasons for the wide distribution of cooperatives that provide services.

Based on the study, the authors come to the conclusion that the cooperative movement in agricultural production can play a significant role in reducing risks and solving the problem of “productivity paradox.

**Keywords:** demand inelasticity, supply elasticity, productivity paradox, pervasive cooperatives and cooperatives serving services, income distribution, transaction costs.

Redaksiyaya daxilolma 21.01.2020
Çapa qəbul olunma 05.04.2020

**№ 1/2020** **səh. 13 - 22**

**UOT 330**

# YÜNGÜL SƏNAYEDƏ İNNOVASİYALI MƏHSULLARA OLAN TƏLƏBİN HƏCMİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

**[1]Vüqar Ağamusa oğlu İsmayılov , [2]Nüşabə Aslan qızı Hacıyeva**
**[3]Ayşən Viladdin qızı Məmmədova, [4]Seymur Ceyhun oğlu Məmmədov**

**Azərbaycan Texnologiya Universiteti**
**Gəncə ş. Şah İsmayıl Xətai prospekti, 103**

**[1]v.ismayılov@uteca.edu.az, [2]n.hacıyeva@uteca.edu.az**
**[3]a.nesibova@uteca.edu.az, [4]s.memmedov@uteca.edu.az**

***Xülasə:*** ***Məqalədə innovasiya fəaliyyətinin əsas istiqamətlərindən biri olan yeniliklərin tapılması və reallaşdırılmasının nəticəsi olan innovasiyalı məhsullar və bazarda onlara olan tələbin formalaşması şərh edilmiş, ilkin tələbin həcminin bütövlükdə marketinqin xarici mühit amillərinin və müəssisənin marketinq güclərinin, yəni marketinqin müəssisədaxili amillərinin təsiri altında formalaşması məsələsinə aydınlıq gətirilmişdir. Bundan əlavə hal-hazırda yüngül sənaye sahəsində istehsal olunan məhsullara olan tələbatın həcmi barədə statistik məlumatlar veŭ2Й2rilmişdir.Eyni zamanda qeyd edilir ki, ölkə əhalisinin xalq istehlakı mallarına olan tələbatının gündən günə artması, keyfiyyət amilinə üstünlük verilməsinin nəticəsi olaraq, yüngül sənaye sahəsinin yaxın və uzaq perspektivdə yenidən qurulması və innovativ inkişafı istiqamətində kompleks xarakterli təşkilatı - iqtisadi, texniki - texnoloji, ekoloji sosial, institusional tədbirlərin həyata keçirilməsi olduqca vacibdir.***

***Açar sözlər:*** ***innovasiya sahibkarlığı, ilkin tələb, müəssisənin məhsuluna tələb, bazarın cari potensialı, bazarın mütləq potensialı, marketinq gücləri.***

**Giriş:**Müasir dövrdə informasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafı, bununla bağlı qloballaşma proseslərinin güclənməsi ölkələrin sosial-iqtisadi inkişafına ciddi təsir göstərir. Beynəlxalq xarakterə malik qlobal amillər iqtisadiyyatın bütün sahələrinə nüfuz edir. Bu gün dünya iqtisadiyyatının inkişafının əsas istiqamətlərindən biri qloballaşma şəraitində innovasiya fəaliyyətinin mahiyyətcə yeni konteksdə formalaşmasından və inkişaf etməsindən ibarətdir. Bununla əlaqədar beynəlxalq səviyyədə sosial-iqtisadi proseslərin dəyişməsi və inkişaf tempi, innovasiya yeniliklərinin yaradılması, onların istehsal sahəsinə tətbiqi daha sürətlə baş verir. Bu əslində qloballaşmanın iqtisadi proseslərə müsbət təsirini xarakterizə edir, ölkələrin, onların aparıcı kompaniyalarının, firmalarının, müəssisə və təşkilatlarının innovasiya yeniliklərindən, mütərəqqi texnologiyalardan və yeni idarəetmə metodlarından faydalanmalarına geniş imkanlar yaradır.

**Tədqiqatın metodikası:** Yerli və xarici iqtisadçı alimlərin sənayenin alt bölməsi olan yüngül sənaye və yüngül sənayedə innovasiya fəaliyyətində apardıqları tədqiqat və araşdırmalar, Azərbaycan Respublikası Prezidentinin Fərman və sərancamları, Statistika Komitəsinin, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin elektron xidmətlər portalının materialları təşkil edir.

**Tədqiqatın praktiki əhəmiyyəti**: Əhalinin xalq istehlakı mallarına olan tələbatın ödənilməsinə istiqamətlənmiş yüngül sənaye sahələrinin alt bölmələrinin perspektiv inkişafı

№ 1/2020 səh. 13 - 22

qarşıda dayanan ən mühüm vəzifələrdən biridir. Regional innovasiya fəaliyyəti əsasən müxtəlif təşkilatı-hüquqi formalı, innovasiya yönümlü müasir sənaye müəssisələrinin yaradılmasını və inkişafını labüd edir. Tədqiqat işində irəli sürülən təklif və nəticələr yüngül sənayedə fəaliyyət göstərən müəssisələrdə yeni məhsulların mənimsənilməsinə və əhalinin tələbatının ödənilməsinə yönəldilmişdir.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

Bazar iqtisadiyyatı inkişaf etmiş ölkələrdə elmi-texniki tərəqqinin inkişafı innovasiya sahibkarlığı ilə bağlıdır. Ümumiyyətlə, sahibkarlığın iki formasını fərqləndirmək olar: onlardan biri yeniliklərin tapılması və reallaşdırılmasıdır ki, buna innovasiya sahibkarlığı deyilir. Digəri isə xalis bazar sahibkarlığıdır və buna marketinq deyilir.

İnnovasiya fəaliyyətinin istiqamətləri hər şeydən əvvəl aşağıdakıların yerinə yetirilməsindən ibarətdir:

1. Yeni məhsuların mənimsənilməsi, buraxılan məhsulun modernləşdirilməsi.
2. Yeni istehsal vasitələrini istehsal prosesinə cəlb edilməsi.
3. Yeni texnologiya və məhsulun istehsalı üsullarından istifadə edilməsi.
4. İstehsalın təşkili və idarə olunmasının daha mütərəqqi formaları.

İnnovasiyanın nəticələri aşağıdakılarla ifadə olunur:

1. Məhsulun çeşidi təzələnir, rəqabət qabiliyyəti yüksəlir, əhalinin tələbatının ödənilməsinə kömək edir.
2. İstehsalın səmərəliyi yüksəlir,məhdud resurslardan qənaətlə istifadə olunur,istehsal xərcləri azalmaqla mənfəət artır.
3. Yeniliklər sosial nəticələrlə səciyyələnir.[1]

**İnnovasiyalı məhsullara tələb**

İnnovasiyalı məhsullara tələbin iki səviyyəsinin: a) ilkin və ya ümumi bazar tələbi və b) müəssisənin məhsuluna tələbin mövcudluğu halları vardır. Məhsula ilkin tələb dedikdə müəyyən iqtisadi və rəqabət mühitində müəyyən müddət ərzində hər hansı bir coğrafi ərazidə müəyyən istehlakçı qrupu tərəfindən satınalmaların ümumi həcmi, müəssisənin məhsuluna tələb dedikdə isə müəssisənin və ya onun ticarət markasının ilkin tələbdə payı başa düşülür. Müəssisənin məhsuluna tələbin və ya tələbatın həcmi həmin müəssisənin marketinq təsirlərinə cavab funksiyasının törəməsidir. İlkin tələbin həcmi bütünlükdə marketinqin xarici mühit amillərinin və müəssisənin marketinq güclərinin, yəni marketinqin müəssisədaxili amillərinin təsiri altında formalaşır. İkin tələbin həcmi ilə sahənin məcmu marketinq gücləri arasında qeyri-xətti asılılıq mövcuddur. Çünki hətta marketinq gücləri tətbiq edilmədiyi hallarda da, yəni marketinq güclərinin tətbiqinin sıfır səviyyəsində də bazarda minimum həcmdə tələb mövcud olur. Müəssisə özünün marketinq stimulları ilə istehlakçılara təsir etməklə həmin tələbatın və onun vasitəsi ilə tələbin həcmini artıra bilər. Bu, ilk növbədə istehlakçının sosial varlıq olmasından irəli gələn qazanılmış tələbatlarına və tələblərinə aiddir. Belə ki, müəssisə yeni, daha mütərəqqi texnologiya tətbiq elərək yeni məhsul yaratmaqla və ya bazara istehlakçının statusuna uyğun gələn məhsul təklif etməklə həmin məhsula tələbat formalaşdıra bilər. Deməli, məcmu marketinq təsirlərinin səviyyəsi artdıqca, ləng templə olsa da, tələbin və satışın həcmi də artır.

Məhsul bazarının potensial tutumu mövcud və potensial alıcıların alıcılıq qabiliyyətli tələbatlarının, yəni onların innovasiyalı məhsula olan tələblərinin həcmi ilə müəyyən olunur.

№ 1/2020 səh. 13 - 22

İnnovasiyayalı məhsull olan tələbə bir çox amillər təsir göstərirlər ki, onlara əsasən aşağıdakıları aid etmək olar:

1.İnnovasiyaya olan tələb siyasi – iqtisadi şəraitlə əlaqəli istehlakın priotetləri ilə müəyyən olunur. Tələbin formalaşmasının üç – dövlət, idxalyönümlü və istehlak yönümlü istiqamətlərindən hal hazırda daha aktiv inkişaf edəni sonuncu hesab olunur.

2. İnnovasiyaya tələb regional və ya sahə amillərinin təsiri altında formalaşır. İqtisadiyyatın çox ukladlı olması və inkişafının regional xarakteri innovasiya bazarını lokallaşdırır, onun inkişafının hər hansı bir sahə çərçivəsində baş verməsini əsaslandırır.

3. İnnovasiyaya tələb bazarda köhnə və yeni məhsulun nisbəti amilindən də asılı olur. Artıq bazarda mövcud olan məhsula tələb azalmağa doğru meyl etdikdə istehlakçılarda yeni məhsula tələbat yaranır.

4. İnnovasiyaya tələb bazarda mövcud və yeni texnologiyaların standartlarının uyğunlaşma səviyyəsindən də çox asılıdır. Əgər müəssisə yeni texnika istehsal edirsə, onun bazarda tətbiqi və yayılması üçün konstruksiya xqsusiyyətləri mühüm əhəmiyyət kəsb edir. Yeni texnikanın konstruktiv xüsusiyyətləri sahə standartlarına uyğun gəlmədikdə ona satışdan sonrakı xidmətin təşkilində və komplektləşdirici hissələrdən istifadədə çətinliklər yaranır. Bu da öz növbəsində ona olan tələbin azalmasına gətirib çıxarır.

5. Elmi tədqiqatlara və işləmələrə, innovasiya məhsulunun yaranmasına çəkilən xərclərlə onun istehsala tətbiqi və yayılması, ona tələbin formalaşması arasında birbaşa asılılıq mövcuddur. Xərclərin həcmi nə qədər çox olursa, innovasiya məhsulu da bir o qədər tez yayılır.

6. İnnovasiya məhsulunu yaradan müəssisənin texniki səviyyəsinin yüksək, bazar mövqeyinin güclü olması da yeni məhsulun yaranmasını və bazara irəlilədilməsini sürətləndirir, ona olan tələbin artmasını stimullaşdırır.

7. İnnovasiyaya olan tələbin formalaşmasına təsir göstərən amillərdən biri də yeni məhsula qiymətin müəyyənləşdirilməsidir. Qiymətə edilən güzəştlər məhsulun bazarda irəlilədilməsinə imkan yaradır. Həmçinin yeni müəssisələrin bazara daxil olmasını çətinləşdirir.

Bazarın cəledicilik səviyyəsi ilkin tələbin minimum səviyyəsi ilə onun maksimum səviyyəsi arasındakı fərqdən, yəni tələbin a) genişlənən tələbə və ya b) genişlənməyən tələbə aid olmasından asılı olaraq ciddi sürətdə dəyişə bilir. Genişlənən tələbin mövcud olduğu bazarlar genişlənən bazar adlandırılır. Bu tip bazarlarda fəaliyyət göstərən hər bir müəssisə özünün satışının həcmini və bazar payını artırmaq imkanına malik olduğundan onların cəlbedicilik səviyyəsi yüksəkdir. Genişlənməyən tələb dedikdə özünün doyma həddinə çatmış və həcmi tətbiq edilən marketinq güclərinin təsir altında dəyişməyən qeyri elastik tələb başa düşülür. Genişlənməyən tələbin mövcud olduğu bazarlar isə genişlənməyən bazar adlandırılır. Bu tip tələbin həcmi və bazarın tutumu stabildir, dəyişməzdir. Bu tip bazarlarda hər hansı bir müəssisənin satışının həcminin və deməli, bazar payının artması mütləq digər iştirakçıların satışının həcminin və bazar payının azalmasına gətirib çıxaracaqdır. Bu səbəbdən bu tip bazarlar onun iştirakçıları üçün cəlbedici deyildir və ya ən yaxşı halda, olduqca az dərəcədə cəlbedicidir. Bazarın cəlbediciliyinin təhlili prosesində bazarın potensialının təhlilinə xüsusi diqqət yetirilməlidir. Bazarın potensialı dedikdə müəyyən müddət və ya dövr ərzində tələbin yuxarı həddi başa düşülür. Bazarın potensialı müəyyən zaman kəsiyində iqtisadi amillərlə yanaşı, mədəni və sosial amillərin təsiri altında da inkişaf edir. Bazarın cari potensialını bazarın mütləq potensialından fərqləndirmək lazımdır. Bazarın cari potensialı dedikdə, məlum mühitdə və məlum zaman kəsiyində sonsuzluğa cəhd edən marketinq güclərinin ümumi həcmində ilkin

tələbin yaxınlaşdığı yuxarı hədd başa düşülür. Bazarın mütləq potensialı hər bir potensial istifadəçinin optimal tezlikdə və maksimum həcmdə məhsul istehlak etməsi müşahidə olunduğu hallarda satışın ümumi həcminə (natural və ya dəyər ifadəsində) uyğun gəlir. Beləliklə, bazarın mütləq potensialı onun həcminin, tutumunun maksimum həddini ifadə edir. Bazarın cari potensialı və tələbinin həcmi stabil deyildir və vaxtdan asılıdır.

Ölkəmizdə tarixən yüngül sənaye müəssisələri olub və bu sahə bizim üçün ənənəvi sahəyə çevrilib.Yüngül sənaye əhalini parça, geyim, ayaqqabı əşyalarla təmin edən sahələr qrupundan ibarət olan sahə və yarımsahələri özündə birləşdirir. O emal sənayesinə aid olmaqla toxuculuq, ayaqqabı, gön – dəri, xəz – dəri, tikiş və s. bu kimi sahələri özündə birləşdirir. Azərbaycanda yüngül sənayenin inkişafı əsasən yerli xammalın hesabına təmin edilmişdir. Respublikada pambıq, yun, ipək (barama), gön – dəri, quş tükü və s. bu kimi təbii xammal növləri üzrə istehsal sahələri hələ qədim dövrlərdən inkişaf etdirilmişdir. Yüngül sənaye mallarına olan daxili tələbatın 90%-i idxalın hesabına ödənilir. Azərbaycanda yüngül sənayenin mövcud iqtisadi durumunun, texniki – texnoloji səviyyəsinin, innovasiya aktivliyinin və ixrac imkanlarının mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi nəticəsində qeyri – neft sənaye sektorunda çoxlu ehtiyat imkanlarının olduğu aşkar edilmişdir. Ölkə əhalisinin xalq istehlakı mallarına olan tələbatının gündən günə artması, keyfiyyət amilinə üstünlük verilməsi, yüngül sənaye sahəsinin yaxın və uzaq perspektivdə yenidən qurulması və innovativ inkişafı istiqamətində kompleks xarakterli təşkilatı – iqtisadi, texniki – texnoloji, ekoloji sosial, institusional tədbirlərin həyata keçirilməsinin vacibliyini şərtləndirmişdir.[2]

**Yüngül sənayenin alt bölmələrində tələbin qiymətləndirilməsi**

2004-cü ildən etibarən Azərbaycan sənayesi yeni inkişaf mərhələsinə daxil olmuşdur. Bu ildən icrasına başlanılan regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının və eləcə də digər məqsədyönlü tədbirlərin nəticəsində sənaye istehsalı üçün xüsusi əhəmiyyət kəsb edən məsələlər həlli istiqamətində əhəmiyyətli işlər görülmüş, sənayenin infrastruktur təminatı xeyli yaxşılaşdırılmışdır. Uğurlu sosial-iqtisadi siyasət iqtisadiyyatın digər sektorlarının da inkişafına öz müsbət təsirini göstərmiş, o cümlədən qeyri-neft sənayesi sektorunda iqtisadi aktivlik artırmışdır. Əldə edilmiş nailiyyətlər Azərbaycan sənayesinin keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymasını şərtləndirmiş, son 10 ildə sənayenin 2,7 dəfə, qeyri-neft emalı sənayesinin isə 2,3 dəfə artmasına nail olunmuşdur. Sənayeləşmə çərçivəsində ardıcıl həyata keçirilən tədbirlərin nəticəsidir ki, yüngül sənayenin müxtəlif sahələrində artım templəri müşahidə olunmuş, 2003-ci illə müqayisədə 2013-cü ildə geyim istehsalı 2,2 dəfə, dəri, dəri məmulatları və ayaqqabı istehsalı 62%, rezin və plastmas məmulatlar istehsalı 69%, tikinti məmulatlarının istehsalı 2,5 dəfə artmışdır.

2019-cu ilin yanvar-may ayları ərzində Azərbaycanda 85,7 min cüt ayaqqabı istehsal edilib. Dövlət Statistika Komitəsinin hesabatlarına əsasən, bu ilin beş ayında istehsal edilən ayaqqabıların sayı ötən ilin müvafiq dövründən **43,3%** çox olub. May ayında ölkədə ayaqqabının qiyməti aprel ayı ilə eyni səviyyədə qalıb. Hesabat dövründə isə ayaqqabının qiyməti illik müqayisədə **1%** artıb.

2019-cu ilin statistik məlumatlarına əsasən Azərbaycanda əhalinin tələbatını ödəmək istiqamətində toxuculuq sənayesi üzrə 67 müəssisə, geyim istehsalı üzrə 57 müəssisə, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı üzrə 27 müəssisəfəaliyyət göstərir. Həmin göstəricilərin digər illərlə müqayisəsi aşağıdakı cədvəldə öz əksini tapmışdır.

*Cədvəl 1.*

| | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|---|---|
| Toxuculuqsənayesi | 77 | 72 | 72 | 66 | 68 | 66 | 67 | 74 |
| Geyimistehsalı | 80 | 75 | 75 | 57 | 52 | 60 | 57 | 77 |
| Dərivədəriməmulatlarının,ayaqqabı larınistehsalı | 20 | 21 | 23 | 22 | 23 | 21 | 27 | 29 |

Azərbaycanda yenilik səviyyəsinə və iqtisadi fəaliyyət növlərinə görə innovasiya məhsulunun həcmi, (min manat) aşağıdakı cədvəldə öz əksini tapmışdır.

*Cədvəl 2.*

| | **Əhəmiyyətli dəyişikliklərə məruz qalmış və ya yeni tətbiq olmuş məhsul** | | | | |
|---|---|---|---|---|---|
| | **2014** | **2015** | **2016** | **2017** | **2018** |
| **Sənaye - cəmi** | 123185 | 929.7 | 357469 | 1466.7 | 28952,2 |
| **ondan:** | | | | | |
| toxuculuqsənayesi | 3098.8 | … | 128451 | - | |
| Geyimistehsalı | | | 5212.8 | | |
| dərivədəriməmulatlarının, ayaqqabılarınistehsalı | | | 48.0 | | |

**Tekstil sənayesi yüngül sənayenin ən əsas sahələrindən biridir. 2**015-ci ildən bəri Azərbaycanda tekstil sahəsinin inkişafına yönəlik addımlar atılmaqdadır. Belə ki,ümumi sahəsi 7 min kvadratmetr olan “Gilan” tekstil parça toxuma fabriki əhalinin tələbatlarını ödəməyə istiqamətlənmişdir. Belə ki, bu müəssisə üç əsas istehsal və köməkçi sexlərdən ibarətdir. Boyama prosesində Almaniyadan idxal olunan boyalardan istifadə edilir. Burada, həmçinin parçaların yuyulması, ağardılması və qurudulması da həyata keçirilir. Tikiş fabrikində yorğan istehsalı üçün ayrıca xətt yaradılmışdır. Bu xətt ayda 18 min yorğan istehsal etmək gücünə malikdir. Ümumi sahəsi 6 min kvadratmetr olan tikiş fabriki ən son texnoloji avadanlıqla təchiz edilmişdir. Fabrikdə əhalinin tələbatını ödəmək məqsədilə hər ay şərti olaraq 50 min kişi, qadın və uşaq üst geyimləri, NATO standartlarına uyğun hərbi və xüsusi geyimlər istehsal olunur.[3]

Tekstil sənayesinin digər xammal bazası olan ipəkçiliyin inkişafı üzrə də Azərbaycanda ciddi tədbirlər görülür. 2017-ci ildə Prezident tərəfindən “Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün dövlət proqramı” qəbul edilib.

Toxuculuq sektorunda ciddi olçüdə geriləmə qeydə alınmışdır. Bu sahə Sovetlər İttifaqı dövründə Azərbaycan sənayesinin 10-15%-ni təşkil edirdi. Toxuculuq və digər istehlak malları istehsal edən sektorlar, idxal olunan mallar ilə rəqabət aparmaqda çətinlik çəkirlər. Ölkədə təcili olaraq pambıq məhsullarının toxuculuq sənayesində istifadəyə hazır şəkildə inkişaf etdirilməsi vacibdir. Çünki, istehsal olunan pambığın böyük bir hissəsi xammal şəklində xarici ölkələrə satılır, daha sonra isə toxuculuq fabrikləri istifadə etdikləri parçaları xaricdən idxal edirlər. Məhz

buna görədə bu sahə əhalinin tələbatını təmin etməkdə çətinlik çəkir. Bununla əlaqədar olaraq da qeyri-neft sektorlarının inkişaf etdirilməsinə dair proqramlarda toxuculuq sənayesinin inkişaf etdirilməsi hökumətin əsas hədəflərindən biridir.[4]

2019-cu ilin yanvar-noyabr ayları ərzində Azərbaycanda toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı sahələrində 378 mln. manat dəyərində məhsul istehsal edilib ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə toxuculuq sənayesində 36,2%, geyim istehsalında 11,5% artım, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalında isə 1,3%azalma müşahidə olunub. Dövlət Statistika Komitəsinin hesabatına əsasən, hesabat dövründə Azərbaycanda 72 814,2 ton pambıq lifi istehsal olunub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 41% çoxdur.

2019-cu ilin yanvar-noyabr ayları ərzində 18 568 min kv. metr hazır pambıq parçalar və 31 096,1 ton pambıq iplik buraxılıb ki, bu da 2018-ci ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 14,2% və 42,3% çoxdur.

Son illərdə Azərbaycanda qeyri-neft sektorunun inkişafı sahəsində həyata keçirilən davamlı islahatlarla əlaqədar ən qədim tətbiqi sənət növlərindən biri olan xalçaçılığa diqqət artmışdır. Azərbaycanın zəngin xalçaçılıq ənənələrinə baxmayaraq, son dövrlərdə əllə toxunan xalça istehsalı azalmaqdadır. Belə ki, 2017-ci ildə Azərbaycan Respublikasında sənaye müəssisələri əllə toxunan 564,5 kv.m xalça istehsal etmişlər ki, bu da 2012-ci illə müqayisədə (1,9 min kv.m) təxminən 3,4 dəfə azdır. Bununla yanaşı, 2017-ci ildə Azərbaycan Respublikasına 3306,1 min kv.m xalça və digər toxunma döşəmə örtükləri idxal edilmişdir və bu rəqəm isə 2012-ci ildə cəmi 1912,6 min kv.m olmuşdur.

2019-cu ilin 11 ayı ərzində 2 616,2 kv. metr xalça və xalça məmulatları istehsal olunmuşdur ki, buda keçən ilin müvafiq dövrü ilə müqayisədə 65% çoxdur.

"Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsinin əsas məqsədi Azərbaycan Respublikasında xalça istehsalı müəssisələrinin sayının artırılması istiqamətində işlərin davam etdirildiyini, dövlətin müvafiq dəstəyini və xalçaçılıq sahəsinə marağın getdikcə artdığını nəzərə alaraq, növbəti illərdə xalça istehsalının və ixracının artacağını proqnozlaşdırmaqdır.

Azərbaycanda tikiş sənayesi zəif inkişaf etmişdir. Belə ki, bu sənaye sahəsi yerli tələbatı ödəmir. Bu sahədə fəaliyyət göstərən bir çöx müəssisələr mövcuddur. Belə müəssisələrdən biri Horadiz tikiş fabrikidir.Əsası 2004-cu ildə qoyulmuş Horadiz tikiş fabriki məktəbli formalarının və hərbçi geyimlərinin istehsalına yönəlmişdir. Məhsullar daxili bazara yönəldilmişdir. Ancaq bu sahəyə olan tələbi ödəməkdə kifayət etmir.

2019-cu ildə geyim istehsalı artım qeydə alınıb. Belə ki, 2019-cu ilin on bir ayı ərzində 4159,5 min ədəd geyim istehsal olunub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 27,8% çoxdur.

Azərbaycanda dəri məmulatları sektoru zəif inkişaf etmiş sahələrdəndir. Hazırda bu sektorun ümumi sənayedə payı təxminən 0,05%, qeyri-neft sənayesində isə 0,1% təşkil edir. Halbuki ötən əsrin 90-cı illərinin əvvəlində bu göstərici 1%-dən çox olub.

Gön-dəri və ayaqqabı istehsalı üçün geniş xammal bazası olsa da, bu sahə də geridə qalır.Bu sahə əhalinin tələbatını ödəyə bilmir.2016-cı ildə qəbul edilmiş Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində gön-dəri istehsalına önəm verilir.Sənəddə bu məhsulların istehsalının və ixracının

daha da artırılması və əhalinin tələbatını ödəmək üçün dəstək mexanizmlərinin müəyyənləşdirilməsi nəzərdə tutulur. [7]

Azərbaycan istehlak malları istehsalı üçün kifayət qədər xammal ehtiyatlarına, işçi qüvvəsinə və bazara malikdir. Lakin bu imkanlardan hələ ki zəif istifadə edilir. Sahə müasir texnoloji avadanlıqlara malik deyil. Odur ki, bu sahənin tələbatının əsas hissəsi bahalı idxal mallarına əsaslanır.Bu gün ölkədə qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye müəssisələrinin təşkili və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması istiqamətində tədbirlər davam edir. Bakı, Sumqayıt və Mingəçevir şəhərlərində sənaye zonalarının təşkilinin mahiyyətində dayanan mühüm amillərdən biri də sənaye parklarının yaradılmasıdır. Son illərdə ölkəmizdə həyata keçirilən tədbirlərin əsas məqsədlərindən biri də odur ki, Azərbaycanın qeyri-neft potensialı artsın və ixracyönümlü məhsullar istehsal edək. Bu istiqamətdə həyata keçirilən tədbirlərdən biri kimi Mingəçevir Sənaye Parkının təməlinin qoyulmasıdır. Mingəçevir Sənaye Parkının nəzdində 9 müəssisə inşa ediləcək. Pambıq ipliyi istehsalı müəssisəsində ilkin mərhələdə ildə 10 min ton, növbəti mərhələdə isə 20 min ton iplik istehsalı nəzərdə tutulub. Azərbaycanda böyük tələbat olan akril ipliyi istehsalı müəssisəsində ilkin mərhələdə il ərzində 3 min ton məhsul hazırlanacaq. Bu, idxaldan asılılığı qismən aradan qaldıracaq. Yun ipliyi istehsalı müəssisəsində ildə 3 min ton məhsul istehsal ediləcək. Həmçinin corab istehsalı müəssisəsinin tikintisi ilə ilkin mərhələdə Azərbaycanın corab məhsullarına tələbatının 50 faiz ödənilməsi, illik 35 milyon, növbəti mərhələdə isə 70 milyon cüt corabın istehsalı nəzərdə tutulub. Ayaqqabı istehsalı müəssisəsində illik 1,5 milyon cüt dəri ayaqqabı istehsal ediləcək. Müəssisədə pambıq mahlıcının və ipliyin tullantılarının təkrar emalı nəzərdə tutulub. Toxuculuq müəssisəsində pambıq parçalar istehsal ediləcək. Azərbaycanda növbəti 5 il ərzində xam pambığın istehsalının 700 min tona çatdırılacağını nəzərə alsaq, o zaman Sənaye Parkının nəzdində fəaliyyət göstərəcək pambıq ipliyi istehsalı müəssisəsinin əhəmiyyəti aydın görünür. İllik istehsal gücü 15 milyon metr təşkil edəcək müəssisə müasir avadanlıqla təchiz olunacaq. Bununla yanaşı, hazırlanacaq xam parçanın boyanması üçün parkın nəzdində illik gücü 15 milyon metr olan boyama müəssisəsi inşa ediləcək. Ölkədə hazır geyim məhsullarına olan tələbatı ödəmək və idxaldan asılılığı azaltmaq məqsədilə Azərbaycanın və bütövlükdə Qafqazın ən nəhəng tikiş müəssisəsi də Mingəçevir Sənaye Parkında inşa ediləcək.[5]

Yüngül sənayenin perspektiv inkişafı ilə əlaqədar tərtib edilən "Azərbaycan Respublikasında qeyri - neft sənayesinin inkişaf proqramı'nda aşağıdakı tədbirlərin həyata keçirilməsinin zəruriliyi əsaslandırılmışdır. Aşağıdakı tədbirlər yüngül sənayenin inkişafına imkan verə bilər:

- respublikada mövcud yerli sənaye müəssisələrinin yenidən qurulması və fəaliyyətinin dəstəklənməsi;
- müasir texnologiyalar əsasında xammal bazası nəzərə alınmaqla yeni müəssisələrin yaradılması və yerli xammal bazasının möhkəmləndirilməsi;
- kiçik və orta biznesi təmsil edən emal və istehsal müəssisələrinin yaradılmasında xarici ölkələrin təcrübəsinin öyrənilməsi və tətbiqi;
- dövlətin müəssisələrə modernləşmə istiqamətində zəruri dəstəyin göstərilməsi;
- bu sahədə fəaliyyət göstərən müəssisələrə güzəştli kreditlərin verilməsi, onların mənfəət vergisinin azaldılması;

- sərmayələrin cəlbinə və investisiya layihələrinin dəstəklənməsinə əlverişli mühitin yaradılması;

- Azərbaycanda qədim ənənələrə malik yüngül və toxuculuq sənayesində, əsasən də geyim və digər geniş istehlak mallarının istehsalı sahəsində fəaliyyətin genişləndirilməsi və məhsulun keyfiyyətinin yüksəldilməsi istiqamətində müasir texnologiyaya əsaslanan investisiya layihələrinin işlənib hazırlanması və həyata keçirilməsi;

- yüksək keyfiyyətli və ekoloji cəhətdən təhlükəsiz məhsul istehsalına imkan verən yeni texnologiyaların və nou-hauların tətbiq edilməsi, rəqabətqabiliyyətinə malik olan əl ilə toxunan xalçaların istehsalının genişləndirilməsi, bu sahədəki müəssisələrin fəaliyyətinin dəstəklənməsi və s.[2]

Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən AR İnnovasiyalı inkişaf strategiyası proqramının layihəsi işlənib hazırlanıb. Proqramın strateji məqsədi – iqtisadiyyatın dayanaqlı sosial-iqtisadi inkişafını, əhalinin həyat keyfiyyətinin yüksəldilməsi və ekoloji müdafiəni təmin edən xarici bazarlarda yüksək rəqabət qabiliyyətinə malik, elm tutumlu, resurslara qənaət edən sosial yönümlü, innovasiyalı iqtisadiyyatınyaradılmasıdır. Proqramın əsas vəzifələri: - milli innovasiya sisteminin yaradılması; - innovasiya fəaliyyəti üçün əlverişli iqtisadi, hüquqi və sosial-mədəni mühitin yaradılması; - sənaye və sosial sferanın maddi-texniki durumunun yeni, yüksək texnologiyaların əsaslanan modernləşdirilməsi; - iqtisadiyyatlı sahələrinə keyfiyyət baxımından yeni texniki uklada keçməlidir; - yüksək texnologiyalı ixrac-idxal sahələrin inkişafı; - iqtisadi və energetik təhlükəsizliyin təmin olunması; - əhalinin intellektual və yaradıcı aktivliyinin artırılması. Adı çəkilən vəzifələrin həyata keçirilməsi üçün icraçıları, müddətləri reallaşma mexanizmləri, hüquqi və maliyyə təminatı tədbirlər kompleksi hazırlanıb. Proqramın idarə edilməsi strukturu 6 səviyyədən AR Prezidentindən və Nazirlər Kabinetindən konkret mü əssisəyə qədər səviyyələrdən ibarətdir. Proqramın hüquqi təminatı üçün bir sıra yeni normativ-hüquqi bazanın yaradılması və mövcud normativhüquqi bazaya əlavələrin və dəyişikliklərin olunması nəzərdə tutulub.[6]

**Nəticə**

Aparılmış tədqiqatlar və statistik məlumatlar göstərir ki, əhalinin xalq istehlakı mallarına olan tələbatın ödənilməsinəistiqamətlənmişyüngül sənaye sahələrinin alt bölmələrinin perspektiv inkişafı qarşıda dayanan ən mühüm vəzifələrdən biridir. Məlum olduğu kimi, innovasiyalar yüngül sənayenin rəqabət qabiliyyətinin artırılmasında xüsusi rol oynayır. Məhz buna görə də regionların sənaye potensialının artırılması istiqamətləri diqqət mərkəzində saxlanılmalıdır.Regional innovasiya fəaliyyəti əsasən müxtəlif təşkilatı-hüquqi formalı, innovasiya yönümlü müasir sənaye müəssisələrinin yaradılmasını və inkişafını, innovasiya fəaliyyəti üzrə regional infrastrukturun və mühitin formalaşdırılmasını, regionlarda sənaye texnki parkların yaradılmasını və s. istiqamətlərini əhatə edəcəkdir.Nəticə baxımından bütün bunlar yüngül sənayedə fəaliyyət göstərən müəssisələrdə yeni məhsulların mənimsənilməsinə və əhalinin tələbatının ödənilməsinə yönəldilməlidir.

**Tədqiqatın elmi yeniliyi: Aparılan tədqiqat işinin elmi yenilikləri** aşağıdakılardan ibarətdir:

– regionların sənaye potensialının artırılması istiqamətlərində addımlar atılmalı, innovasiya yönümlü müasir sənaye müəssisələrinin sayının artırılması;

– regionlarda sənaye parklarının yaradılması;

–innovasiyalı məhsul istehsalının artırılması və innovasiya yönümlü ixracata keçidin təmin olunması;

–ölkədə mövcud olan resurslara qənaət edən sosial yönümlü, innovasiyalı iqtisadiyyatın dayanıqlı inkişafının təmin olunması ;

**ƏDƏBİYYAT**

**1.**İslam İbrahimov, Kərim Kərimov. Sənayedə investisiya və innovasiya fəaliyyəti,(Dərs vəsaiti), Bakı 2017.
**2.**İbad Abbasov, Təbriz Əliyev. Qeyri-neft sənayesinin iqtisadiyyatı, (Dərslik), Bakı 2018.
**3.**Doç. Dr. Osman Nuri Aras, Elçin Süleymanov. Azərbaycan iqtisadiyyatı, Bakı 2010.
**4.**G.A.Əzizova. Dövlətin investisiya və innovasiya siyasəti, (Dərs vəsaiti), Bakı 2012.
**5.**https://senaye.gov.az/
**6.**https://stat.gov.az/
**7.**https://economy.gov.az/

## АНАЛИЗ И ОЦЕНКА ОБЪЕМА СПРОСА НА ИННОВАЦИОННЫЕ ПРОДУКТЫ В ЛЕГКОЙ ПРОМЫШЛЕННОСТИ

**Исмайлов Вугар Агамуса, Гаджиева Нушаба Аслан**
**Мамедова Айшан Виладдин , Мамедов Сеймур Джейхун**

**РЕЗЮМЕ**

Ключевые слова:инновационное предпринимательство, первоначальный спрос, спрос на продукцию предприятия, текущий рыночный потенциал, абсолютный рыночный потенциал, маркетинговые силы.

В статье анализируется спрос на инновационные продукты в результате поиска и внедрения инноваций,которая является одной из ключевых областей инноваций.Первоначальный объем спроса в значительной степени зависит от внешних факторов и сил корпоративного маркетинга.В статье приводятся статистические данные об объеме спроса на продукцию легкой промышленности.В результате растущего спроса населения на потребительские товары качественный фактор представляет собой сложную организацию - экономическую, техническую, технологическую, экологическую, социальную и институциональную - нацеленную на ближайшее и отдаленное будущее реконструкции и инновационного развития легкой промышленности. Реализация этих мер являетсянастоятельнойнеобходимостью.

**№ 1/2020** **səh. 13 - 22**

## ANALYSIS AND EVALUATION OF THE VOLUME OF DEMAND FOR INNOVATIVE PRODUCTS IN THE LIGHT INDUSTRY

**Ismayilov Vugar Agamusa, Hajiyeva Nushaba Aslan**
**MammadovaAyshan Viladdin, Mammadov Seymur Jeyhun**

**SUMMARY**

This article describes the demand for innovative products as a result of finding and implementing innovations, one of the key areas of innovation, and how the initial demand volume is largely influenced by external factors of marketing and enterprise marketing forces, that is, enterprise marketing factors. In addition, statistical data on the volume of demand for light industry products are currently recorded. The article notes that as a result of the increasing demand of the population for consumer goods, the quality factor is a complex organization - economic, technical, technological, environmental, social and institutional - aimed at the near and far future reconstruction and innovative development of the light industry. implementation of these measures is very important.

**Key words**: innovation entrepreneurship, initial demand, enterprise product demand, current market potential, absolute market potential, marketing forces.

Redaksiyaya daxilolma 10.02.2020
Çapa qəbul olunma 05.04.2020

**№ 1/2020** **səh. 23 - 31**

**UOT: 314/316**

# SAĞLAM CƏMİYYƏTİN FORMALAŞMASINDA İNSAN RESURSLARININ ROLU

***Paşayev Cahangir Mehman oğlu***

**Azərbaycan Dövlət İqtisad Universiteti**
**Bakı şəh., Həsən Əliyev küç., 135**

pasayev.cahangir@gmail.com

***Xülasə:*** **Məqalədə sağlam cəmiyyət anlayışının mahiyyəti və onun formalaşmasında insan resursunun rolu araşdırılmışdır. Müşahidə, müqayisə, analiz, induksiya, deduksiya kimi elmi təhlil metodları ilə bərabər, insan resursları sahəsində yerli və xarici iqtisadçıların nəzəriyyələri, bu sahəyə aid elmi məqalələr də qiymətləndirilərək cəmiyyətin sağlam və güclü şəkildə formalaşmasına təsir edən amillər əsaslandırılmışdır.**

***Açar sözlər : sağlam cəmiyyət, insan kapitalı, insan resurslarının idarə edilməsi, insan inkişafı indeksi, təhsil, səhiyyə.***

**Giriş:** İnsan təbiətin bir hissəsidir. İnsan ailənin, mühitin və cəmiyyətin qurucu və dayaq elementidir. Maddi və mənəvi varlığı, ekoloji və sosial əlaqələri, davamlı qarşılıqlı əlaqəsi və ünsiyyəti ilə bir insan vahididir. Hər şeyin mənbəyi insanın mənəvi varlığı və zəkasıdır.

İnsanlar cəmiyyət halında yaşayırlar. Bu təbii və məcburi bir həyat tərzidir. Cəmiyyətlər varlıqlarını qorumaq üçün siyasi, sosial, iqtisadi, mədəni və texnoloji həyatlarını təşkil etməlidirlər. Təşkilat cəmiyyətdə müxtəlif təşkilatlar yaradır. İnsan təbii olaraq bu təşkilatlarda iştirak edir və ya qoşulur. Bir mənada insanların cəmiyyət olaraq yaşaması təbii olaraq ya da bu təşkilatlara məcburidir. Mütəşəkkil cəmiyyətin təşkilatları müəyyən qaydalara riayət etməklə davam edə bilərlər. Bu qaydalar zamanın tələblərinə uyğun olaraq dəyişə bilər. Bu təşkilatlarda insanların iştirakı və ya iştirakı da onların qurulma qaydalarına riayət etmələrini tələb edir.

Texnoloji inkişafın inanılmaz səviyyələrə gəlib çatdığı bu dövrdə, hər bir ölkə cəmiyyətin sosial-iqtisadi inkişafını davam etdirmək üçün mövcud resurslardan, xüsusilə də insan resurslarından ən səmərəli və effektiv şəkildə istifadə etməyə çalışır. Bu gün sosial, iqtisadi, mədəni və texnoloji sahələrdə baş verən yeniliklər cəmiyyətin həyatına birbaşa təsir edir. Bu səbəbdən, günümüzdə yaşanan inkişaflara uyğunlaşmaq üçün ölkələr sahib olduqları insan kapitalına daha çox önəm verirlər.

Bəzi elm adamları cəmiyyətlərin inkişafını coğrafi səbəblərlə əlaqələndirirlər. Bəzi cəmiyyətlərin inkişaf etməsi, bəzilərinin isə geridə qalması səbəbini irq, yaşadıqları ərazi və iqlim kimi xüsusiyyətlərə görə olduğunu söyləyirlər. Bu fərziyyə tamamilə düzgün olsaydı, İkinci Dünya Müharibəsi sonrasında ayrılan Qərbi Almaniya və Şərqi Almaniya da eyni tərəqqi göstərməli idi. Ancaq bir-birləri ilə eyni xüsusiyyətlərə sahib olmalarına baxmayaraq, bu iki cəmiyyət ayrıldıqdan sonra fərqli rifah səviyyələrinə çatdılar: Qərbi Almaniya dünyanın ən qabaqcıl sivilizasiyalarından birinə çevrildi, lakin Şərqi Almaniya təhsil və sağlamlıq xaricində vətəndaşlarına əhəmiyyətli iqtisadi rifah təmin edə bilmədi.

Beləliklə, elmi araşdırmanın əsas mövzusu cəmiyyətin formalaşmasına hansı amillərin təsir etməsi, xüsusilə də insan resurslarınıncəmiyyətin inkişafındakı rolunun təhlil edilməsindən ibarətdir.

**Mövzunun aktuallığı:**Cəmiyyətin iqtisadi və sosial inkişafının dəstəklənməsində insan resursunun rolu uzun müddətdir davam edən bir mövzudur. Son illər bütün dünyada sosial kapitala olan diqqət artmaqdadır, buna səbəb isə insanların sosial və fərdidavranışlarının iqtisadi fəaliyyətdə və cəmiyyətin rifahında mühüm rol oynadığı fikrinin əsas götürülməsidir. Bunla bağlı irəli sürülmüş fikirlər və araşdırmalar nəzərə alınaraq “Sağlam cəmiyyətin formalaşmasında insan resurslarının rolu” məqalə mövzusu olaraq seçilmişdir.

**Tədqiqatın məqsədi:** sağlam cəmiyyət anlayışının mahiyyətini və onun formalaşmasında insan resursunun rolunu dəyərləndirməkdən ibarətdir.

**Tədqiqat obyekti:** müasir dövrdə iqtisadi inkişaf və rifah üçün sağlam cəmiyyət formalaşmasının inkişaf meylləri, insan resurslarının inkişafının bu prosesdə rolu, o cümlədən elmi, texniki inkişaf proseslərinin təkmilləşdirilməsi, təhsil və səhiyyə müəssisələrinin fəaliyyəti, dövlətin bu yolda fəaliyyəti seçilmişdir.

**Tədqiqat metodları:** müşahidə, müqayisə, analiz, induksiya, deduksiya kimi elmi metodlarla bərabər, insan resursları sahəsində yerli və xarici iqtisadçıların nəzəriyyələri, bu sahəyə aid elmi məqalələr, konfrans materialları təşkil edir.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

### 1. Sağlam cəmiyyət anlayışı, mahiyyəti və səciyyəvi xüsusiyyətləri

Cəmiyyət, suveren mədəni təsirlər və gözləntilərlə uzlaşaraq idarəetmə orqanlarına bağlı olan, əsasən eyni coğrafi bölgəni bölüşən, biri-birinə bağlılığı və davamlılığı olan bir bütündür. Sağlam və güclü bir cəmiyyət özünü inkişaf etdirən, aid olduğu dövrlə uyğunlaşan və sağlam həyat şəraiti yarada bilən insanlardan formalaşır. Digər tərəfdən idraka malik olan şəxslər sağlam bir cəmiyyətin formalaşması üçün lazımi şərait yaradırlar.

"Sağlam cəmiyyət" dedikdə sağlamlığın sosial müəyyənedicilərini qarşıladığımız bir cəmiyyət nəzərdə tutulmur. Sağlam bir cəmiyyət xəstəlik səbəblərinin minimuma endirildiyi bir cəmiyyətdən daha artıqdır. Ən azından insan yaradıcılığının çiçəklənməkdə azad olduğu, fərdlərin kim olmaq istədikləri barədə azadlığı (başqalarının azadlıqlarını pozmadan) və yaşamaq həvəsi olduğu bir yerdir. Çox sayda qüsurla mübarizə edən millətlər özlərini sağlam cəmiyyətlərə çevirə bilərmi? İstənilən dövlətin ən vacib vəzifəsi cəmiyyətinin təhlükəsizliyini qorumaq və gücləndirməkdir [4]. Sağlam cəmiyyət öz üzvlərinə fərdi və ictimai olaraq müxtəlif yollarla fayda verir. Çox vaxt bu faydalar toqquşur. Bu münaqişələr içərisində sağlam bir cəmiyyət, münaqişələrin sülh yolu ilə və məntiqli şəkildə həll edilməsi üçün yollar təqdim edən tolerant bir cəmiyyətdir. Sağlam cəmiyyətlər insanlığın ən vacib uğurlarından biridir.

İqtisadiyyat, istənilən cəmiyyətin ayrılmaz hissəsidir və sağlam bir cəmiyyətin iqtisadiyyatı demokratik, inkişaf etmiş prinsiplərlə idarə olunur. Bir cəmiyyət, bütün üzvlərinin yaşam keyfiyyəti səviyyəsi ilə dəyərləndirilməlidir. Sağlam cəmiyyət güclülərin inkişafı üçün fürsət yaradarkən zəifləri qoruyur, bütün bölgələrin mədəniyyətinə və insan hüquqlarına hörmətlə yanaşır. Sağlam bir cəmiyyətin mədəniyyəti, rəqabətcil güclər üzərində tarazlıq və nəzarət baxımından həmrəyliyi və əməkdaşlığı təşviq edir. Həmrəylik dedikdə könüllülük

əsasında hərkəsin ətrafdakı insanların nailiyyətləri ilə maraqlanmağı, bir-birinə qarşılıqlı kömək və yardım göstərməsi, bir güc, etimad, bərabər hüquqlu tərəfdaşlıq nəzərdə tutulur [1, s.58].

Sağlam bir cəmiyyətin inkişaf və rifah səviyyəsini yüksəltmək üçün yaradıcı şəkildə idarə olunan qurumlara ehtiyacı olduğu qədər, möhkəm qanunlara və bunların ədalətli həyata keçirilməsinə də ehtiyacı var. Buna görə bir cəmiyyətin hər bir elementinin fəaliyyətini bütün üzvlərinin rifahına verdiyi töhfələrə görə qiymətləndirmək olar. Əgər hər hansı bir element (siyasi, hərbi, iqtisadi, dini, etnik) cəmiyyətin yalnız kiçik bir hissəsinin maraqlarına açıq şəkildə xidmət edərsə və ya ümumi rifaha xələl gətirərsə, onun töhfəsinin bütün cəmiyyət üçün müsbət hala gətirilməsi üçün dəyişiklik etmək üçün tədbirlər görülməli olacaq. Eyni şəkildə, fərdlərin mənfəətlərinin üzv olduqları cəmiyyətdən üstün olduğunu iddia edərək bəzilərinin mənafelərinə, habelə ümumi cəmiyyətin maraqlarına ciddi zərər verə biləcək davranışlara yol aça bilər. Sağlam cəmiyyətdə ədalətli və qərəzsiz davranılan, müxtəlifliyə yüksək dözümlü olan sağlam sosial dəyərlər mövcud olmalıdır.

İnsan yarandığı gündən bəri hər zaman həyatda qalma mübarizəsi vermiş və bunun üçün daim yeni yollar axtarışında olmuşdur. İnsan hələ ibtidai dövrdə tək başına həyatda qalmanın çətinliyini və mümkünsüzlüyünü dərk etmiş və həyatda qalmaq üçün sürülər şəklində hərəkət etməyə başlamışdır. İlk insanlardan bugünə kimi davam edən bu yaşam mübarizəsi hər gün yenilənərək özünün müasir dövrdəki halına gəlib çatmışdır. Belə ki, ibtidai dövrlərdə yalnızca özlərini təhlükəli heyvanlardan qorumaq üçün mübarizə aparan insanlar bugün hər təbiət hadisəsinin, psixoloji hadisənin və bunlarla yanaşı insan həyatına təhdid yarada biləcək hər bir hadisənin haqqında fikir yürüdə biləcək səviyyəyə gəlib çatmışdır. Bunun nəticəsidir ki, bugün dünyada yüzlərlə çağırışlar, xüsusi səhiyyə modelləri, sağlamlıq strategiyaları və s bu qəbildən olan xüsusi normalar işlənib hazırlanmışdır.

Amerikalı məşhur riyaziyyatçı alim, 1994-cü il iqtisadiyyat üzrə Nobel mükafatçısı John Forbes Nash özünün "Oyun teoremləri üzərinə məqalələr" kitabında (Nash, 1950) qeyd etdiyi kimi fərdlərin ayrılıqda öz mənfəətlərini maksimumlaşdırması sonda cəmiyyətin mənfəətlərinin maksimum olması ilə nəticələnməyəcəkdir. Bir bəsit nümunə üzərində bu nəzəriyyəni cəmiyyətin sağlamlığı və sağlam cəmiyyət yaratmanın təməlləri üzərinə tətbiq etsək, sağlam cəmiyyət qurmaq və hər bir fərdin ayrılıqda rifahını maksimumlaşdırmaq üçün bütün cəmiyyət üzvlərinin cəmiyyətin faydası, həmçinin iqtisadi fayda naminə fəaliyyət göstərməli olduğunu deyə bilərik.

## 2. Sağlam cəmiyyətə təsir edən amillərlə bağlı dünya təcrübəsindəki fikirlər

Sağlam cəmiyyətin yaradılması insan oğlunun nail olduğu bütün uğurların təməl prioritetidir. İqtisadi tarixçi Niall Ferguson, inkişaf etmiş və geridə qalmış cəmiyyətlər arasındakı fərqlərin din, dil, irq, coğrafiya kimi amillərdən deyil, düşüncədən və bu düşüncələr tərəfindən tətbiq olunan bəzi çox vacib təcrübələrdən yarandığın söyləmişdir və "Civilization: the West and the Rest" kitabında qərb cəmiyyətlərinin tərəqqisini altı xüsusiyyət ilə izah etmişdir: ədalətli rəqabət, elm, mülkiyyət, səhiyyə, istehlak və iş. Onun fikrincə, bütün bu altı xüsusiyyətin bir yerdə olması cəmiyyətin daim inkişafda olmasını təmin edir, lakin birinin belə olmaması, cəmiyyətin sivilizasiyadan uzaqlaşması üçün kifayətdir. [2, s.125-130]

Amerikanın Şərqi Karolina Universitetinin professoru Lloyd F. Novick sağlam cəmiyyətin yaradılması və ictimai rifahın təmin olunmasını təşkil etmək üçün lazım olan amilləri bir üçbucaq şəklində təsvir etmişdir. Belə ki, o, sağlam cəmiyyətin qurulması üçün ətraf

mühit, sosial və bioloji amillərin və onların daxilindəki kiçik amillərin vəhdətini diaqram şəklində işləyib hazırlamışdır [3].

***Diaqram 1: Sağlamlığı müəyyən edən amillər***




**Mənbə:[https://www.researchgate.net/figure/6-Determinants-of-Health-Source-Copyright-C-2000-LF-Novick_fig4_265118520](https://www.researchgate.net/figure/6-Determinants-of-Health-Source-Copyright-C-2000-LF-Novick_fig4_265118520)**(05.07.2015)

Diaqramdan göründüyü kimi, ümumi sağlamlığın təmin olunması üçün yalnızca bioloji sağlam mühitin yaradılması deyil, təhsil, mədəni, iqtisadi, müharibə və s. kimi birbaşa əlaqəsi göz önündə olmasa da, dolayı yolla sağlamlıq səviyyəsinə təsir göstərən amillərin maksimal rifah səviyyəsini təşkil edəcək səviyyədə olması üçün cəmiyyətin bütün üzvləri maksimum dərəcədə səy göstərməlidirlər. Çünki bugün dünyada elmin inkişafı nəticəsində demək olar ki, insan həyatı üçün təhlükə yaradan əksər xəstəliklərin müalicə üsulu tapılmışdır, həmçinin insanların savadlılıq dərəcəsinin yüksəlməsi onların daha şüurlu şəkildə öz sağlamlıqları ilə yanaşı, cəmiyyətin sağlamlığının da qeydinə qalması ilə nəticələnir və nəticələnəcəkdir.

Digər tərəfdən, sağlam cəmiyyətin qurulması, o cəmiyyətin iqtisadi cəhətdən sağlam olması üçün də əsas şərtdir. Belə ki, bütün dünya tərəfindən qəbul olunan insan inkişafı indeksinə (Human Development İndex (HDİ)) nəzər yetirsək, bu indeksin daxili kateqoriyalarını təşkil edən əsas amillərin daxili milli gəlirlə yanaşı, savadlılıq və uzun ömürlülük olduğunu da deyə bilərik. Və bu indeksdə yüksək sıralarda yer alan ölkələrin iqtisadi cəhətdən sağlam, stabil və inkişaf etmiş ölkələr olduğunu rahatlıqla demək olar. Eyni zamanda biz və bizim kimi inkişaf etməkdə olan ölkələrdə, inkişafa mane olan əsas amillərin - səhiyyə və təhsil səviyyəsinin digər ölkələrə nisbətən daha zəif səviyyədə olduğunu demək mümkündür. Lakin ölkəmizdə mütəmadi olaraq təhsil və səhiyyə sisteminin inkişafı üçün səlahiyyətli dövlət qurumları və həmçinin özəl müəssisələr tərəfindən müəyyən bir inkişafa nail olmağı nəzərdə tutan planlar işlənib hazırlanır.

### 3. Təhsil və səhiyyə sistemi ilə sağlam cəmiyyətin qarşılıqlı əlaqəsi

Təhsil sistemi dedikdə şəxslərin həyatlarını davam etdirib cəmiyyətdə mövcud olmaları üçün əldə edilən bilik, bacarıq və anlayışa istinad edilir. Təhsil, geniş mənada, insanların cəmiyyət standartlarını, inanclarını və həyatı asanlaşdırmaq yollarını qazanmasında təsirli olan bütün sosial proseslərdir. Başqa sözlə, təhsil cəmiyyətin bilik, bacarıq və təcrübələrinin yeni nəsillərə ötürülməsidir. Bu məqsədlə, təhsil sistemi məktəblərdə və digər oxşar müəssisə və təşkilatlarda həyata keçirilən təhsil və təlim fəaliyyətləri kimi müəyyən edilə bilər.Bütün cəmiyyətlərdə təhsilin məqsədi yeni nəsillərə bir mədəni bir toplama çatdırmaq, gənclərin böyüklərin həyat tərzi ilə davranışlarını formalaşdırmaq və gələcək sosial rollarına yönəltməkdir. Məlum olduğu kimi, cəmiyyətdə baş verən mühüm hadisələr ani ehtiyaclara və bu ehtiyacların yerinə yetirilməsində bəzi problemlərə səbəb olur və bu problemlər təhsil daxil olmaqla bütün sistemlərə təsir göstərir və onları dəyişməyə məcbur edir. Cəmiyyətinin bir hissəsi olan təhsil eyni zamanda bütün sosial sistemlə əlaqəlidir. Beləliklə, təhsil fərdin və cəmiyyətin inkişafında əsas rol oynayır və hal-hazırda əsas ehtiyaclar arasında getdikcə daha çox əhəmiyyət kəsb edir. Bu ehtiyac ödənilmədikdə, insanın fərdi inkişafı pozulur, ətrafdakı inkişaflara uyğunlaşmaq çətindir və ölkəyə mənfi təsir göstərir.

Sağlam bir cəmiyyət üçün cəmiyyətin ən kiçik bünövrəsi olan fərdlər sağlam olmalıdır və fərdlər sağlam olduqda cəmiyyət də sağlam olacaqdır. Səhiyyə sistemi dedikdə müəyyən təşkilatlar, institutlar, resurslar və insanlardan ibarət olub eyni maraq dairəsində - cəmiyyətin sağlamlıq dərəcəsini artırmaq məqsədi ilə - birgə fəaliyyət göstərən bir sistem başa düşülür. Bu sistemi davamlı vəziyyətdə saxlamaq üçün insan resursları, maliyyə dəstəyi, məlumat, təchizat, nəqliyyat, əlaqə və idarəetmə lazımdır.Səhiyyə, xidmət sahəsinin ən önəmli hissələrindən biridir və daim inkişaf etməyə məcburdur. Çünki dünya əhalisinin hər gün sürətlə artmasına baxmayaraq, orta adambaşına düşən səhiyyə müəssisələrinin sayı, əhali artımı trendinə görə daha zəif artım gösərir. Buna elə Azərbaycan nümunəsində nəzər yetirsək, görərik ki, Azərbaycan əhalisi 2014-cü ildən bugünə kimi təxminən yarım milyona yaxın artım göstərmişdir (9477.1-9898.1 (min nəfər)), lakin ölkə daxilindəki səhiyyə müəssisələrinin sayı cəmi 13 ədəd (553-566) arta bilmişdir. Bu da, nəticə etibarı ilə, adambaşına düşən səhiyyə işçilərinin sayının 60.9 nəfərdən - 54.0 nəfərə (hər 10.000 nəfərə) düşməsinə səbəb olmuşdur. Bunun təsirlərini sıradan bir misal üzərində göstərsək, deyə bilərik ki: fərz edək ki, insan bir kompüterdir və ailədə sadəcə bir uşağa məxsusdur və o kompüterin bütün istifadəsi və amortizasiya istehlak səviyyəsi bir uşağın üzərinə qurulmuşdur, dolayısı ilə, kompüterin faydalılığı yüksəkdir, lakin əgər komputer ailədə bir uşağa yox, iki uşağa xidmət göstərirsə, onun faydalılığı aşağı düşəcəkdir və yüksək istifadədən dolayı, onun amortizasiya müddəti azalacaqdır. Eyni şəkildə, insan əməyi də istifadəçisi artdıqca dəyərini itirir və və tez tükənir. Bütün bu statistik göstəricilər səhiyyənin inkişafının sosial rifah halının artırılmasındakı, sağlam cəmiyyət qurmanın təməl prinsipindəki və həmçinin insan resurlarının inkişaf etdirilməsindəki önəmini vurğulayır.

Ümumdünya Səhiyyə Təşkilatına görə sağlamlıq "fiziki, zehni və ictimai olaraq tam bir yaxşılıq halı" şəklində təyin olunmaqdadır. Cəmiyyətin sağlamlıq vəziyyəti bir çox amillərin kompleks qarşılıqlı əlaqəsi ilə müəyyən edilir. Sağlamlığın müəyyənləşdiricilərinə fərdi, sosial, iqtisadi və ekoloji amillər (təhsil, iş, gəlir, sosial statusu, yaşama şəraiti, cinsi şəxsiyyət, mədəniyyət və s.) daxildir. İnsanların dünyaya gəldiyi, böyüdüyü və yaşadığı mühit və şərait sağlamlığın sosial təyinedicisi olaraq təyin olunur. Tədqiqatlar göstərir ki, ictimai sağlamlığın

15% -i bioloji və genetik amillərdən, 10% -i ətraf mühitdən, 25% -i səhiyyə xidmətlərindən asılıdır, lakin qalan 50% -i tamamilə sosial və iqtisadi şəraitdən asılıdır. Bu, sosial və iqtisadi şəraitin sağlamlıq / xəstəlik vəziyyətinə və tibbi təcrübəyə birbaşa təsir etdiyini göstərir.

## 4. İnsan kapitalı və sağlam cəmiyyətin qarşılıqlı əlaqəsi

“Bir millətin sağlamlığı bir millətin sərvətidir". Sərvət dedikdə yalnız iqtisadi kapital deyil, sosial, təbii və insan kapitalı nəzərdə tutulur. Sağlam bir cəmiyyət yüksək səviyyədə sosial, ekoloji, insan və iqtisadi "kapital" lara malik olur; bunların qarşılıqlı vəhdəti "cəmiyyət kapitalı" kimi qəbul edilir. İnsan kapitalı - öz cəmiyyətində və idarəçilikdə rolu olan sağlam, yaxşı təhsil almış, bacarıqlı, innovativ və kreativ insanları ifadə edir. Bu termin ilk dəfə Teodor Şuls tərəfindən işlədilib, sonradan davamçısı Heri Bekker tərəfindən inkişaf etdirilib. İsbat edilib ki, insan fəaliyyətinə effektli iqtisadi baxış çox vacibdir.

**Sosial kapital** - cəmiyyətləri rəsmi (sosial inkişaf proqramı) və qeyri-rəsmi şəkildə olaraq sosial şəbəkə kimi birlikdə tutan "yapışqanı" tərtib edir. Bununla yanaşı, vətəndaşların öz sağlamlıqlarını qorumaları üçün əsas resurslara bərabər şəkildə çatma imkanlarının olması səbəbi ilə sosial inkişafa qoyulan kapitalı da özündə cəmləşdirir.

**Təbii kapital** - ətraf mühitin yüksək keyfiyyəti, sağlam ekosistemlər, davamlı qaynaqlar (resurslar), təbiətin qorunması və bioloji müxtəlifliyi əhatə edir.

**İqtisadi kapital** - bizə lazım olan rifah səviyyəsi nəzərdə tutulur.

**İnsan kapitalı** - cəmiyyətdəki bütün fərdlərin ümumi potensialının- zəka, təhsil, yaradıcılıq və yenilikçilik, sağlamlıq və rifah, empati qabiliyyəti və qayğı göstəricilərinin bir hissəsi kimi qəbul edilə bilər. İnsanlar inkişafın mərkəzi nöqtəsi olmaqla, hər bir cəmiyyət və hökumətin son məqsədidir, buna görə də insan kapitalının qurulması sağlamlığın inkişafına gətirib çıxarır. Eyni şəkildə biz insan resursunun formalaşması üçün, sağlam cəmiyyətin olmasının da əsas şərtlərdən biri olduğunu deyə bilərik. Bu sahədəki məşhur fikirləri ilə tanınan “Brandeis” universiteti psixologiya professoru olmuş Abraham Harold Maslow “Maslounun ehtiyaclar İyerarxiyası” əsərində insanın fiziki ehtiyaclarını ən əsas amil kimi, sağlam cəmiyyəti və təhükəsizliyin təmin olunmasını isə yaşamaq üçün başlıca şərtlər yarandıqdan sonra ikinci sırada qeyd etmişdir. [6]

**Diaqram 2: Maslounun Ehtiyaclar İyerarxiyası/Piramidası**




**Mənbə:**https://www.thoughtco.com/maslows-hierarchy-of-needs-4582571 (24.02.2020)

Piramidanın ikinci pilləsinin izahı bu şəkildə verilir: Təhlükəsizlik ehtiyacları dedikdə, təhlükəsizlik istəyi nəzərdə tutulur. Təhlükəsizlik ehtiyacı sağ qalmaq üçün vacibdir, lakin fizioloji ehtiyac qədər tələb edilmir. Təhlükəsizlik ehtiyaclarına nümunə olaraq davamlı məşğulluq, səhiyyə, təhlükəsiz qonşuluq və ətraf mühitdən sığınacaq istəyi daxildir. Bu ehtiyaclar fizioloji ehtiyaclardan daha "yüksəkdə" hesab edildiyindən iyerarxiyanın bu nöqtəsində bir qədər daha mürəkkəb olur. Və yaşamaq üçün lazım olan əsas ehtiyaclar yerinə yetirildikdə, insanlar həyatlarında daha çox nəzarət və nizama ehtiyacları olduğunu hiss edirlər. İnsanlar özlərini yaşadıqları yerlər, maliyyə təhlükəsizliyi, fiziki təhlükəsizlik və sağlam olma baxımından güvəndə hiss etmək istəyirlər.

## NƏTİCƏLƏR

İnsan inkişafı mürəkkəb bir sxemdir və bu inkişaf əsasən ümumi ictimai yüksəlişə əsaslandığı kimi, ictimai yüksəlişə səbəb də olur. Məqalədə əks olunan material və müzakirələrdən aydın olur ki, insan resurslarını inkişaf etdirmədən cəmiyyətin sağlam formalaşması mümkün deyildir. Buna nail ola bilmək üçün insanın üç əsas məqsədini reallaşdırmaq ictimai yüksəlişə çatmaq yolunda zəruri bir addımdır. Bu məqsədlərə uzun və sağlam ömür sürmək, biliklər əldə edib onları yeniləşdirmək və genişləndirmək, həmçinin yüksək həyat səviyyəsini təmin edən maddi nemətlər əldə etmək aiddir.

Beləliklə, məqalənin əsas nəticəsi bu şəkildə izah olunur: insan kapitalının inkişaf etdirilməsi insan cəmiyyətinin inkişafı ilə, insan cəmiyyətinin inkişaf etdirilməsi isə sağlam cəmiyyətin yaranması ilə nəticələnəcəkdir. Sağlam cəmiyyətdə sağlam iqtisadiyyat formalaşır və sağlam iqtisadiyyat yenidən inkişaf standartlarını artırır. Nəticə etibarı ilə, Eduard N. Lorenzin 1972-ci ildə Elmin inkişafı üçün Amerika Birliyinin (AAAS) illik iclasında qeyd etdiyi kimi “Kəpənək effekti” yaranır (“bir kəpənəyin qanad çırpması, dünyanın yarısını ağuşuna ala biləcək bir qasırğanın yaranmasına səbəb ola bilər"). Yəni insan kapitalının inkişaf etdirilməsi sonda bir ölkə iqtisadiyyatının inkişafı, çiçəklənməsi ilə nəticələnir.

**Tədqiqatın elmi yeniliyi:**

- sağlam cəmiyyət anlayışının mahiyyəti, səciyyəvi xüsusiyyətləri və əhəmiyyəti iləəlaqəli elmi-nəzəri fikirlər təhlil olunmuş və müvafiq ümumiləşdirmələr aparılmışdır;
- sağlam cəmiyyətin formalaşmasına təsir edən amillər və bunla bağlı dünya təcrübəsindəki fikirlər müəyyən edilmişdir;
- insan resursunun mahiyyəti və onun inkişafı istiqamətləri əsaslandırılmışdır;
- cəmiyyətin təşkilində təhsil və səhiyyə sisteminin qarşılıqlı əhəmiyyəti və perspektiv inkişaf imkanları göstərilmişdir;
- iqtisadi inkişaf və sosial rifahın əsasında duran sağlam cəmiyyətin formalaşmasında insan kapitalının inkişafı tətbiqi təhlil edilmişdir.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti:**Sağlam cəmiyyət anlayışının semantik mənası, şübhəsiz ki, tibbi sağlamlığa malik insan birliyi anlayışı ilə məhdudlaşmır. Çünki sağlam cəmiyyət heç bir xəstəliyin olmadığı bir cəmiyyət deyil, fiziki, əqli və sosial rifahın tam şəkildə simvollaşdığı bir cəmiyyətdir. Dövlətlər öz iqtisadi inkişaf səviyyələrini daim yüksəltmək üçün müxtəlif resurslara investisiya yönəltmişdirlər, lakin ən önəmli rola malik resurs insan resursudur.

**№ 1/2020** **səh. 23 - 31**

Metodik olaraq bu tədqiqat iki istiqamətli bir əlaqənin olduğunu iddia edən yanaşmaya əsaslanır: birinci istiqamətdə insan resursunun inkişafı milli gəlirin və cəmiyyətin inkişafının artmasına səbəb olduğuna görə iqtisadi artım və rifah səviyyəsinin artımı müşahidə olunur; ikinci istiqamətdə isə milli gəlir cəmiyyətin və iqtisadiyyatın inkişafına yönəldilmiş fəaliyyətlərə sərf olunduğuna görə insan resursunun və dolayısıyla cəmiyyətin inkişafına səbəb olur.

**Tədqiqat işinin iqtisadi səmərəsi:**Tədqiqat zamanı insan resursunun dövlət və cəmiyyət üçün əhəmiyyəti ətraflı şəkildə dünya təcrübəsində aparılan araşdırma və irəli sürülən fikirlərə uyğun olaraq izah olunmuşdur. Nəticə olaraq bu mövzuya maraq dairəsi genişləyə bilər ki, bununla da investisiya qoyulan sahələr içərisində insan resursunun inkişafı prioritet yer tuta bilər.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Əmirov M.İnsan və cəmiyyət.Bakı: Qrifli nəşri, 2010, 578 s.
2. Ferguson N. Civilization: The West and the Rest. London: Penguin Press, 2012,432 s.
3. Novick L.F., Cynthia B. M. Defining public health:historical and contemporary developments, Sudbury:Jones and Bartlett Publishers, 2015, s.33.
4. Richard H. The secrets of a healthy society // The Lancet Journal., 2016, v.387.
5. Uysal T., Genç E. Maslow's hierarchy of needs in 21st century: the examination of vocational differences // Gece Kitaplığı, 2017, v.1, pp.211-227.

**УДК: 314/316**

## РОЛЬ ЧЕЛОВЕЧЕСКИХ РЕСУРСОВ В ФОРМИРОВАНИИ ЗДОРОВОГО ОБЩЕСТВА

**Пашаев Джахангир Мехман оглу**

## РЕЗЮМЕ

В статье рассматривается сущность концепции здорового общества и роль человеческих ресурсов в его формировании. Наряду с методами научного анализа, такими как наблюдение, сравнение, анализ, индукция, дедукция, были оценены теории местных и зарубежных экономистов и научные статьи в области человеческих ресурсов и обоснованы факторы, влияющие на здоровое и сильное формирование общества.

***Ключевые слова:*** здоровое общество, человеческий капитал, управление персоналом, индекс человеческого развития, образование, здоровье**.**

**№ 1/2020** **səh. 23 - 31**

**UDC: 314/316**

**The role of human resources in the formation of a healthy society**

**Pashayev Jahangir Mehman oghlu**

**SUMMARY**

The article examines the essence of the concept of a healthy society and the role of human resources in its formation. Along with the methods of scientific analysis such as observation, comparison, analysis, induction, deduction, theories of local and foreign economists and scientific articles in the field of human resources were evaluated and the factors influencing the healthy and strong formation of society were substantiated.

***Keywords:*** healthy society, human capital, human resource management, human development index, education, health.

Redaksiyaya daxilolma .11.12.2019
Çapa qəbul olunma 05.04.2018

**№ 1/2020** **səh. 32 - 41**

# İSTEHLAKÇI DAVRANIŞININ FORMALAŞMASINA TƏSİR EDƏN AMİLLƏRİN ANALİTİK QİYMƏTLƏNDİRİLMƏSİ

**Quliyev Seymur Malik oğlu**

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti**
**Azadlıq prospekti 16/21, Bakı, Azərbaycan**
**seymurquliyev@yahoo.com**

***Xülasə.*** ***Bu məqalə marketinq təqiqatları obyekti olaraq istehlakçı davranışlarını, formalaşmasına təsir edən faktorları, istehlakçı davranışlarının xüsusiyyətlərini, istehlakçı davranışlarına təsir edən daxili və xarici faktorları analiz edir. Atınalma zamanı qərarverməyə təsir edən faktorlardan biri olan şəxsi xarakteristikanın istehlakçı davranışına necə təsir etdiyini müəyyən etmək olduqca vacibdir.***
***Bazarda istehlakçı davranışı və sahibkarlıqların özlərinə xas xüsusiyyətləri vardır. Bu səbəbdən bazarlardan satınalma bu xüsusi alış situasiyalarından asılıdır. Ətraf mühit faktorları, daxili və xarici amillərin istehlakçı məhsullarının və biznes təyinatlı mal və ya xidmətlərin satınalınmasına olduqca böyük təsiri vardır. Eyni zamanda müəssisə-müştəri münasibətlərinə və təşkilatı faktorlara da təsir edir.***

***Açar Sözlər: istehlakçı, istehlakçı davranışı, marketinq, satınalma, bazar, müştəri***

**Giriş.**İnsan fiziki, emosional və zehni ölçülərinə əsasən bir bütündür. Həm fiziki, həm emosional və həm də zehni ehtiyaclarını qarşılayacaq fərqli şeylər vardır. Marketinq insanın bu üç ölçünün hər birində hissetdiyi enerji əksikliyinə ehtiyac deyir. Qısaca, istək və ehtiyacları qarşılamaq istehlak adlanır. Bu ehtiyacın qarşılanması o insanın insani potensialını ya yeniləyir, ya da artırır. Ehtiyaclar hava və su kimi hər an istehlak etdiyimiz maddələr ilə yanaşı, ömrümüzdə bir dəfə istehlak etdiyimiz maddələr də ola bilər. Bu istehlak etdiklərimizi bəzən qarşılığını ödəmədən istehlak edirik. Bəzəndə resursların qıt və məhdud olduğu, amma ehtiyacların sonsuz olduğunu nəzərə alaraq qarşılığını ödəyərək alırıq.

İstehlak prosesi sadəcə həyatda sağ qalmaq məqsədi ilə yeyilən və içilən məhsullar ilə reallaşmır. Bir kinoteatra gedərək kinoya baxmaq, musiqi dinləmək də bir istək, ya da bir ehtiyacı qarşıladığı üçün istehlak sayılır. Başqa bir ifadə ilə desək, istehlak sadəcə konkret maddələr ilə reallaşmır, mücərrəd məhsullar kimi mücərrəd istehlakda vardır. Üstəlik mücərrəd məhsulların istehlakı digərlərinə nisbətən daha sürətlə artamqdadır. Məsələn, xidmət istehsalı və istehlakı günü gündən artmaqdadır.

Marketinq bu ehtiyacları meydana gətirən əsas dinamikaların nələr olduğunu, ehtiyacların qarşılanma prosesinin necə işlədiyini analiz edir. Istehsal olunan və istehlakçılara təklif edilən mal və xidmətin istehlakçılara necə fayda verəcəyini araşdırır. Beləliklə, marketinq istehsal fəaliyyətlərinin davamlılığını və ehtiyac sahiblərinin istehsal edilən məhsullardan faydalanmasını hədəfləyir.

İstehlakçı iqtisadi mal və ya xidmətin qarşılığını ödəyərək satınalan və özünün və ya ailəsinin ehtiyacını qarşılayan şəxsdir. Gündəlik həyatda müştəri mal və ya xidmət satınalan şəxsdir, istehlakçı isə mal və ya xidməti istifadə edərək fayda əldə edən şəxs kimi tanınır.

Istehlakçı davranışı satınalan ya da istifadə edərək faydalananların ortaq davranışlarını izah edir. İstehlakçının ehtiyacı hiss etməsindən başlayaraq bu ehtiyacı qarşılamaq üçün satınaldığı mal və xidməti istifadə etməsi, istifadə etdikdən sonra əldə etdiyi faydanı dəyərləndirməsinə qədər olan bütün proseslər istehlakçı davranışlarının müzakirə mövzusudur.

**Mövzunun aktuallığı.** İstehlakçıların öyrənilməsi tədqiqatın ən vacib məsələlərindən biridir. Çünki, istehlakçı müəssisənin məhsulunu aldıqda ona xeyir vermiş olur. Müştərilərin istəklərini, arzularını öyrənmək müəssisələrin əsas vəzifələrindən biridir. Onların davranışına təsir edən faktorları müəyyənləşdirməkisə olduqca həyati bir əhəmiyyət kəsb edir. Lakin bu kifayət deyil. Bazarda uğurlu rəqabət üçün öz növbəsində istehlakçıların istəklərində baş verən dəyişiklikləri öncədən görə bilmək çox önəmlidir. İstehlakçıların nələrə üstünlük verməsini rəqiblərdən daha tez müəyyən etməklə vaxtında mövcud məhsulda dəyişiklik etmək, reklam strategiyası və bölüşdürmə kanalının fəaliyyətini optimallaşdırmaq, bir sözlə marketinq kompleksinin bütün komponentlərində dəyişiklik etmək mümkündür. Bunun üçünisə kimin, necə, harada, nəyi və niyə satın aldığını müəyyənləşdirmək lazımdır, Satış və satışdansonrakı dövrdə müxtəlif kateqoriyalı istehlakçıların davranışları haqqında informasiyanın əldə edilməsi onun düzgün interpretasiyası üçün çox faydalıdır. Ümumilikdə, istənilən biznesin inkişafı rəqiblər üzərində üstünlük qazanma üsullarının axtarışına əsaslanır. Belə şəraitisə təbii ki, istehlakçıların öyrənilməsini tələb edir.

"İstehlakçı kraldır" prinsipini bugün bütün dünya qəbul edir. Bu baxımdan yanaşma özündə "kralın" istək və arzularının öyrənilməsini və buna müvafiq məhsul və ya xidmətlərin bazara təklif olunmasına birləşdirir. Müəssisənin gəlirlərinin artmasıda məhz "kral"ın məmnun edə bilmə bacarığından asılıdır. XXI əsr marketinqinin əsas vəzifəsi istehlakçı davranışının öyrənilməsi ilə yanaşı onun dəyişdirilməsidir. Artıq dünya nəhəngi olan müəssisələr tələbi özləri yaradırvə istehlakçı davranışını istədikləri məcraya yönəltməyə cəhd edirlər. Marketinq kommunukasiya vasitələri və psixoloqlar bubarədə firmaların köməyinə yetən "qızıl" vasitələrdəndir. Məcazi mənada qeyd edilərsə, istehlakçılar kassa qabağında pul ödəməklə hansısa firmanın gələcəyinə "səsvermiş" olurlar. Onuda xatırlatmaq yerinə düşərki, artıq dünya da belə bir hal müşahidə olunurki, politoloqlar istehlakçı davranışı ilə əlaqədar informasiyalardan məharətlə yararlanırlar. Bu özü marketinqin, eləcə də istehlakçı davranışının öyrənilməsinin nə qədər mühüm və aktual olduğunu göstərir.

**Tədqiqatın əsas məqsədi və vəzifələri.**Tədqiqatın əsas məqsədi istehlakçı davranışının mahiyyətini, əsas xüsusiyyətlərini açıqlamaq, mal alışı haqqında qərarların qəbulu prosesini araşdırmaq istehlakçı davranışlarının tədqiqi və modelləşdirilməsi məsələlərini şərh etməkdən ibarətdir. İşdə qarşıya qoyulan məqsədə nail olmaq üçün aşağıdakı bir sıra vəzifələr müəyyənləşdirilmiş və yerinə yetirilmişdir:

- Marketinq konsepsiyasında istehlakçı davranışının yerinin və rolunun müəyyənləşdirilməsi;
- İstehlakçı davranışının formalaşmasına təsir edən amillərin təhlili;
- İstehlakçı davranışında fərdi fərqlərin və xüsusiyyətlərin, psixoloji proseslərin araşdırılması;
- İstehlakçı davranışına xarici mühit determinantların təsirinin qiymətləndirilməsi;
- İstehlakçıların alış haqqında qərar qəbul etməsi prosesinin təhlili;
- İstehlakçı davranışının marketinq tədqiqi;

- İşgüzar bazarların və biznes alıcıların davranışlarının tədqiqi;
- İstehlakçının alış haqqında qərar qəbulu modeli və onun təkmilləşdirilməsi;

**Tədqiqat işinin elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- Marketinq konsepsiyasında istehlakçı davranışının yerinin və rolunun müəyyənəşdirilməsi zamanı ona sahələrarası elmin tədqiqat obyekti kimi baxılmışdır;
- İstehlakçı davranışına təsi redən amillər sistemli şəkildə təhlil edilmişdir;
- Müəssisələrin marketinq fəaliyyətində istehlakçı davranışının tədqiqinin həyata keçirilməsinin vacibliyi və zəruriliyi əsaslandırılmışdır;
- İstehlakçı davranışına xarici mühit determinantların təsirinin analitik qiymətləndirilməsi həyata keçirilmişdir.
- Son istehlakçı davranışından fərqli olaraq işgüzar bazarların və biznes alıcıların davranışlarındakı fərqli cəhətlər və xüsusiyyətlər açıqlanmış, təhlil edilmişdir.

**Tədqiqatın obyekti.**İstehsal olunan mal və ya xidməti satınalan müştərilər və onların qruplaşdırılmış formaları olan istehlakçı və alcılardır. .

**Tədqiqat metodları.** Nəzəri tədqiqatlar istehlakçı, onların davranışları və davranışlarına təsir edən faktorlara əsaslanır.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

### İstehlakçılar və İstehlakçı Davranışının Mahiyyəti

Bazar münasibətləri şəraitində müəssisənin istehsal-satış fəaliyyətinin effektliliyi bilavasitə onun bazara, istehlakçıların tələbatına, alış motivlərinə və davranışına uyğunlaşma səviyyəsindən asılıdır. Başqa sözlə desək, bazarda o müəssisələr yüksək istehsal-satış göstəricilərinə nail olurlar ki, onlar istehlakçıların tələbatını daha dolğun ödəyən, onlara daha çox fayda verən məhsullar istehsal edir və bunun sayəsində bazarda daha dayanıqlı mövqeyə malik olurlar [7].

Marketinqin geniş yayılmasına və demək olar ki, bütün fəaliyyət sahələrində tətbiq edilməsinə baxmayaraq onun mütəxəssislər tərəfindən yekdil qəbul edilən ümumi tərifi yoxdur. Belə ki, mütəxəssislər marketinqin mahiyyətini, məzmununu və yerinə yetirdiyi funksiyaları müxtəlif cür izah edirlər. Bu baxımdan mütəxəssisləri üç qrupa bölmək olar [11].

*Birinci qrup mütəxəssislər* marketinqi məhsul və xidmətlərin istehsalçılardan istehlakçılara çatdırılması kimi izah edirlər. Məsələn, Amerika Marketinq Assosiasiyası 1960- cı ildə marketinqi «məhsulların və xidmətlərin son və ya aralıq istehsalçıdan istehlakçıya doğru hərəkət etməsini həyata keçirən müxtəlif təsərrüfatçılıq fəaliyyəti» kimi müəyyən etmişdir. Bu yanaşmanın digər tərəfdarı L. Rocer isə marketinqə belə tərif vermişdir: «marketinq müəssisə tərəfindən müəyyən edilmiş mənfəət normasını təmin etmək və ya digər məqsədlərə nail olmaq məqsədilə məhsulları istehsalçıdan son istehlakçıya və ya aralıq istehlakçıya çatdırılması prosesidir» [11].

Marketinqin mahiyyətinin bu cür izah edilməsi onun tətbiq edildiyi fəaliyyət sahələrini tam əhatə etmir (məsələn, bu izah qeyri-kommersiya marketinqini ümumiyyətlə nəzərə almır), onun əhatə dairəsini mübadilə ilə məhdudlaşdırır və demək olar ki, onu ticarətlə eyniləşdirir və nəhayət, tələbatın ödənilməsində satış kanallarının, mübadilənin və kommersiya amillərinin rolunu məhsul yaradılmasına nisbətən ön plana çəkir [2].

*İkinci qrup mütəxəssislər* marketinqi istehlakçıların tələbatının ödənilməsinə yönəldilmiş sahibkarlıq fəaliyyəti kimi, müəssisənin fəaiyyətinin müxtəlif funksiyalarının məcmusu kimi izah edirlər. Məsələn, Amerika Marketinq Assosiasiyası 1985-ci ildə marketinqə belə tərif vermişdir: «marketinq ayrı-ayrı şəxslərin və təşkilatların məqsədini müəyyən edən, ideyaların, məhsulların və xidmətlərin niyyətinin, qiymətinin, hərəkətinin və realizasiyasının planlaşdırılması və həyata keçirilməsi prosesidir» [11].

Amerikalı marketinq mütəxəssisləri C. R. Evans və B. Berman marketinqi «məhsullara, xidmətlərə, insanlara, ərazilərə və ideyalara olan tələbatın aşkar edilməsi, idarə edilməsi və mübadilə vasitəsilə ödənilməsi prosesi» kimi izah edirlər [10].

Jan-Jak Lamben göstərir ki, «marketinq, azad və rəqabətli mübadilə vasitəsilə fərdlərin və təşkilatların tələbatlarının və istəklərinin ödənilməsinə yönəldilən, istehlakçı üçün dəyərlər formalaşdıran sosial prosesdir» [9].

Bu yanaşmanın digər nümayəndələri İ. L. Akuliç və E. V. Demçenko marketinqi «konkret ehtiyac və tələbatların ödənilməsi üçün daha effektli mübadiləyə nail olmaq məqsədilə həyata keçirilən bazar fəaliyyəti» kimi xarakterizə edirlər [1].

Marketinqin məzmununun bu izahı onun tətbiq edildiyi fəaliyyət növlərini, həyata keçirdiyi funksiyaları və tədbirləri xeyli genişləndirir və hal-hazırki mahiyyətinə daha çox uyğun gəlir. Belə ki, bu yanaşma marketinqi yalnız məhsul və xidmətlərlə məhdudlaşdırmır, onlarla yanaşı qeyri-kommersiya və digər təşkilatların və şəxslərin fəaliyyətini də nəzərə alır, həmçinin məhsulların və xidmətlərin tədavülü, fiziki yerdəyişməsi prosesilə yanaşı onlara tələbatın öyrənilməsi, onların yaradılması vəsatışı, onlara qiymət qoyulması prosesini də əhatə edir [8].

*Üçüncü qrup mütəxəssislər* marketinqi müəssisələrin istehsal-satış fəaliyyətinin idarə edilməsi funksiyası kimi izah edirlər. Məsələn F. Kotler 1999-cu ildə nəşr edilmiş «Osnovı marketinqa» əsərində göstərir ki, «marketinq ayrı-ayrı şəxslərin və şəxslər qrupunun məhsul və istehlak dəyərləri yaratmaqla və onların qarışılıqlı mübadiləsi vasitəsilə özlərinin ehtiyaclarının və tələbatlarının ödənilməsi üzrə sosial və idarəetmə prosesidir» [11].

İngiltərə Marketinq İnstitutu isə marketinqin mahiyyətini belə müəyyənləşdirir: «marketinq mənfəət əldə etmək və ya digər məqsədlərə nail olmaq üçün istehlakçının alıcılıq qabiliyyətinin qiymətləndirilməsi, onun (yəni, alıcılıq qabiliyyətinin) məhsul və xidmətlərə olan real tələbata çevrilməsi və bu məhsul və xidmətlərin alıcıya çatdırılması ilə əlaqədar olan fəaliyyətə rəhbərliyin təşkili və həyata keçirilməsi üzrə praktiki fəaliyyətdir, idarəetmə funksiyalar sistemidir». Bu tərifdə marketinqin praktiki əhəmiyyəti, müəssisənin istehsal-satış fəaliyyətinin təşkili və idarə edilməsində rolu ön plana çəkilir [4].

Bu yanaşmanın digər nümayəndəsi E. P. Qolubkov göstərir ki, «marketinq fərdlərin və insan qruplarının məhsul yaratmaq və onların mübadiləsini həyata keçirmək yolu ilə ehtiyacı olanları almağa imkan verən sosial idarəetmə prosesidir.

Yuxarıda deyilənləri ümumiləşdirərək belə nəticəyə gələ bilərik ki, marketinq müəssisənin (təşkilatın) və ayrı-ayrı şəxslərin mənfəət (fayda) əldə etmək və ya qarşısına qoyduğu digər məqsədə (məqsədlərə) nail olmaq naminə istehlakçının tələbatlarının, problemlərinin öyrənilməsinə və bu tələbatların ödənilməsinə yönəldilmiş fəaliyyətidir. O, bir iqtisadi proses kimi, istehlakçıların tələbatlarının, alış motivlərinin və davranışlarının öyrənilməsini, onlara uyğun gələn məhsulların hazırlanmasını, satışını və satışsonrası servis xidmətinin təşkilini və həyata keçirilməsini, həmçinin istehsal edilmiş məhsulların qiymətinin müəyyənləşdirilməsi üzrə əməliyyatları əhatə edir.

**İstehlakçılar Kimlərdir.** Şəxsi tələbatını ödəmək məqsədi ilə mal, iş və xidmətdən istifadə edən, onları alan, sifariş verən, yaxud almaq və ya sifariş vermək niyyətində olan şəxs. Şərh: Qeyd olunan anlayış «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanununun «Əsas anlayışlar» maddəsindən götürülmüşdür.Qara hərflərlə qeyd edilmiş şəxs sözünə diqqət yetirək. Məlumdur ki, şəxs fiziki və hüquqi ola bilər. Ona görə də Azərbaycan qanunvericiliyinə rəğmən, bir çox ölkələrin müvafiq qanunlarından fərqli olaraq, hüquqi şəxs də istehlakçı hesab edilir.Bir sıra ölkələrin müvafiq qanunlarında şəxs sözü insan sözü ilə əvəz edilir və mütləq alınan malın (xidmətin) gəlir əldə edilməsi məqsədilə alınmadığı göstərilir. Lakin bu məqamda da mübahisəli yerlər vardır. İnsan şəxsi avtomobil alırsa və onu şəxsi tələbatını ödəmək üçün istifadə edirsə, onda bu insan istehlakçı hesab edilir, əgər o, bu avtomobillə hansısa bir zaman məsafəsində pul qazanırsa (gəlir əldə edirsə) onda bu insan avtomobilin istehlakçısı ro-lunda çıxış etmir. Belə bir nəticə hasil olunur ki, istehlakçı anlayışına «gəlir əldə etməmək» söz-birləşməsini əlavə etsək, eyni bir insan, eyni bir malın istehlakçısı olaraq iki rolda çıxış edir [3].
Hesab edirik ki, Azərbaycan Respublikasında qəbul edilən və şəxs ifadəsi işlədilmiş anlayış daha dolğundur.
Geniş mənada istehlakçı varlığını, həyatını və fəaliyyətlərini davam etdirə bilmək üçün mal və xidməti əldə edən və onu istifadə edən şəxslərə deyilir. İqtisadi mənada isə, istehlakçı şəxsi tələbatını ödəmək məqsədi ilə mal, iş və xidmətlərdən **istifadə** edən, onları alan, sifariş verən, yaxud almaq və ya sifariş vermək niyyəti olan şəxsdir. Cəmiyyətdəki bütün şəxslər istehlakçıdır [9]. Bu baxımdan istehlakçı hüquqlarının qorunması, insanların hüquqlarının qorunması deməkdir. Çünkü insanların şəxsi tələbatları onların iqtisadi və sosial-mədəni təlabatları deməkdir. Yəni dünyaya gəlişilə hər bir insan istehlakçıya çevrilir. İstehlakçı olmaq üçün heç də həmişə ticarət, iaşə və ya məişət xidmət obyektinə getməyiniz gərəkmir. Evdəykən, televizora baxarkən, radio dinləyərkən də siz bir istehlakçısınız [2].

**İstehlakçı Davranışına Fərdi Determinantların Təsiri**

İqtisadçılar istehlakçıların seçdikləri ilə onlara nəyin uyğun gəldiyi arasındakı fərqi görmədiklərinə və heç vaxt tələbaların formalaşması prosesini nəzərə almadıqlarına əmindir. Firavanlıq həyat üçün cəhd edən istehlakçı nəyə cəhd edir və bu firavanlığa necə nail olur? İqtisadi nəzəriyyə bu iki suala cavab verməmişdir və bu gün də cavab vermir. İstehlakçının davranışının və onların motivasiyasının dərinləşdirilmiş təhlili tələblə təklif arasındakı qarşılıqlı əlaqənin xüsusiyyətlərini (iqtisadçılar və marketinq mütəxəssisləri bu əlaqəni aşkar etməyə çalışırlar) başa düşməyə imkan verəcəkdir. Bu sahədə mühüm nailiyyətlər digər elm sahəsində - praktiki psixologiyada əldə edilmişdir. Burada fərdlərin davranışının müxtəlif növlərini müəyyən edən motivasiya amillərinin geniş spektri mövcuddur [5].
**«Qıcıqlandırıcı-reaksiya» nəzəriyyəsi.** Motivasiya nəzəriyyəsinin əsas problemi orqanizmi aktivlik vəziyyətinə gətirən səbəbləri öyrənməkdir. Bu halda motivasiya enerjinin səfərbər edilməsinə imkan verir. İlk vaxtlar praktik psixoloqları hər şeydən əvvəl aclıq, susuzluq və s. kimi yalnız psixoloji təbiətə malik olan ehtiyaclar və istəklər maraqlandırırdı. «Qıcıqlandırıcı-reaksiya» nəzəriyyəsi adlandırılan bu sistemdə orqanizmin reaksiyasının aktiv başlanğıc nöqtəsi qıcıqlandırıcı və ya stimul hesab edilir. Sonra hemeostazisın növbəsi çatır [6]. Onun vaitəsilə orqanizmdə baş verən pozulma ehtiyac yaradır, bu isə, öz növbəsində, vəziyyətin tarazlığını bərpa edən və ehtiyacı aradan qaldıran fəaliyyətə gətirib çıxarır. Lakin bəzi hallarda insan

orqanizminin xarici mühit qıcıqlandırıcılarına reaksiya vermədiyi müşahidə olunur. Bununla yanaşı, fərdlərin tarazlıq vəziyyətinin pozulmasına və gərginliyin yaranmasına səbəb olan fəaliyyətlə məşğul olması halları geniş yayılmışdır.

**Ehtizaz konsepsiyası.** Hal-hazırda motivasiya nəzəriyyəçiləri davranışı başqa cür izah etməyə daha çox meyillidirlər. Bu, müəyyən dərəcədə, neyrofizioloqların beyinin funksiyasının öyrənilməsində mühüm irəliləyişlərə nail olmaları ilə əlaqədardır və indi onlar buna tamamilə fərqli mövqeydən yanaşırlar. Məsələn, D. Hebb reaktivliyə yox, əsəb sisteminin təbii fəaliyyətinə əsaslanan fərziyyə formalaşdırır Tədqiqatçı əvvəllər mövcud olan nəzəriyyələri təkzib edərək göstərir ki, beynin aktivlik vəziyyətinə gəlməsi və impulslar göndərməsi üçün ona kənardn ehtizaz lazım deyildir [9]. Beynə fizioloci ədalət xas deyildir, onun təbii aktivliyi özüözünü motivləşdirmə sistemi yaradır. Fəaliyyətin səviyyəsi üzvi enercinin səfərbər olunması səviyyəsindən, yəni ehtizazın və yeni təəssüratlara diqqət yetirmə qabiliyyətinin dəyişmə səviyyəsindən asılıdır. Ehtizazın səviyyəsi elektroensefaloqrama vasitəsilə nəzarət edilən elektrik titrəyişlərilə ölçülür. Bu titrəyişlər elektroensefaloqramada dalğa formasında göstərilir: neyronların elektrik boşalmaları nə qədər sürətli olarsa elektroensefaloqramada ehtizazın səviyyəsi və herslə ölçülən titrəyişin tezliyi bir o qədər yüksək olur [3].

**Firavanlıq və ehtizazın optimal səviyyəsi.** Aydın olur ki, ehtizazın səviyyəsi ümumi firavanlığın və ya diskomfortun hiss edilməsinə güclü dərəcədə təsir edir və deməli, insanların davranışlarının müəyyən edilməsində iştirak edir. Həddən artıq ehtizaz insanlarda gərginlik, narahatçılıq, əsəblilik, iztirab, qəzəblənmə və hətta vahimə yaradır. Eyni zamanda, həddən artıq zəif stimulyasiya və ya stimulyasiyanın olmaması isə cansıxıcılıq və ya müəyyən dərəcədə narahatçılıq, həmçinin daha çox ehtizaz arzusu yaradır. Əgər insanları uzun müddət ərzində fasiləsiz olaraq çox sadə və ya yeknəsəq işləri yerinə yetirməyə məcbur edərlərsə, bu onlarda qüssə doğura bilər. Psixoloqlar, komfortun və ya firavanlığın hiss edilməsi mənasında, ehtizazın və ya stimulyasiyanın optimal səviyyəsinin mövcudluğunu qəbul edirlər. Əgər insan optimuma nail ola bilmirsə, onda gücdən düşmə, optimumdan yüksək səviyyəyə nail olduqda isə yorğunluq və narahatçılıq hiss edir. Müşahidələr göstərir ki, insanlar ümumiyyətlə ehtizazın aralıq səviyyyəsinin saxlanılmasına nail olmağa çalışırlar [8].

**İstehlakçı Davranışına Xarici Mühit Determinantların Təsiri**

İstehlakçıların davranışına bir sıra xarici mühit amilləri təsir göstərirlər. Bu amillərin hər birinin özünəməxsus spesifik xüsusiyyətləri və təsir formaları mövcuddur. İstehlakçıların davranışına xarici mühit determinantların təsirini 4.1.saylı şəkildə nəzərdən keçirək:




**Şəkil 4.1.** İstehlakçı davranışının xarici mühit determinantları.

**Məhsul** - istehlakçıların davranışına xarici mühit determinantlarından biri kimi özünəməxsus təsir formasına malikdir. Məhsulun istehlak xüsusiyyətlərinin xarakterindən, keyfiyyətindən, istehlakçılara verdiyi faydadan, marka adının tanınma səviyyəsindən, brendləşməsindən asılı olaraq istehlakçıların davranışı formalaşır, Məhz bu səbəbdən də hər bir müəssisə istehsal etdiyi məhsulun keyfiyyətini yüksəltməyə, ona yeni istehlak xüsusiyyətləri verməyə, istehlakçılar üçün daha faydalı olmasına, məhsul markasını məşhurlaşdırmağa, onu brendə çevirməyə çalışırlar. İstehlakçı bazarda ona daha çox fayda verə biləcək əmtəəni axtarır. İstehlakçıda əmtəədən daha çox fayda əldə edə biləcəyi fikrinin yaranması əsasında onun bazar davranışları formalaşır. İstehlakçılarin məhsul alışını həyata keçirməsi və təkrar alış etmək ehtimalı məhz əmtəənin onların tələbinə uyğun gəlib – gəlməməsindən çox asılıdır. İstehlakçının alışdan məmnun qalması dərəcəsi onun tələblərinin ödənilməsi və əldə etdiyi faydanın səviyyəsi ilə müəyyən edilir. Təmin olunma – özünün ilkin tələbləri ilə əldə edilmiş əmtəənin real keyfiyyətlərini (və ya onun istifadəsi nəticələrinin) müqayisə edən insanda yaranan hissdir.

**Qiymət** – onun istehlakçı davranışına təsirinin qiymətləndirilməsinə fərqli yanaşma tətbiq olunmasını tələb edir. Müəssisələr məhsul şatışı prosesində fərqli qiymət strategiyaları tətbiq edirlər. Bu zaman diqqət yetirirlər ki, onların tətbiq etdikləri qiymət strategiyaları istehlakçı davranışına necə təsir göstərəcəkdir. Marketinqin qiymət strategiyası – hər bir konkret şəraitdə və vaxtda qarşıya qoyulan məqsədə nail olmağa imkan verən, qiymətəmələgəlmə sahəsində bütün mümkün fəaliyyət istiqamətlərindən ən başlıcasının seçilməsi, müəyyən edilməsidir. Qiymət strategiyası birdəfəlik fəaliyyət deyildir. Daima onların səmərəliliyini yoxlamaq və lazım gəldikdə onlara yenidən baxmaq lazımdır [6].

Qiymət siyasəti məhsulların hazırlanması, keyfiyyəti, onların bölüşdürülməsi və hərəkəti üzrə müəssisənin ümumi strategiyasının ayrılmaz tərkib hissəsidir. Bu ondan irəli gəlir ki, marketinq kompleksinin bütün elementləri bir-biri ilə sıx əlaqədardır. Qiymət strategiyaları firmanın konkret məqsədlərindən hansına nail olunmasına deyil, onun bir çox müxtəlif məqsədlərinə nail olunmasına xidmət edir. Belə məqsədlərdən biri də istehlakçı davranışına təsir etmək, istehlakçıların məhsul alışına maraqlarını artırmaqdan ibarətdir. Düzgün seçilmiş qiymət strategiyası müəssisənin bazarda müvəffəqiyyət qazanmasının əsas şərtlərindən biridir [8, 6].

**Reklam və satışın həvəsləndirilməsi.** Müəssisələr marketinqin kommunikasiya sistemi formasında həyata keçirdikləri stimullaşdırma tədbirləri sayəsində istehlakçı davranışına birbaşa təsir göstərirlər.

Marketinqin kommunikasiya sistemi əmtəənin irəlilədilməsi qzrə stəmullaşdırma tədbirləri kompleksini özündə birləşdirir. Bu sistem eyni zamanda kommunikativ prosesin həyata keçirilmısini, istehlakçılara zəruri informasiyanın çatdırılmasını, alıcılarla şəxsi əlaqələrin yaradılmasını, ictimaiyyətlə işgüzar münasibətlərin formalaşdırılmasını, və s. bu kimi digər stimullaşdırma tədbirlərinin həyata keçirilməsini nəzərdə tutur [8].

Marketinqin kommunikasiya sisteminin tətbiqi, ümumilikdə istehlakçıların məlumatlandırılması, onlara təsir edilməsi, onlarda məhsula tələbat formalaşdırılması, mal alışının və satışının həvəsləndirilməsi, müəssisənin imicinin yüksəldilmısi və s. bu kimi tədbirlərin həyata keçirilməsi tək bir stəmullaşdırma vasitəsindən istifadə edilmısini deyil, onlardan kompleks şəkildə istifadə edilməsini nəzərdə tutur. Bu gün firmalar əmtəə bazarlarında güclü rəqabət şəraitində fəaliyyət göstərirlər və onların əksəriyyətini məhsullarına daha çox istehlakçını cəlb etmək,onların davranışına təsir göstərmək, daha çox məhsul satmaq, yüksək mənfəət əldə etmək maraqlandırır.

Bu baxımdan firmalar arasında kommunikasiya sisteminin tətbiqi üzrə də rəqabət yaranır və hər bir firma daha təsirli kommunikasiya sistemini yaratmağa və tətbiq etməyə çalışır [8,11].

**Mövqeləşdirmə**. F. Kotler mövqeləşdirmənin istehlakçı davranışına təsirinin qiymətləndirilməsinə xüsusi diqqət yetirir, bu prosesi aşağıdakı kimi dəyərləndirir. Hər bir kompaniya öz bazar təkliflərini müəyyən şəkildə mövqeləşdirməlidir. Mövqeləşdirmə – kompaniyanın təklifinin və onun imicinin işlənib hazırlanması üzrə istehlakçıların məqsədli qrupunun şüurunda xüsusiləşmiş xeyirxah mövqe tutulmasına istiqamətlənmiş fəaliyyətdir. Əmtəənin mövqeləşdirilməsinin son nəticəsi – məhsulun dəyərliliyinin bazara oriyentasiyalaşmış təklifinin uğurla yaradılması, məqsədli auditoriyanın malgöndərən kompaniyanın əmtəəsini niyə əldə etməsi və ondan istifadə etməsini izah edən sadə və dəqiq şəkildə təsdiqidir [8].

**Diferensiasiyalaşdırma** – mövqeləşdirmədən sonrakı növbəti addım kimi qiymətləndirilir. Mövqeləşdirmə kompaniya və ya onun əmtəə təklifi haqqında əsas ideyanın məqsədli bazara çatdırılmasından ibarət olmaqla bizim obyekt haqqında düşünməyimizi asanlaşdırır. Diferensiasiyalaşdırma isə obyekti xarakterizə edən mürəkkəb fərqlər sisteminin yaradılmasında və istehlakçılara çatdırılmasında növbəti addımdır. Bu proses təklifin rəqib təkliflər arasında fərqlənməsinə imkan verən bir sıra əhəmiyyətli və qiymətli xüsusiyyətlərə sayəsində istehlakçı davranışına təsir göstərən amil kimi çıxış edir [8, 10].

## Nəticə və Təkliflər

Marketinqin məqsədi istehlakçıların tələbat və ehtiyaclarının təmin edilməsidir. «İstehlakçıların davranışı» marketinqin bir sahəsi kimi, ayrı-ayrı alıcıların, qrupların və təşkilatların öz ehtiyac və arzularını təmin etmək məqsədilə əmtəə, xidmət və ideyaların seçilməsi, əldə edilməsi və onlar üzrə qərar verilməsi prosesini öyrənir. İstehlakçıların davranışlarını başa düşmək və idarə etmək, «alıcını üzündən tanımaq» bacarığı çox çətin işdir. İstehlakçı çox vaxt öz arzu və tələbatları haqqında bir şey deyir, supermarketdə isə, sanki həmin tələbatlarla heç bir əlaqəsi olmayan tamamilə başqa bir əmtəəni alır. Alıcı belə alışın sövqedici motivlərini sadəcə olaraq dərk etmir və son anda öz qərarını dəyişə bilər. Bu modelə uyğun olaraq, marketinq stimulları və ətraf mühitin sövqedici amilləri alıcının şüuruna təsir göstərir, konkret alış üzrə qərar isə fərdin xüsusiyyətləri və onun qərar qəbul etmə prosesi əsasında müəyyən olunur. Marketinq üzrə mütəxəssisin vəzifəsi – xarici stimulların təsiri və alış haqqında qərar qəbulu anında istehlakçının şüurunda nə baş verdiyini başa düşməkdir.

Hər şeydən əvvəl, marketinq üzrə mütəxəssislər əmtəə və xidmətlərin əldə edilməsi prosesində ərin, arvadın və uşaqların rollarını və onların bir-birilərinə nisbi təsirlərini öyrənirlər. Müxtəlif ölkə və ictimai siniflərdə ailə üzvlərinin rolları əhəmiyyətli dərəcədə fərqlənə bilər. Məsələn, ABŞ-da yaşayan vyetnamlılar ənənəvi modelə əsaslanırlar və burada iri əmtəənin alışı zamanı əsas qərar kişi tərəfindən verilir. Əmtəənin alışı prosesində ər-arvadın iştirakı onun kateqoriyasından asılıdır. Buna görə də, malgöndərən kompaniyanın ər və arvaddan hansının əmtəəni seçən zaman daha çox təsir qüvvəsinə malik olduğunu müəyyən etməsi vacibdir.

İstehlakçıların davranışının öyrənilməsinin və onun modelləşdirilməsinin məqsədi istehlakçıların məhsul seçərkən və ya alarkən etdikləri hərəkətləri müəyyənləşdirmək, onları eyni və ya oxşar davranış tərzinə görə qruplaşdırmaq və bu qruplara xas olan qanunauyğunlaqları müəyyən etməklə onlara təsir vasitələrinin tapılması və seçilməsidir.

İstehlakçıların davranışına məhsul, qiymət, reklam və satışın həvəsləndirilməsi, mövqeləşdirmə və differensiallaşdırma kimi bir sıra xarici mühit determinantları təsir göstərirlər. Bu amillərin hər birinin özünəməxsus spesifik xüsusiyyətləri və təsir formaları mövcuddur.

İstehlakçı davranışına xarici mühit determinantlarının təsirinin qiymətləndirilməsi istehlakçı davranışının marketinq tədqiqi üçün mühüm əhəmiyyət kəsb edir.
İstehsalçıların uğurlu fəaliyyəti təkcə alıcılara təsir göstərmə üsullarının öyrənilməsini deyil, həm də onlar tərəfindən əmtəənin əldə edilməsi üzrə qərar qəbulu prosesinin məntiqinin başa düşülməsini nəzərdə tutur. Marketoloqlar kimin qərar qəbul etdiyini, alış haqqında qərarın tiplərini və qərar qəbul etmə prosesinin mərhələlərinin hansılardan ibarət olmasını müəyyən etməlidirlər.

## ƏDƏBİYYAT SİYAHISI

1. **Brian M. Young, Consumer Psychology, 2018, Springer International Publishing, ISBN : 9783319909110, USA**
2. Erdoğan Koç, Tüketici Davranışı ve Pazarlama Stratejileri, 2016, Seçkin Yayıncılık, ISBN: 9789750252358, 535 səhifə, Türkiye
3. Kapferer, Jean-Noël (2005), The New Strategic Brand Management, Kogan-Page, London, UK.
4. Kotler, P. (2006). Introduction of branding. In T. Calkins & A. M. Tybout (Eds.), Kelloggon branding (p. ix).
5. M.Karabulut «Tüketici Davranışı: Pazarlama yeniliklərinin kabülü ve yayılışı»
6. Manafov Q.N.Sahibkarlıq: nəzəri və praktiki məsələləri. Bakı -1997
7. Moran, W.T. (1991), "The Search for the Golden Fleece: Actionable Brand Equity Measurement", ARF 3rd Annual Advertising and Promotion Workshop, 5-6 February.
8. Oliver, Richard L. (1997), Satisfaction: A Behavioral Perspective on the Consumer, New York: McGraw-Hill.
9. Telman İman oğlu İmanov, Eldar Nadir oğlu Quliyev, Marketinqin əsasları, Azərbaycan Dövlət İqtisad Universiteti, 2003, 264 səhifə, Bakı
10. Veb səhifə: Consumer Behavior: The Psychology Of Marketing [http://www.consumerpsychologist.com/] , tarix: 26.02.2019
11. Yavuz Odabaşı, Tüketici Davranışı, 2003, Mediacat Yayıncılık, ISBN: 9789758378647, 404 səhifə, Türkiye

## ANALYTICAL ASSESSMENT OF THE FACTORS INFLUENCING THE FORMALIZATION OF CONSUMER BEHAVIOUR

**Guliyev Seymur Malik**

## SUMMARY

This article examined consumer behavior as the object of marketing research, analyzed the factors influencing its formation, peculiarities of marketing research of consumer behavior, marketing research the influence of individual and external determinants of consumer behavior. It is necessary to determine how the personal characteristics of the customer affect consumer behavior in deciding whether to buy.
Consumer behavior in the market and enterprises have their own characteristics. The decision on the buying of this product depends on the specific situation of purchase. Environmental factors, as well as external and individual factors influence the buyer of manufactured goods the same

№ 1/2020 səh. 32 - 41

effect as a buyer of consumer goods. However, the company-customer relationships and organizational factors are influenced by these factors.

**Key words:** consumer, consumer behavior, marketing, purchase, market, customer

## АНАЛИТИЧЕСКАЯ ОЦЕНКА ФАКТОРОВ, ВЛИЯЮЩИХ НА ФОРМАЛИЗАЦИЮ ПОВЕДЕНИЯ ПОТРЕБИТЕЛЕЙ

**Кулиев Сеймур Малик**

### РЕЗЮМЕ

В данной диссертации рассматривалось потребительское поведение как объект маркетингового исследования, анализировались факторы влияющие на ее формирование, выявлены особенности маркетингового исследованияпотребительских поведений, проведено маркетинговое исследование влияния индивидуальных и внешних детерминантов на поведениепотребителей. Необходимо определить каким образом личностные характеристики покупателя влияют на потребительское поведение при принятии решения о покупке.

Поведениепотребителей на рынке предприятий имеет свои особенности. Решения о закупках на этом рынке зависят от конкретных ситуаций совершения покупки. Факторы окружающей среды, а также внешние и индивидуальные факторы оказывают на покупателя товаров промышленного назначения такое же влияние, как на покупателя потребительских товаров. Однако на предприятие – покупателей воздействуют также организационные факторы.

**Ключевые слова:** потребитель, поведение потребителей, маркетинг, покупка, рынок, покупатель.

Redaksiyaya daxilolma 15.10.2019
Çapa qəbul olunma 05.04.2020

**№ 1/2020** **səh.42-47**

**УДК 334**

# СТРАТЕГИЧЕСКИЕ АЛЬТЕРНАТИВЫ ОПТИМИЗАЦИИ ПРОИЗВОДСТВЕННОЙ ДЕЯТЕЛЬНОСТИ ПРЕДПРИЯТИЙ ПИЩЕВОЙ ПРОМЫШЛЕННОСТИ

**[1]Сулейманов Акиф Шамиль оглы**
**[2]Филатов Владимир Владимирович**
**[3]Косикова Юлия Адольфовна**
[1]Азербайджанский Технологический Университет (UTECA);
Азербайджан, Гянджа, Ш.И.Хатаи, 103
[2,3]ФБГОУ ВО Московский государственный университет пищевых производств,
Россия, Москва, Волоколамское ш., 11

[1]a.suleymanov@gmail.com,[2]filatov_vl@mail.ru, [3]kosikovaya@mgupp.ru

***Аннотация: В статье рассмотрены стратегические альтернативы оптимизации производственной деятельности предприятий пищевой промышленности. Оптимизация производства гарантирует успех, если величина основных параметров у вас выше, чем у компаний-конкурентов. Показатели результативности универсальны – это финансовые средства, обеспечивающие развитие и совершенствование предприятия, благополучие его сотрудников.***

***Ключевые слова: факторы, система управления, стратегические альтернативы, оптимизация, производственная деятельность, предприятия пищевой промышленности.***

Модернизация, то есть усовершенствование, изменение соответственно требованиям современности российских предприятий - одна из важнейших составляющих перехода от закрытой экономики диктата производителя к эффективной рыночной структуре, ориентированной на удовлетворение нужд потребителя. Модернизация промышленности в технологическом отношении предполагает ее подтягивание до современных стандартов, которые задаются странами - лидерами технологического прогресса. При этом технологическое развитие промышленности неотделимо от институциональных условий функционирования экономики. Эффективная институциональная структура, обеспечивающая успешное функционирование экономики страны, ее долгосрочный рост, должна поддерживать низкий уровень трансакционных издержек - "издержек в сфере обмена, связанных с передачей прав собственности", создавать стимулы для создания новых товаров и услуг[1].

Существует большой пласт литературы, посвященной изучению процессов передачи (трансфера) передовых стандартов "опоздавшим" странам, социальным аспектам этого процесса, "социальной способности" к восприятию инноваций. В частности, обращается внимание на принципиальное различие важнейших черт развития "опоздавших" и "лидеров". В осуществлении технологического прогресса "лидеры" полагаются на собственные эволюционно развивающиеся инновационные способности, "догоняющие" же начинают, главным образом, с сокращения технологического отставания путем искусственного трансфера технологий. "Лидеры" создают образцы, "опоздавшие" - институциональные механизмы, чтобы их догнать как в технологии, так и в "социальной

способности". Примером этого может быть процесс индустриализации Германии и России в XIX веке. Главная роль, которую смогли тогда выполнить их институты - это мобилизация ресурсов и концентрация их в капиталоемких проектах. В "умеренно отсталой" Германии эту роль выполнили инвестиционные банки, в "сильно отсталой" России — государство[2].

"Технологическая способность" определяется зарубежными авторами как "способность эффективного использования технологического знания". "Социальная способность" - способность страны осуществлять технологический или организационный прогресс. Технологическая и социальная способности рассматриваются на уровне индивидов и на уровне институтов. Они очень динамичны, могут как утрачиваться при долгой невостребованности, так и аккумулироваться. В процессе технологического прогресса происходит накапливание технологических знаний, однако реальных "приобретений" оказывается при этом гораздо больше. Ведь суть трансфера технологий - обучение. Помимо общих и специальных знаний, приобретается и повышается и способность к усвоению новых знаний (training ability). Таким образом, происходит накапливание преимуществ фирмой: по достижении определенного уровня технологической способности облегчается ассимиляция и улучшение импортируемых технологий, что, в свою очередь, повышает ее технологическую способность и т.д.[3].

Результаты многих исследований свидетельствуют, что внедрение результатов научно-исследовательских и опытно-конструкторских разработок (НИОКР) вовсе не гарантирует предпринимательского успеха. Приводятся данные, что в пищевой отрасли более 90% новых продуктов терпят неудачу в первый же год. Считается, что пищевая промышленность имеет низкий уровень интенсивности НИОКР, поскольку она, во-первых, производит традиционные продукты и, во-вторых, заимствует многие важнейшие технологические инновации - оборудование, упаковку, ингредиенты - из других отраслей. Однако это вовсе не означает низкого уровня инновационной деятельности как таковой[4].

По данным отечественных исследователей, среди всех инновационных предприятий в Московской области предприятия пищевой промышленности составляли 25%. Восприимчивость этих предприятий к инновациям объясняется быстрой оборачиваемостью средств, что создает условия для финансирования инновационных проектов и относительно быстрого получения выгод от инноваций[5].

Существует три стратегические альтернативы оптимизации производственной деятельности предприятий пищевой промышленности, рассмотрим каждую из них на примере:

1. Компенсаторная модернизация. Определяющим фактором в выборе этой стратегии является ориентация предприятия на массовый рынок дешевой продукции. Суть ее заключается в модернизации за счет отечественного оборудования, причем под "модернизацией" часто понимается просто замена изношенных производственных узлов или расширение производства, не влекущие за собой качественных изменений в работе предприятия. Эта стратегия эффективна в краткосрочном приспособлении к рынку и доступна для относительно мелких и слабых в финансовом плане предприятий. Не имея при этом возможности сделать качественный рывок, предприятие добивается роста прибыли за счет увеличения физических объемов производства. Продуктные инновации часто носят "негативный" характер, направлены на снижение качества продукции и

достижения, таким образом, ее ценовой конкурентоспособности. Предприятие пассивно приспосабливается под неблагоприятную для развития производства внешнюю среду, и в целом эта стратегия модернизации носит страховочный характер, призвана обеспечить краткосрочное лидерство путем минимальных затрат[6].

Такую процедуру оптимизации прошёл Ступинский пищекомбинат. Производит подсолнечное масло, находится в городе Ступино, ему меньше 5 лет, на нем работает около 120 человек. Вхождение предпринимателя - хозяина и директора - в отрасль 7 лет назад было случайным, предприятие по изготовлению масла было передано ему в счет уплаты долга. Оно ориентировано на массовый рынок дешевой продукции и укомплектовано оборудованием отечественного производства.

2. Социально-лимитированная стратегия. Она характерна для градообразующих предприятий. В определенном смысле, это "стратегия сдерживания": имея большой (прежде всего, финансовый) потенциал дальнейшего наращивания объемов производства и автоматизации производственного процесса, крупные предприятия постоянно недоиспользуют его ввиду сырьевых, сбытовых и социальных ограничений. Серьезным ограничивающим фактором модернизации этого типа является сам статус предприятия - основного работодателя в районе, несущего бремя социальных объектов и вынужденного отказываться от замены ручного низкооплачиваемого труда современным оборудованием из-за недопустимости массовых сокращений. В отличие от предыдущей, позволяющей увеличивать прибыль за счет увеличения объемов производства, эта стратегия является во многом "репутационной", связанной с поддержанием марки предприятия за счет высокого качества продукции, для чего закупается дорогостоящее импортное оборудование[7].

С данной оптимизацией столкнулось предприятия масложировой промышленности «Абсолют». Расположено в одном из районов Дмитрова, было основано в 1954 г., в 1992 - акционировано. Этому предприятию посчастливилось не быть разворованным в результате приватизации: предоставление экономической свободы дало стимул его развитию. На предприятии работает 360 человек на основном производстве и около 40—50 человек — в принадлежащей предприятию торговой сети. Специфика предприятия заключается в том, что с момента создания его главной задачей было обеспечение продуктами питания закрытого города — научного центра, находящегося неподалеку. Изначально это предъявляло высокие требования к качеству продукции, которое директор и по сей день считает главным козырем своего предприятия. Большинство оборудования предприятия - импортного производства.

3. Агрессивная модернизация. Это единственная стратегия, в полной мере реализующая потенциал управленческой модернизации. Она характеризуется далеким горизонтом планирования, установлением собственных правил игры в условиях неблагоприятной внешней среды - непроработанности законодательства, коррумпированности, нечестной конкуренции. В отличие от пассивной компенсаторной, данная стратегия 27 нацелена на извлечение выгод из состояния неопределенности, что обусловливает постоянное балансирование руководителей на грани нарушения закона. Следование ей возможно, если предприятие в полной мере обладает как "социальной" (квалифицированное и мотивированное руководство), так и "технологической" способностью, а также возможностью привлекать на длительный срок большие объемы "дешевых" финансовых ресурсов[8].

№ 1/2020 səh.42-47

Эта модернизация характерна для предприятия «Идеал». Основное направление деятельности — производство маргарина и майонеза. Предприятию 10 лет, при его основании на нем было занято 3 человека, сейчас работает 220. Важный фактор успеха предприятия - личность директора. Он имеет образование производственного института, "всю жизнь проработал в общепите". У предприятия 3 соучредителя - активы основного занимают 80%, 20% приходится на двух остальных партнеров. Предприятие изначально создавалось как инновационное, первая же купленная (отечественная) линия была доработана совместно с главным конструктором завода - изготовителя, что сразу создало технологическое преимущество молодому предприятию в регионе. Сегодня предприятие, по словам директора, имеет достаточно редкое для Московской области оборудование.

Опыт работы свидетельствует о том, что инвестиции, вложенные в реорганизацию производства, оправдываются в течение 1–2 лет. Причем не стоит выпускать из виду, что разные проекты оптимизации окупаются в неодинаковые сроки. При этом расходы и доходы должны соотноситься 1:1 или 1:2 (за год).

Систем, позволяющих оценить эффективность оптимизации, много, но все они включают три основных параметра: цену, качество и время. Если выбранная вами схема дает возможность измерить и осуществить контроль этих показателей, значит, вы держите руку на пульсе. Оптимизация производства гарантирует успех, если величина основных параметров у вас выше, чем у компаний-конкурентов. Показатели результативности универсальны – это финансовые средства, обеспечивающие развитие и совершенствование предприятия, благополучие его сотрудников. Дать оценку эффективности оптимизации можно по следующим параметрам: сравнить ключевые данные реорганизуемого процесса (например, себестоимость продукции до и после мероприятий); планирование показателей, зависящих от основных производственных циклов [9].

Очень важно, чтобы во время улучшения первого показателя не снизились другие важные коэффициенты. Поэтому, когда осуществляется оптимизация производства, необходимо помнить о других параметрах и проводить их анализ. Например, можно сократить расходы на выпуск продукции на 5%, и одновременно с этим уровень удовлетворения сотрудников снизится на 60%.

Обычно эффективность промышленного процесса анализируется и оценивается по следующим направлениям: рост производительности труда; повышение квалификационного уровня персонала; снижение производственных потерь; сокращение норм затрат вспомогательных материалов; уменьшение времени простоя оборудования; сокращение потребления ТЭР; исключение выпуска бракованной продукции.

Проблема оптимизации производства. Немало талантливых менеджеров, умудренных солидным опытом работы, внедрили разнообразные программы оптимизации, которые переступили за рамки базового уровня. Но и в этих случаях возможен переход предприятия в состояние застоя. Изменения вроде бы и происходят, но совсем не в том темпе, в котором хотелось бы, а иногда и просто останавливаются. В этих обстоятельствах менеджеры делают ошибочный вывод, будто программа себя исчерпала[10].

Оптимизация производства заключается в повышении его эффективности. Именно это должно содержаться в идее и концепции программы, а прийти к поставленной цели можно путем координирования технологических процессов и функций. Этого достичь непросто даже предприятиям, умело использующим инновационные технологии и

оптимизационный инструментарий. Если функциональное сотрудничество будет налажено должным образом, то компания получит шанс перехода на другой уровень модернизации, когда возможно использование новых инструментов, сложнее предыдущих.

Планирование продаж и производства – один из них. Если на предприятии хорошо налажено планирование, то можно точнее разграничить обязательства в отношении принятия решений по вопросам потребления продукта и его выпуска. Оценивая программы, по которым проводится оптимизация производства, эксперты выявили, что: степень профессиональной подготовки специалистов недостаточно высока; коммуникативная функция хорошо налажена только на высших уровнях управления; сферы ответственности распределены нечетко.

Руководители компаний надеются, что все функции грамотно скоординированы, но очень часто дело ограничивается бесполезными встречами, которые неспособны повысить производственную эффективность предприятий пищевой промышленности.

## ЛИТЕРАТУРА

1.Рукина И.М., Филатов В.В. Центры технологического девелопмента - ключевой фактор модернизации и дальнейшего развития экономики России на ближайшую перспективу. Качество. Инновации. Образование. 2013. № 5 (96). С. 9-14.

2.Филатов В.В. Актуальные вопросы управления трансфером инновационных тех-нологий в реальных отраслях экономики. Экономика строительства. 2012. № 6 (18). С. 15-24.

3.Женжебир В.Н., Колосова Г.М., Медведев В.М., Паластина И.П., Положенцева И.В., Пшава Т.С., Фадеев А.С., Филатов В.В., Филатов А.В. и.др. Научно-техническое развитие как инновационный фактор экономического роста. Коллективная монография, Москва, 2014

4.Левачев А.С., Меркулов П.Б., Филатов В.В. Управление производственным предприятием на основе трансфера инновационных технологий.//Мат.-лы Межд. науч.-практ. конф. «Инновационная политика хозяйствующего субъекта: цели, проблемы, пути совершенствования»., секция: «Концептуальные особенности современного менеджмента», М.:МВЦ «Крокус- Экспо», РУДН, 2011

5.Дадугин М.В., Филатов В.В.и др. Управление инновационным потенциалом развития трансфера технологий.// Мат.-лы Межд. науч.-практ. конф. «Инновационная политика хозяйствующего субъекта: цели, проблемы, пути совершенствования»., секция: «Концептуальные особенности современного менеджмента», М.:МВЦ «Крокус- Экспо», РУДН, 2011

6.Филатов В.В. Основные направления технологической модернизации предприятий машиностроительного комплекса. В сборнике: Материалы и методы инновационных исследований и разработок сборник статей международной научно-практической конференции: в 3 частях. 2016. С. 205-211.

7.Логунова Н.Ю. Информационная система "Обновление и замена технологического оборудования хлебозавода". Экономика, статистика и информатика. Вестник УМО. 2008. № 1. С. 64-67

8.Положенцева В.И. Филатов В.В. Нурмагомедова Н.В. Сафронов Б.И. Дадугин М.В. Методы оптимизации управления финансовым состоянием предприятий, активно

использующих лизинг. Научно-теоретический журнал «Актуальные проблемы современной науки» – Выпуск №2(58), Издательство «Спутник+», 2011

9.Кобиашвили Н.А., Женжебир В.Н., Осинская Т.В., Фадеев А.С., Медведев В.М., Шестов А.В., Кретов М.И. Повышение эффективности системы менеджмента качества предприятия на основе оптимизации функциональной подсистемы. Интернет-журнал Науковедение. 2015. Т. 7. № 3 (28). С.42.

10.Филатов В.В., Дорофеев А.Ю. Роль менеджеров в системе управления стоимостью и мониторинга оценки бизнеса в современных условиях. Научно-теоретический и прикладной журнал «Альманах современной науки и образования» – Выпуск №8(63), Издательство «Грамота» , 2012

## The alternative strategy for optimizing activities of the food industry

**Suleymanov Akif Shamil , Filatov Vladimir Vladimirovich,**
**Kosikova Yuliya Adolfovna**

***Abstract:*** The article considers strategic alternatives to optimize the production activities of food industry enterprises. Optimization of production guarantees success if the value of your main parameters is higher than that of your competitors. Performance indicators are universal-they are financial resources that ensure the development and improvement of the enterprise and the well-being of its employees.

***Keywords**:* factors, management system, strategic alternatives, optimization, production activities, food industry enterprises..

## Yeyinti sənayesi müəssisələrinin fəaliyyətinin optimallaşdırılmasında alternativ strategiya

**Süleymanov Akif Şamil oğlu, Filatov Vladimir Vladimiroviç,**
**Kosikova Yuliya Adolfovna**

***Xülasə:*** Məqalədə yeyinti sənayesində istehsalatın fəaliyyətinin optimallaşdırılmasında strateji məsələlərə baxılır və onların alternative yolları göstərilir. Optimallaşdırma hər bir sahədə eləcədə kompaniya və rəqiblər arasında həmişə uğura gətirib çıxarmışdır. Xüsusən də maliyyə məsələlərində məqalə bu məsələ geniş analiz edilmiş və təklif, tövsüyyələr verilmişdir.

***Açar sözlər:***factor, idarəetmə sistemi, strateji yollar, optimallaşma, istehsalat fəaliyyəti yeyinti sənayesi müəssisələri.

Redaksiyaya daxilolma 19.12.2019
Çapa qəbul olunma 05.04.2020

**№ 1/2020** **səh.48 -59**

**UOT:330.341.424;334.7;338.45.01; JEL: L16;L23;O14;O25**

# SƏNAYE PARKLARININ YARADILMASI VƏ İNKIŞAFI : BEYNƏLXALQ TƏCRÜBƏ

**Əsgərov Mehman Aydın oğlu**
İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu,
Bakı şəhəri., Həsən Bəy Zərdabi Prospekti., 88a
**mehman.asgerov@economy.gov.az**

***Xülasə:Sənaye parkları sənayenin planlı və səmərəli təşkili olunması baxımından dünya təcrübəsində ən çox tətbiq olunan istehsal komplekslərindən biridir. İstehsalın təşkili forması kimi sənaye parkları iqtisadi, sosial və ekoloji baxımdan pərakəndə fəaliyyət göstərən sənaye subyektlərindən daha effektiv iş yerinə yetirir. XIX əsrin sonlarından başlayaraq bu günə qədər dünyanın bir çox ölkəsində tətbiq olunmağa başlayan sənaye parkları, hər bir ölkənin iqtisadi inkişafına öz töhfəsini vermişdir. Məqalədə sənaye parklarının yaranma tarixi və inkişafı üzrə beynəlxalq təcrübə araşdırılmış, ayrı-ayrı dövlətlərdə idarəetmə mexanizmləri üzrə mövcud təcrübə göstərilmişdir.***

***Açar sözlər:sənayeləşmə, sənaye zonaları, sənaye parkı, istehsalın təşkili, beynəlxalq təcrübə***

**Giriş:** Bir ölkənin inkişaf göstəricilərinin başında iqtisadi inkişaf gəlməkdədir.İqtisadi quruluşun inkişafı yalnız planlaşdırılan iqtisadiyyatın həyata keçirilməsi ilə mümkündür. Sürətli inkişafın getdiyi qlobal dünyamızda arzu olunan sosial-iqtisadi hədəflərə çatmaq, dövlətin özəl sektoru dəstəkləyən və tamamlayan missiyalarının düzgün yerinə yetirilməsindən asılıdır. Dövlət hər hansı bir formada özəl sektoru istiqamətləndirmək üçün əsas strategiyaları müəyyənləşdirir və lazımi infrastruktur üçüninvestisiyalar qoyur.

Bu gün inkişaf etmiş bir ölkə olmağın meyarlarından biri planlaşdırılmış sənayeyə sahib olmaqdır.Sənaye sahəsindəki inkişaf səviyyəsi bir ölkənin daxili və xarici ticarətində çox strateji yer tutur. Sənayenin planlı inkişafını təmin etmənin əsas üsullarından biridə sənaye bölgələri siyasətini tətbiq etməkdir. Sənaye bölgəsi siyasəti məhdud milli ərazidən səmərəli istifadəni təşviq etmək və milli iqtisadiyyatın böyüməsinə zəmin yaratmaq üçün sənaye istehsalı və digər əlaqəli fəaliyyətlər üçün uyğun şəraiti təmin etməyihədəfləyir.

İndiki dövrdə inkişaf etmiş ölkə deyəndə sənayeləşmə baxımından qabaqcıl ölkələrin başa düşülməsi, iqtisadi inkişafla sənayeləşmə arasında əlaqənin nə qədər güclü olduğunu göstərir. Dünya Bankına görə sənayeləşmə, "ölkənin iqtisadi inkişafında sənayenin, kənd təsərrüfatından sürətli böyüməsi və pilləli olaraq iqtisadiyyatda aparıcı rol oynayan sahə halına gəlməsi mərhələsi" olaraq xarakterizə olunur. Sənayeləşmə sənaye sektorunun iqtisadiyyatdakı çəkisinin artması deməkdir. Sənayeləşmənin planlı şəklidə aparılması üçün dövlətlərin qarşısında duran əsas problemlərdən biri sənayenin uyğun yerlərdə qurulması və sənaye subyektlərinin təmərküzləşməsi üçün lazımi bölgələrin yaradılmasıdır. Bununla da sənaye bölgələri siyasəti anlayışı ortaya çıxır.

Sənaye parkları sənayenin inkişafını təmin edən, məhsuldarlığı artıran və xərcləri azaldan bir sənayeləşmə metodu kimi tətbiq edilmişdir. Sənaye parkı bir çox ölkələr üçün iqtisadi inkişafa kömək edən bir vasitədir. Sənaye parklarının inkişafı rəqabət inkişafının ən aşağı pillələrində olan

№ 1/2020 səh.48 -59

ölkələr üçün xüsusilə cəlbedicidir. Sənaye parkları yalnız makroiqtisadi siyasəti həyata keçirmək üçün təsirli vasitə deyil, həmçinin sənayenin inkişafını təmin edən, sənaye müəssisələrini dövrün şərtlərinə uyğun müasirləşdirən, keyfiyyəti yaxşılaşdıran, xərcləri azaldan, məhsuldarlığı və gəlirliliyi artıran vacib bir vasitədir [1].

**Tədqiqatın məqsədi:** Elmi-tədqiqat işinin məqsədi sənaye parklarının ölkə iqtisadiyyatına təsiri perspektivlərinin müəyyən edilməsi ilə bağlı beynəlxalq təcrübənin araşdırılmasıdır.

**Tədqiqatın metodikası:**Tədqiqatın əsasını yerli və xarici iqtisadçı alimlərin bu sahədə apardıqları tədqiqatlar, Birləşmiş Millətlər Təşkilatının tabeliyindəki qurumların və beynəlxalq təşkilatların hesabatları, normativ hüquqi aktlar və müvafiq sahə üzrə idarə etməni təşkil edən təşkilatların rəsmi internet səhfələrindəki məlumatlar təşkil edir.

**Tədqiqatın praktiki dəyəri.**İstehsalın təşkili forması kimi sənaye parklarının yaradılması zərurətini səciyyələndirən amillər praktiki əhəmiyyət kəsb edir və aparılan tədqiqat sənayenin səmərəli təşkilinə yönəldilmişdir**.**

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

Sənaye parkları sənaye təşkilatlarının dəyişən şərtlərə uyğun modernləşdirilməsiilə fərqlənən istehsalın təşkilinin mühüm formasıdır.Müxtəlif inkişaf səviyyələri olan ölkələrdə sənaye parklarının məqsədləri bir-birindən fərqlənir; az inkişaf etmiş ölkələrdə kiçik həcmli sənaye sahələrinin inkişafını sürətləndirmək və inkişaf etdirmək; inkişaf etməkdə olan ölkələrdə sənayeləşməni sürətləndirmək və xüsusən tarazlı regional inkişafı təmin etmək; inkişaf etmiş ölkələrdə isə sənaye müəssisələrini yaşayış məntəqələrindən kənara sənaye zonalarına çıxartmaqdır.

İkinci sənaye inqilabından sonra sənaye müəssisələrinin həcmində və sayında kəskin artım başladı. Bu da onların əhatə etdiyi ərzinin miqyasının və tələb olunan enerjinin həcminin artımasına səbəb oldu. Sənaye subyektlərinin bir arada səmərəli və daha qənaətli fəaliyyət göstərməsi fikri ingilis iqtisadçısı Alfred Marşala məxsusdur. İlk dəfə sənaye parklarının yaradılması və klasterləşmə Alfred Marşalın sənaye zonaları fikri əsasında formalaşmışdır. Alfred Marşal sənaye zonalarını üfüqi və şaquli ixtisaslaşmış çox sayda kiçik müəsissənin meydana gətirdiyi intensiv sosial, iqtisadi, rəqabət və əmakdaşlıq münasibətlərinin cəmi olaraq tərif edir.AlfredMarshal 1890-cı ildə nəşr edilmiş “İqtisadiyyatın Prinsipləri” kitabında sənaye bölgəsi və lokalizasiya iqtisadiyyatı anlayışını verərək, Lancashire və Şeffilddəki firmalar kimi kiçik və orta firmaların bir aqlomerasiyasının xarici iqtisadi mühitin inkişafına necə kömək etdiyini göstərdi [2]. Sənaye zonalarının məqsədləri şəhərlərin planlı inkişafına töhfə vermək, regionlar arası balanssızlığı aradan qaldırmaq üçün sənayeni inkişaf etməmiş bölgələrə yaymaqdır. Sənayeləşmədən sonra sosial, iqtisadi və ekoloji problemlərin həlli üçün, qərb ölkələri tərəfindən inkişaf etdirilən və tətbiq olunan sənaye zonaları ideyası, sənayeni inkişaf etməmiş bölgələrdə səfərbər etmək üçün fiziki təşviq tədbirləri şəklində yaratdıqları bir anlayışdır. İlk dövrlərdə sənaye zonalarının məqsədi bölgələrə sərmayə qoyan sahibkarların hazır torpaq sahələrinə olan ehtiyaclarını ödəməklə gəlir əldə etmək məqsədi daşıyır. Başqa sözlə, ilk tətbiqlər özəl sektorun qazanclarını vurğulayan fəaliyyətlərdir.

Dünyanın bir çox ölkələrində “İndustrial Park”, Almaniyada “Gewerbegebiet” və ya “İndustriegelande”, Niderlandda “İndustrialTerrains”, İngiltərədə isə “İndustrialEstate” olaraq adlandırılan sənaye parklarının əsası fabrik istehsalının yayıldığı və ilk sənaye zonalarının

quruldüğu Böyük Britaniyaya dayanır.1896-cı ildə ingilis investorErnestTeraHooliManҫestr dəniz kanalı kənarında aldığı torpaq sahəsində lazımi mühəndis və nəqliyyat infrastrukturunu yaratdıqdan sonra sənaye müəssisələrinin istifadəsi üçün ayrılmış əraziləri icarəyə verməyə başladı. Beləliklə, dünyanın ilk sənaye parkı olan Traford sənaye parkı yaranmış oldu. Traford sənaye parkı müxtəlif sənaye subyektlərinin bir arada fəaliyyəti üçün planlı şəkildə təşkil olunmuş istehsal komplekslərinin ilk nümunəsidir. 1910-cu ildəHenryFord "Ford Motor Company"nin Avropada ilk fabrikinin burada qurdu. 1920-ci ilə qədər 300 yaxın ABŞ şirkəti öz filiallarını burada açdılar. ABŞ-da ilk sənaye parkları 1905-ci və 1909-cu illərdə Çikaqoda qurulmuş "CentralManufacturing" və "Clearing" adlı sənaye parklarıdır. İtaliyada ilk sənaye parkı 1904-cü ildə, Almaniyada (Euro-IndustrieparkMünchen) isə 1963-cü il də yaradılmışdır. Hal-hazırda inkişaf etmiş və inkişaf etməkdə olan bir çox dövlətdə sənaye parkları yaradılması təcrübəsi 1960-cı illərin əvvəllərinə təsadüf edir.

İlk sənaye parklarının yaradılmasından indiyə kimi sənaye parkları müxtəlif ölkələrdə fərqli formada tərif edilmişdir. BMT-nin Sənayenin İnkişafı təşkilatı (UNİDO) sənaye parklarını istehsal müəssisələrinin istifadəsi üçün yol, nəqliyyat və kommunal xidmətlərlə təmin edilmiş, hərtərəfli plana görə təşkil edilmiş, eyni və ya ayrı-ayrı sahələr üzrə fəaliyyət göstərən sənaye müəssisələrinin kompleks şəkildə istifadəsi üçün ayrılmış ərazidə təşkil edilmiş xüsusi sənaye zonaları olaraq adlandırmışdır[3].Sənaye parkları rezidentlərin hazır infrastruktur və sosial obyektlərdən istifadə edərək fəaliyyət göstərmələri üçün nəzərdə tutulub. Sənaye müəssisələri məhsuldarlığı artırmaq üçün tələb olunan xammal, elektrik, su və s. ehtiyaclarını qısa müddət ərzində həll etməlidir. Sənaye parkları müəyyən edilmiş ehtiyacları qarşılayan ən optimal yerlərdən biridir. Bu bölgələrdə təklif olunan imkanların daha geniş vəalternativli olması müəssislərin məhsuldarlığına müsbət töhfələr verməkdədir[4].Sənaye parkları müəssisələrinin qurulması üçün lazım olan fiziki tələbləri qarşılamaqla bərabər sənaye müəssisələrinin səmərəli fəaliyyəti və aralarındakı əlaqələrin bir-birini dəstəkləyən şəbəkə kimi inkişafı üçün uyğun mühiti təmin edir [5].

Sənaye parkları yerli iqtisadi inkişafa və yeni sənaye dinamikasına təkan vermək üçün planlaşdırılan obyektlərin ən sadə formasıdır.Bunlar da rəqabət inkişafının ən aşağı pillələrində olan ölkələr və ya bölgələr üçün ən uyğun vasitədir.Sənaye parkının müvəffəqiyyətini təyin edən əsas amil bunlardır:yeri; aparıcı şirkətlərin olması; sabit və sərfəli maliyyə sistemi; böyük işçi qüvvəsi; fiziki və institusional (təşkilati) infrastruktur; yaxşı idarəetmə şurası.Professor L.N. Oqolyova (Oqoleva) görə bir sənaye parkının sahib olmalı olduğu konsepsiyaya aşağıdakı məcburi komponentlərin daxil edilməsini bildirir:

- kiçik və orta sahibkarlığın istehsalı olan vahid daşınmaz əmlak obyektlərinin kompleksinin olması;
- sənaye parkının daşınmaz əmlak obyektləri kompleksinin vahid operatoru olan və park sakinlərinə xidmət göstərən idarəetmə orqanının olması;
- kiçik və orta sahibkarlıq tərəfindən istehsalın yerləşdirilməsi və yeni iş yerlərinin yaradılması tədbirləri daxil olmaqla sənaye parkının yaradılması və inkişafı üçün ümumi konsepsiyanın mövcudluğu;
- istehsal prosesinin təşkili üçün zəruri olan mühəndis infrastrukturunun mövcudluğu [6].

Bununla yanaşı, sənaye parklarına xasəsas xüsusiyyətlər kimi sənaye subyektlərinin coğrafi təmərküzləşməsi, rəqabət və tərəfdaşlığın eyni zamanda olması və yeni ideyaların və istehsal məlumatlarının daha sürətli yayılmasını göstərmək olar.

Qərb ölkələri tərəfindən inkişaf etdirilən və tətbiq olunan sənaye zonaları ideyası, sənayeni iqtisadi inkişaf baxımından inkişaf etməmiş bölgələrdə səfərbər etmək üçün fiziki təşviq tədbirləri şəklində yaratdıqları bir anlayışdır.Müxtəlif inkişaf səviyyələri olan ölkələrdə sənaye zonalarının məqsədləri bir-birindən fərqlənir.Az inkişaf etmiş ölkələrdə kiçik həcmli sənaye sahələrinin inkişafını sürətləndirmək və inkişaf etdirmək, inkişaf etməkdə olan ölkələrdə sənayeləşməni sürətləndirmək və xüsusən tarazlı regional inkişafı təmin etmək, inkişaf etmiş ölkələrdə isə sənaye müəssisələrini yaşayış məntəqələrindən kənara çıxartmaqdır. Bunların nəticəsi olaraq demək olar ki, hər bir halda sənaye parklarının yaradılması və idarə edilməsi milli iqtisadiyyatın inkişafı üçün vacib məsələdir.
Sənaye parkları daha nizamlı bir iqtisadi quruluşun və istehsal prosesinin yaradılması baxımından olduqca uyğun sahələrdir. Sənaye parklarının rezidentlərinin emal sənayesi sahəsinə aid olduğunu nəzərə alaraq demək olar ki, emal sənayesinin müəyyən bir plan və koordinasiya daxilində təşkil olunduğu sənaye parklarının yaradılmasında ölkələrin əsas məqsədlərinə aşağıdakılar daxildir:

- Ölkənin daha sürətli sənayeləşməsinə kömək etmək.
- Milli və yerli məşğulluğun artırılması.
- İstehsalın balanslı regional bölgüsünə nail olmaq.
- Həm yerli, həm də xarici özəl sərmayə cəlb etmək.
- İnzibati prosedurlarıasanlaşdırmaqla kiçik və orta sahibkarlığın inkişafına töhfə vermək.
- Sənayenin az inkişaf etmiş bölgələrdə təşkil etməklə bu bölgədəki işsizlik səviyyəsini azaltmaq.
- İstehsalda və məşğulluqda, xüsusən də diversifikasiyada struktur dəyişikliklərini təşviq etmək.
- Genişmiqyaslı sənaye komplekslərinin, hava limanlarının, limanların, elektrik stansiyalarının və s. vasitəsilə mənbələrdən daha səmərəli istifadəni təşviq etmək.
- İstehsal olan əmtəənin çeşidini artırmaq.
- Dövlət infrastrukturuna sərmayə qoymaqda iqtisadiyyata nail olmaq.

Sənaye parklarının məqsədləri və prioritetləri ölkələrin iqtisadi syasətinə və ehtiyaclarına görə dəyişir. Sənaye parkları ümumiyyətlə sənaye təşviqində, xidmətlər və xərclərdə səmərəliliyi təmin etməkdə və şəhər planlaşdırmasında bir model kimi də istifadə edilmişdir. Sənaye parklarının regionun və şəhərlərin iqtisadi inkişafına verdiyi töhfələrə aşağıdakıları göstərmək olar:

- Şəhər ətrafı ərazilərdə sənaye subyektlərinin konsentrasiyanı təmin etmək.
- Şəhər əhalisinin iqtisadi və məşğulluq bazasının artırılması.
- Sənayenin yerləşdirilməsini tənzimləmək və şəhər ərazilərindəki ən uyğun ərazidə nizamlı idarə etməni təmin etmək.
- Qeyri-sənaye və sənaye sahələrini ayıraraq daha sağlam və cəlbedici şəhər mühitini təmin etmək.
- İş yerinə olan məsafəni minimuma endirmək və nəqliyyat sistemindəki yükü azaltmaq.
- Torpaqdan səmərəli istifadəni maksimum dərəcədə artırmaq və torpaq xərclərini azaltmaq.

İnkişaf etməkdə olan ölkələr üçün sənaye parklarının yaradılmasının park daxilində olan sahələr üçün əməliyyat xərclərinin və risklərin azaldılması ilə yanaşı əsas üç vəzifəsinə bunları aid etmək olar:

1. Milli, regional və yerli səviyyədə iqtisadi böyüməyə və məşğulluğa kömək etmək.
2. Birbaşa investisiya cəlb etmək.
3. Sənayenin inkişafı dinamikasına təkan vermək.

Sənaye parkları iqtisadi mexanizm kimi region və ölkədə iqtisadi fəallığın artmasına, iri kapitalın cəlb edilməsinə, müasir istehsal sahələrinin yaradılmasına imkan verir. Dövlət tərəfindən uğurlu təşkilati-iqtisadi mexanizmin hazırlanması sənaye parklarının təşkili zamanı sənaye parkının ərazisində innovativ istehsal infrastrukturunun formalaşmasına, rəqabətqabiliyyətli məhsul istehsalı üçün layihələrin həyata keçirilməsinə və sənaye parklarının bütövlükdə məhsuldar nəticələr əldə etməsinə şərait yaradır.Sənaye parkları istehsal-texnoloji təyinatlı Xüsusi İqtisadi Zonadır (XİZ). Dünya praktikasında müxtəlif formaları olan XİZ-lər 5 qrupa bölünür (Sxem 1).




**Şəkil 1. Xüsusi İqtisadi Zonalar**

Yüksək iqtisadi inkişaf tempinə malik Asiya ölkələri son 40 ildə sənaye yönümlü XİZ-ərin modifikasiyasından istifadə etməklə, ayrı-ayrı sənaye sahələrinin inkişafında qısa müddət ərzində tarixi nəticələr əldə etmişlər. Bu ölkələrdə sənaye parkları rəqabətqabiliyyətli sənaye sahələrinin geniş istehsal şəbəkələrinin yaradılmasına imkan vermiş və bu istehsal zonalarında yüksək standartlara cavab verən ixrac təyinatlı məhsulların istehsalı reallaşdırılmışdır.

Dünya praktikasında sənaye parklarını idarə etmək üçün üç əsas model mövcuddur: **1. Xüsusi model**: Bu modelin idarəedici bazası infrastruktur idarəetmə şirkətidir ki, bu da sakinlərə istehsallarını yerləşdirməyə imkan vermir, həm də infrastrukturu və sənaye parkını idarə etmək üçün əsas təşkil edən bir sıra xidmətləri təmin edir **2. Müstəqil model:** Xüsusi bir şirkət tərəfindən idarə edilməyən kiçik, ən çox ayrı sənaye parkları. Sənaye parkının ərazisində yerləşən müəssisələr özləri bütün lazımi xidmətləri göstərir. **3. Hibrid model:** Bu, bəzi sənaye parklarında rezident şirkətlərdən biri idarəetmə şirkətinin funksiyalarını yerinə yetirdiyi idarəetmə modelinin bir formasıdır[16].

Dövlətlər bu sahədə inkişafa nail olmaq üçün müxtəlif inzibati və iqtisadi alətlərdən istifadə edərək sənaye parklarında müxtəlif stimullaşdırıcı tədbirləri tətbiq edir.Sənaye parklarının əsas tərəflərindən biri də rezidentləri üçün təşviq mexanizimlərinin olmasıdır (Sxem 2).

**№ 1/2020** **səh.48 -59**




**Şəkil 2. Sənaye parkları dəstək sistemi**

İnkişaf yolundakı bir iqtisadiyyatda təşviq alətləri həm daxili bazarın genişləndirilməsi hədəfləri baxımından, həm də rəqabət bazarında investisiyaların genişlənməsi və əlaqələndirilməsində mühüm rola malikdir [7].Dövlət yardımı və təşviq xüsusilə inkişaf etməkdə olan ölkələrdə iqtisadi inkişafın təmin olunmasında mühüm rol oynayır. İqtisadi ədəbiyyatda "təşviq" anlayışı müəyyən iqtisadi fəaliyyətlərin digərlərinə nisbətən daha sürətli etməsi üçün dövlət tərəfindən müxtəlif üsullarla təmin olunan maddi və ya qeyri-maddi dəstək və ya yardım kimi müəyyən edilmişdir.

Sənaye parklarının fəaliyyətləri və quruluş məqsədləri ölkələrin xüsusiyyətlərinə görə fərqlilik göstərməkdədir. Hətta eyni ölkənin daxilindəki fərqli bölgələrdə də ayrı tətbiqlərin olduğu görülməkdədir. Aşağıda bir sıra inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin təcrübəsinə aid nümunələr göstərilmişdir:

**İngiltərə** hökuməti işsizliyin azalması və iqtisadi inkişafı təmin etmək üçün bu sahəyə qoyulan investisiyaları dəstəkləmişdir. İlk illərdə əsas məqsədi mənfəət əldə etmək olan Sənaye parkları 2-ci dünya müharibəsindən sonra iqtisadi strategiya üçün bir vasitə halına gəlmişdir. Sənaye Parklarının dövlət tərəfindən müəyyən edilmiş qaydalar çərçivəsində tənzimlənməyə başladığı 1959-cu ildən sonra əhəmiyyəti artmağa başladı [9]. Bu illərdən sonra sənaye parklarınınsayının artırılmasında İngiltərə hökmətinin əsas hədəflərinə bunları aid etmək olar:

- Sənaye zonalarını az inkişaf etmiş bölgələrə doğru istiqamətləndirmək;
- Sənaye zonalarının işsizliyə qarşı təsirli vasitə kimi istifadə edilməsi;
- Xüsusilə böyük şəhər mərkəzləri, sənayeləşmiş ərazilər və əhalinin sıx məskunlaşdığı ərazilərdən köçməyin təşviqi;
- İnkişaf etməmiş bölgələrdə sənaye yaşayış məntəqələrini təşviq etmək üçün sistemli və planlı bir sənayeləşmə və urbanizasiya siyasətinin həyata keçirilməsi.

İngiltərədəki sənaye parklarına tətbiqetmələr hər hansı bir sahədə bir-biri ilə əlaqəli olmayan iki fərqli qurum tərəfindən idarə olunur və həyata keçirilir. "Industrial Estates Corporation" Sənaye zonalarının yalnız fiziki planlanması və infrastrukturunun hazırlanması, "DevelopmentCorporation" isə Sənaye zonaları ilə birlikdə yeni bir şəhərin planlanaraq qurulması ilə məşğul olur [10].

**ABŞ**-da digər iqtisadi sahələrdə olduğu kimi sənaye parkları da bazar mexanizmləri əsasında qurulmuşdur. Texnologiyalara əsaslanaraq qurulan ilk sənaye parkları da ABŞ-a məxsusdur.

ABŞ-da hal-hazırda dünyanın ən böyük sənaye parklarında olan "TahoeRenoIndustrialCenter", "Cedar Crossing Industrial Park", "MidAmericaIndustrial Park" və "GreatSouthwestIndustrial Park" fəaliyyət göstərməkdədir. ABŞ-da sənaye parkları 3 cür investisya təşəbbüskarı tərəfindən qurulur:

1) Özəl şirkətlər
2) Birbaşa qazancı olmayan, lakin bu bölgələrin qurulmasının xalq təsərrüfatına verdiyi müsbət töhfəni, əmək haqqı və vergi daxilolmalarını nəzərə alan sənaye və ticarət palataları və qeyri-hökumət təşkilatları
3) Sənaye zonalarının qurulmasının həmin bölgədə sənayenin inkişafını təmin edəcəyinə və beləliklə bölgəyə iqtisadi firavanlıq gətirəcəyinə inanan yerli hökumətlər.

ABŞ-da ən çox sənaye parkları özəl sonra sənaye və ticarət palataları və qeyri-hökumət təşkilatları, sonra isə yerli hökümətlər tərəfindən qurulub.

**İtaliyada**sənaye zonalarının tətbiqinə 1904-cü ildə Neapol şəhərində qurulmuş sənaye parkıylabaşlanmışdır. 1957-ci ildə İtaliyada sənaye parklarının sayı 22-yə çatmışdı. Bundan sonra bu sahəni tənzimləmək və Cənubi İtaliyanın inkişafını təmin etmək üçün hökumət tərəfindən 1957-1959-cu illərdə qanunlar qəbul edilmiş, dövlət tərəfindən göstərilən yardım və tədbirlərinin tədbiqinəbaşlanmışdır. Beləliklə, investisiya qoyuluşunun ümumi həcminin 6%-i "cassa" adlı dövlət təşkilatı tərəfindən məkan kimi sənaye parklarını seçən sənaye müəssisələrinə bağışlandı. Həmçinin, investisiyanın həcmi müəyyən səviyyədən çox olanda verilən təşviqlərin miqdarı iki dəfə artırılmışdır. İtaliyada sənaye parklarının inkişafı üçün istehsal və yerli vergilərdən 10 il azad olma, 99 illik icarəyə götürmə, sənaye müəssisəsinin tikintisi xərclərinin qarşılanması və gəlir vergisindən 5 il azad olma kimi təşviq tədbirləri görüldü. Bu təşviqlərlə sənayenin inkişafının sürətləndirilməsihədəflənmişdir. Bunun nəticəsidirki, İtaliya bu gün sənayeləşməsi və iqtisadi inkişafına görə dünyanın qabaqcıl ölkələrindən biridir.

Sənaye parklarının əsasən özəl şirkətlər tərəfindən idarə olunduğu **Almaniyada**, park idarəçiliyinin əsas məqsədi torpaq sahələrini icarəyə götürərək infrastruktur və digər xidmətlər və ya məhsulları kirayə verən şirkətlərə satmaqla gəlir əldə etməkdir.Almaniyada sənaye parklarının yaradılması və inkişaf etdirilməsinə dövlət dəstəyi mexanizimləri kifayət qədər yüksəkdir. Bu ölkənin sənaye parklarında kompleks fəaliyyət istiqamətləri vahid mexanizm səviyyəsində təşkil edilmişdir və nəticədə də rəqabətqabiliyyətli yeni sənaye məhsullarının istehsalının artırılması prosesi kifayət qədər intensiv gedir [11].

Bir çox Asiya ölkələrində olduğu kimi **Çində**isə sənaye parkları ümumiyyətlə sənaye inkişafı siyasətinin alətləri kimi istifadə olunur. Çinin modernləşdirmə planlarının icrası 1978-ci ildə yeni bir siyasət kursunun başlanması ilə başladı. Bu, daxili iqtisadiyyatın islahatına və iqtisadiyyatın xarici sektorunun açılmasına yönəlmişdir. Milli inkişaf strategiyasına və struktur islahatındakı mövqeyinə görə Çindəki inkişaf zonaları milli, regional və yerli səviyyəli bölgələrə ayrılmışdır.

**Hindistanda** sənaye parkları bir tərəfdən kiçik sənaye müəssisələrinin səmərəliliyini artırmaq, digər tərəfdən nizamsız inkişafın və urbanizasiyanın qarşısını almaq üçün tətbiq edildi. Bu sahənin inkişafı üçün qəbul edilən inkişaf planı daxilində 1955-1956-cı illərdə 10 ədəd sənaye parkının tikintisinə başlandı və günümüzdə sənaye parklarının sayı 120-dən çoxdur. Hindistanda sənaye parklarının əksəriyyəti 100.000 nəfərdən az əhalinin yaşadığı yaşayış məntəqələri yaxınlığında quruldu.Hindistanda sənaye bölgələri inkişaf startegiyasına görə iki yerə bölünür: Ümumi Sənaye Bölgələri (General Industrial Park) və Xüsusi Sənaye Bölgələri (SpecialIndustrial Park). Hindistanda Sənaye parklarının yaradılması məqsədləri: iş şəraitinin yaxşılaşdırılması yolu

ilə məhsuldarlığın artırılması və kiçik müəssisələrin öz aralarındakı üfüqi və şaquli olaraq inkişaf etdirdikləri əlaqələrlə xarici iqtisadi faktorlardan faydalanmaq [12].

**Rusiyada**dövlət və özəl sektorun təşəbbüsü ilə qurulmuş hal hazırda fəaliyyət göstərən və inşasına davam edilən 227 sənaye parkı mövcuddur. Rusiyada sənaye parkları təşkil edilməsi xüsusiyyətinə görə "greenfield" və "brownfields" olaraq 2 kateqoriyaya bölünür [13]. Bunlardan birincisi (greenfield) sənaye parklarının tam olaraq müasir tələblərə görə yenidən qurulması, ikincisi (brownfields) mövcud fabrik və zavodların yerində sənaye parklarının təşkil olunmasıdır. Rusiya Sənaye Parkları Asosasiyasıinvostarları cəlb etmək və ümumi maraqları təşviq edən qeyri-kommersiya təşkilatıdır. 2019-cu il etibarı ilə Rusiyada fəaliyyət göstərən sənaye parklarının 83-ü dövlət mülkiyyətinə 144-ü isə xüsusi mülkiyyətə məxsusdur [17].

**Türkiyədə** ilk sənaye parkı 1962-ci il də Dünya Bankının dəstəyi ilə Bursa şəhərində qurulmuş "Bursa Organize Sənaye Bölgesidir". Bu dövrdən icra olunmağa başlanan 5 illik İnkişaf Proqramları çərçivəsində sənaye parklarının sayında və bu sahəyə qoyulan xarici investisiyaların sayında artım baş verdi. 2019-ci il də Türkiyədə 300-dən çox sənaye parkı fəaliyyət göstərməkdədir. Bu sənaye parkları təşkili prinsiplərinə görə 5 yerə ayrılmaqdadır: qarışıq, ixtisas, özəl, kənd təsərüffatı təyinatlı və islah [14].




**Şəkil 3. Türkiyə sənaye parklarının formaları**

**Koreyada** sənaye parklarının inkişafı Türkiyədəki kimi 5 illik inkişafı planına uyğun inkişaf etdirilib. Koreyada tətbiq olunmaya başlanan 1-ci iqtisadi inkişaf propqramı çərçivəsindəUlsan şəhərində qurulan sənaye parkı ölkənin ilk sənaye parkıdır.Sənaye parkları mənfəət məqsədiləinvestorlar tərəfindən və yamilli iqtisadiyyatın inkişafı ilə bağlı dövlət tərəfindən

qurulur. Sənaye parkları ilə bağlı Koreya qanunları sənaye parklarını Milli Sənaye Parkları(Torpaq, nəqliyyat və dəniz işləri naziri), Yerli Sənaye Parkları(Yerli idarəetmə orqanları), Şəhər Yüksək Texnologiyalar Sənaye Parkları(Yeli idarəetmə orqanları) və Kənd Təsərrüfatı (aqrar-sənaye) Sənaye Parklarına(Bələdiyyə idarəsində) təsnif edir..Koreyada sənaye parkları "KoreaIndustrialComplexCorporation" (KICOX) təşkilatı tərəfindən idarə olunur. Koreyada sənaye sahəsinə qoyulan investisiyalar nəticəsində ölkə kənd təsərrüfatı ölkəsindən inkişaf etmiş sənaye ölkəsinə çevrildi. 1960-cı ildən 2015-ci ilə qədər ölkə iqtisadiyyatı 7.3 faiz böyüyərək adambaşına düşən milli gəliri 27000 ABŞ dollarına çatdırdı [15].

**Taylandın** sənaye siyasətində sənaye parklarının təşkil edilməsinin məqsədi böyük şəhərlərdən kənar ərazilərə investisyalrı cəlb etmək və bu bölgələr ilə inkişaf etmiş bölgələr arasında gəlir bölgüsünün tarazlaşdırmaqdır.Taylanda hökuməti tərəfindən sənaye parklarının




**Şəkil 4. Taylandda sənaye parklarını idarəetmə orqanları**

yaradılması "İnvestisiyaların Təşviqi Qanunu" və "Zavod Qanunu" normativ hüquqi aktları əsasında tənzimlənir.Taylandda sənayenin inkişafı və fəaliyyəti ilə bağlı siyasətlərin müəyyənləşdirilməsi və idarə edilməsi üzrə məsul olan 4 dövlət qurumu var (Şəkil 4).

Tayland Sənaye Parkı Təşkilatı (IndustrialEstateAuthority of Thailand), sənaye parklarında ətraf mühitin və əməyin mühafizəsi,ərazi bölgüsü , infrasturuktur və icazəprosedurlarına cavabdeh qurumdur.Bu qurum sənayenin inkişafı siyasətini həyata keçirmən üçün məsul dövlət qurumudur. Taylandın 16 əyalətində 55 sənaye parkı fəaliyyət göstərir ki, 13 sənaye parkı Sənaye Parkları Təşkilatı tərəfindən, 42 sənaye parkı isə investorlar ilə birgə idarə edilir[18].

| Tayland Sənaye Parkları Təşkilatının vəzifələri | Tayland Sənaye Parkları Təşkilatının funksiyası |
|---|---|
| Sənaye zonalarının yaradılmasının təşviqi və dəstəklənməsi | İstehsal olunan məhsulların yüksək keyfiyyətə çatmasına və dünya bazarında rəqabətə girməsi üçün istehsal amillərini təmin etmək |
| Sənaye obyektlərini kommunal xidmətlər və infrastruktur ilə təmin etmək | Sənayenin regionlarda inkişafını təmin etmək üçün hökümət mexanizmi olmaq |
| Sənaye əməliyyatları üçün zəruri olan xidmətləri təmin etmək | İstehsalat qəzalarının qarşısının alınması və ətraf mühitin keyfiyyətini qorumaq və təbliğ etmək üçün hökumət mexanizmi olmaq |
| İstehsalatda bədbəxt hadisələrin qarşısının alınması və ətraf mühitin idarə edilməsi sistemini təmin etmək | Xüsusi ərazilərdə torpaqdan istifadənin idarə edilməsi və təşkilində hökumət mexanizmi olmaq |
| Sənaye obyektində təsərrüfat işlərinə icazə və sənaye əməliyyatları ilə əlaqədar imtiyazlar, təşviqlər və digər imkanlar vermək | Ümumi, ixrac, eləcə də ilkin sənaye sahələrinin təşviqi və dəstəklənməsi üçün hökumət mexanizmi olmaq |

**Şəkil 5. Tayland Sənaye Parkları təşkilatının vəzifə və funksiyası**

**№ 1/2020** **səh.48 -59**

"Tayland Sənaye Parkı Təşkilatı" sənaye parklarının ilkin yaradılması prosesindən rezidentlərin fəaliyyətinə kimi bütün xidmətlərini həllini təmin etmək üçün səmərli platforma hesab edilən "Bir Pəncərə Xidmət Mərkəzi" (OneStop Service Center) təşkil etmişdir.

**Azərbaycandas**ənaye zonalarının fəaliyyətinin təşkili və tənzimlənməsi ilə bağlı məsələlər Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan aşağıdakı normativ hüquqi aktlara uyğun olaraq həyata keçirilir: - "Xüsusi iqtisadi zonalar haqqında" 2009-cu il 14 aprel tarixli 791-IIIQ nömrəli Azərbaycan Respublikasının Qanunu; - Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 aprel tarixli 865 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Sənaye Parkları haqqında Nümunəvi Əsasnamə"; - Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 may tarixli 168 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Texnologiyalar parkı haqqında Nümunəvi Əsasnamə"; - Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 13 may tarixli 186 nömrəli qərarı ilə təsdiq edilmiş "Sənaye məhəllələri haqqında Nümunəvi Əsasnamə"; - "Ələt azad iqtisadi zonası haqqında" 2018-ci il 18 may tarixli 1143-VQ nömrəli Azərbaycan Respublikasının Qanunu[19].

Hazırda ölkədə aşağıda adları qeyd olunan 5 sənaye parkı fəaliyyət göstərir:

- Sumqayıt Kimya Sənaye Parkı;
- Balaxanı Sənaye Parkı;
- Mingəçevir Sənaye Parkı;
- Qaradağ Sənaye Parkı;
- Pirallahı Sənaye Parkı

Azərbaycanda sənaye parklarının yaradılması və fəaliyyətinin təşkili ilə bağlı məsələlər bir sıra dövlət sənədlərində və proqramlarında, o cümlədən Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli, 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında və Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 2014-cü il tarixli, 964 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015 - 2020-ci illər üçün Dövlət Proqramı"nda öz əksini tapmışdır[20].

## Nəticələr

Yuxarıda göstərilənlərdən belə nəticəyə gəlmək olar ki, sənaye parklarına xas əsas xüsusiyyətlər müəssisələrin ərazi üzrə təmərküzləşməsi, rəqabət və əlaqələrin eyni anda olması, yeni fikirlərin və istehsal məlumatlarının daha sürətli yayılmasıdır.Göründüyü kimi sənaye parkları bir məkan tənzimləmə vasitəsi olduğu kimi, eyni zamanda bir inkişaf vasitəsidir.İstehsalın təşkilinin ilkin mərhələlərində sənaye müəssisəsi yaratmaq (infrastruktur üçün investisiya qoymaq, işlək binanı inşa etmək, maşın və avadanlıqla təmin etmək, işçi qüvvəsi ilə təmin etmək, torpaq sahəsi almaq) sahibkarlar üçün çətin proses olduğu üçün sənaye parklarında hazır infrastruktur və təşviqlərdən yararlanaraq fəaliyyət göstərmək daha məqsədəuyğun hesab edilir.Sənaye parklarına yanaşma hər ölkənin iqtisadi inkişaf modelinə uyğun tətbiq olunur. Azərbaycan Respublikasının iqtisadi inkişaf strategiyası nəzərə alınaraq sənaye parkları ilə bağlı dünya təcrübəsinin öyrənilməsi və bu istiqamətdə uyğun tədbirlərin görülməsi məqsədə uyğun hesab olunur.

**Tədqiqatın elmi yeniliyi:**

- Sənaye parklarının konseptual mahiyyəti , makro və mikro səviyyədə iqtisadiyyatın inkişafında rolu təhlil edilib.

- Regionların səmərəli inkişafında sənaye parklarının yaradılmasının əhəmiyyəti göstərilmişdir.
- Sənaye parklarının fəaliyyəti ilə əlaqədar dəstək və bu sahədə idarəetmə mexanizimləri göstərilib.
- Sənaye parklarının yaranma tarixi və sənayeləşmədə yeri göstərilib.
- Sənaye parklarının iqtisadi, sosial və ekoloji təsiri ümumiləşdirilib.
- Sənaye parklarında effektli istifadə edilməsində dünya təcrübəsi araşdırılıb.

## ƏDƏBİYYAT

1. Ersin Türk. An Evaluation of Industrial Park Policy of Turkey: İzmir as a CaseStudy, 42nd InternationalSociety of City and Regional Planners (ISOCARP) Congress, 2006.
2. Fiorenza Belussi, KatiaCaldari. At the Origin of theIndustrial District- AlfredMarshall and theCambridgeSchool, Article in CambridgeJournal of Economics. 2009.
3. Economic Zones in the ASEAN, www.unido.org, 2015
4.SelahattinKoç, CihanBulmuş. Organize Sanayi Bölgelerinin Bölge Ekonomilerindeki Etkinliklerinin Karşılaştırılması: KayseriveSivasörneği, Kırıkkale Üniversitesi Sosyal Bilimler Dergisi Yıl 2014, Cilt 4, Sayı 1, Sayfalar 177-215, 2014.
5. Murat Çetin, Mehmet Kara.Bir Kalkinma Araci Olarak "Organize Sanayi Bölgeleri": Isparta Süleyman Demirel Organize Sanayi Bölgesi Üzerine Bir Araştırma , Erciyes Üniversitesi İktisadi ve İdari BilimlerFakültesiDergisi, Sayı: 31, Temmuz-Aralık 2008, ss.49-68, 2008.
6. ХижняковБорисПетрович. ИндустриальныйПарк: Понятие, ИсторияЗаконодательныеАспекты. Социально-ЭкономическиеЯвления и Процессы Т. 10, № 8, (С.139-143) 2015.
7. Hasan Çam, KemalEsengün. Organize Sanayi Bölgeleri ve Uygulanan Teşvik Politikalarının İşletmeler Üzerindeki Etkilerininİncelenmesi: Osmaniye Organize Sanayi Bölgesinde Uygulama. Karamanoğlu Mehmet Bey Üniversitesi Sosyal ve Ekonomik Araştirmalar Dergisi 13 (21): 55-63, 2011 ISSN: 1309-9132, www.kmu.edu.tr. 2011.
8. JarmilaVidova. Industrialparkshistorytheirpresent and influence on employment. REVIEW OF ECONOMIC PERSPECTIVES Volume X. Issue 1, 2010.
9. Şəhriyar Əliyev. TheImportance of IndustrialParksinEconomicDevelopment. Conference: Qloballaşma Prosesində Qafqaz və Mərkəzi Asya,İqtisadiyyat və Beynəlxalq münasibətlər IV Beynəlxalq Konqres Materialları, Bakı, 2014.
10. AyşegülKanbak. OrganizeSanayiBölgelerininKentselGelişimdeki Yeri: DilovasıÖrneği. İstanbul ÜniversitesiSosyalBilimlerEnstitüsükamuyönetimianabilim dalı, Doktora tezi, 2011.
11. Kərimova X.O., AMEA İqtisadiyyat İnstitutu "Elmi Əsərlər" №1-2018 səh.59-65.
12. FatihMehmetÖcal. OrganizeSanayiBölgeleri'ninBölgeselEtkilerive Konya Sanayisi. SelçukÜniversitesiSosyalBilimlerEnstitüsüİktisat Ana Bilim, Dalı Doktora Tezi, 2008.
13. В.И. Таланцев, Н.К. Смирнова. Промышленныепарки и ихроль в экономическом развитии территорий ДальнегоВостока. Известия ДВФУ. Экономика и управление. 3. 2016. 26–39, 2016.
14.Orta Anadolu İhracatçıBirlikleri, Bilgi Merkezi.http://www.oaib.org.tr/tr/bilgi-merkezi.html
15. RahmiÇetin, SongülKardeş. HanNehriMucizesi: EkonomikKalkınmada Güney KoreÖrneği. Istanbul Journal of Economics 68, 2018/1, s. 93-112, 2018.

16. СлепковаТатьянаИгоревна. Эффективное управление Индустриальным парком Как механизм привлечения Инвестиций. ТеорияиПрактикаОбщественногоРазвития № 2 (2018)
17. СтаниславАдамайтис, ДенисЖуравский, МаксимПаздников, БорисСычёв. ИндустриальныеПаркиРоссииОтраслевойобзор, Выпускшестой2019.
18.IndustrialEstateAuthority of Thaliand,https://www.ieat.go.th/en/about/roles-responsibilities
19. İqtisasdiyyat Nazirliyinin rəsmi internet səhfəsi, economy.gov.az/legislation
20. İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondunun rəsmi internet səhifəsi, http://edf.gov.az/az/content/164

## МЕЖДУНАРОДНЫЙ ОПЫТ СОЗДАНИЯ ПРОМЫШЛЕННЫХ ПАРКОВ

**Мехман Аскеров Айдын**

**Резюме.**Промышленные парки являются одним из самых широко применяемых в мировых масштабах производственных комплексов с точки зрения планируемой и эффективной организации промышленности. Промышленные парки, как форма организациип роизводства, в сравнении с отдельно функционирующими промышленными объектами, работают более эффективно с экономической, социальной и экологической точки зрения. Промышленные парки, начавшиеся применяться во многих странах мира начиная с конца 19 века по сегодняшний день, внеслисвой вклад в экономическое развитие каждой из стран. В статье исследуются вопросы истории возникновения и международный опыт развития промышленныхпарков.

**Ключевые слова:**Индустриализация, промышленныезоны, промышленныепарки, организацияпроизводства, международныйопыт

## INTERNATIONAL EXPERIENCE OF CREATION OF INDUSTRIAL PARKS

**Mehman Asgerov Aydin**

**Summary.**Industrialparksaregloballymostusedproductionfacilitiesinthesphere of planned and efficientorganization of industry. Industrialparks, as a form of theorganization of production, workmoreeffectivelyincomparisonwithindustrialsubjectswho, fromeconomic, social and ecologicalpoint of view, act individually. Industrialparksstartedtoemerge at theend of 19th century and spreadaroundtheworld. They havecontributedtotheeconomicdevelopment of eachcountry. An internationalexperienceregardingthehistory and development of industrialparkshasbeenreviewedintheArticle.

**Key words**: Industrialization, industrialzones, industrialparks, organization of production, internationalexperience

Redaksiyaya daxilolma .11.10.2019
Çapa qəbul olunma 05.04.2020

**№ 1/2020** **səh.60 - 65**

**UOT**

# AZƏRBAYCANIN EMAL SƏNAYE MÜƏSSİSƏLƏRİNİN İQTİSADİ İNKİŞAFDA ROLU

**Əfəndiyev Sadiq Qəhrəman oğlu**

**Azərbaycan Texnologiya Universiteti**
**Gəncə ş., Ş.İ.Xətai pr, 103**
**s.efendiyev@atu.edu.az**

***Xülasə. Məqalədə Azərbaycanda emal sənayesi müəssisələrinin dayanıqlı və davamlı iqtisadi inkişafının müasir vəziyyəti tədqiq edilir. Bununla yanaşı, məqalədəemal sənayesi müəssisələrinin dayanıqlı və davamlı iqtisadi inkişafda rolu araşdırılmış və qısa olaraq xarakterizə edilmişdir.***

***Açar sözlər: dayanıqlı və davamlı iqtisadi inkişaf, inkişaf problemləri, sənayenin inkişafı siyasəti, idarəetmə strukturu, istehsal məhsulları.***

**Giriş.**Azərbaycan Respublikasında sənaye müəssisələri çox keşməkeşli iqtisadi inkişaf yolu keçmişdir. Belə ki, müstəqillikdən əvvəl çətinliklərlə üzləşən Azərbaycan iqtisadiyyatında əsas üstünlüyü sənaye sektoru təşkil etmişdir. 1987-1988-ci illərdə milli gəlirin 42,1%-i sənaye sektorunun payına düşürdü. Həmin illərdə sənaye sektorunda fəaliyyət göstərən 1008 sənaye obyektindən 529-u ağır sənaye, 206-sı yüngül sənaye, 263-ü isə kənd təsərrüfatı sənaye kompleksinə bağlı ərzaq məhsulları istehsal edən sənaye obyekti idi. Müstəqilliyin qazanıldığı ilk illəri sənaye müəssisələrinin sərbəst bazar iqtisadiyyatına uyğunlaşma illəri olaraq qiymətləndirə bilərik. 1995-ci ilin sonlarında isə sənaye məhsullarının fiziki həcmində, 1990-cı ilə nisbətən 70% geriləmə müşahidə olunurdu. Digər sektorlar da diqqətə alındıqda, 1990-cı ildən fəaliyyət göstərən 3800-dən çox müəssisənin fəaliyyəti 1995-ci ilin sonunda dayandırılmışdır. Bir qismi isə, qismən də olsa fəaliyyətlərini davam etdirə bilmişdilər. Digər tərəfdən 1990-1995-ci illərdə sənaye məhsullarının istehsalının bütün sahələrdə aşağı düşdüyü qeydə alınmışdır. Buna baxmayaraq sənaye müəssisələrinin sayının yeni qurulan xüsusi mülkiyyətli müəssisələrlə birlikdə 1008-dən 2984-ə çıxması, istehsal həcminin ciddi şəkildə azalmasını əngəlləyə bilməmişdir.

Ölkədə müstəqilliyin ilk illərində emal sənaye məhsulları istehsalı sahəsində dövlət nəzarətinin zəifləməsi, müvafiq stabillik proqramının olmaması sənaye məhsulları istehsalındakı sürətli azalmanın əsas səbəbləri olmuşdur. Ancaq onu da qeyd etmək olar ki, ortaya çıxan bu mənfi iqtisadi gedişat sadəcə Azərbaycandakı vəziyyətlə əlaqədar deyil, həmçinin köhnə sosialist bloku ölkələrində ortaya çıxan siyasi və iqtisadi vəziyyətlə də bağlı olmuşdur. [1, s.336-337]

## TƏDQİQAT METODU

Emal sənayesi müəssisələrinin demək olar ki, hamısının keçmiş Sovetlər İttifaqı dövründəki başqa dövlətlərlə əlaqəli olduğundan, müstəqillik əldə olunduqdan sonra da sənaye sektorunda ciddi problemlər yaranmışdır. Digər tərəfdən də istehsal vasitələri ilə təchizat keyfiyyətinin aşağı olması da istehsalı mənasız hala gətirmişdir.

Neft və neft məhsullarının üstünlük təşkil etdiyi bir sənaye strukturuna sahib olan ölkəmizdə 1990-cı ildən etibarən sürətlə aşağı düşən sənaye istehsalı həcmi, Azərbaycan və digər köhnə Sovetlər İttifaqı ölkələrində siyasi və iqtisadi stabilliyin yaranmağa başladığı 1995-ci ildən etibarən yenidən inkişaf trendinə girmişdir. Sənaye mallarının ÜDM-dəki payı 1998-ci ildə 22,9%, 1999-cu ildə 28,2% olmuşdur. 2000-ci ildə ÜDM-dəki payı 36% olan sənaye məhsulları arasına; neft, təbii qaz, neft məhsulları, neft maşınqayırması, dəmir filizi, sement, kimya, neft-kimya və toxuculuq kimi bir çox məhsullar daxil olmuşdur.

Sənaye məhsullarının ÜDM-dəki payı 2001-ci ildə 37,6% olarkən, 2002-ci ildə əvvəlki ilə nisbətən aşağı düşərək 34,9% olmuşdur. Ancaq, 2003-cü ildən etibarən yenidən yüksələrək, 2008-ci ildə 48,1% olmuşdur.

Qısacası qeyd etmək olar ki, 1996-cı ildən etibarən makroiqtisadi stabilliyin yaradılması ilə birlikdə iqtisadiyyatda ortaya çıxan inkişaf tərsinə çevrilərək, Azərbaycanda yeni sənaye müəssisələri açılmışdır. Həmin vaxtlarda ölkə əhalisinin təxminən 7%-i sənaye sektorunda işlə təmin olunmuşdur.

1990-cı ildən sonrakı dəyişikliklər diqqətə alındıqda, hər nə qədər də ölkədə siyasi stabillik əldə edilmiş olsa da sənaye sektorunda fəaliyyət göstərən müəssisələrin işsizlik problemini həll edə bilmədikləri görülmüşdür. Ölkədə qurulan sənaye müəssisələrinin 90%-i özəl sektora aid kiçik və orta həcmli müəssisələr olmuşdur.

Daha əvvəl mövcud olan sənaye müəssisələri isə köhnəlmiş texnologiyalara malik və məhsuldarlığı aşağı olan müəssisələr idi. Buna görə də, Azərbaycanda neft və mədən məhsullarının böyük bir hissəsi xammal və yarımməhsul halında satılırdı. Neft hasilatı texnologiyaları, emal sənaye sektoru və buna bağlı olan maşınqayırma sektoru Azərbaycan sənayesinin 1/5 hissəsini təşkil edirdi. Ancaq, emal sənayesi ilə yanaşı, digər sektorlarda olduğu kimi sənaye sektorunda da müəssisələrin əksəriyyətinin xaricdən (keçmiş SSRİ ölkələrindən) asılı olması, zavodların böyük hissəsinin yararsız vəziyyətə düşməsinə səbəb olmuşdur.[2]

Müstəqillikdən sonrakı dövrdə, emal sənayesində istehsal miqdarı baxımından 2000-ci ilə qədər geriləmə müşahidə olunmuşdur. Polad istehsalı ilə birlikdə kağız və meşə materialları, inşaat materialları, toxuculuq kimi digər emal sənayelərində də oxşar vəziyyətə rast gəlmək mümkün idi.

Toxuculuq və digər istehlak malları istehsal edən sektorlar isə, idxal olunan mallar ilə rəqabət aparmaqda çətinlik çəkirdilər. Ölkədə pambıq məhsullarının toxuculuq sənayesində istifadəyə hazır şəkildə inkişaf etdirilməsi vacib idi. Çünki, istehsal olunan pambığın böyük bir hissəsi xammal şəklində xarici ölkələrə satılır, daha sonra isə toxuculuq fabrikləri istifadə etdikləri parçaları xaricdən ölkəyə idxal edirdilər. Bu səbəblə də qeyri-neft sektorlarının inkişaf etdirilməsinə dair proqramlarda emal sənayesinin inkişaf etdirilməsi hökumətin əsas hədəflərindən biri olmuşdur.

Belə ki, ilk dəfə olaraq 2003-cü ilin noyabr ayında Azərbaycan Respublikası Prezidenti İlham Əliyev “Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsi tədbirləri

haqqında" fərman imzalamışdır. Bu tarixi sənəddə qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsi nəticəsində iqtisadi və investisiya şəraiti xeyli yaxşılaşdırılmış, yeni istehsal obyektləri və iş yerləri açılmış, qeyri-neft sənayesinin daha sürətlə inkişaf etdirilməsi üçün real imkanlar yaradılmışdır. [2]

Ölkəmizdə aparılan iqtisadi islahatların uğurlu nəticəsidir ki, son illərdə iqtisadi artım, qeyri-neft sektorunun iqtisadi inkişafında, iqtisadiyyatın şaxələnməsində, sahibkarlığın və regionların inkişafında, əhalinin maddi rifah halının yüksəlməsində yeni uğurlu nailiyyətlər əldə edilmişdir.

Azərbaycanda aparılan islahatlar, düşünülmüş siyasət ölkəmizin hərtərəfli inkişafına təkan vermişdir. Bu gün Azərbaycan gələcəyə çox böyük ümidlərlə və nikbinliklə baxır. Bunun əsas səbəbi iqtisadi müstəqillikdir, iqtisadi gücümüzdür və siyasi iradədir. Son on il ərzində Azərbaycan dünyada ən sürətli templərlə inkişaf etmişdir və iqtisadiyyatımız 3,4 dəfə artmışdır. Bunun başlıca səbəbi aparılan islahatlar, ölkəmizdə hökm sürən sabitlik və ictimai asayişdir. Əlbəttə ki, sabitlik və düşünülmüş siyasət iqtisadi sahədə inkişafa da gözəl şərait yaratmışdır.

Respublikada əldə edilmiş bütün bu nailiyyətlər statistik göstəricilərdə də əks olunmuşdur. Qeyd edildiyi kimi, iqtisadiyyat 3,4 dəfə, sənaye istehsalı 2,7 dəfə, kənd təsərrüfatı 1,5 dəfə artmışdır. Ölkədə 1 milyon 200 min iş yeri açılmışdır ki, onların 900 mini daimi iş yeridir. Yoxsulluq təqribən 50%-dən 5,3%-ə düşmüşdür. İşsizlik 5% təşkil etmişdir. Xarici dövlət borcumuz 8% təşkil etmişdir. Bu göstəricilərə görə Azərbaycan hətta bir neçə inkişaf etmiş ölkələri qabaqlamışdır.

Eyni zamanda, sahibkarlığın inkişafına çox böyük diqqət göstərilmişdir. Xüsusilə sahibkarların ölkə iqtisadiyyatına sərmayə qoyuluşunu təmin etmək üçün dövlət tərəfindən konkret proqramlar icra olunmuşdur və maliyyə resursları cəlb edilmişdir. Sahibkarlığa Kömək Milli Fondu hesabına 1 milyard 200 milyon manat investisiya qoyulmuşdur. Sahibkarlara güzəştli şərtlərlə kreditlər verilmişdir. Sahibkarlığın inkişafı üçün xüsusi tövsiyə planları da tərtib edilmişdir. Ölkə iqtisadiyyatında ən çox lazım olan sahələri inkişaf etdirmək üçün artıq Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə kreditlər ayrılmışdır.

Beləliklə, son illər Azərbaycan Respublikasında həyata keçirilən hərtərəfli əsaslandırılmış iqtisadi siyasətin və davamlı iqtisadi islahatların, habelə reallaşdırılan uğurlu sənaye siyasətinin nəticəsi olaraq ölkə iqtisadiyyatda, habelə sənayedə inkişaf prosesləri güclənmiş, sənayenin bütün sahələrində qeyri-dövlət sektoru formalaşmış, ümumi sənaye istehsalında artım dinamikası qeydə alınmış, ölkənin xarici ticarət dövriyyəsi kəskin artmış və ölkənin beynəlxalq inteqrasiyası güclənmişdir.[3]

Son illər ölkə sənayesində baş verən inkişaf proseslərinin təhlili göstərir ki, bu inkişaf dinamikasının lokomotivi rolunda neft sənayesi çıxış etməkdədir. Ölkədə neft və qaz hasilatı və ixracı həcmlərinin sürətlə artması, bunun nəticəsində ölkənin böyük ixrac gəlirlərinin əldə etməsi, əldə edilən gəlirlərin ölkənin sosial-iqtisadi inkişaf problemlərinin həllinə yönəldilməsi, ölkədə yoxsulluğun azaldılması və regionların inkişafı sahəsində davamlı siyasətin həyata keçirilməsi, əlverişli biznes mühitinin yaradılması, istehsal və sosial infrastrukturlu obyektlərinin tikintisi və yenidən qurulması, xarici ticarətin artması, beynəlxalq iqtisadi inteqrasiyanın dərinləşməsi,

habelə iqtisadi siyasətin digər addımları iqtisadiyyatda ciddi struktur dəyişikliklərinə gətirib çıxarmışdır. Bu proseslərin sənaye istehsalının strukturuna təsirinin araşdırılması ölkədə istehsalın inkişafının stimullaşdırılması sahəsində dövlət siyasətinin hazırlanması baxımından mühüm əhəmiyyət kəsb edir.

Bütün bunları əsas tutaraq demək olar ki, ölkədə emal sənayesinin dayanıqlı və davamlı inkişafının təmin edilməsinə investisiya qoyuluşlarının həcm və strukturu birbaşa təsir göstərir. Buna görə də, əsas kapitala investisiya qoyuluşlarının prioritetləşdirilməsi emal sənayesinin gələcək davamlı inkişaf istiqamətlərinin müəyyən olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Emal sənayesində investisiya qoyuluşunun prioritet istiqamətlərinin seçilməsi zamanı həm mikro, həm də makro amillər nəzərə alınmalı, prioritetləşdirmə hər iki səviyyə üzrə baş verməlidir. İnvestisiya qoyuluşlarının prioritet istiqamətlərini müəyyən edərkən – ilk növbədə, resursların emal sənayesi müəssisələrinin ayrı-ayrı sahələrinə yönəldilməsi və onun digər sahələrin davamlı inkişafı üçün əsas olmasını nəzərə almaq zəruridir.[3]

Bütün bunlar onu deməyə əsas verir ki, respublikamız yaxın gələcəkdə iqtisadi inkişaf göstəricilərinə görə dünyanın bazar innovasiyayönümlü iqtisadiyyatı inkişaf etmiş ölkələr sırasında rəqabətə davamlılıq səviyyəsində aparıcı dövlətlərdən birinə çevriləcəkdir. Gələcək illərdə ölkədə makroiqtisadi sabitlik qorunub saxlanılacaq, iqtisadiyyatın şaxələnməsi – diversifikasiyasının həyata keçirilməsi sürətlənəcək, qeyri-neft sektorunun və regionların iqtisadi inkişafı sürətlənəcək, valyuta ehtiyyatlarının səmərəli idarə edilməsi və milli valyutanın sabitliyi təmin olunacaq, sahibkarlığa dövlət dəstəyi gücləndiriləcək, özəl bölmənin inkişafı üçün azad rəqabət və münbit investisiya mühiti daha da yaxşılaşacaq, əhalinin sosial rifahı daha da yüksələcəkdir.

## 1. TƏDQİQATIN ELMİ YENİLİYİ

Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- Azərbaycanın emal sənayesi müəssisələrinin dayanıqlı və davamlı iqtisadi inkişafının makroiqtisadi aspektləri və əsas mərhələləri prinsipləri təklif edilmişdir;

- emal sənayesi müəssisələrinin rəqabətədavamlı inkişafına təsir edən amillərin kompleks şəkildə tədqiqi aparılmışdır;

- emal sənayesi müəssisələrinin dayanıqlı və davamlı iqtisadi inkişafa təsirinin qiymətləndirilməsinin yeni metodiki əsasları işlənib hazırlanmışdır;

- emal sənayesi müəssisələrinin dayanıqlı və davamlı iqtisadi inkişaf strategiyasının proqnoz modelləri işlənib hazırlanmışdır;

- emal sənayesi müəssisələrinin dayanıqlı və davamlı iqtisadi inkişafında dövlət siyasətinin strateji istiqamətləri təklif edilmişdir;

- emal sənayesi müəssisələrinin dayanıqlı və davamlı iqtisadi inkişafının strateji idarəedilməsi yolları müəyyən edilməsinə dair konkret təklif və tövsiyyələr hazırlanmışdır.

## 2. NƏTİCƏ VƏ TƏKLİF

1. Emal sənayesi müəssisələrinin yüksək rəqabətədavamlı məhsullarının istehsalını
2. stimullaşdıran aşağıdakı digər tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab edirik:

- yeni və ya təkmilləşdirilmiş məhsul növlərinin yaradılması ilə bağlı aparılan elmi-tədqiqat işlərinin vergilərdən azad edilməsi;

- vergiqoyma sistemində innovasiya üzrə elmi-tədqiqat və təcrübə-konstruktor işlərinə, patentləşdirmə xərclərinə məhdudiyyət qoyulmasının aradan qaldırılması;

- innovasiya fəaliyyətinin reallaşdırılması məqsədilə istifadə edilən əsas vəsaitlərin amortizasiya normalarına güzəştli əmsalların tətbiq olunması;

- emal sənayesi müəssisələrində innovasiya fəaliyyətini həyata keçirmək üçün güzəştli dövlət və bank kreditlərinin tətbiq olunması;

- innovasiya menecmenti və marketinqinin təşkili, layihələrin idarə edilməsi, müasir texnikanın layihələndirilməsi və istismarı üzrə ixtisaslı mütəxəssislərin hazırlanmasına dövlət dəstəyinin reallaşdırılması və sair

2. Respublikamızın emal sənayesi müəssisələri rəqabətli bazar münasibətlərinin formalaşdığı qloballaşan dünyada fəaliyyət göstərməyə hələ də tam hazır deyil. Buna görə də dövlətin "sənaye siyasəti" qanunun qəbul edilməsi məqsədəuyğun hesab etmək olar. Bu qanun çərçivəsində emal sənayesi kompleksində struktur dəyişikliklərin aparılması, onun istehsal və elmi-texniki potensialının inkişafını təmin edən maksimal əlverişli şəraitin yaradılması məsələləri öz əksini tapmalıdır.

## 7. ƏDƏBİYYAT SİYAHISI

1. Əfəndiyev, S.Q. Azərbaycan Respublikasında emal sənayesi müəssisələrinin iqtisadi inkişafda rolu və onun təkmilləşdirilməsi mexanizmləri // "Boloniya təhsil prosesində universitet-sənaye əlaqələrinin müasir problemləri" adlı Beynəlxalq Simpozium. – Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Texnologiya Universiteti. – Gəncə, Azərbaycan Texnologiya Universiteti: – 30 aprel-1 may, – 2016, – s. 336-337

2. Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün DÖVLƏT PROQRAMI

3. "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 26 dekabr 2014-cü il.

**№ 1/2020** **səh.60 - 65**

## THE ROLE OF AZERBAIJANI PROCESSING INDUSTRIAL ENTERPRISES IN ECONOMIC DEVELOPMENT

**Efendiyev Sadiq Gehreman**

**SUMMARY.**The article examines the current state of the sustainable and sustainable economic development of the processing industry in Azerbaijan. At the same time, the article examines and briefly characterizes the role of manufacturing enterprises in sustainable economic development.

**Keywords:**Sustainable and sustainable economic growth , development problems, industrial development policy , management structure , production products.

## РОЛЬ АЗЕРБАЙДЖАНСКИХ ПЕРЕРАБАТЫВАЮЩИХ ПРОМЫШЛЕННЫХ ПРЕДПРИЯТИЙ В ЭКОНОМИЧЕСКОМ РАЗВИТИИ

**Ефендиев Садиг Гахраман**

**РЕЗЮМЕ.**В статье рассматривается современное состояние устойчивого и устойчивого экономического развития перерабатывающей промышленности в Азербайджане. В то же время в статье рассматривается и кратко описывается роль производственных предприятий в устойчивом экономическом развитии.

**Ключевые слова:**устойчивый и устойчивый экономический рост , проблемы развития , политика промышленного развития , структура управления , производство продукции.

Redaksiyaya daxilolma 20.02.2020
Çapa qəbul olunma 05.04.2020

**№ 1/2020** **səh.66 - 70**

# BANK SEKTORUNDA MARKETİNQİN VƏ İNFORMASİYA TEXNOLOGİYALARININ ROLU

**Qurbanova Xatirə Vəli qızı**

**Azərbaycan Texnologiya Universiteti (UTECA)**
**Gəncə şəhəri, Ş. İ.Xətai pr. 103**
**xatira-leyli @mail.ru**

***Xülasə:* Dövlətlər vətəndaşların tələblərini təmin etmək üçün elektron xidmətlərin yaranması və tərəqqisi üçün məlumat sistemlərini inkişaf etdirməlidirlər. Xüsusilə alternativ bankçılığın inkişafı mütləqdir çünki, bu xidmət növü vaxta qənaət edərək müştərilərin evdən və ya ofisdən çıxmadan öz kartlarındakı vəsaitlə və yaxud cari hesabla işləməyə şərait yaradır. Bankçılıq xidmətlərinin növü kimi şöbələrdən kənarda olan bankçılıqdan əlavə ofislərdə və evlərdə tətbiq edilən bankçılığı da nümunə göstərmək mümkündür. Bu xidmətlərdən yararlanmaq üçün müştərilər öz mikro kompyuterindən və eyni zamanda videomətin sistemlerindən istifadə edirlər. İnformasiya və rabitə sahəsindəki tərəqqi səviyyəsinin iqtisadiyyata olan təsiri hal-hazırda ən aktual məsələlərdən biridir.**

***Açar sözlər:* marketinq, əmtəə, xidmət, bazar, informasiya, məhsul, elektron xidmət, bank sektoru**

**Giriş**: Ümummilli lider Heydər Əliyevin belə bir fikri var: "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir". Müasir günümüzdə bu fikrin təsdiqini ölkəmizin dinamik sosial-iqtisadi inkişafında daha aydın görürük. Hamımıza məlumdur ki, iqtisadi inkişafa nail olmadan heç bir sahədə uğur qazanmaq mümkün deyil. Təbii ki, müasir iqtisadiyyatın inkişafı iqtisadi idarəetmənin əsasları üzərində qurulur. Bu əsaslar isə müasir istehlakçıların tələb və maraqlarının tam ödəndiyi zaman düzgün istiqamətə yönəlir və bu yanaşmada "marketinq" dediyimiz fəaliyyət növü önə çıxır. Bu gün bütün sahələrin inkişafı marketinq fəaliyyəti üzərində qurulub.[1]

Bank sistemində marketinqin prinsiplərinin genişlənməsi və marketinqin strateji bank planlaşdırılmasına daxil edilməsi 80-ci illərdən start götürməyə başladı. Uzun müddət banklar öz iş ənənələrinə əsaslanaraq strateji planlaşdırmaya və marketinqə lazımi əhəmiyyət vermirdilər. 60-cı illərin ortasına qədər banklar iş fəaliyyətində praktiki olaraq reklam ilə məşğul olmurdular. Bu dövrün sonuna yaxın reklam kompaniyası keçirildi və bunun da məqsədi hər hansı bir konkret banka diqqətin cəlb edilməsi deyil, sadəcə bank fəaliyyətinin məşhurlaşması idi. Yalnız 70-ci illərdə müxtəlif banklar öz müəssisələrinin və onların fəaliyyətinin reklamına ciddi yanaşdılar. Məhz bu zaman bank xidmətləri arasında marketinq xidmətindən söhbət açmaq mümkün oldu. 80-cı ildə banklar marketinqin bütün üsullarına yiyələndilər və öz fəaliyyətinin strateji planlaşdırılması ilə fəal məşğul olmağa başladılar. 80-ci illərin ikinci yarısında ABŞ-da bank marketinqi kommersiya bankının idarə sistemində bütövlük təşkil edirdi. Bu müasir şərait onunla səciyyələnirdi ki, banklar bu problemə diqqəti artırırdılar. Bu prosesin əsasında iki ənənə dururdu ki, bu da bütün dünya iqtisadiyyatı üçün xarakterikdir:

– bank institutlarının və xidmətlərinin beynəlmilləşdirilməsi
– maliyyə bazarının ikili tənzimlənməsi.

Xarici bankların təcrübəsində bank öz marketinqinə istehlakçı tapılmasının aləti kimi yanaşmır. Bank marketinqi aşağıdakı məsələləri həll edir:

1. Mövcud və potensial bazarların bank fəaliyyətinin müəyyənləşdirilməsi;
2. Konkret bazarların seçilməsi və sifarişçinin ehtiyaclarının müəyyənləşdirilməsi;
3. Mövcud və yeni xidmət növlərinin uzun və qısamüddətli məqsədlərinin müəyyənləşdirməsi;
4. Yeni xidmət növlərinin təcrübədə tətbiqi və bankın həmin proqramın reallaşdırılmasına nəzarəti.[2]

Müasir dövrdə İKT iqtisadiyyatın rəqabət qabiliyyətliliyini yüksəldərək onun dünya təsərrüfatı sisteminə inteqrasiyası imkanlarını, dövlət idarəçiliyinin və bələdiyyənin əlverişliliyini yüksəltməyə şərait yaradır. İT-nın tərəqqisi cəmiyyəti keyfiyyətcə müasir mərhələyə - informasiya cəmiyyətinə çevirir. İKT cəmiyyətin və eyni zamanda iqtisadiyyat sahəsinin tərəqqisinə xüsusilə təsir göstərdiyindən dinamik olaraq sosial və iqtisadi həyatın sahələrinin hamısında tətbiq edilir. Müasir dövrdə İKT-nin çevrəsi qeyri-hökümət təşkilatlarını, hökümət təşkilatlarını, özəl qurumları, iqtisadi-sosial, siyasi- ictimai, elm-mədəniyyət, təhsil və s. sahələrini əhatə edir. İnformasiya texnologiyalarının sürətlə tərəqqi etdiyi bir dövrdə dünya ölkələrində olan banklar ənənəvi üsulları dəyişərək, müasir texnologiyalardan istifadə etməyə cəhd etdiyindən və bu sahəyə diqqət yetirlir. İnformasiya inqilabı dövrünü yaşayan Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra XXI-ci əsrdə mütəmadi iqtisadi tərəqqi mərhələsinə keçid etmişdir.

**Tədqiqatın metodikası:** Tədqiqatın əsasını internet resurslarında mövcud olan mənbələr, ədəbiyyatlar, mövcud ədəbiyyatlar təşkil edir.

**Tədqiqatın praktiki əhəmiyyəti:** Sosial media marketinqi ilə bağlı irəli sürülmüş tövsiyyələr bank sektorunun sosial media marketinq fəaliyyəti ilə bağlı problemlərin təhlili və həlli yolunda əhəmiyyətli ola bilər. Sosial media marketinqin inkişaf yolunda həmçinin, bu sahədə müxtəlif elmi tədqiqatlarda və tədris proseslərində və s. istifadə oluna bilər.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

Bank marketinqini bank xidmətlərinə cəmiyyətin tələbatının aşkar edilməsi və bu xidmətlərdən istifadə edilməsi sistemi kimi də müəyyən etmək olar. Bank marketinqinin məqsədi bankın fəaliyyətinin maliyyə bazarının tələblərinə və daima dəyişən mühit amillərinə uyğunlaşdırılması üçün zəruri olan şəraitin yaradılması hesabına zəruri onun rəqabətə davamlılığının və mənfəətliliyinin yüksəldilməsidir. Mahiyyət etibarı ilə bank marketinqi bankı bazarla əlaqələndirən halqa kimi çıxış edir. Onun köməyi ilə bank bazar, onun xüsusiyyətləri və tələbatları, müştərilərin istəkləri və rəqabətin vəziyyəti müxtəlif çeşidli informasiya ala və müxtəlif metodlarla bazara təsir edə bilir. Başqa sözlə desək, marketinqin köməyi ilə bankın bazar subyektləri ilə birbaşa və əks əlaqəsi realizə olunur. Tarixən xidmət sferası müəssisələri fəaliyyətlərində marketinqi sənaye müəssisələrindən xeyli gec tətbiq etməyə başlamışdır. Xidmət sferasında marketinqdən birinci dəfə aviakompaniyalar, sonra isə banklar istifadə etməyə başlamışdır. Bu bir sıra səbəblərlə, birinci növbədə, bank xidmətləri sahəsində rəqabət mübarizəsinin kəskinləşməsi və ətraf mühitdə baş verən ciddi dəyişikliklərin baş verməsi nəticəsində bank fəaliyyətinin pisləşməsi ilə izah edilir. Bank işində pul kapital təklifi ilə ona olan tələbin uzlaşdırılması sayəsində bank əməliyyatlarının və xidmətlərinin yeni orijinal növləri tətbiq edilir. Amerika bank sistemini tədqiq edən C. F. Sink keçən əsrin 90-cı illərində maliyyə sferasında baş vermiş dinamik dəyişikliklərin aşağıdakı 5 əsas səbəbini göstərir:

1. Elmi-texniki tərəqqi: elektronikanın, avtomatlaşdırmanın və telekommunikasiyanın inkişafı bank əməliyyatlarının yerinə yetirilməsi texnologiyasının dəyişməsinə, bu isə maliyyə-

kredit institutlarının milli və regional əhatə dairəsinin genişlənməsinə (bank sektorunda rəqabətin qloballaşmasına) səbəb olur. Bank işinin kompyuterləşdirilməsi "maliyyə inqilabının" ilkin zəruri şərti olmuşdur. Bununla eyni zamanda bank əməliyyatlarının yerinə yetirilməsi texnologiyasının inkişafı maliyyə xidmətləri sahəsinə daxilolmanı kəskinləşdirə bilər.

2. Rəqabət: inkişaf etmiş ölkələrin əksəriyyətində həyata keçirilmiş və maliyyə fəaliyyəti sahəsində mövcud olan məhdudiyyətlərin və qadağaların "yumşaldılması" və ya tamamilə aradan qaldırılmasına yönəldilən qanunvericilik islahatları rəqabətə əngəl olan maneələrin zəifləməsinə səbəb olmuşdur. Hal-hazırda bank xidmətləri bazarı, demək olar ki, dünyanın bütün ölkələrində kifayət qədər müdafiə olunmur, hər bir konkret ölkənin bankı, həmin ölkənin və başqa ölkələrin digər banklarının və qeyri-bank kredit institutlarının kəskin rəqabəti ilə qarşılaşır. Bank sferasında rəqabət mübarizəsinin daha sərt xarakter almasının başlıca səbəblərindən biri bank məhsullarının patent müdafiəsinin olmamasıdır. Bankın hazırladığı istənilən məhsul dərhal digər banklar tərəfindən təqlid oluna və müştərilərə təqdim oluna bilər.

3. Faiz stavkalarının və valyutanın kursunun mütəmadi dəyişkənliyi: iqtisadi çətinliklərlə (istehsalın həcminin azalması, tədiyyə balansında böhranlar, inflyasiya, ölənilməmiş xarici borcların həcminin artması, daşınmaz əmlak əməliyyatlarının həcminin azalması) və digər neqativ amillərlə əlaqədar olaraq kapital bazarında qeyrimüəyyənliyin artması pul bazarında faiz stavkalarının ciddi surətdə yüksəlməsinə gətirib çıxarmışdır. Bu isə inamsızlıq səviyyəsinin və bankların faiz risklərinin artmasına səbəb olur və bankların iqtisadiyyatın və maliyyənin vəziyyətinin dəyişməsindən asılılığını daha da artırır.

4. Müştərilər uğurunda mübarizənin daha sərt xarakter alması. Əvvəllər – banklar mütləq hakimiyyətə malik olduğu vaxtlarda onlara müştəri arxasınca qaçmaq lazım gəlmirdi. Bank və bank fəaliyyəti haqqında qanunvericiliyin liberallaşdırılması bank sferasında rəqabətin kəskinləşməsinə və bankların izafi gəlirlərinin azalmasına səbəb oldu. Rəqabət mühitində müştərilərə yeni xidmətlərin göstərilməsi və onların marketinqi bank fəaliyyətinin uğurunun açar faktoru oldu.

5. Kapitalın adekvatlılığı və ya kifayət miqdarda olması, yəni bankın xüsusi kapitalı və cəlb edilmiş kapital arasındakı nisbət. Kapitalın kifayət qədər olması bankın riskə meylli olmasını təsdiq edən göstəricidir. Kapitalın səviyyəsinin yüksək olması müştərinin banka inamını artırır və həm bankın, həm də müştərilərin riskini azaldır. Qeyd edilənlərdən başqa bank fəaliyyətində marketinq prinsiplərinin tətbiqi

Ölkəmizdə də müasir bank sisteminin qurulması və beynəlxalq təcrübəyə uyğunlaşdırılması üçün ciddi addımlar atılmışdır. Son illərdə Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının tərəqqisinin mühüm istiqamətləri bank xidmətlərinə tam tətbiq olunur. Bir çox banklar müasir texnologiyalardan istifadəyə imkan verən internet bankçılıq xidməti göstərirlər. Bu isə vətəndaşların dünyanın istənilən yerində müxtəlif əməliyyatları həyata keçirməyi asanlaşdırır. Nağdsız ödəniş sistemi ödəmənin ən əlverişli üsullarıdan olduğuna görə hazırda bu üsula daha çox üstünlük verilir. Ölkəmizdə istifadə olunan elektron cüzdan (ewallet) Paysis şirkəti tərəfindən yaradılan E-Pul onlayn ödəniş sistemini misal göstərmək olar. E-pul ölkə ərazisində üç ildən artıq müddətdir ki, fəaliyyət göstərir lakin nağdsız ödənişlərin payı hələki azdır və 5-6% təşkil edir. Bu sahənin ölkə 70 ərazisində inkişafını təmin etmək üçün dövlət dəstəyinə və beynəlxalq təşkilatların təcrübələrinin tətbiqinə ehtiyac vardır.

Müasir cəmiyyətdə banklar müxtəlif çeşidli əməliyyatlar yerinə yetirirlər. Onlar vasitəsi ilə yalnız pul dövriyyəsinin və kredit münasibətlərinin təşkili təmin edilmir, həm də milli

iqtisadiyyatın maliyyələşdirilməsi, sığorta əməliyyatları, qiymətli kağızların alqı-satqısı, bəzi hallarda isə vasitəçilik əqdləri və əmlakın idarə edilməsi həyata keçirilir. Banklar maddi istehsal sferası müəssisələrindən – sənayedən, kənd təsərrüfatından, tikintidən, nəqliyyatdan, rabitədən və s. fərqli olaraq, tədavül sferasında fəaliyyət göstərirlər.

Banklar resurslar alır və bu resurları müxtəlif şəxslərə satırlar, resursların yenidən bölüşdürülməsini həyata keçirir, yeni məhsulların hazırlanmasına, məhsulların mübadiləsinə, yeni istehsal obyektlərinin yaradılmasına və s. yardım edirlər.[2]

## NƏTİCƏLƏR

Aparılan araşdırmalar və təhlillər bir daha sübut edir ki, modern dövlət iqtisadiyyat sahəsinin innovativ əsaslarda təkmilləşdirilməsi, onun post sənaye pilləsindən tərəqqi edərək təzə mərhələyə-informasiya iqtisadiyyatının inkişafı pilləsinə keçid etməsi son dərəcə əhəmiyyətlidir. Bu istiqamətdə həyata keçirilən innovasiya nailiyyətlərindən biri ənənəvi bank texnologiyalarının e-banklarla əvəzlənməsidir. Bu texnologiya nəinki cəmiyyətə e-xidmət göstərilməsinin artırılmasına təsir edir həmçinin qısa müddət ərzində iqtisadi inkişafı intensivləşdirir. Alternativ bank texnologiyalarının texniki, proqram təminatı və eyni zamanda infrastruktur vahidi nöqteyi-nəzərindən tərəqqisi, yer üzündə cərəyan edən tendensiyaların əsas götürülməsi, texnologiyanın bir neçə keyfiyyətlərindən yararlanmaq zərurəti onu məlumat iqtisadiyyatının yaradılması mexanizmlərindən birinə çevirmişdir. Bu səbəbdən də elektron bank texnologiyaları modern İKT-nin və iqtisadi tərəqqidə pul-kredit əlaqələrinin uğurlarının sintezi hesabına daha da təkmilləşdirilməli və tətbiq dairəsi böyüdülməlidir.

**Tədqiqatın elmi yeniliyi:** İnternet bankçılığın inkişafı etdirilməsi üçün ölkə ərazisindəki bankların rəqabət qabiliyyətli mühitdə fəaliyyətinin genişləndirilməsi. E-marketinqdən istifadə mexanizminin sadələşdirilməsi və bu xidmət üzrə müştərilərin eyniləşdirilməsi üçün ölkəmizdə minimal tələblərin müəyyənləşdirilməsi; Bank müştərilərinin e-bankçılıq xidmətlərindən təhlükəsiz istifadəsi haqda inamının artırılması.

## ƏDƏBİYYAT

1. 2014-2018-ci illərdə AR regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı
2. Məmmədov Z.F. Bank fəaliyyətinin əsasları, Bakı., 2013, 269s;
3. Черчилль Г.А., Маркетинговые исследования - СПб.: Питер., 2013. с.248
4. Verdiyev N.D “ İnformasiya iqtisadiyyatı”, Gəncə. 2012. 165s;
5. Черчилль Г.А., Маркетинговые исследования - СПб.: Питер., 2013. 248с;
6.Şərq qapısı” gündəlik ictimai siyasi qəzet. Təsisçi Naxçıvan Muxtar Respublikası Ali məclisi və Nazirlər kabineti., 2014.
7. İnternet resursları

## РОЛЬ МАРКЕТИНГОВЫХ ИНФОРМАЦИОННЫХ ТЕХНОЛОГИЙ В БАНКОВСКОМ СЕКТОРЕ

**Курбанова Хатира Вели кызы**

**РЕЗЮМЕ.**Государствам следует разработать информационные системы, способствующие появлению электронных услуг для удовлетворения потребностей граждан. В частности, развитие альтернативного банкинга имеет важное значение, так как

этот вид услуг позволяет клиентам, экономящим время, работать с денежными средствами на своих карточках или текущих счетах, не выходя из дома или офиса. Можно привести пример банковского дела, применяемого в пунктах раздачи офисов, свиязи между соседями за пределами филиалов например, виды банковских услуг. Чтобы воспользоваться этими услугами клиенты используют свои компьютеры и видео системы. Влияние уровня прогресса в области информации и коммуникации на экономику является одной из самых актуальных проблем сегодня.

**Ключевые слова:** маркетинг, товар, услуга, рынок, информация, продукт, электронный сервис, банковский сектор.

## ROLE OF THE İNFORMATİON TECHNOLOGİES OF THE MARKETİNG İN THE BANK SEKTOR

**Kurbanova Xatira Vali**

**SUMMARY.**States must develop systems information for arising and progress of the electron services for (the) securing (providing) (the) demands of the citizens. Development of alternative banking is absolute especially, because kind of this service of the buyers with/by means card home (house) or go out (climb) from (the) office economizing (on) to (the) period (time), or count and he (she, it) creates conditions to work current. From banking being (been) from departments in the edge as (like) kind of the banking services banking applied in (the) addition offices and homes (houses) is possible to hold up as an example. Buyers for (the) profitting (by) from these services from (the) micro computer and they at the same time use from video text systems Influence being (been) of the level of progress in (the) area of information and communication is/are one (of) the most urgent problems at present.

**Key words:** Marketing, commodity, service, market, information, harvest (product), electron sector of service, bank

Redaksiyaya daxilolma 15.12.2019
Çapa qəbul olunma 05.04.2020

**№ 1/2020** **səh.71 - 76**

**UOT 338.43**

# AQRAR SEKTORUN İNNOVASİYA YÖNÜMLÜ İNKİŞAFININ ƏHƏMİYYƏTİ

*[1]Fazil İsmayıl oğlu İsmayılov*
*[2]İsmayılov Kamran Mürsəl oğlu*

**[1]Azərbaycan Texnologiya Universiteti**
**[2]Gəncə şəh., Ş.İ.Xətai pr., 103**
**AMEA-ı İqtisadiyyat İnstitutu**
**H.Cavid prospekti 115**

*[1]t.x.gdptm@mail.ru*

**Xülasə: Məqalədə son illər respublikamızda iqtisadiyyatın strukturunun dəyişməsi prosesindən, müstəqillik dövründə qəbul edilən çevik və təmkinli qərarların müsbət nəticəsindən, dünya praktikasının ən son modern nümunələrini və sürətli inkişafın ahənginə uyğun qabaqcıl innovasiyaları Azərbaycana tranzit etməkdən, Azərbaycanda fəaliyyət göstərən müəssisələrdə tətbiq olunan texnologiyaların ən son nəsil avadanlıqlar olmasından, regionlarda geniş innovasiya strukturunun yaradılmasının zəruriliyindən bəhs olunur.**

**Açar sözlər: İnnovasiya, iqtisadi çağırışlar, innovativ iqtisadiyyat, elmi proqnozlar, strateji istiqamətlər, modernləşdirmə mexanizmləri, dövlət dəstəyi.**

**Giriş:** Azərbaycan Respublikasının iqtisadi siyasətinin əsas istiqamətlərindən biri müasir dövrdə innovativ iqtisadiyyata keçidi sürətləndirməkdən, modernəşdirmə xəttinə uyğun olaraq ölkəmizdə ən qabaqcıl texnologiyaların tətbiq olunmasından və nəticədə regional miqyaslı proqramların icrasına nail olmaqdan ibarətdir. İnnovasiyalar iqtisadiyyatın gələcək inkişafının bütün altsistemlərini özündə birləşdirən ən fundamental strateji istiqamətlərə söykənir. Azərbaycan innovativ iqtisadiyyatın inkişafının əsası olan milli innovasiya sisteminin formalaşdırılması yönündə kifayət qədər reformalar aparıb və təcrübə tətbiqinin ən səmərəli mexanizmlərinin istifadəsinə başlayıb. Liberal iqtisadi vasitələrin sektorial dairəsinin genişlənməsi, azad biznesin institusional strukturunun köklü şəkildə dəyişikliyə uğraması, müasir informasiya və kommunikasiya texnologiyalarının bilik və yeniliklərin intensiv inkişafına xidmət etməsi yeni sistemə keçidin mühüm əhəmiyyətini göstərir. Azərbaycan ən modern innovasiya sisteminin tətbiqinə keçid dövründə dünya təcrübəsinin təhlilini dərindən öyrənib və onların sırasında xüsusi modellərin istifadə olunmasına böyük üstünlük verir.

**Tədqiqatın metodikası**: Tədqiqatın əsasını ölkəmizin və xarici iqtisadçı alimlərin bu problemlə əlaqədar apardıqları tədqiqatlara kompleks şəkildə yanaşılması, hadisə və proseslərin dinamikada öyrənilməsi, təhlil, müqayisə, iqtisadi proqnozlaşdırma metodları, Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin materialları təşkil edir.

**№ 1/2020** **səh.71 - 76**

## MATERIALLAR VƏ MÜZAKIRƏLƏR

Müasir Azərbaycan dövlətinin əsas məqsədlərindən biri XXI əsrin ikinci onilliyində Azərbaycanın yeni iqtisadi siyasətini müəyyən edən, yeni istiqamətlər açan və milli inkişaf konsepsiyasının əsas məzmunu ölkəni irəliyə aparmaq, cəmiyyəti inkişaf etdirmək üçün geniş imkanlar yaratmaqdan ibarət olub. Modernləşmənin iqtisadi bazisini formalaşdıran Azərbaycan müstəqil dövlət kimi, artıq yeni tarixi və iqtisadi şəraitdə iqtisadiyyatın inkişafı problemlərini həll edir, prinsipial baxımdan yeni olan, iqtisadi sərbəstliyə, dünya təsərrüfat sisteminə inteqrasiya etməyə yönəlmiş iqtisadiyyat qurur.

Azərbaycan iqtisadi və siyasi modernləşmənin həyata keçirilməsində çox qətiyyətlidir. Bu halda həmin proseslər fəal sosial qrupların maksimum sayda nümayəndələrini əhatə edəcəkdir. İnnovasiya modernləşməsi inkişafın təkamül yoluna yaxındır, bu isə Azərbaycanın demokratik dəyişməkdə olan dünyada modernləşmə siyasətinin həyata keçirilməsi ölkədə keyfiyyət dəyişiklikləri üçün mühüm stimul deməkdir. Azərbaycan dövləti yeni çağırışlara cavab verən müasir iqtisadiyyatı inkişaf etdirməklə, postindustrial cəmiyyətə keçidi təmin etməklə sosial iqtisadi mühitdə ən dinamik inkişaf frazasında güclü mövqeyə sahib olmağa qadirdir. Bütün bu prinsiplər «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasının hazırlanması ilə bağlı iqtisadi ssenarilərin başlıca məzmununu təşkil edir.

Bu Konsepsiya birbaşa qeyri-neft sektorunun əsas gələcək bazisi kimi aqrar sahənin inkişaf meyillərinə dair prioritetlərlə zəngindir. Azərbaycan iqtisadiyyatı yeni iqtisadi çağırışların astanasındadır və makroiqtisadi, makrososial intibah transformasiyasının realizəsi üçün çoxsistemli reformalara hazırlaşır. Yeni iqtisadi mühitin reallıqları və meydana çıxardığı meyarlar tam modernləşmə formulunun parametrlərini əks etdirməklə inkişaf düsturunun xarakterik cizgiləri innovativ-kreativ iqtisadiyyat quruculuğunu özündə ehtiva edir. İnnovativ iqtisadiyyatda aqrar sektorun modernləşdirilməsi başlıca prinsiplərdəndir. Aqrar sektorun innovasiya-laşdırılması da məhz hazırki yeni onilliyin əsas çağırışı sayıla bilər. [3]

İnkişaf Konsepsiyası aqrar sahənin inkişaf prioritetlərini müəyyən etmək, kənd təsərrüfatının qarşıdakı onillik intibah dövrünün səciyyəvi xüsusiyyətlərini, texnokrat islahatlar paketini, layihə və proqramların hazırlanmasını özündə ehtiva edən fundamental dövlət sənədi sayıla bilər. Burada əsas milli inkişaf tezisləri nədən ibarətdir?

Məlum olduğu kimi «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında adambaşına düşən ümumi daxili məhsulun məbləğinin və ümumilikdə milli məhsulun həcminin yüksəldilməsi əsas prioritetdir. ÜDM-in istehsal həcmi qarşıdakı 10 ildə ən azı 2 dəfə artırılmalıdır. Bunun üçün milli məhsulun əsas gəlir gətirən bölmələri neftdən kənar sahələr olmalıdır. Dövlət iqtisadi sahədə ilk növbədə qeyri-neft sektorunun genişləndirilməsi hesabına davamlı iqtisadi inkişafa nail olmaq niyyətindədir. Bunun üçün iqtisadiyyatın inkişaf istiqamətlərinin şaxələndirilməsinin genişlənməsi, ölkəmizin ümumi daxili məhsulunun tərkibində və dövlət büdcəsinin formalaşmasında təbii ehtiyatlar amilinin azaldılması və qeyri-neft amilinin üstünlüyünün təmin edilməsi, iqtisadiyyatda innovasiyaların tətbiqinin təmin edilməsi üçün güclü motivasiya mexanizmlərinin yaradılması və inkişaf etdirilməsi başlıca şərtlərdir. Bütün bu ana tezislərin mərkəzində isə qeyri-neft iqtisadiyyatının inkişaf etdirilməsi dayanır. Yaxın onillik üçün qeyri-neft iqtisadiyyatının əsas mərkəzi bazası aqrar sektorun üzərində qurulmalıdır.

№ 1/2020 səh.71 - 76

Kənd təsərrüfatı neftdən kənar sahələrin inkişafında motivasiya olunmuş başlıca sektor kimi inkişaf etdirilməli və iqtisadiyyatda dominatlığı təmin etməlidir. Bu məqsədlə aqrar sektorun innovativ meyarlara uyğun qurulması, milli məhsulun ixrac qabiliyyətinin yüksəldilməsi başlıca məqsədlərdən biridir. Nəzərə alsaq ki, Azərbaycan dövləti yeni əsrin ikinci və üçüncü onilliklərində əsas ixrac potensialı kimi qeyri-neft-qaz məhsullarına baxır, onda həmin sahələr kimi kənd təsərrüfatı, sənaye və informasiya-texnologiyaları mühüm yer tutur.

Bu məqsədlərə nail olmaq üçün aqrar sahədə idarəçiliyn təkmilləşdirilməsi mühüm komponentdir. Aqrar sahədə idarəçiliyin təkmilləşdirilməsi islahatların yeni mərhələsinin həyata keçirilməsində mühüm rol oynayır. Hər bir ölkənin innovasiya inkişafının səmərəliliyi aqrar sektorda həyata keçirilən innovasiya siyasəti – elmi-texniki istiqamətlərin düzgün seçilməsi, zəruri iqtisadi şəraitin, o cümlədən kənd təsərrüfatına maliyyə dəstəyinin mövcud olması ilə şərtlənir. Dünya iqtisadiyyatının qloballaşması şəraitində Azərbaycanda aqrar bölmənin sabitliyi və dünya kənd təsərrüfatı bazarına inteqrasiyası, ərzaq təhlükəsizliyinin təmini, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, ilk növbədə, səmərəli elmi nailiyyətlərdən istifadə yolu ilə gerçəkləşə bilər. Bu sahədə yeni proqramların hazırlanaraq həyata keçirilməsi aqrar bölmədə innovasiyaların tətbiqini genişləndirməklə yanaşı, sahibkarlığının inkişafına təkan verər, eyni zamanda yeni iş yerlərinin açılmasını təmin edə bilər. [1]

Aqrar sektorda innovasiya sistemi maddi-texniki resursların mövcudluğu və elmi-texniki potensialla müəyyənləşir. İnnovasiya siyasətinin məqsədi məhsulun rentabelli istehsalı, makrosəviyyədə isə innovasiya fəallığının artırılması üçün şəraitin yaradılması, elmi mexanizmlərin formalaşdırılmasından ibarətdir. Məhz həmin mexanizmlərin köməyi ilə istehsalın təşkilati, iqtisadi, texniki və texnoloji yeniləşdirilməsi prosesi həyata keçirilir. İnnovasiya siyasətinin formalaşdırılmasında bir sıra mühüm amillərin nəzərə alınması vacibdir. Ümumiyyətlə, müasir dövrün reallıqları innovasiya bazarında, iqtisadiyyatda, məhsulların və texnologiyaların çeşidində strateji dəyişikliklərin qabaqcadan proqnozlaşdırılması, innovasiya qərarlarına müvafiq münasibət bildirilməsi və onların dəstəklənməsi üçün zəruri tədbirlərin hazırlanması, innovasiya dinamikasının ilkin şəraitinin aşkar edilməsi kimi faktorları vacib və təxirəsalınmaz bir şəkildə gerçəkləşdirməyi tövsiyə edir. İnnovasiya fəaliyyətinin səviyyəsi kadrların təhsilindən, texniki-texnoloji hazırlıq səviyyəsindən, baza ixtisasının mövcud olub-olmamasından asılıdır. Bu amil innovasiyanın qavranılmasını və istehsalatda onun istifadəsindən gözlənilən səmərənin əvvəlcədən qiymətləndirilməsini təmin edir. Bazar iqtisadiyyatı şəraitində çoxukladlı kənd təsərrüfatının səmərəliliyi mütəxəssislərin hazırlıq səviyyəsindən və işgüzar keyfiyyətlərindən asılıdır. Azərbaycanın aqrar elmi fəal innovasiya siyasətinin həyata keçirilməsini təmin etmək üçün hazırda zəruri potensiala malikdir. Respublikamızda sanballı elmi araşdırmalar aparmağa, səmərəli innovasiya məhsulları yaratmağa qadir, intellektual səviyyəli elmi kadr potensialı mövcuddur. Azərbaycanın təbiət elmləri-xüsusən biologiya və kənd təsərrüfatı sahələri daim inkişafda olmaqla, dünya elminə davamlı inteqrasiya edir. Bu sahə üzrə gənc alimlərin son zamanlar xarici ölkələrdə qazandığı böyük uğurlar buna əyani nümunə ola bilər.

Arqar sahədə innovasiyların bazası birbaşa yeni elmi kəşflərə əsaslanır, elmi-iqtisadi-nəzəri biliklərin iqtisadiyyata tətbiqi yolu ilə tənzimlənir. Araşdırma və təhlillər göstərir ki, kənddə azad sahibkarlığı inkişaf etdirmək, istehsal vasitələri və torpaq üzərində sahibkarlıq hissini yaratmaq, sərbəst mütərəqqi təsərrüfatçılıq üsullarına keçmək, yeni mülkiyyət münasibətlərini formalaşdırmaq, torpaqdan, texnikadan, sudan və sair maddi ehtiyatlarından

səmərəli istifadə etmək yolu ilə məhsul istehsalını artırmaq mümkündür. Bütün bu məqsədlərin uğurla gerçəkləşdirilməsində isə, ilk növbədə aqrar elm öz sözünü deməlidir. Eyni zamanda, bu sahənin mütəxəssisləri Azərbaycan vətəndaşlarının gələcəkdə ərzaq məhsullarına tələbatının elmi proqnozlarını irəli sürməli, istehsal prosesinin effektivliyini artırmağa xidmət edən, təcrübədə özünü doğruldan yeni metodlar üzərində işləməlidirlər. Bir sözlə, aqrar sahədə effektiv və əsaslandırılmış elmi proqnozların irəli sürülməsi Azərbaycanın ərzaq təhlükəsizliyinin etibarlı təminatı baxımından son dərəcə vacib və aktual məsələdir. [5]

Yeni dünya nizamında elmi-informativ biliklər inkişafın mühüm katalizatoruna, innovasiyayönümlü yeniliklərin başlıca təminatına çevrilmişdir. Elmtutumlu informasiyanın yaradılması, əldə edilməsi, tətbiqi sosial-iqtisadi inkişafın, qlobal rəqabətin mühüm amilləridir. Təcrübə göstərir ki, elm və informasiya arasında daim dərin və sabit inteqrasiya əlaqələri mövcud olduqda qazanılan nəticələr də effektivliyi ilə seçilir. Elmi nailiyyətlər kifayət qədər əsaslandırılmadıqda onların cəmiyyət üçün dəyəri və praktiki fəaliyyətdə tətbiq imkanları da zəif olur. Müasir cəmiyyətin inkişafı informasiya resurslarının olmasını tələb edir.

Bu baxımdan **Azərbaycanda elmi biliklərin nəticələrinin tədqiqatçılardan istifadəçilərə verilməsi ən vacib və aktual məsələlərdən biridir.** Elmi-texniki məhsulları yaradanlarla kənd təsərrüfatı müəssisələri arasında əlaqələndirici vasitə rolunu oynayan elmi biliklərin inkişafı vacib əhəmiyyət kəsb edir. Yəni aqrar bölmədə həyata keçirilən elmi tədqiqatların kənd təsərrüfatında praktik tətbiq imkanlarının genişləndirilməsi bu sahə üzrə ixtisaslaşmış elm adamlarının qarşısında duran başlıca vəzifədir.

Kənd təsərrüfatı istehsalının uğurla inkişaf etdiyi ölkələrin əksəriyyətində elmi tədqiqatlar və elmi-texniki araşdırmalar üçün sifarişlərin formalaşması ilə məşğul olan kənd təsərrüfatı məsləhət xidmətinin bölmələri, fermerlərin, kənd təsərrüfatı şirkətlərinin və digər qurumların məsləhətçiləri konkret elmi məhsulların yaradılmasına tələbatı ümumiləşdirərək elmi sifarişlər verirlər. Fikrimizcə, elmi-tədqiqat və təcrübi-konstruktor işlərinin planlaşdırılması sahəsində Qərbin bu təcrübəsindən istifadə edilməsi aqrar sektorun elmi təminat sistemində müsbət dəyişikliklərin baş verməsini təmin edə bilər. Elmi-tədqiqat işlərinin planlarının “aşağıdan” formalaşması innovasiyaların mənimsənilməsi problemini həll etməyə əhəmiyyətli dərəcədə kömək edən əsas amillərdəndir. Elmi araşdırmalara tələbin müəyyən edilməsinə, bu işlərin planlaşdırılmasına və istehsala tətbiqinə rayon və regional səviyyəli kənd təsərrüfatı məsləhət xidmətləri, baş və regional sahəvi mərkəzlər cəlb edilə bilər.

Bütün bu meyarlar onu şərtləndirir ki, aqrar sahənin elmi bazasının gücləndirilməsi olduqca vacibdir. Yeni elmi ideyalara malik, elmi kəşfləri tətbiq edə bilən potensial kadr hazırlığı ölkəyə innovasiyaları gətirə bilər. Son illər bu istiqamətdə xeyli işlər görülüb, yerli kadrların xaricdə təhsil alması bu siyasətin reallaşmasına töhfə verə bilər. Amma bununla yanaşı, aqrar sahənin geniştutumlu olmasını və iqtisadiyyatda iqtisadi fəal əhalinin sayına görə, xüsusi yer tutmasını nəzərə alsaq, müasir dövrün tələblərinə uyğun kadr ordusunun artırılması olduqca zəruridir. İnnovasiyaların tətbiqi də bunu vacib edir. İnnovativ iqtisadiyyat, aqrar sektroun formalaşması üçün bu amillərə dövlətin xüsusi diqqət göstərməsi mühüm məsələdir.

## Nəticələr

Azərbaycanın qarşıdakı sosial-iqtisadi inkişaf platforması və makroiqtisadi ssenarisi innovativ iqtisadiyyata keçidi uğurla başa çatdırmaqdan ibarətdir. Respublikamız artıq postsovet ölkəsi deyil və arxada qalan keçid dövrünün iqtisadi qanunauyğunluqları da yeni modern

iqtisadiyyatla uzlaşmır. Azərbaycan özünəməxsus milli innovasiya sisteminin formalaşdırmaqla onun əsas komponentlərini də müəyyən edib. İnnovasiya prosesində elm, təhsil, istehsalat və bazar arasında əlaqələrin gücləndirilməsi, elmi-texniki məhsul bazarının təmin olunması, intellektual mülkiyyət obyektləri də daxil olmaqla yeniliklərin kommersiyalaşması mexanizminin yaradılması, investisiyanın əsas katalizatoru kimi innovasiya rəqabətinin və innovasiyanın əhəmiyyətinin qiymətləndirilməsi, regionların innovasiya inkişafının əsas istiqamətlərində maliyyə və kadr ehtiyatlarının konsentrasiyasının təmin edilməsi başlıca meyarlardır.

**Tədqiqatın elmi yeniliyi:** Aparılan tədqiqat işinin elmi yenilikləri aşağıdakılardan ibarətdir:

- aqrar iqtisadiyyatın inkişafını səciyyələndirən meyar və göstəricilərin köməyilə onun müasir vəziyyəti və resurs potensialı qiymətləndirilmişdir;
- -aqrar iqtisadiyyatda innovasiya sahibkarlığının səmərəliliyinin yüksəldilməsi və resurslardan səmərəli istifadənin təkmilləşdirilməsi istiqamətləri əsaslandırılmışdır;
- elmi biliklərin nəticələrinin tədqiqatçılardan istifadəçilərə verilməsinin ən vacib və aktual olmasının əhəmiyyəti göstərilmişdir;
- ölkə əhalisinin ərzaq təhlükəsizliyinin təmin olunması və ixrac potensialının artırılmasında aqrar iqtisadiyyatın rolu elmi cəhətdən əsaslandırılmışdır;
- aqrar iqtisadiyyatın malik olduğu potensialdan istifadənin yaxşılaşdırılması yolları müəyyənləşdirilmişdir

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti:** Aparılmış məntiqi ümumiləşdirmələr və elmi cəhətdən əsaslandırılmış nəticələr aqrar sahənin inkişafında ümumiyyətlə, müasir dövrün reallıqları innovasiya bazarında, iqtisadiyyatda, məhsulların və texnologiyaların çeşidində strateji dəyişikliklərin qabaqcadan proqnozlaşdırılması, innovasiya qərarlarına müvafiq münasibət bildirilməsi və onların dəstəklənməsi üçün zəruri tədbirlərin hazırlanıb həyata keçirilməsinə yönəlmişdir.

## ƏDƏBİYYAT SİYAHISI

1. Anar Abbasov. Ərzaq təhlükəsizliyi. “Nasir” nəşriyyatı, Bakı, 2007-ci il. 602 s.
2. Bəyalı Ataşov. Ərzaq təhlükəsizliyinin aktual problemləri. “Elm” nəşriyyatı, Bakı, 2005-ci il.
3. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası, Bakı, 2012
4. O. Məmmədli, M. İsmayılov, F. İsmayılov. Milli iqtisadiyyatın tənzimlənməsi. “MBM” nəşriyyatı, Bakı, 2014-cü il, 560 s.
5. H.A.Xəlilov. Aqrar iqtisadiyyatda sistem transformasiyaları və modernləşdirmə şəraiti. Bakı, 2005-ci il, 228 s.
6. Экономика и управление аграрным производством. Учебное пособие. Ростов-на-Дону, 2008, 714 с.
7. Экономика. Под редакцией А.С.Булатова. М. 2005, 4-ое изд. 831 с
8. Alıyev İ.H Milli iqtisadiyyat və aqrar sahənin inkişaf problemləri. Bakı 2006, 380 s.

**УДК 338.43**

**№ 1/2020** **səh.71 - 76**

## ЗНАЧЕНИЕ ИННОВАЦИОННОГО РАЗВИТИЯ АГРАРНОЙ СФЕРЫ

**Исмаилов Фазиль Исмаил оглы**
**Исмаилов Кямран Мурсал оглы**

**РЕЗЮМЕ**.В статье будет говориться о процессе изменения структуры экономики республики за последние годы, о положительном итоге принятых в периоде независимости гибких и терпеливых решений, о транзите в Азербайджан последних современных примеров мировой практики и передовых инноваций согласно гармонии быстрого развития, о применении последнего поколения технологий в существующих в Азербайджане организациях, о необходимости создания широкой инновационной структуры в регионах.

***Ключевые слова:*** Инновация, экономические призывы, Инновационная экономика, научные прогнозы, стратегические направления, механизмы модернизации, поддержка государства.

**UDC 338.43**

## THE IMPORTANCE OF INNOVATIVE DEVELOPMENT OF THE AGRICULTURAL SECTOR

**İsmayilov Fazil İsmayil**
**İsmayilov Kamran Mursal**

**SYMMARY**. In the article will be said about the process of restructuring the national economy in recent years, a positive result, taken in the period of independence, flexible and patient decisions about transit in Azerbaijan last examples of modern international practices and driving innovation in accordance with the harmony of rapid development, the application of the latest generation technologies in existing organizations in Azerbaijan, the need for a broader framework of innovation in the regions.

***Keywords:*** Innovation, economic appeals, innovative economy, scientific forecasts, strategicdirection, the mechanisms of modernization, support of the state.

Redaksiyaya daxilolma 11.02.2020
Çapa qəbul olunma 05.14.2020

**№ 1/2020** **səh.77 -88**

**UOT 677.07**

# TOXUCULUQ SƏNAYESİNİN İNKİŞAF SƏVİYYƏSİ, ONA TƏSİR EDƏN AMİLLƏR

**Əliyev Mətləb Oqtay oğlu**
Azərbaycan Texnologiya Universitet
Gəncə şəhəri, Ş.İ.Xətai,103
matlab@mail.ru

***Xülasə:**Toxuculuq sənayesinin inkişaf etdirilməsi ölkənin bu sahə məhsullarına olan tələbatının ödənilməsində əhəmiyyətli rol oynamaqla idxaldan asılılığın aradan qaldırılmasında əhəmiyyətli rol oynayır. Bu baxımdan innovativ resusrlardan istifadə edərək toxuculuq sənayesinin inkşaf etdirilməsi istehsal olunan məhsulun həcminin, çeşidinin və keyfiyyətinin artımasında mühüm rol oynayır.Məhz toxuculuq sənayesinin inkişafı tədbirləri hesabına istehsal olunan məhsulların keyfiyyətini yüksəltməkləbu sahə məhsullarına olan tələbin artması, daha yüksək səviyyədə gəlir əldə edilməsi və beləliklə bu sənaye sahəsinin dayanıqlı inkişafı mümkün ola bilər.*

***Açar sözlər:** rəqabət, innovasiya, tələb, keyfiyyət,stimullaşdırma, səmərə.*

***Giriş.***Müasir dövrdə hər bir dövlətin iqtisadi gücünün artırılması, ölkə əhalisinin gündəlik tələbat məhsullarına olan ehtiyaclarının ödənilməsi sənaye məhsullarının artırılmasından bilavasitə asılıdır. Bu baxımdan ölkədə sənaye kompleksinin olması və inkişafının dinamik xarakter daşıması imkan yaradır ki, iqtisadi təhlükəsizliyinin təmin edilməsi istiqamətində strateji məsələlərin həlli müvəffəqiyyətlə yerinə yetirilsin.

Toxuculuq sənayesinin inkişaf etdirilməsi ölkə əhalisinin bu sahənin məhsullarına olan tələbatının ödənilməsində əhəmiyyətli rol oynayır. Belə ki, istər yüngül sənayenin, istərsə də toxuculuq sənayesi məhsullarının xeyli hissəsi idxal hesabına ödənilir. Bu isə həm ölkənin valyuta ehtiyatlarına qənaət edilməsi, həm də ümumiyyətlə iqtisadi təhlükəsizlik baxımından müsbət hal kimi qiymətləndirilə bilməz. Bu bir reallıqdır ki, bu gün daxili bazarın başlıca problemi yüngül sənaye məhsullarının daxili istehsal imkanları hesabına ödənilməsindən, istehsal xərclərinin yüksək olmasından, daşınma xidmətinin zəif olmasından, məhsul çeşidinin və keyfiyyətinin aşağı olmsından ibarətdir. Belə olan şəraitdə innovativ resusrlardan istifadə edərək toxuculuq sənayesinin inkşaf etdirilməsi istehsal olunan məhsulun həcminin, çeşidinin və keyfiyyətinin artımına müsbət təsir edə bilər ki, bu da həmin sahənin məhsullarına olan tələbatı yerli istehsal hesabına ödənilməsində, xarici valyutaya qənaət edilməsində, yeni iş yerlərinin açılmasında, əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılmasında və s. mühim əhəmiyyət kəsb edir. Qeyd edilənlər araşdırmanın aktuallığını təsdiq edir.

***Tədqiqatın metodikası.*** Tədqiqat işinin nəzəri-metodoloji əsasını iqtisadçı alimlərin toxuculuq sənayesinin inkişafı ilə bağlı apardıqları tədqiqatlar, bu sahədə Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, müvafiq qanunlar, normativ-hüquqi sənədlər təşkil edir.

***Tədqiqatın praktiki dəyəri.***İşin praktiki əhəmiyyəti əldə olunan nəticələrin toxuculuq sənayesinininkişafı tədbirlərinin hazırlanmasında istifadə edilə bilməsi ilə xarakterizəolunur.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

Mürəkkəb texnoloji quruluşa malik olan toxuculuq sənayesinin inkişafı təkcə yüngül sənayenin deyil,həmçinin aqrar sektorun bir çox sahələrinin də inkişafına təsir göstərə bilir. Bu sahələrə pambıqçılığı, baramaçılığı, nəqliyyatı, müdafiə, kimya sənayesi və s. kimi sahələri aid etmək olar. Toxuculuq sənayesi milli sənayenin ənənəvi sahələrindən biri olmaqla yanaşı, maddi istehsalın yaradılmasında aparıcı sahalərdən biri hesab edilir. Məhz toxuculuq sənayesinin inkişafı sayəsində milli gəlirin və ümumdaxili məhsulun artımında ciddi irəliləyişlər əldə etmək mümkündür. Tədqiqatlar sübut edir ki, ölkənin sənaye sahələrinin içərisində toxuculuğun özünəməxsus yeri var və sənayenin bu sahəsinin inkişaf etdirilməsi bütövlükdə iqtisadiyyatın inkişafında müsbət rola malikdir. Toxuculuğun inkişaf etdirilməsinin iqtisadi inkişafda olan rolunu aşğıdakı kimi qruplaşdırmaq olar:

- toxuculuq sənayesinin inkişaf etdirilməsi bütövlükdə milli istehsalatda elmi-texniki tərəqqinin sürətlənməsinə təsir göstərərək istehsalın texniki səviyyəsi, səmərəlilik, keyfiyyət və s. anlayışların yüksəldilməsinə şərait yaradır;
- toxuculuq sənayesinin inkişaf etdirilməsi sayəsində iqtisadiyyatın, o cümlədən sənaye və kənd təsərrüfatının ayrı-ayrı sahələrində geniş təkrar istehsalı və onun tərkib hissəsi olan intensiv təkrar istehsalı reallışdarmaq mümkün olur.

Qeyd etməliyik ki, ölkə əhalisinin toxuculuq sənayesi məhsullarına artan tələbatının tam olaraq ödənilməsi bu sahədə geniş təkrar istehsalın tətbiqi sayəsində mümkündür. Ümumiyyətlə, geniş təkrar istehsalın və onun tərkib hissəsi olan intensiv təkrar istehsalın həyata keçirilməsinə bir sıra amillər təsir göstərir. Bu amillərə aşağıdakıları aid etmək olar:

- yeni texnika və texnologiyalardan istifadə;
- işçilərin kadr potensialının yüksəldilməsi;
- idarəetmənin müasir formalarının tətbiqi;
- resurslardan səmərəli istifadə olunması;
- ekologiya v təbiətin mühafizəsi məsələrinin daim diqqətdə olması;
- beynəlxalq əməkdaşlığın gücləndirilməsi və s.

Beynəlxalq təcrübə göstərir ki, ölkənin iqtisadi inkişafının təmin edilməsində toxuculuq sənayesinin inkişaf etdirilməsi mühim əhəmiyyət kəsb edir. Başqa sözlə, toxuculuq sənayesinin inkişafı sayəsində bu sahə məhsullarına tələbatı ödəməklə idxaldan asılılığı aradan qaldıra bilir. Buna nail olmağın yolu isə, toxuculuq sahəsində fəaliyyət göstərən müəssisələrin sayını artırmaqla yanaşı onların təsərrüfat fəaliyyətlərinin səmərəli və rentabelli başa vurmalarının təminatından keçir. Qeyd etməliyik ki, müəssisələr o zaman təsərrüfat fəaliyyətlərini səmərəli və rentabelli başa vururlar ki, istehsalın iqtisadi səmərəliliyinə təsir edən amillər düzgün olaraq müəyyənləşdirilir və onların istifadəsində sistemli yanaşma prinsipinə söykənilir. Yalnız belə olduğu təqdirdə, müəssisələr istehsal etdikləri məhsulun keyfiyyətini yüksəldərək bazarda həmin məhsula olan tələbin artmasına və özlərinin daha yüksək səviyyədə gəlir əldə etməsinə müvüffəq ola bilərlər.

Toxuculuq sənayesinin inkişaf etdirilməsi sayəsində həmin sahənin məhsullarının yerli istehsal hesabına ödənilməsi baş verir ki, bu da bir tərəfdən xarici ödəmələrdə ehtiyatlara qənaət olunmasına şərait yaradırsa, digər tərəfdən də milli valyutanın etibarlılığını yüksəlməsinə müsbət təsir göstərir. Qeyd edək ki, milli valyutanın etibarlılığının təmin edilməsi ölkənin beynəlxalq aləmdə nüfuzunu daha da artıraraq istər xarici, istərsə də daixili investorların milli iqtisadiyyata maraqlarının artmasına təsir göstərir. Bu isə ölkənin iqtisadi inkişafında davamlılığın təmin edilməsi, habelə yerli müəssisələrin qarşıya qoyduqları hədəflərinin reallaşdırılması istiqamətində tərəddüdlərin yaranması kimi neqativ halların baş verməməsi baxımından mühim əhəmiyyət kəsb edir.

Müşahidələr sübut edir ki, ölkə daxilində istənilən sahənin inkişafı həmin sahə üzrə ilk növbədə qanunvericilik bazasının yaradılması və daha sonra bu istiqamətdə dövlət əhəmiyyətli tədbirlərin həyata keçirilməsi sayəsində mümkündür. Belə olmayan təqdirdə gözlənilən nəticəni almaq qeyri-mümkündür. Buna misal olaraq, keçmiş Sovetlər İttifaqının son dövrlərini göstərmək olar. Həmin dövrdə ölkənin qarşılaşdığı ağır iqtisadi böhranın həyata keçirilən çoxsaylı tədbirlərə baxmayaraq qarşısı alına bilinməmişdir. Demək olar ki, görülən işlər və alınan tədbirlər səmərəsiz qalmışdı. Bunun başlıca səbəbi, qanunvericilik bazasının və həyata keçirilən tədbirlərin işlə mexanizminin olmaması idi.

Qeyd etmək gərəkir ki, aradan keçən otuz ildən artıq olan dövr ərzində bu istiqamətdə xeyli işlər görülmüş, çoxlu sayda normativ-hüquqi aktlar qəbul edilmiş, fərman və sərəncamlar verilmişdir.

Tədqiqatlar göstərir ki, 2014-cü ildən etibarən Azərbaycan sənayesi özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Belə ki, həmin dövrdən başlayaraq sənaye istehsalını sürətləndirmək məqsədilə çoxsaylı işlər görülmüş, yeni müəssisələrin yaradılması istiqamətində stimullaşdırıcı tədbirlər həyata keçirilımiş, əlverişli investisiya mühitinin yaradılması, maliyyə resurslarına çıxış imkanlarının sadələşdirilməsi kimi sahələrdə yaxşılaşdırma işləri görülmüş və günümüzdə də davam etdirilməktədir. Lakin onuda qeyd etməliyik ki, bu istiqamətdə çoxlu sayda görülən işlərin və atılan addımların olmasına baxmayarq ölkə sənayesinin tarazlı inkişafına nail oluna bilinməmişdir. Sənayenin bir çox sahəsi, xüsusilə də neft və qaz sahələri dinamik inkişaf etməsinə baxmayaraq bu vəziyyət sənayenin digər sahələrində, o cümlədən emal və onun tərkib hissəsi hesab edilən yüngül sənayedə baş verməmişdir.

Qeyd etməliyik ki, yüngül sənaye ölkə əhalisini xalq istehlakı malları ilə təmin edən ən önəmli sahələrdən biridir və bu sahəni sənayenin digər sahələrindən ayıran başlıca əlamət onun müştəri yönümlü olmasıdır. Yəni digər sənaye sahələri ilə müqayisədə yüngül sənayedə yaradalan məhsulun böyük qismi yarımfabrikat şəkildə istifadə olunmur, onlar daha çox hazır məhsul olaraq buraxılır. Bundan başqa yüngül sənayedə əmək intensivliyinin yüksək, kapital intensivliyinin aşağı və qoyulan vəsaitlərin tezliklə qayıda bilən olması sahənin əhəmiyyətini daha da ön plana çəkir.

Araşdırmalar göstərir ki, dünya üzrə yüngül sənayenin cəmləşməsi daha çox Asiya və digər üçüncü dünya ölkələrində olmaqdadır və bu sahənin məhsullarının ən böyük ixracatçıları da məhz elə həmin ölkələr hesab edilir. Bu ölkələrə Çin, Hindistan, Türkiyə, Banqladeş, İndoneziya, Pakistan və s.aid etmək olar.

№ 1/2020 səh.77 -88




**Şəkil. Sənaye sahələrinin inkişaf dinamikası**

Düzdür,yüngül sənaye sahəsinin məhsulları üzrə dünya ixracatında ikincilik Avropa İttifaqına aiddir, xüsusilə də İtaliya, Portuqaliya və Fransa kimi ölkələrdə bu sahə daha çox inkişaf edir. Lakin bu ölkələrdə istehsal oluna məhsullar qiymət baxımından xeyli dərəcədə yüksəkdir və daha çox əhalinin yüksək təbəqəsini təmin etmək üçün istifadə olunur. Qeyd edək ki, son dövrlərdə inkişaf etmiş ölkələrdə yüngül sənaydə robotlardan istifadənin artması bu ölkələrdə sahənin kapital intensivliyini yüksəldərək əl əməyinə olan tələbatı aşağı salır. Bunun başlıca səbəbi sektorda fəaliyyəıt göstərən iri sənaye müəssisələrinin mövcudluğudur. İri maliyyə imkanlarına sahib olan belə şirkətlər eyni zamanda özündə sənayenin bir neçə sahəsini birləşdirərək daha çox tanınmış brendlərin sifarişlərini yerinə yetirirlər.

Respublikamızda yüngül sənayenin inkişafına gəldikdə onu demək olar ki, sənayenin bu sahəsi ölkəmizdə zəif inkişaf etmişdir. Hal-hazırda ölkə üzrə yüngül sənaye sahəsində 180 müəssisə fəaliyyət göstərir ki, onların da 127-si kiçik, 53-ü isə orta və iri müəssisələr təşkil edir. Hesab edirik ki, bu göstəricinin səviyyəsi ölkəmiz üçün olduqca aşağıdır və bu istiqamətdə yaxşılaşdırıcı tədbirlərin görülməsi həllini gözləyən vacib məsələlərdən biridir.

Baxmayaraq ki, Azərbaycan iqtisadiyyatı dünyada dinamik inkişaf edən iqtisadiyyatlardan biri hesab edilir. Hansı ki, biz bu inkişafı əsas makroiqtisadi göstəricilərin təhlilində də görə bilirik. Xüsusilə də son beş ildə ÜDM –in 59,0 mlrd. manatdan 79,8 mlrd. manata yüksəlməsi, əsas fondların 110,7 mlrd. manatdan 193,4 mlrd. manata yüksəlməsi, dövlət büdcəsinin 18,4 mlrd. manatdan 22,7 mlrd. manata yüksəlməsi və s. qeyd emək olar. Bu dinamik inkişafı biz iqtisadiyyatın yüngül sənaye sahəsində demək olar ki, görə bilirik. Belə ki, son illərdə bu istiqamətdə müsbət mənada dəyişikliklərin yaranması istiqamətində ciddi addımlar atılmışdır. Lakin hesab edirik ki, atılan addımlar sektorun dinamik inkişafı baxımından kifayət dərəcədə deyil.

Son beş ildə yüngül sənaye sahəsinin inkişaf səviyyəsini göstərən əsas iqtisadi göstəricilərin dinamikası aşağıdakı cədvəldə göstərilmişdir.

**Cədvəl.1**

## Yüngül sənaye sahələrinin inkişaf səviyyəsi (2014-2018-ci illər üzrə)

| Göstəricilər | Yüngül sənaye | Toxuculuq sənayesi | Geyim istehsalı | Dəri və dəri məmulatlarının istehsalı |
|---|---|---|---|---|
| Məhsulun (işlərin, xidmətlərin) dəyəri, mln. manat | | | | |
| 2014 | 137,0 | 49,6 | 67,8 | 19,6 |
| 2015 | 119,1 | 31,7 | 75,2 | 12,2 |
| 2016 | 197,1 | 96,8 | 86,7 | 13,6 |
| 2017 | 304,3 | 182,3 | 104,0 | 18,0 |
| 2018 | 378,0 | 248,3 | 103,6 | 26,1 |
| Fəaliyyət göstərən müəssisələrin sayı, vahid | | | | |
| 2014 | 145 | 66 | 57 | 22 |
| 2015 | 143 | 68 | 52 | 23 |
| 2016 | 147 | 66 | 60 | 21 |
| 2017 | 151 | 67 | 57 | 27 |
| 2018 | 180 | 74 | 77 | 29 |

| | | | | |
|---|---|---|---|---|
| İşləyənlərin orta illik sayı, min nəfər | | | | |
| 2014 | 7,7 | 4,2 | 2,6 | 0,9 |
| 2015 | 6,5 | 3,2 | 2,4 | 0,9 |
| 2016 | 7,8 | 4,4 | 2,6 | 0,8 |
| 2017 | 9,2 | 5,8 | 2,5 | 0,9 |
| 2018 | 10,6 | 7,1 | 2,6 | 0,9 |
| İşləyənlərin orta aylıq nominal əmək haqqı, manat | | | | |
| 2014 | 371,1 | 271,8 | 382,2 | 459,4 |
| 2015 | 391,7 | 275,0 | 398,0 | 502,0 |
| 2016 | 408,2 | 299,9 | 405,2 | 520,1 |
| 2017 | 419,2 | 360,8 | 386,5 | 510,2 |
| 2018 | 386,2 | 368,0 | 386,3 | 404,3 |

Cədvəl DSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir

Cədvəlin təhlilindən belə qənaətə gəlmək olar ki, müqayisə olunan dövürdə yüngül sənayenin ümumi məhsulu 2,8 dəfə, fəaliyyət göstərən müəssisələrin sayı 24,1%, işləyənlərin orta illik sayı 37,7%, işləyənlərin orta aylıq nominal əmək haqqı, 4,1% artmışdır. Bu artım özünü yüngül sənayenin ayrı-ayrı sahələrində fərqli şəkildə biruzə vermişdir. Belə ki, 2014-cü illə müqayisədə 2018-ci ildə toxuculuq sənayesinin məhsulu 5,0 dəfə artığı halda, geyim, dəri və dəri məmulatları istehsalında bu artım müvafiq olaraq 52,8% və 33,2% təşkil etmişdir ki, bu da toxuculuq sənayesinin digər yüngül sənaye sahələri ilə müqayəsədə daha sürətli inkişaf etdiyini göstərir. Bundan başqa, toxuculuq sənayesi işləyənlərin orta illik sayı 69,0% və orta aylıq nominal əmək haqqı səviyyəsi 35,4% artdığı halda digər sahələrdə bu artım demək olar ki, müşahidə olunmamışdır, hətda bəzi göstəricilər üzrə azalma olmuşdur (dəri və dəri məmulatları sahəsində orta aylıq əmək haqqı səviyyəsi 12,0% azalmışdır). Lakin bununla yanaşı qeyd etməliyik ki, müqayisə olunan dövrdə, yüngül sənaye sahələri içərisində fəaliyyət göstərən müəssisələrin sayında baş verən artıma görə toxuculuq sənayesi digərlərindən geridə qalır. Belə ki, əgər həmin dövrdə geyim və dəri və dəri məmulatları sahəsində müəssisələrin sayında müvafiq olaraq 35,1% və 31,8% artım olmuşdursa bu artım toxuculuqda 12,1% təşkil etmişdir ki, bu da mənfi hal kimi qiymətləndirilir[cədvəl.1].

Azərbaycanda ən mühüm toxuculuq məhsullarının istehsalının dinamikası aşağıdakı cədvəl 2 – də göstərilmişdir.

DSK-nın məlumatlarına nəzər saldıqda aydın olur ki, müqayisə olunan dövrdə ən mühüm toxuculuq məhsullarının istehsal dinamikası qeyri-stabil inkişaf etmişdir. Lakin bütün bunlara baxmayaraq son illərdə bu istiqamətdə xeyli dərcədə irəliləyişlərə nail olunmuşdur. Belə ki, əgər 2014-cü ildə pambıq lifi 13,5 min ton, pambıq parçalar 836 min kv.m., pambıq yataq ağları 406,4 min ədəd, xalça və xalça məmulatları 1,6 min kv.m istehsal olunmuşdursa 2018-ci ildə bu göstəricilər müvafiq olaraq 4,5 dəfə, 23,0 dəfə, 42,9% və 50,0% artaraq 61,0 min ton, 19,3 mln. ton, 580,7 min ədəd və 2,4 min kv.m səviyyəsinə yüksəlmişdir. Lakin onu da qeyd etməliyik ki,

№ 1/2020 səh.77 -88

müqayisə olunan dövrdə ipək parçalar istehsalında kəskin azalma müşahidə olunur. Əgər 2014-cü ildə 553,4 min kv.m hazır ipək parça istehsal olunmuşdursa 2018-ci ildə bu göstərici 92,6% azalaraq 40,7 min kv.m səviyyəsinə enmişdir [cədvəl.2].

Cədvəl.2

**Azərbaycanda 2014-2018-ci illər ərzində ən mühüm toxuculuq məhsullarının istehsalının dinamikası**

| Əsas məhsul növlərinin natura ifadəsində istehsalı | Ölçü vahidi | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2014-cü illə müqayisədə 2018-ci il |
|---|---|---|---|---|---|---|---|
| Pambıq lifi, (kardo və daraqla daranmış) | min ton | 13,5 | 6,6 | 17,1 | 37,9 | 61,0 | 4,5 dəfə |
| Hazır pambıq parçalar | mln. кv.m | 0,84 | 9,60 | 1,78 | 16,83 | 19,31 | 23,0 dəfə |
| o cümlədən əmtəəlik | mln. кv.m | 0,63 | 9,60 | 1,72 | 16,63 | 19,31 | 30,1 dəfə |
| Hazır ipək parçalar | min кv.m | 553,4 | 272,4 | 221,6 | 274,5 | 40,7 | 7,4 |
| o cümlədən əmtəəlik | min кv.m | 185,0 | 79,5 | - | 92,3 | 13,7 | 7,4 |
| Pambıq yataq ağları | min ədəd | 406,4 | 227,7 | 1325,1 | 371,6 | 580,7 | 142,9 |
| Xalça və xalça məmulatları | min kv.m | 1,6 | 0,4 | 0,2 | 0,4 | 2,4 | 150,0 |

Cədvəl DSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir

Qeyd edək ki, ipək parça istehsalı Azərbaycanın ən qədim istehsal sahələrindən biridir. İstər Sovetlər dövrü, istərsə də ondan əvvəlki dövrdə inkişaf edən ipəkçilik sahəsi günümüzdə demək olar ki, özünün tənəzzül dövrünü yaşayır.

Keçən əsrin 70-ci illərindən sürətli inkişaf mərhələsinə qədəm qoyan ipəkçilik və baramaçılığın müstəqillik dövründə tənəzzülə uğraması heç də xoş qarşılanmır. Hələ Sovetlər dövründə, xüsusilə də Ümummilli lider Heydər Əliyevin rəhbərlikdə olduğu dövrdə Azərbaycanda bu sektorda əsaslı dönüş baş vermişdir. Belə ki, həmin dövrdə bu sahənin maddi-texniki bazası möhkəmləndirilmiş, onlarla müəssisələr, institut və idarələr açılaraq sahənin sənaye potensialı gücləndirilmişdir. Görülən tədbirlər nəticəsində ölkə üzrə yaş barama istehsalı 1985-ci ildə 5,5 min ton səviyyəsinə çatmışdır ki, bu da 1970-ci illə müqayisədə 48,7% və ya 1,8 min ton çoxdur. Ən yüksək göstərici isə 1991-ci ildə əldə edilmişdir- 5,9 min ton. Lakin 1992-ci ildən etibarən ipəkçilik və baramaçılıq sahəsiə özünün tənəzzül dövrünə qədəm qoymuş və 2015-ci ildə ölkə üzrə cəmi 236 kiloqram yaş barama istehsal olunmuşdur. Onu da vurğulamalıyıq ki,

2016-cı ildən etibarən ipək istehsalının müasir infrastrukturunun yaradılmasına start verilmişdir. Görülən tədbirlər sayəsində yaş barama istehsalında xeyli irəliləyişlərə nail olunmuşdur. Belə ki, ölkə üzrə yaş barama istehsalı artıq 2016-cı ildə 70,7 ton, 2017-ci ildə 245,2 ton, 2018-ci ildə isə 513,9 ton səviyyələrinə yüksəlmişdir.

Bundan başqa 27 noyabr 2017-ci il tarixli Azərbaycan Respublikasının Prezidentinin sərancamı ilə "Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir. Qeyd edək ki, təsdiq edilən proqram baramaçılığın və ipəkçiliyin bərpası ilə yanaşı ölkənin ixrac potensialının artırılmasına və kənd yerlərində məşğulluğun təmin edilməsinə də müsbət təsir göstərəcəkdir.

Burada qeyd etməliyik ki, əhalinin qeyri-ərzaq məhsullarına olan tələbatının təminatının böyük hissəsi yüngül sənaye istehsalının payına düşür. Belə bir şəraitdə sənayenin bu sahəsində müəssisələrin sayının kifayət qədər olmaması əhalinin aşağı və orta gəlirli təbəqəsinin həmin sahənin keyfiyyətli məhsullarına olan tələbatının ödəmə səviyyəsinə mənfi təsir göstərir. Nəzərə alsaq ki, ölkəmiz iqtisadiyyatın sosial yönümlü modelini tətbiq edir, o zaman, fikrimizcə yaranmış vəziyyət ölkə əhalisinin yaşayış səviyəsinin yüksəlməsinə maneə törədir.

Ümumiyyətlə, yüngül sənaye istehsalına təsir göstərən çoxsaylı amillər var, hansılar ki, onları diqqətə almadığımız təqdirdə sahənin intensiv inkişafına nail ola bilmərik. Tədqiqatlar göstərir ki, bu gün toxuculuq sənayesinin qarşısında duran əsas məsələlərdən biri istehsal olunan məhsulun çeşidinin artırılması və keyfiyyətinin yaxşılaşdırılmasıdır. Digər bir məsələ, istehsal olunan məhsulun keyfiyyəti və qiyməti arasında tarazlığın olmasıdır. Çünki, tarazlığın olmaması şəraitində istehsal olunan məhsulun realizə olunmasında çətinliklər yaranacaq. Alıcılar belə vəziyyətdə daha çox xarici mənşəli məhsullara üstünlük göstərəcəklər. Bu isə bütövlükdə sahənin inkişafına mənfi göstərəcəkdir.

İnkişaf etməkdə olan ölkələrin təcrübəsi göstərir ki, hər bir sahənin, o cümlədən toxuculuq sənayesinin inkişafı həmin sahədə tətbiq olunan qabaqcıl texnologiyanın səviyyəsindən asılıdır. Buna nail olmağın başlıca yolu isə geniş iş təcrübəsinə malik xarici tərəfdaşların ölkəyə gəlməsini təmin etməkdən keçir. Bu baxımdan hesab edirik ki, toxuculuq sahəsində geniş iş təcrübəsinə malik iş adamlarının ölkəmizə gəlməsi və burada istehsalatla məşğul olmaları, investisiya qoyuluşları həyata keçirmələri sənayenin bu sektorunun inkişafında müsbət rol oynayacaqdır.

Aparılan araşdırmalar göstərir ki, 2018-ci ildə sənaye üzrə əsas kapitala yönəldilən investisiyaların içərisində xarici investisiyaların xüsusi çəkisi 47,0% (3993,1 mln.man.) təşkil etməsinə baxmayaraq sənayenin yüngül və onun tərkib hissəsi hesab edilən toxuculuq sahəsində bu göstərici 0,0% olmuşdur. Bu isə toxuculuq sənayesinin inkişafı baxımından mənfi hal kimi qiymətləndirilir.

Yüngül sənaye sahələri üzrə əsas kapitala yönəldilən investisiyaların dinamikası aşağıdakı cədvəl 3 – də göstərilmişdir.

Cədvəlin məlumatlarından görünür ki, yüngül sənaye sektorunda investisiya qoyuluşları qeyri-stabil həyata keçirilmişdir. Belə ki, əgər 2014-cü ildə sektora 47,8 milyon manat investisiya yatırılmışdırsa 2016-cı ilə qədər bu göstərici davamlı olaraq azalaraq 10,5 milyon manat səviyyəsinə enmişdir. 2017-ci ildən etibarən isə investisiya qoyuluşlarının həcmində davamlı olaraq artım müşahidə olunur. Bu artım 2017-ci ildə əvvəlki illə müqayisədə 2,0 dəfə və ya 10,8 milyon manat, 2018-ci ildə isə əvvəlki illə müqayisədə 2,7 dəfə və ya 47,2 milyon manat təşkil etmişdir.

**№ 1/2020** **səh.77 -88**

**Cədvəl.3**

## Yüngül sənaye sahələri üzrə əsas kapitala yönəldilə investisiyalar

**mln.man.**

| Göstəricilər | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2014-cü illə müqayisədə 2018-ci il |
|---|---|---|---|---|---|---|
| Yüngül sənaye | 47,8 | 29,4 | 10,5 | 21,3 | 68,5 | 143,3 |
| daxili investisiyalar | 47,8 | 29,4 | 10,5 | 21,3 | 68,5 | 143,3 |
| o cümlədən, | | | | | | |
| Toxuculuq sənayesi | 38,8 | 10,2 | - | 5,9 | 42,9 | 110,6 |
| daxili investisiyalar | 38,8 | 10,2 | - | 5,9 | 42,9 | 110,6 |
| Geyim istehsalı | 9,0 | 10,4 | 10,5 | 15,3 | 23,7 | 2,6 dəfə |
| daxili investisiyalar | 9,0 | 10,4 | 10,5 | 15,3 | 23,7 | 2,6 dəfə |
| Dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı | - | 8,8 | 0,0 | 0,1 | 1,9 | - |
| daxili investisiyalar | - | 8,8 | 0,0 | 0,1 | 1,9 | - |

Cədvəl DSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir

Eyni tendensiya toxuculuq sahəsində baş vermişdir. Belə ki, əgər 2014-cü ildə sahəyə 38,8 milyon manat investisiya yatırılmışdırsa 2015-ci ildə bu göstərici 73,7% azalaraq 10,4 milyon manat səviyyəsinə enmişdir. 2018-ci ildə isə bu göstərici əvvəlki illə müqayisədə 7,3 dəfə artaraq 42,9 milyon manat səviyyəsinə yüksəlmişdir ki, bu da müqayisə olunan dövrün ən yüksək nəticəsidir[cədvəl.3].

Qeyd edilənlər göstərir ki, əslində istehsal amilləri və investisiyalar ölkənin texniki-iqtisadi inkişafının yüksəldilməsi və əhalinin həyat keyfiyyətinin artmasını təmin edən elmi cəhətdən əsaslanmış innovasiya fəaliyyəti vasitəsidir. Rəqabət qabiliyyətinin artırılmasına innovasiyalı yanaşma, risklərlə də bağlıdır. Bununla bağlı yerli istehsalçının rəqabət qabiliyyətinin artırılması üzrə əsaslandırımış şəkildə hazırlanmış konsepsiya lazımdır. Bunun üçün aşağıdakılar zəruridir:

- rəqabət qabiliyyətinin inkişafının səmərəli qiymətləndirilməsi üçün müəssisənin fəaliyyətini müəyyən edən yeni kəmiyyət və keyfiyyət göstəricilərinin işlənib hazırlanması;
- istehlakçı üstünlüklərinin və məhsul bazarında marketinq tədqiqatlarının aparılması, müəssisənin bazarda fərdi siyasətinin innovasiya qərarlarına uyğunlaşdırılması;
- risk səviyyəsinin minimuma endirilməsinə istiqamətlənən tədbirlərin hazırlanması;
- istehsalın rəqabət qabiliyyətinin yüksəldilməsinə imkan yaradan innovasiyaların iqtisadi səmərəliliyinin təmin edilməsi;
- müəssisələrin və istehsal olunan məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi təbirlərinin hazırlanması.

Yerli məhsulun rəqabət qabiliyyətinin təmin edilməsini müəssisələri texniki baxımdan yenidən təhciz olunması və yeni texnoloqiyaların mənimsənməsi ilə də əlaqələndirmək məqsədəuyğun olardı. Bu isə investisiya qoyuluşlarının kifayət səviyyədə olmadığı bir zamanda

texnoligiya üzrə innovasiyalar hesabına daha keyfiyyyətli məhsul istehsalının əsas məsələlərdən birinə çevirir. Qeyd edilənlər, yerli istehsalın keyfiyyətini artırmağa və xarici məhsullarla müqayisədə daha yüksək rəqabətli məhsul istehsal etməyə imkan vermir. Ona görə də yüngül sənaye müəssisələrində yerli məhsulun rəqabət qabiliyyətinin yüksəldilməsi üçün istehsalın beynalxalq standartlar sisteminin tələblərinə uyğun gəlmə səviyyəsinin artırılması istiqamətində tədbirlərin rallaşdırılması zəruridir.

Mövcud problemlərə baxmayaraq yuxarıda deyilənlər Azərbaycanın özünü idxal məhsulları ilə rəqabət apara biləcək yüngül sənaye məhsulları ilə təmin edə bilməsi qənaətinə gəlməyə əsas verir. Belə ki, ölkədə kifayət qədər potensial mövcuddur ki, yüngül sənayedə yeni texnika və texnoloqiyaların tədbqini həyata keçirtməklə rəqabətqabiliyyətli istehsal təmin edilsin.

Məhsulun rəqabət qabiliyyətinin təmin edilməsini digər məsələlərlə yanaşı müəssisələri texniki baxımdan yenidən təhciz olunması ilə əlaqələndirmək olar. İnnovasiyalara investisiyaların, real güzəştlərin kifayət səviyyədə olmadığı bir şəraitdə, istehsalın sabitləşdirilməsi yanlız istehsalın differensiallaşdırılması və bazarın yeni bazar yerlərinin yaradılması, mənimsənilməsi şərti ilə seqmetləşdirilməsi hesabına əldə oluna bilər.

Beynəlxalq təcrübə göstərir ki, toxuculuq sənayesinin iqtisadi inkişafının təmin edilməsidigər tədbirlərlə yanaşı elmi cəhətdən əsaslanmış innovasiya fəaliyyəti ilə bilavasitə bağlıdır. Yüngül sənaye müəssisələrinin innovasiya fəaliyyəti iqtisadi artımın və istehsal edilən innovasiyalı məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsinin ən əhəmiyyətli amillərindən biridir. Bu, istehlakçıların tələbatını ödəyəcək daha aşağı istehlak qiyməti olan əmtəələrin yüksək küyfiyyətini təmin etmək üçün ən zəruri şərtlərdəndir. İnnovasiya fəaliyyətinin əsas istiqamətləri innovasiyaların yaradılması və reallaşdırılması ilə xarakterizə olunur. Yeni texnologiyaların, məhsul və xidmət növlərinin yaradılmasına xidmət edən innovasiya fəaliyyəti müasir şəraitdə iqtisadi inkişafın əsas təməl amilidir. Araşdırmalar yüngül sənaye müəssisələrinin innovasiyalı inkişafında aşağıdakı çatışmazlıqların mövcudluğunu göstərir:

- innovasiya fəallığının stimullaşdırıması üçün davamlı inkişaf proqramlarının kifayət səviyyətə olmaması;
- elmi-texniki və innovasiya istiqamətli tədqiqatların aparılmasında və istehsalata tətbiqində çatışmazlıqlar;
- müəssisələrin daxili və xarici bazarlardakı mövqeyinin güclənməsi, bazarın tələb və təklifi əsasında innovasiya tədqiqatlarının, innovasiya məhsullarının istehsalı üzrə sifarişlərinin verilmə mexanizminin formalaşmaması;
- elm və innovasiya fəaliyyətinin əlaqələndilirilməsinin müəyyən hallarda qeyri-səmərəli olması;
- innovasiya fəaliyyətinin regional inkişafına kifayət səviyyədə diqqət yetirilməməsi.
-

## NƏTİCƏ

Araşdırmalara əsaslanaraqtoxuculuq sənayesinin inkişafı və bu sahənin rəqabət qabiliyyətinin artırılması məqsədilə aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

- investisiya cəlbediciliyinin və innovativ resursların istehsala tətbiqinin stimullaşdırılması;
- istehlakçı üstünlüklərinin və məhsul bazarında marketinq tədqiqatlarının aparılması, müəssisənin bazarda fərdi siyasətinin innovasiya qərarlarına uyğunlaşdırılması;

- rəqabət qabiliyyətinin inkişafının səmərəli qiymətləndirilməsi üçün müəssisənin fəaliyyətini müəyyən edən yeni kəmiyyət və keyfiyyət göstəricilərinin işlənib hazırlanması;
- istehsalın rəqabət qabiliyyətinin yüksəldilməsinə imkan yaradan innovasiyaların iqtisadi səmərəliliyinin təmin edilməsi;
- müəssisələrin və istehsal olunan məhsulların dayanıqlı inkişafını təmin etmək məqsədilədövlət dəstəyi təbirlərinin genişləndirilməsi.

***Elmi yeniliklər:***Araşdırmanın elmi yenilikləri aşağıdakılarla xarakterizə olunur:

- toxuculuq sənayesində keyfiyyətin yüksəldilməsi xüsusiyyətləri müəyyən edilmişdir;
- innovasiya tətbiqinin toxuculuq məhsullarının rəqbət qabiliyyətinin artırılmasına təsiri müəyyən edilmişdir;
- investisiya qoyuluşlarının toxuculuq sənayesinin inkişafındakı rolu müəyyən edilmişdir;
- - innovativ resurlardan istifadənin toxuculuq sənayesi müəssisələrinin inkiafına təsiri meyarları müəyyənləşdirilmişdir.

## Ədəbiyyat:

1.Məmmədov S.M. Yüngül sənayenin mövcud vəziyyəti və restrukturizasiya problemləri. Bakı 2012-ci il.

***2.***Русак Е. С., Морозова Н. Н. Экономика организации (предприятия промышленности): для студентов. - Минск: Академия управления при Президенте Республики Беларусь, 2018. С. 467.

3.Зернова Л. Е. Саган Е. И. Организационно-экономический механизм управления кредитоспособностью текстильного предприятия М. 2012. 217 с.

4. www.stat.gov.az

### *УРОВЕНЬ РАЗВИТИЯ ТЕКСТИЛЬНОЙ ПРОМЫШЛЕННОСТИ ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА ЭТО*

Матлаб Огтай Алиев

***РЕЗЮМЕ:***развитие текстильной промышленности играет важную роль в удовлетворении спроса страны на продукцию в этой области и устранении зависимости от импорта. С этой точки зрения развитие текстильной промышленности с использованием инновационных ресурсов играет важную роль в увеличении объема, ассортимента и качества продукции, устойчивое развитие может быть возможным.

### LEVEL OF DEVELOPMENT OF TEXTILE INDUSTRY,FACTORS AFFECTING IT

**Metleb Ogtay Aliyev**

**SUMMARY:** The development of the textile industry plays an important role in meeting the country's demand for products in this area and eliminating dependence on imports. From this point of view, the development of the textile industry using innovative resources plays an

important role in textile industry using innovative resources plays an important role in increasing the volume, range and quality of products. sustainable development may be possible.

Redaksiyaya daxilolma: 31.01.2020
Çapa qəbul olunma :05.04.2020

**№ 3/2020** **səh.89-100**

# SƏNAYEDƏ İNSAN KAPİTALININ İNKİŞAFININ İNNOVASİYA AKTİVLİYİNİN ARTIRILMASINA TƏSİRİ

*Zeynallı Lətif Vidadi oğlu*

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti**
**Azadlıq pros. 34, Bakı, Azərbaycan**
*latif.zeynalli@gmail.com*

***Xülasə:** **Müasir dövrdə innovasiyalar iqtisadiyyatda sabit iqtisadi artımın təminatçısıdır. Sənayedə innovasiya fəallığı iqtisadi fəallığın xüsusi növüdür.Ümumilikdə, iqtisadi proseslərin səmərəliliyi və iqtisadi sistemin dayanıqlığının təmin edilməsinə artan tələblər tənzimlənən intensiv inkişafın innovativliyini zəruri edir. Bu baxımdan, tədqiqatın aparılmasında əsas məqsəd sənaye müəssisələrinin innovasiya fəaliyyətinin əsasları və onların innovasiya fəaliyyətlərinin genişlənməsində insan kapitalının rolunun öyrənilməsindən ibarətdir.***

***Açar sözlər: insan kapitalı, sənaye, dəyər, innovasiya, innovativ insan kapitalı***

**Giriş.**Sənaye cəmiyyətindən informasiya cəmiyyətinə keçid prosesi müəssisələrdə əhəmiyyətli dəyişikliklərin baş verməsinə səbəb olmuşdur. Bu keçid üçün ən vacib səbəb informasiya texnologiyaları sahəsində sürətli dəyişikliklərin olmasıdır.Buna görə də, qloballaşma prosesində texnoloji yeniliklərin sürətli inkişaf meylinə malik olması, müəssisələri bu tempə uyğunlaşmağa məcbur edir.Müəssisələrin bazarda sağ qalmaları üçün, inkişafı təmin etmək istiqamətində yeni yollar axtarması, qarşıya qoyulan əsas hədəflərdən biridir.Sənaye iqtisadiyyatından informasiya iqtisadiyyatına keçid dövründə siyasi, sosial-mədəni, iqtisadi və texnoloji sahələrdə baş verən dəyişikliklər təbii olaraq, müəssisələr təsirsiz ötüşməyib.Texnoloji inkişaf nəticəsində müəssisələr artan rəqabət şəraitindəmövcudluqlarını davam etdirmək və fəaliyyətlərini daha gücləndirmək üçün daim dəyişikliklər və innovasiya prosesindədirlər.Hazırkı mərhələdə qloballaşma və informasiya iqtisadiyyatının təsirləri nəticəsində biznes sahələrində bir çox yeni konsepsiya və anlayışlar müəyyənləşdirilir, həmçinin mövcud anlayışlar yenidən təkmilləşdirilir.Bu prosesdə insan kapitalı anlayışının araşdırılması ön pl
anda duran məsələlərdən biridir.Xüsusilə qeyd etmək lazımdır ki, getdikcə bazarlar fərqlənir, rəqabət artır, məhsullar və xidmətlər arasında fərqlər azalır, informasiyalar mühüm bir gücə çevrilir və bu amil iş dünyasını biznes baxımındaninsan kapitalının fərqlilik yaradan, müəssisəyə əlavə dəyər verə biləcək bir quruluş kimi diqqətini cəlb edir.İnsan kapitalı insan biliklərinin dəyəridir. Başqa sözlə, insan kapitalı insanın özüdür.Bu baxımdan, məqalənin hazırlanmasında əsas məqsəd müəssisədə insan kapitalının rolunu araşdırmaqdan ibarətdir.

***Tədqiqatın aktuallığı.*** Ölkə sənayesində innovativ aktivliyin artırılması məqsədilə müəssisələrdə insan kapitalının inkişafı mexanizmlərinin formalaşdırılması və təkmilləşdirilməsi, gələcək perspektivdə müəssisə üçün dəyər yarada biləcək kadrlara investisiyaların yatırılması və onların düzgün idarə olunması prioritet təşkil edir.

***Tədqiqatın məqsədi.*** İnsan kapitalını inkişaf etdirməkdə əsas məqsəd sənayedə innovativ aktivliyin artırılması nəticəsində müəssisə fəaliyyətində ölkədaxili tədqiqat və işləmə potensialına üstünlüyün verilməsindən ibarətdir.Nəzərə alaq ki, sənayedə innovativ fəaliyyət ölkə iqtisadiyyatının dünya bazarında yerinin möhkəmlənməsində və ya iqtisadi artımın davamlı olmasında çox böyük əhəmiyyətə malikdir.

№ 3/2020 səh.89-100

***Tədqiqatın obyekti.*** Azərbaycan sənayesi.

***Tədqiqatın metodikası.*** Tədqiqat işi elmi abstraksiya, məntiqi ümumiləşdirmə kimi tədqiqat üsulları əsasında yerinə yetirilmişdir.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

### 1. Sənaydə innovasiya ilə insan kapitalının qarşılıqlı əlaqəsi.

Dəyişiklik universal həqiqətdir. Sürət və təsirin fərqli olmasına baxmayaraq, kainatdakı bütün elementlər dəyişmə aralığına daxildir.Dəyişikliyin sürəti dəyişmənin ən vacib xüsusiyyətidir və dəyişiklik bu xüsusiyyətin davamlılığına borcludur.[1]

İnnovasiya müəssisələrin, regionların və iqtisadiyyatın bütövlükdə inkişafının təmin olunmasında əsas göstəricilərdəndir.İnnovasiya dünyada başverən qlobal dəyişmənin təməl faktoru olaraq xarakterizə edilə bilər.Qlobal informasiya praktikasına əsaslanan, qlobal əlaqələrəsöykənən, mövcud elmi qəbul və bunu aşmağı hədəfləyən bir yenilik, dəyişiklik və fərqləndirmə mədəniyyətir. İqtisadiyyatın həm ənənəvi, həm də elmtutumlu sahələrdə rəqabətə davamlılığının artımı onun inkişafına stimul yaradır.

Müasir sənaye müəssisələrinin rəqabətqabiliyyətli olmaları, yeni texnologiyaları tətbiq etmələri, yeni məhsullar bazara təklif etmələri, əldə olunan informasiyalardan istifadə edərək iqtisadi nəticələrə nail olmaları üçün mövcud bilik və resurlardan yararlanmaları zəruridir. Bu məqsədə nail olmaq üçün əsas hədəf innovasiyadır.Qlobal bazarda mövcud olan rəqabət , texnoloji yeniliklərin müəssisələrin uğuru və davamlılığı üçün vacib olduğunu göstərir. Bir müəssisənin yenilikçi potensialı onun daxili innovasiya potensialını xarici innovasiya mənbələri ilə birləşdirmək nəticəsində formalaşır. Sənaye müəssisələrinin daxili innovativ potensialı insan kapitalıdır hansı ki, bilik və təcrübə, bacarıq və keyfiyyətlər, mövcud olan resursları idarə etmək yolu meydana gəlir. Sənaye müəssisələrinin xarici innovativ potensialı isə rəqabət, tədqiqat və inkişaf vahidləri, xarici maliyyə mənbələrinin mövcudluğudur.Uğurla inkişaf edən müəssisələrin praktikası təsdiq edir ki, bu gün dəyişikliklərə daha tez reaksiya verən və daim innovasiyalarla məşğul olanlar həyatda qalırlar.[2]

**Şəkil.1**




**Mənbə:***Tədqiqat materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Müasir elmi-texniki sahələrin inkişaf tempi, informasiya texnologiyalarının geniş vüsət alması, ənənəvi texnologiyalar sahəsindəki innovasiyalar, yeni ticari münasibətlər, ictimai və korporativ məşğulluq sahəsində sürətlə dəyişən tələblər və yeni siyasi proseslərin miqyası müəssisələri insankapitalının inkişafının əsaslarını yenidən düşünməyə vadar edir. İnsan kapitalı uğrunda aparılan rəqabət dərin xarakter alıb və insan ən zəngin kapital kimi dünya innovasiya inkişafının əsas fundamentini təşkil etməkdədir.Yüksək ixtisaslı personalın çevikliyinin artması, biliyin paylaşması prosesi hazırda genişmiqyaslı bir dünya mexanizmi kimi sürətli temp alıb. Keyfiyyətli insan kapitalı uğrunda aparılan rəqabət dünya innovasiya inkişafının əsas xüsusiyyəti olmaqla, yüksəkixtisaslı personalın çevikliyinin artması, biliyin paylaşması prosesini təmin edir.İnsan kapitalı müasir müəssisənin inkişafının əsas amili hesab olunur. Təsadüfi deyil ki, insan kapitalı həm iqtisadiyyat, həm də idarəetmə elmlərində daha vacib tədqiqat məsələlərindən birinə çevrilmişdir.Ümumiyyətlə iqtisadi artım və inkişafı stimullaşdırıcı fəaliyyətlərdə istifadə edilən şəxslərin bilik, bacarıq və qabiliyyəti kimi qəbul edilən insan kapitalı yenilik prosesinin stimuludur.İqtisadi ədəbiyyatlarda üç növ insan kapitalının mövcudluğu qeyd olunur: firmaya uyğun insan kapitalı, sənayeyə uyğun insan kapitalı və fərdi insan kapitalı.İlk iki növ insan kapitalı yalnız müəyyən bir firma və ya sənayedə dəyərli sayılan qabiliyyətlərə və biliklərə istinad edərək, bir bölgə və ya dövlət daxilində yenilikçi fəaliyyətə məhdud bir təsir göstərir. Bu iki fərddən fərqli olaraq, fərdi spesifik insan kapitalı geniş firma və sənaye sahələrinə tətbiq olunan biliyi nəzərdə tutur. Bəşəriyyətin səriştəsizliyini, inkişaf edə biləcək qabiliyyət və bacarıqları nəzərə alsaq, insan kapitalı və yeniliklərin induksiyası böyük bir qabiliyyətə malik fərdlərə, təşkilatlara və hətta cəmiyyətlərə rəqabət üstünlüyü üçün vacib bir mənbə kimi görünür.Öz inkişafını hədəfləyən müəssisələr insan kapitalının çox vacib rol oynadığı daxili innovativ potensialın inkişafı ilə məşğul olmalıdırlar. İnsan kapitalının düzgün istifadə edilməsi və idarə olunması müəssisənin rəqabət qabiliyyətinin artırılmasına və onun yenilikçi potensialının artırılmasına kömək edir.İnsan kapitalı fərdlərin bilik, bacarıq və imkanları kimi başa düşülür və müəssisələrin bəzi iqtisadi dəyərlərini özündə əks etdirir.İnsan kapitalı şirkətin üst rəhbərliyi daxil olmaqla işçilərdən ibarətdir.İnsan kapitalı konsepsiyası iqtisadi artımdakı dəyişikliklərə imkan verir.Polşalı iqtisadçı alim Domanski, insan kapitalını bir cəmiyyətdə olan bilik, bacarıq, sağlamlıq və həyati enerji qaynaqları kimi təyin edir.Həmçinin o bir vacib fakta diqqət yetirir ki, insan kapitalı bir əhalinin genetik xüsusiyyətləri ilə şərtlənən bir qayda olsa da, insana kapitalına yatırılan investisiyalar vasitəsilə onu daha da artırmaq mümkündür.[3]

İnsan kapitalı sənaye müəssisələrinin səmərəliliyini artırmaq və rəqabət üstünlüyü yaratmaqda əhəmiyyətli rola malikdir.Belə ki, keyfiyyətli insan kapitalının idarə edilməsi firmalara məhsul və xidmətlərin keyfiyyətinə, fərqli məhsullara və texnoloji yeniliklərə görə rəqabət aparmağa imkan verir. Bir təşkilatın insan kapitalının effektiv idarə olunması da davamlı texnoloji yenilik qabiliyyətinin təmin edilməsi üçün kritik bir məsələ halına gəlmişdir. İnsan kapitalı fərdlərin bacarıqlarını, qabiliyyətlərini və biliklərini ifadə edir.[4]

Ümumiyyətlə, insan kapitalı müəssisələr üçün rəqabət üstünlüyünün vacib bir mənbəyidir.İnsan kapitalı ilə innovasiya arasında olan əlaqə innovasiyanı təşviq etmək üçün deyil, yenilikləri idarə etmək üçün bir vasitədir. İnsan kapitalı bilik, bacarıq, təcrübə və istedadın tərkib hissəsidir.Bunlar insanlar içərisində olan dəyərlərdir və onlarla sıx əlaqəlidir.İnsan kapitalı fərdi, sosial və iqtisadi rifah yaratmağa imkan verən, şəxsi keyfiyyətlərə malik olan fərdin bilik,

bacarıq, qabiliyyət və digər üstün cəhətlərini xarakterizə edən iqtisadi kateqoriyadır.İnsan kapitalı aşağıdakı mənalarda başa düşülür: [5]

- cəmiyyətdə mövcud olan sağlamlıq, dözümlülük və motivasiya resursu;
- cəmiyyətin demoqrafik xüsusiyyətləri (yaş və sağlamlıq vəziyyətinin strukturu) və imkanları (adətən təhsil və peşə bacarıqları ilə bağlı);
- hər hansı peşə üzrə bilik və bacarıqlar ilə sahibkarlıq və peşəkarlıq səviyyəsinin qaynağı;
- əməkdaşlıq, kreativlik, səlahiyyətlər, münasibətlər və işə istiqamətlənən daxili motivasiya bacarıqları.

Öyrənmə və davamlı inkişaf bacarığı, müəssisənin əlavə dəyərinin digər resurslardan daha əhəmiyyətli olmasını təmin edir. Bir insana investisiya qoyuluşu, onlar tərəfindən yeni təcrübələr əldə etməklə bağlıdır, əlavə olaraq, fərdi şəkildə və ya komanda şəklində öyrənmə, bilikləri təkmilləşdirmə prosesi onların təhsilinin artırılması ilə təmin edilir.Mükəmməl keyfiyyətləri əldə etmək və innovasiya aktivliyinin yüksəldilməsinə nail olmaq üçün müəssisə işçisini kurslar, təlimlər və ya müxtəlif tədris yolları ilə inkişaf etdirilə bilər.Tanınmış ingilis iqtisadçısı A.Smith deyib ki, təhsil və tədris insanlara investisiyalar kimi müəyyən edilməlidir. Buna görə müəssisələr tərəfindən insan kapitalına sərmayə qoyulması, təcrübə keçdikləri peşədə bacarıqlarını inkişaf etdirən hər cür təlim və kursların təşkil olunması və maliyyələşdirilməsi ilə bağlıdır.İnsan kapitalı innovasiya prosesində bilik və bacarıqların əsas mənbəyi hesab olunur.İqtisadi artım nəzəriyyəsi insan kapitalını makro səviyyədən innovasiyanın ən vacib hissələrindən biri kimi qəbul edir ki, bu zaman tədqiqat və inkişaf (R&D) insan kapitalı ilə birlikdə yeniliklərin istehsal olunmasında müstəsna rol oynayır. Bu makroiqtisadi yanaşma firmaların innovasiyasında insan kapitalının necə mühüm əhəmiyyət daşıdığına işarə verir. Yüksək qabiliyyətli insan kapitalı fərdin yüksək bacarığını təmsil edir və firmaların innovasiya qabiliyyətini artırır.

## 2. Sənayedə insan kapitalının formalaşmasına innovativ yanaşma.

Ağıllı sahibkarların və yenilikçilərin üstün bacarıqlarından biri, ilk baxışda elədə önəmli sayılmayan, nəzərə çarpmayan məsələləri öncədən görmək və fəaliyyətində tətbiq etməkdir.Dünya şöhrətlialim Albert Eynşteyn çox maraqlı fikir söyləyib: “Təsəvvür etmək bilikdən daha vacibdir.”
İnsan Kapitalı yanaşmasına üstünlük verən sənaye müəssisləri malik olduqları insan resurslarına dəyər yaradan kapital resursu kimi yanaşır.Belə ki, əgər insan resursları müəssisədə insan kapitalı səviyyəsində qəbul edilmək istəyirsə, ilk öncə dəyər yaratmağa, müəssisənin gələcək biznes siyasətinin formalaşdırılmasında aktiv iştirak etməyə məcburdur.
Müasir dövrdə iqtisadi inkişaf innovasiya ilə sıx bağlıdır.Fərdi şəxslər də innovasiyada əsas rol oynayırlar. İqtisadiyyatın inkişafında insanın rolu daha düzgün başa düşüldükcə, onun tədqiq edilib öyrənilməsi zərurəti də get-gedə daha anlamlı olmuş, həmçinin bu sahədə aparılan tədqiqatların əhatə dairəsi və intensivliyi artmışdır. İnsan kapitalı bilik və bacarıqların birləşdirilməsidir.Bu, əmək və kapitalın artan məhsuldarlığı sayəsində artım və inkişafı təbliğ

edir[6]və bununla yanaşı "bilik və innovasiya sistemlərini bir arada saxlayan" "sement"dir.[7]İnsan kapitalı müasir iqtisadiyyatın inkişafının əsas amili hesab olunur.İnsan kapitalı fərdi, sosial və iqtisadi rifah yaratmağa imkan verən, şəxsi keyfiyyətlərə malik olan fərdin bilik, bacarıq, qabiliyyət və digər üstün cəhətlərini xarakterizə edən iqtisadi kateqoriyadır.Təsadüfi deyil ki, insan kapitalı həm iqtisadiyyat, həm də idarəetmə elmlərində daha vacib tədqiqat məsələlərindən birinə çevrilmişdir.A.Smit yazırdı ki, "faydalı iş istehsalının artımı hər şeydən əvvəl işçinin çevikliyinin və bacarığının yüksəldilməsindən, ondan sonra isə işlətdiyi maşın və alətlərin təkmilləşdirilməsindən asılıdır". O, hesab edirdi ki, əsas resurslar maşın və başqa alətlərdən, tikililərdən, torpaqdan və"əhalinin vəcəmiyyət üzvlərinin əldəedilmiş faydalı bacarıqlarından" ibarətdir. O, qeyd edirdi ki, "bu cür bacarıqların əldə edilməsi bacarıq sahibinin tərbiyəsi, təlimi və ya şagirdliyi dövründə təkmilləşməsi zamanı xərc tələb edir, bu bir növ onun şəxsiyyətini reallaşdıran əsas kapitalı təşkil edir".[8] Müasir dünya iqtisadiyyatı əsasən texnoloji inkişaf üzərində qurulduğundan, insan kapitalı və innovasiyaların yaxından əlaqəli olduğu ideyası dəstəklənir.Bu gün dünyada keyfiyyətli insan kapitalı uğrunda rəqabət dərin xarakter alıb və insan ən zəngin kapital kimi dünya innovasiya inkişafının əsas fundamentini təşkil edir. Yüksək ixtisaslı personalın çevikliyinin artması, biliyin paylaşması prosesi hazırda genişmiqyaslı bir dünya planı kimi sürətli temp alıb.İnnovativ iqtisadiyyatda güclü maliyyələşdirməyə imkan verən iqtisadi resursların olması ilə bərabər, bu sistemi idarə edən intellektual və texnoloji potensiala da böyük ehtiyac var. İnnovasiya şəbəkəsinin iştirakçılarının sayının daim artması, bura yeni sosial qrupların cəlb edilməsi, innovasiyanın inkişafına istiqamətlənən institusional sistemin yaradılması bu sahədə əsas faktorlardandır.Amerikalı tanınmış iqtisadçı Q.Bekker ilk dəfə olaraq insan kapitalı anlayışını mikrosəviyyədə nəzərdən keçirmişdir.O, müəssisənin insan kapitalını insanın biliklərinin, onlara qoyulan investisiyalar kimi, xüsusilə təhsil və təlimə çəkilən xərclər kimi nəzərə almışdır.[9]Buna görə müəssisələrin fəaliyyətində innovativ insan kapitalının təsirini araşdırmaq zərurəti yaranır. İlk öncə innovativ kapitalın mənasını vurğulamaq vacibdir.İnnovativ kapital sənaye və ya müəssisələrin dünya bazarının tələblərinə cavab verən yüksək səviyyəli məhsullar istehsal etmək qabiliyyətidir.Hansı ki, hazırkı mərhələdə, texnika və texnologiyanın sürətlə inkişaf etdiyi bir dövrdə bu xüsusi əhəmiyyət kəsb edir.Bunu da nəzərə almaq lazımdır ki, innovativ kapitalın ən mühüm komponenti insanlardır.İnnovativ insan kapitalıdedikdə isə, texniki və təbiət elmləri, marketinq və idarəetmə texnologiyaları, sahibkarlıq qabiliyyəti olan insanlar nəzərdə tutulur.İnnovativ insan kapitalının nüvəsi istehlakçıya yeni bir məhsul və texnologiya yaratmaq üçün zəruri olan bilik və bacarıqların məcmusundan ibarətdir.İnnovativ insan kapitalı adlandırılan bu yeni anlayış işin məhsuldarlığı və yeniliyə hazırlıq kimi maddi və qeyri-maddi elementləri özündə birləşdirir.Digər tərəfdən, insan kapitalının daha yenilikçi aspektlərini özündə birləşdirməklə, innoavtiv insan kapitalına çevrilməsinə yol açır.İnnovativ insan kapitalının formalaşması əhəmiyyətli investisiya tələb edir. İnsan kapitalı nəzəriyyəsinə görəinsanlara qoyulan investisiyaların əsas istiqamətləri təhsil, səhiyyə və onun hərəkətliliyinə sərf olunur. Bütün sahələrdə insan kapitalına qoyulan investisiyalarhəm işçi qüvvəsinin keyfiyyətini, həm də görüləcək işin həcmindən asılı olmayaraq istehsal effektini artırır.İnnovativ insan kapitalına gəldikdə, bu halda formal təhsilə (məktəb, kollec, universitet) qoyulan investisiyalar xüsusi əhəmiyyət kəsb edir və işçinin xüsusi innovativ tərkibinin formalaşmasına səbəb olur. Bunun başlıca səbəbi müasir texnologiya və müəssisənin inkişafına, yüksək ixtisaslı mütəxəssislərin formalaşmasına zəmin

yaratmaqdır.Müəssisənin biliyə əsaslanan baxışları onu yenilikləri və məlumatları yaradan, koordinasiya edən və qoruyan bir təşkilat kimi təsvir edir. İnsanlar, fərdlər və ya qruplar, yenilikləri təşviq etmək üçün təşkilati mədəniyyət yaratmaqda maraqlı olmalıdırlar.Müəssisə səviyyəsində belə təşkilati mədəniyyətin determinantlarına innovasiya və ünsiyyəti təşviq edən strategiyalar, strukturlar, dəstək mexanizmləri və davranışlar daxildir. İnnovasiya və insan kapitalı ilə bağlı aparılan tədqiqatlar, fərd və firmanın yenilikçilik baxımından xüsusi əhəmiyyət kəsb edən əməli qabiliyyətini müəyyən edir.Bu yanaşmaya görə əməli qabiliyyət yalnız fərdi iştirakçıların cəmini deyil, həm də təşkilatların istifadəsi qabiliyyətini ehtiva edir.[10] Müəssisələrin yenilikçi davranışları və yeniliklərə olan münasibəti, işçinin performansını, eyni zamanda firmanın məhsuldarlığı və performansını təmin edir.Firmanın yeni fikirlərə, komanda işinə, rahatlığına və ünsiyyətinə açıqlığı innovasiya prosesinə olduqca müsbət təsir göstərir.Məlum olduğu kimi müəssisələrdə innovativ insan kapitalı daxili və xarici amillərdən formalaşaraq təsir göstərir.Müasir müəssisələr sürətlə dəyişən rəqabət mühitində ayaqda qala bilmək üçün məhsullarını, xidmətlərini və iş görmə üsullarını davamlı olaraq dəyişdirmək, fərqliləşdirmək və yeniləmək zərurətindədirlər.Buna görə də, yeni bir modelin - innovativ insan kapitalının yaratdığı imkanlardan yararlanmaq hər bir müəssisə üçün müsbət effektlər verəcəkdir.İnnovativ insan kapitalının dəyərli bir resurs kimi və müəssisə səviyyəsində yeniliklərin determinantı kimi təhlil olunması üçün aşağıdakı şəkilə diqqət yetirəndə məlum olur ki, müəssisədə innovativ insan kapitalı təhsil, təlim, iş məmnuniyyəti və dəyişdirmək istəyi kimi göstəricilərə uyğun olaraq formalaşır.Şübhəsiz ki, bu prosesə müəssisənin malik olduğu spesifik xüsusiyyətlər və əməkdaşlarının demoqrafik göstəriciləri də əlavə dəyər qatır.Qeyd olunan elementlər müəssisədə innovativ insan kapitalı konsepsiyasının əsasını təşkil etməklə, onun formalaşmasında müstəsna rola malikdirlər.




*Şəkil.2*

**Mənbə:***Helen McGuirka, Helena Lenihan, Mark Hart "Measuring the impact of innovative human capital on small firms' propensity to innovate" Research Policy 44 (2015) 965–976*

Şəkildən də göründüyü kimi, innovativ insan kapitalı müəssisələr üçün üç səviyyəli innovasiya (məhsul, xidmət və proses yeniliyi) tipinə təsiri əks olunur.
Müəssisədə innovativ insan kapitalını qiymətləndirmək üçün [11].

$$\mathbf{Inni = \alpha0i + \alpha1Zi + \alpha2Demi + \alpha3RSi + \alpha4IHCi + \varepsilon i}$$

düsturu qeyd etmək lazımdır ki, burada (**Inni) -** müəssisənin innovasiya aktivliyinin ölçüsünü; (**α0,α1,α2,α3 və α4)** xüsusi dəyişən, (**Z)** müəssisələrin innovasiya qabiliyyətinə təsir edən müəssisədaxili spesifik xüsusiyyətlərini əks etdirir. Bu göstəriciyə sektor növü (istehsal, biznes və maliyyə fəaliyyəti və digər bütün xidmətlər) və firmaların iş təcrübəsi daxildir. **(Demi)**,rəhbər işçilərin və digər əməkdaşların yaşı, cinsiyyəti və vətəndaşlığı üçün müəyyən olunan göstəricidir.Müəssisə səviyyəsində innovasiyalara təsirlər isə **(Rsi)** ilə əks olunur.Göründüyü kimi, müəssisənin innovativ aktivliyinin müəyyən olunması üçün **(IHCi)**innovativ insan kapitalının ölçülməsi zəruridir.İnnovativ insan kapitalının ölçülməsi məqsədilə Şəkil 3-də qeyd olunan modellər, yəni, Model 1. təhsil səviyyəsini ölçülməsi; Model 2. İşçilərə menecerləri tərəfindən verilmiş, firma tərəfindən təmin edilmiş təlimlərin ölçülməsi; Model 3. işdən məmnunluq və Model 4. dəyişdirməyə hazırlıq prioritet qəbul olunmalıdır.Buna görə hər bir meneceri dörd elementin hər birinə görə qiymətləndirmək zərurəti yaranır. Nümunə olaraq, işçi-menecerin təhsil üzrə göstəricisi üçüncü səviyyəli və ya daha yüksək dərəcəyə malikdir; firma tərəfindən verilən təlimdən istifadə etmişdir; iş yerindəki dəyişiklikləri qəbul etməyə hazırdır və işinin müxtəlif aspektləri ilə razı olduğunu bildirir kimi qiymətləndirmə aparılmalı və alınan nəticələr aşağıdakı tənlikdə öz əksini tapmalıdır.[12]

$$\mathbf{IHCi = \alpha0 + \alpha1Inti + \alpha2Exti + \alpha3Ci + \varepsilon i}$$

Tənlikdəilk dəyişən kimi, müəssisədə innovativ insan kapitalına təsir göstərən daxili amilləri - iş təcrübəsi və iş qaydaları əks olunur.İkinci dəyişən kimi, innoavtiv insan kapitalına təsir göstərən xarici amilləri – regional işçi qüvvəsinin müxtəlifliyi və regionda sahibkarlıq fəaliyyəti qəbul olunur.Məlum olduğu kimi, bu tədqiqat insan kapitalının bütöv bir ölçüsünü nəzərə alaraq, biliklərin inkişafına stimul verir və yeni innovativ insan kapitalı konsepsiyasını yenilikçi bir hal kimi təyin edir.

## 3.Azərbaycan sənayesində innovativ aktivlik və ona insan kapitalının təsiri.

Müasir dövrdə qlobal miqyasda innovasiya fəaliyyəti həyata keçirən sənaye müəssisələriöz strukturlarına tədqiqat və inkişaf (R&D) bölmələrini də əlavə edirlər. Ümumilikdə tədqiqat və inkişafa (R&D) investisiya xərclərinin səviyyəsi və dinamikası biliyə əsaslanan sənayenin inkişafı üçün əsas aspektdir.Həmçinin, mənfəətə çevrilə bilən bilik intellektual kapitaldır və müəssisənin aktividir.Texnoloji dəyişikliklərin əsas hərəkətverici qüvvəsi tədqiqat və inkişafın həyata keçirilməsi ilə elmi yeniliklərin əldə olunmasıdır, bu isə yeni proseslərın, yeni biliklərin və yeni məhsulların formalaşmasına zəmin yaradır.Bundan başqa, müəssisədə tədqiqat və

inkişaf (R&D) bölmələrin yaradılması, elmi-tədqiqat araşdırmalarını ilkin istehsal imkanlarına və son istehlakçı ehtiyaclarına yaxınlaşdırmağa, yüksək ixtisaslı kadr ehtiyatlarını cəlb etməyə və nəhayət, müəssisənin kommersiya sirlərinin təhlükəsizliyi baxımından rahat olmağa şərait yaradır.Bütün bunları nəzər alsaq, Azərbaycanda sənayedə innovativ aktivliyinin artırılması prioritetləri və innovasiya fəalliyətində insan kapitalının təsirlərinin araşdırılması vacib məsələlərdən biridir.İlk öncə, Azərbaycandan sənaye müəssisələrinin işinin əsas göstəricilərinə nəzər salaq:

**Cədvəl.1**

**Azərbaycanda sənaye müəssisələrinin işinin əsas göstəriciləri.**

| | **2013** | **2014** | **2015** | **2016** | **2017** |
|---|---|---|---|---|---|
| **Sənayeməhsulununfizikihəcmindeksi, əvvəlkiilənisbətən, faizlə** | 94.5 | 93.8 | 96.1 | 95.6 | 92.3 |
| **Ölkədəistehsalolunmuşsənayeməhsul ununumumihəcmi , milyon manat** | 33,898.1 | 32,110.3 | 26,369.4 | 32,300.2 | 39892.5 |
| **Sənayemüəssisələrininişçilərininsayı,v ahid** | 2527.0 | 2534.0 | 2583.0 | 2561.0 | 2581,0 |
| **Birişçininortaaylıqəməkhaqqı, manat** | 630.8 | 694.8 | 809.3 | 927.6 | 969.2 |
| **Əsaskapitalainvestisiyalar,milyonman at** | 7499.6 | 7639.5 | 8499.9 | 9949.8 | 10610.1 |

**Mənbə:***Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır*(https://www.stat.gov.az/source/industry/)

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarına əsasən, 2013-2017-ci illər ərzində ölkədə istehsal olunmuş sənaye məhsulunun ümumi həcmində 17,7%,işçilərin sayında 2,1 faiz, əsas kapitala investisiyalarda 41,5 faiz artım müşahidə olunsa da, ölkədə istehsal olunan sənaye məhsulunun fiziki həcm indeksində 2,3% azalma qeydə alınmışdır.

Cədvəl.2-dən göründüyü kimi, 2013-ci ilənisbətdə 2017-ci ildətexnoloji innovasiya 1,2 dəfəyə, proses innovasiyası, texnoloji innovasiyalara müəssisələrin öz hesabına çəkdiyi xərclər isə 1,3 dəfəyə qədər artımla müşahidə olunub.Müsbət haldır ki, texnoloji innovasiyalara çəkilən xərclərin böyük həcmi müəssisələrin öz vəsaiti hesabına həyata keçirilmişdir.Bundan başqa, məhsul innovasiyasına çəkilən xərclərin enməsi, eyni zamanda, innovasiya məhsulu üzrə göstəricinin illər üzrə aşağı doğru hərəkət etməsi sənayedə bu sahədə müəyyənləngimələrin olmasına işarə edir.

№ 3/2020 səh.89-100

**Cədvəl.2**

**Azərbaycan sənayesində innovasiya məhsulunun həcmi, texnoloji innovasiyalara tipləri və maliyyə mənbələri üzrə çəkilən xərclər (min manatla)**

| İllər | İnnovasiyaməhsulununhəcmi min man. | Texnoloji innovasiyalaraçəkilənxərclər, min man. | O cümlədən | | Maliyyə mənbələr üzrə texnoloji innovasiyalara çəkilən xərclər | | |
|---|---|---|---|---|---|---|---|
| | | | Məhsul innovasiyasına | Proses innovasiyasına | Müəssisələrinözvəsaiti hesabına | Dövlət büdcəsindən Ayırmalar | Sair maliyyə mənbələri |
| **2013** | 883.1 | 13,877.0 | 11,899.0 | 1,977.7 | 12,376.9 | 551.2 | 949.0 |
| **2014** | 1,117.6 | 21,534.0 | 13,510.0 | 8,023.7 | 21,133.5 | - | 400.6 |
| **2015** | 589.7 | 35,179.0 | 13,685.2 | 21,493.9 | 34,779.2 | - | 399.9 |
| **2016** | 540.9 | 27,929.0 | 20,313.8 | 7615.2 | 14,286.5 | - | 1834.3 |
| **2017** | 383.8 | 16135.7 | 10439.6 | 5696.1 | 16076.0 | - | 23.7 |

**Mənbə:***Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır.*(https://www.stat.gov.az/source/industry/)

**Şəkil.3**

**Sənaye müəssisələrinin işçilərinin sayına görə qruplaşdırılması(yekunagörə, faizlə)**







**Mənbə:***Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır.*(https://www.stat.gov.az/source/industry/)

Ölkədə sənaye müəssisələrinin işçilərin sayınagörəqruplaşdırılması göstərirki, əgər 2013-cü ildə fəaliyyətdə olanbütün müəssisələrin 71%-i kiçik, 29%-i orta və iri müəssisəstatusundaolmuşdursa,növbəti dörd ildə həmin tərkib əaslı şəkildədəyişmiş və uyğun olaraq 59% və 41% təşkil etmişdir (şəkil 4).

Ümumilikdə, sənaye müəssisələrində innovasiyalara mane olan bir sıra amillər mövcuddur.Belə ki, hazırkı mərhələdə təzə məhsullara ödəniş qabiliyyətli tələbatın aşağı olması, yüksək iqtisadi risk, müəssisənin innovasiya potensialının aşağı olması, ixtisaslı işçilərin və yeni texnologiyalar haqqında informasiyanın çatışmaması, satış bazarları haqqında informasiyanın azlığı, innovasiya infrastrukturunun (vasitəçilik, informasiya, hüquq, bank və s.xidmətlərinin) inkişaf etməməsi, yeniliklərin dəyərinin yüksək olması, digər müəssisələr və digər elmi təşkilatlar ilə kooperasiya üçün imkanların olmaması,daha əvvəlki innovasiyalar nəticəsində təzə məhsullara ehtiyacın olmaması, texnologiyalar bazarının inkişaf etməməsi, innovasiya fəaliyyətini tənzimləyən və həvəsləndirən qanunvericilik və normativ-hüquqi sənədlərin olmaması başlıca mane olan amillərdən sayılırlar.

## NƏTİCƏLƏR

Aparılan təhlil nəticəsində belə qənaətə gəlmək olar ki, Azərbaycan sənayesində innovasiya aktivliyini və ixrac imkanlarını artırmaq üçün ilk növbədə onların texniki-texnoloji səviyyəsi yüksəldilməli və diversifikasiya meyli gücləndirilməlidir. Sənaye müəssisələri ilk növbədə insan kapitalının inkişafına investisiyalar yatırmalı və ona gələcəkdə formalaşdırılan dəyər kimi baxmalıdır. Sözsüz ki, gələcəkdə bu dəyərin yaradılmasıüçün müəssisələr düzgün kadrlar seçməli, həmçinin , onların təlim və inkişafına,biliklərinin daim təkmilləşdirilməsinə və əldə etdikləri bilik və bacarıqları doğru istiqamətə səfərbər olunmasına xüsusi önəm verməlidir.

***Tədqiqatın elmi yeniliyi.*** Sənaye müəssisələrində insan kapitalının stimullaşdırılması məsələlərinin müəyyənləşdirilməsi, müəssisələrdə innovativ insan kapitalı modelindən istifadənin müəyyən edilməsi və innovasiya fəaliyyətinin sürətləndirilməsi perspektivlərinin öyrənilməsindən ibarətdir.

## ƏDƏBİYYAT

1. Yalçın vd., (2009) “Bilgideki Değişimin Örgütsel Değişime Etkisi Üzerine Bir İnceleme”, Niğde Üniversitesi İİBF Dergisi, Cilt:2, Sayı: 1, s.49
2. Орлов А.И., Орлова Л.А. (2008) Современные подходы к управлению инновациями и инве- стициями // Экономика XXI века,. -№12.с. 67-70
3. Domanski.S.R., (1993) Human capital and economic growth, PWN,Warsaw pp.19
4. Becker, G. (1964). Human Capital. New York: National Bureau of Economic Research.
5.Gagacka M., (2007) Human and social capital and innovativeness of micro enterprises, Warsaw pp. 309-328.
6.Mathur, V. K. (1999) 'Human Capital-Based Strategy for Regional Economic Development', Economic Developement Quarterly, 13(3), 203-216.
7. Soete, L. (2007) 'From Industrial to Innovation Policy', Journal of Industrial, Competition and Trade, 7(3-4), 273-283

8. İqtisadi islahatlar Elmi Tədqiqat İnstitutu (2017) İnsan kapitalının inkişafı: nəzəri aspektləri və qiymətləndirmə metodologiyası, s.6
9. Qitəliyev.Q.E (2013) İnsan kapitalının səciyyəvi cəhətləri, “bilik” və innovasiyanın iqtisadiyyatın inkişafında rolu.Təfəkkür jurnalı №2
10.Cohen, W. and Levinthal, D. A. (1990) 'Absorptive Capacity: A New Perspective on learning and Innovation', Administrative Science Quarterly, 35(1), 128-152.
11.Lenihan. H, McGuirk.H (2014) Measuring and Estimating the Impact of Innovative Human Capital on Firm Performance: is there a role for public policy? pp.5-8
12.Helen McGuirka, Helena Lenihan, Mark Hart (2015) “Measuring the impact of innovative human capital on small firms’ propensity to innovate” Research Policy 44 965–976
13.Gene Pease, Boyce Byerly, Jac Fitz-enz (2012) Human capital Analytics: How to Harness the Potential of Your organizations greatest asset.

14. Jack J. Phillips (2005) Investing in Your Company's Human Capital: Strategies to Avoid Spending Too Little or Too Much

15.Jack Phillips, Patricia Phillips (2015) High-Impact Human Capital Strategy:Addressing the 12 Major Challenges Today's Organizations Face.

16. Gene Pease, Barbara Beresford, Lew Walker Developing Human Capital: Using Analytics to Plan and Optimize Your Learning and Development Investments.

## ВЛИЯНИЕ РАЗВИТИЯ ЧЕЛОВЕЧЕСКОГО КАПИТАЛА В ПРОМЫШЛЕННОСТИ НА ПОВЫШЕНИЕ ИННОВАЦИОННОЙ ДЕЯТЕЛЬНОСТИ.

**Латиф Видади Зейналлы**

**РЕЗЮМЕ.** В современном обществе инновация является ключевым фактором устойчивого экономического роста. Инновации - это особый вид экономической деятельности в промышленности. Вообще, растущий спрос на экономические процессы и устойчивость экономической системы требуют инноваций регулируемого интенсивного развития. В этой связи основной целью исследования является изучение роли человеческого капитала в основе инновационной деятельности промышленных предприятий и расширение их инновационной деятельности.

**Ключевые слова**: человеческий капитал, промышленность, стоимость, инновации, инновационный человеческий капитал

**№ 3/2020** **səh.89-100**

**THE EFFECT OF HUMAN CAPITAL DEVELOPMENT IN INDUSTRY ON INCREASING INNOVATION ACTIVITY.**

**Latif Vidadi Zeynalli**

**Abstract.** In modern society, innovation is a key driver of sustainable economic growth. Innovation is a special type of economic activity in the industry.Generally, the increasing demand for the economic processes and the sustainability of the economic system require innovation of regulated intensive development.In this regard, the main purpose of the research is to study the role of human capital in the basics of innovative activity of industrial enterprises and the expansion of their innovation activities.

***Keywords:*** human capital, industry, value, innovation, innovative human capital

Redaksiyaya daxilolma 11.12.2019
Çapa qəbul olunma 05.04.2020

**№ 3/2020** **səh.101-106**

**UOT: 657:336.717**

# UÇOT SİYASƏTİNDƏ DƏYİŞİKLİKLƏRİN APARILMASI METODİKASI

***Bayramov Vüsal Eldəniz oğlu***

**Azərbaycan Texnologiya Universiteti**
**Gəncə şəh., Ş.İ.Xətai pr., 103**

***vusal.bayramov.1990@list.ru***

***Xülasə:*** ***Uçot siyasəti təşkilati-hüquqi formasından asılı olmayaraq bütün müəssisələr üçünönəmlidir. Bunu xüsusilə də mühasibat hesabatlarını tam və ya qismən dərc etdirənləraçıqlayırlar. Hər bir müəssisə tərəfindən uçot siyasəti müstəqil qaydada qanunvericilik və mühasibat uçotu üzrə normativ aktlara istinad etməlidir. Uçot siyasətində edilən hər hansı bir dəyişiklik hesabatlarda uyğunsuzluğun meydana gəlməsinə və maliyyə təhlilinin nəticələrinin təhrif edilməsinə gətirib çıxarır. Əgər maliyyə hesabatlarının etibarlılığına şərait yaradan yeni uçot prinsiplərindən istifadə olunarsa müəssisənin uçot siyasəti yeni yanaşmalar əsasında dəyişikliyə uğraya bilər. Buna görə hər şeydən əvvəl, uçot prinsiplərində dəyişikliklərə qərar vermək üçün həmin dəyişikliklərin hesabatların müqayisəsinə hansı təsir göstərəcəyini araşdırmaq və qiymətləndirmək məqsədəuyğundur.***

***Açar sözlər:*** ***uçot siyasəti, maliyyə hesabatı, mühasibat uçotu, normativ aktlar.***

**Giriş:** Ölkə iqtisadiyyatının bazar münasibətlərinə keçidi, dünya birliyinə inteqrasiyası ilə əlaqədar olaraq sahibkarlığın inkişafı, müəssisələrdə yeni təşkilati-hüquqi formaların və müxtəlif mülkiyyət növlərinin yaranması, idarəetmədə əsaslı dəyişikliklərin aparılmasını, nəzarətin təşkili metodları və həyata keçirilməsi sisteminin yenidən qurulmasını tələb edirdi.

Bazar iqtisadiyyatı şəraitində müəssisələr əmlakadan, pul vəsaitindən istifadə edərək, təsərrüfat əməliyyatlarınıhəyata keçirir və investisiyaların qoyulması sahəsində müqavilə münasibətləri yaranır.Bu münasibətlərin etibarlılığı müqavilənin bütün iştirakçıları üçün maliyyə informasiyası almağın və istifadə etməyin mümkünlüyü ilə möhkəmlədirilməlidir. İnformasiyanın düzgün şəkildə uçot və hesabatda əks etdirilməsi,müəssisə tərəfindən tətbiq edilən konkret prinsiplər, əsaslar, şərtlər və qaydaları özündə cəmləşdirən uçot siyasətinin mövcudluğunu zəruri edir[3].

Təşkilatların təcrübəsində mühasibat uçotu siyasətinin formalaşdırılmasına yanaşmalarda həm birlik, həm də fərqliliklər mövcuddur ki, bu da onların fəaliyyətlərinin miqyasından çox asılıdır. Rusiya təşkilatlarının müasir təcrübəsində mühasibat uçotu siyasətinin formalaşması müəyyən meyllər və nümunələr ilə xarakterizə olunur və tədqiqat nəticəsində əsaslandırılmışdır.

Təşkilatların hesabatlarının təhlili,onların fəaliyyət həcmindən asılı olaraq uçot siyasətinə yanaşmalardakı fərqlərin səbəblərini sistemləşdirməyə və bu fərqlərin hesabat məlumatlarının formalaşmasının etibarlılığına və onun Beynəlxalq Maliyyə Hesabatı Standartları ilə uyğunlaşmasına təsirini xarakterizə etməyə imkan verdi[6].

Mühasibat uçotuna dair Rusiya normativ sənədlərinin və müxtəlif elmi mənbələrin tənqidi təhlili nəticəsində, təşkilatların uçot siyasətindəki dəyişikliklərin retrospektiv üsulla əks olunmasınınaqibəti haqqında hərtərəfli tənzimləmələrin olmaması əsaslandırılmışdır. Hesabat çevrilməsinin iqtisadi mahiyyətinin tədqiqinə əsasən, hesabat məlumatlarının orijinaldan fərqli

olmaqla mühasibat uçotunun standartlarına uyğun şəkildə formalaşdırılması, habelə uçot siyasətindəki dəyişikliklərin aqibətini retrospektiv şəkildə əks etdirməsi üçün hesabat çevrilməsinin iqtisadi məzmunu əsaslandırılmışdır.

Elmi ədəbiyyatda hesabat çevrilməsindəki müxtəlif yanaşmaların müqayisəsi nəticəsində təşkilatların uçot siyasətində dəyişikliklərin retrospektiv əks olunması üçün müvafiq metodologiyanın əhatə dairəsinin genişləndirilməsi və tətbiqi imkanları əsaslandırılmışdır. Formalaşdırılmış nəticələr həm mühasibat, həm də maliyyə hesabatları sahəsində həm tətbiqli, həm də nəzəri əhəmiyyətə malikdir. Tədqiqatlar nəticəsində müəllifin hesabat dövriyyəsi, bu prosesin mərhələləri və prosedurlarının ümumiləşdirilmiş təfsiri təklif olunur, təşkilatların uçot siyasətindəki dəyişikliklərin retrospektiv əks olunması üçün çevrilmə qeydləri metodologiyasının istifadəsinə dair tövsiyələr əsaslandırılmışdır[7].

Tədqiqatın mövzusu təşkilatların uçot siyasətindəki dəyişikliklərin təsirlərinin əks olunması ilə əlaqəli problemlərdir. Məqsəd uçot siyasətindəki dəyişikliklərin maliyyə hesabatlarında əks olunması metodologiyasına dair tövsiyələrin əsaslandırılmasıdır. Tədqiqatın metodologiyası, Rusiya və beynəlxalq standartların normalarının müqayisəsini, həmçinin təşkilatların uçot siyasətindəki dəyişikliklərin təsirlərini əks etdirən yanaşmalara dair müxtəlif elmi nöqtələrin tənqidi təhlilini əhatə edir. Mühasibat uçotu ilə bağlı Rusiya normativ sənədlərinin tənqidi təhlili nəticəsində bu sənədlərdə təşkilatların uçot siyasətindəki dəyişikliklərin nəticələrinin əks olunması ilə əlaqədar hərtərəfli qaydaların olmaması barədə əsaslandırılmış nəticələr verilir[8].

**Tədqiqatın məqsədi:**Burada əsas məqsəd müəssisələrdə uçot siyasətinin aparılması, uçot standarlarında və metodikasında dəyişiliklərin edilməsivə təkmilləşdirilməsidir.

**Tədqiqatın obyekti:** Təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən müəssisələrdir.

**Tədqiqatın metodları:**Tədqiqatın əsasını bu sahədə qabaqcıl alimlərin apardığı araşdırmalar, tədqiqatlar, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin materialları təşkil edir.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

Mühasibat uçotu prosesi maliyyə hesabatlarının hazırlanması ilə tamamlanır. Uçot siyasəti baş mühasib tərəfindəm formalaşdırılır və müəssisə rəhbərliyi tərəfindən təsdiq olunur. Müəssisə rəhbəri uçot siyasətini formlaşdıran zaman “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanunu rəhbər tutaraq onun bütün tələblərini yerinə yetirməlidir. Uçot siyasəti həmçinin Azərbaycan Respublikasının qanunverici orqanları tərəfindən qəbul edilmiş Mühasibat uçotu standartlarının tələblərinə uyğun olmalıdır.

Müəssisənin uçot siyasətində hər dəfə Azərbaycan Respublikasının qanunverici orqanları tərəfindən qəbul edilmiş mühasibat uçotu standartlarının tələblərinə uyğun əlavə və dəyişikliklər edilə bilər. Uçot siyasəti müəssisə tərəfindən qəbul edilmiş mühasibat uçotunun aparılma qaydalarının məcmusudur. Müəssisə tərəfindən qəbul edilən uçot siyasəti müvafiq inzibati sənədlə rəsmiləşdirilir. Təsdiq olunmuş ildən sonrakı ilin yanvar ayının 1-dən tətbiq olunur. Bu zaman uçot siyasəti müəssisənin bütün filialları, bölmələri (harda yerləşməsindən asılı olmayaraq) tərəfindən tətbiq olunur. Uçot siyasətində dəyişikliklərin aparılmasında “Uçot siyasəti, uçot qiymətlərində dəyişikliklər və səhvlər üzrə” Kommersiya təşkilatları üçün 11 №li

**№ 3/2020** **səh.101-106**

Milli Mühasibat Uçotu Standartını və “Uçot siyasəti, uçot qiymətlərində dəyişikliklər və səhvlər” adlı 8 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartını rəhbər tutmuşuq. Bu standartın məqsədi uçot siyasətində və uçot qiymətlərində edilən dəyişikliklərə və səhvlərin düzəldilməsinə dair məlumatın açıqlanması və uçot qaydaları ilə yanaşı, uçot siyasətinin seçilməsi və dəyişdirilməsi üçün istifadə olunan meyarların müəyyən olunmasından ibarətdir. Bu standart uçot qaydaları nəzərə alınmaqla, maliyyə hesabatlarını “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununun 10-cu maddəsinə əsasən hazırlayan kommersiya təşkilatları tərəfindən tətbiq edilir. Bu standart uçot siyasətinin seçilməsi və tətbiqi zamanı, habelə uçot siyasətində və uçot qiymətlərində dəyişikliklərin və əvvəkli hesabat dövrlərinin səhvləri üzrə düzəlişlərin uçotu zamanı tətbiq edilir[4].

Müəssisənin maliyyə vəziyyəti haqqında hesabat düzgün, etibarlı olduqda, hesabatdakı informasiyalardan istifadə edənlər üçün bir o qədər faydalı olar.Səhmdarlar və investorlar maliyyə hesabatlarının digər istifadəçiləri ilə birlikdə təkcə müəssisənin maliyyə vəziyyəti, pul axınları və maliyyə nəticələrini öyrənmir. Onlar eyni zamanda maliyyə göstəricilərindəki dəyişikliklərin ümumi istiqamətlərini də qiymətləndirirlər.Həmin istiqamətlərə düzgün qiymət vermək üçün müəssisə ardıcıl olaraq uçotun eyni prinsip və qaydalarını tətbiq etməlidir. Bu zaman aşkar olunan bütün kənarlaşmalar maliyyə hesabatına əlavələrdə dəqiq şəkildə əks etdirilməlidir.

Müəssisə rəhbərləri uçot siyasətini seçib qəbul edərkən belə düşünürlər ki, onların seçdiyi metod və prinsinlər biznesin özəlliyini və iqtisadi gerçəklikləri yaxşı əks etdirir. Zaman keçdikcə müəssisənin məqsədləri, xarici iqtisadi vəziyyət dəyişikliyə məruz qalır. Bununla yanaşı uçot siyasətinin həm özü, həm də onun metodikası dəyişilir və təkmilləşdirilir[5].

Uçot siyasətinin formalaşmasında aşağıdakılar nəzərdə tutulur:

Müəssisə öz əmlak və öhdəliklərini digər müəssisələrdən ayırır;

Müəssisə uzunmüddətli fasiləsiz fəaliyyətinə, gələcək inkişafı, əmlak və öhdəliklərinə, habelə borclarının vaxtında ödənilməsinə təminat verir;

Müəssisənin uçot siyasətini AR-nın Mühasibat uçotu haqqında qanununa və digər normativ sənədlərə uyğun olaraq hesabat ili üçün qəbul edir;

Müəssisənin gəlir və xərclərini hesabat dövrünə düzgün aid etməli;

Baş vermiş təsərrüfat əməliyyatlarının uçot registrlərində düzgün xronoloji ardıcıllıqla qeydiyyatını aparmalı;

Müəssisənin mövcud əmlakının, kapitalının, öhdəliklərinin, hesablaşmalarının və s. inventarizasiyasının nəticələrini uçotda tam və düzgün əks etdirməlidir.

Uçot siyasətinin formalaşması zamanı mühasibat uçotunun təşkili və aparılması, inventarlaşma qaydası, əmlak və öhdəliklərin qiymətləndirilməsi üsulları, fondlar və ehtiyatların yaradılması, satışdan əldə edilən gəlirin müəyyən edilməsi, ilkin uçot formalarının təşkili, aylıq, rüblük və illik hesabatların hazırlanması və s. işlərin görülməsi barədə müəssisə rəhbəri daxili əmrlər, qərarlar, qaydalar və s. hazırlayır.

Müəssisə uçot siyasətini yalnız aşağıdakı hallarda dəyişə bilər:

- Milli Mühasibat Uçotu Standartı bunu tələb etdikdə;
- uçot siyasətinin dəyişdirilməsi maliyyə hesabatlarında əməliyyatların, digər hadisə və şərtlərin müəssisənin maliyyə vəziyyətinə, maliyyə nəticələrinə və pul vəsaitlərinin hərəkətinə təsiri haqqında etibarlı və daha uyğun məlumatların təmin edilməsi ilə nəticələndikdə.

Uçot siyasətində dəyişikliklər məcburi və könüllü olur. Məcburi dəyişikliklər qüvvədə olan standartlara və ya yeni standartların qüvvəyə minməsi ilə baş verə bilir. Uçot siyasətinin tətbiqi qaydası standarta keçid təlimatının mövcudluğundan asılıdır. Əgər standartda, yaxud standartın tətbiqində keçid təlimatı varsa, bu zaman uçot siyasəti hazırlanarkən keçid təlimatını rəhbər tutmaq lazımdır. Əgər standartda və ya standartın tətbiqində keçid təlimatı yoxdursa, onda dəyişiklik retrospektiv qaydada tətbiq edilir.

Müəssisələrdə hər hansı əməliyyat, hadisə yaxud şərtlərə xüsusi olaraq tətbiq edilə biləcək standart mövcud olmadıqda rəhbərlik mühasibat uçotu standartının hazırlanması üçün səlahiyyətli qurumların ən son bəyanatlarından irəli gələn uçot siyasətini tətbiq edə bilər. Müəssisə bu cür bəyanatdakı dəyişikliklərə əməl edərək uçot siyasətini dəyişmək qərarına gəldikdə, belə dəyişiklik uçot siyasətinin könüllü olaraq dəyişdirilməsi kimi uçota alınır və açıqlanır[2].

Uçot siyasətində aşağıdakı metodoloji baxışlar xüsusi əhəmiyyət kəsb edir:

- ✓ Əsas və dövriyyə vəsaitlərinin aid olduqları qrupa aid edilməsinə hədd qoyulması;
- ✓ Əsas vəsaitlərin uçotu və onun təmirinin aparılma qaydasının təyin edilməsi;
- ✓ İstehsal məsrəflərinin və məhsulun maya dəyərinin uçotu və kalkulyasiya edilməsi üsullarının seçilməsi;
- ✓ Gələcək dövrün gəlir və xərclərinin uçotunun müəyyənləşdirilməsi;
- ✓ Ehtiyat kapitalının uçotunun aparılma qaydasının müəyyən edilməsi;
- ✓ Məzənnə fərqi və onun uçotu qaydasının təyin edilməsi;
- ✓ Əvəzsiz alınmış pul və material dəyərlilərinin uçotu variantının seçilməsi;
- ✓ 48 “Məhsul (iş, xidmət)” hesabının uçotu qaydasının seçilməsi;
- ✓ Məqsədli maliyyələşmənin istifadəsi və onun uçotu variantının seçilməsi və s.

Aşağıdakı hallar uçot siyasətində dəyişiklik hesab olunmur:

Mahiyyət etibarilə müəssisənin əvvəlki dövrlərdə həyata keçirdiyi əməliyyatlardan fərqli olan əməliyyatlara yeni uçot siyasətini tətbiq etməsi;

Müəssisənin əvvəllər həyata keçirmədiyi, və ya xüsusi əməmiyyət kəsb etməyən əməliyyat, hadisə və şərtlərə münasibətdə uçot siyasətinin hazırlanması;

“Torpaq, tikili və avadanlıqlar üzrə” 7 №li və ya “Qeyri-maddi aktivlər üzrə” 12 №li Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq aktivlərin yenidən qiymətləndirilməsi üzrə uçot siyasətinin ilk dəfə tətbiq edilməsi[1].

Hər bir təşkilatda qurulan mühasibat uçotu onun müəyyən qaydalar üzrə aparılmasını nəzərdə tutur. Bu cür qaydalar məcmusunun təyin edilməsində başlıca problem uçotun aparılmasından alınan maksimum effektin həyata keçirilməsini təmin etməkdən ibarətdir. Burada effekt dedikdə, maliyyə və idarəetmə informasiyalarının vaxtında formalaşmasını, istifadə edən sahələr üçün yararlı və etibarlı olması başa düşülür.

## Nəticə

Beləliklə, təşkilatın uçot siyasəti, ilk olaraq mühasibat uçotu sisteminin açıqlığının genişləndirilməsi prosesini nəzərdə tutur. Müəssisə rəhbəri mühasibat uçotunun təşkili formasını, sənəd dövriyyəsi qaydasını və uçot məlumatlarının işlənmə texnologiyasını təmin etməli, daxili uçot və hesabat sistemini işləyib hazırlamalı, mühasibat uçotunun məqsədini həyata keçirmək üçün lazım olan təsərrüfat əməliyyatları üzərində nəzarət qaydasını, sənədlərə imza etmək hüququ olanları müəyyən etməlidir. Müəssisədə maliyyə nəticələri formalaşdırılan zaman

potensial zərərin yaxud öhdəliyin sonda mənfəət və aktivə çevrilərək uçot və hesabatda əksini tapması üçün hazırlıq işlərinin görülməsini təmin etməlidir. Həmçinin hər dəfəsində analitik uçot məlumatlarını sintetik uçot məlumatları ilə tutuşdurularaq mühasibat uçotu və hesabatının düzgünlüyü yoxlanılmalıdır.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti:**

- mühasibat uçotu və hesabatının tərtib olunmasında istinad edilən normativ sistemi təkmilləşdirmək;
- mühasibat uçotunun beynəlxalq standarta müvafiq istahatı proqramına uyğun tədbirlərin həyata keçirilməsində qüvvədə olan qanunvericiliyin tətbiq edilməsini özündə əks etdirən qeyri-adi vasitənin olması;
- dünya ölkələrinin müasir inkişaf səviyyəsinə uyğun vahid şəklə salınmış uçot və hesabat formasını yaratmaq, onun mühasibat uçotu ilə məşğul olan bütün mütəxəssislər tərəfindən anlaşılması və həyata keçirilməsi mümkün olsun və onlarda əks etdirilən bütün məlumatlar xarici maraqlı şəxslər tərəfindən anlaşılsın.

**Tədqiqat işininiqtisadi səmərəsi:** Maliyyə hesabtalarından etibarlı məlumatların əldə olunması, uçot əməliyyatlarının aparılmasında zəruri metodoloji rəhbərliyin, ilkin informasiyalar əldə etməklə onun işlənməsi və hesabatın tərtibi ilə əlaqədar xərclərin minimumlaşdırılması və s. təmin edilməsidir.

**Tədqiqat işinin elmi yeniliyi:**Aparılan tədqiqat işinin elmi yenilikləri aşağıdakılardan ibarətdir:

- Uçot siyasətinin mahiyyəti dəqiqləşmiş və onun təkmilləşdirilməsi istiqamətləri əsaslandırılmışdır;
- Regionlararası müəssisələrin uçot siyasətində fərqlərin, geriliyin, çatışmazlıqların aradan qaldırılması prinsipləri göstərilmişdir.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1.Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 2007-ci il 23 iyul tarixli İ-73/1 nömrəli əmri ilə təsdiq edilmiş “Uçot siyasəti, uçot qiymətlərində dəyişikliklər və səhvlər üzrə” Kommersiya təşkilatları üçün 11 №li Milli Mühasibat Uçotu Standartı. – 13 s.

*2.Abbasov Q.Ə. Mühasibat uçotu: dərslik. – Bakı: İqtisad Universiteti, 2015. – 508 s.*

3.Cəfərova A.Ş. Kommersiya təşkilatlarının uçot siyasəti və maliyyə hesabatlarının auditi. Magistr dissertasiyası. - Bakı: ADİU Magistratura Mərkəzi, 2015. 82 s.

*4.“Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının* 29 iyun 2004-cü il № 716-IIQ *qanunu, 2018-ci il 4 may tarixli 1140-VQD nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarında edilən dəyişikliklərlə.*

5.Səbzəliyev S.M. Maliyyə hesabatı: dərs vəsaiti. – Bakı: *İqtisad Universiteti,* 2018. – 312 s.

6.Дружиловская Т.Ю. иКоршунова Т.Н. Формирование учетной политики в практике российских организаций / Международный бухгалтерский учет. – М.:Издательский дом Финансы и Кредит. 2015.18:32(374). С. 16-27.

7.Дружиловская Т.Ю. Применение методики трансформации для ретроспективного отражения изменений в учетной политике / Международный бухгалтерский учет. –М.: Издательский дом Финансы и Кредит. 2014. 17:46(340). С. 38-46.

8.Дружиловская Т.Ю. иКоршунова Т.Н. Методика учета и отражения в отчетности изменений в учетной политике / Международный бухгалтерский учет. – М.: Издательский дом Финансы и Кредит. 2014.17:48(342).С. 24-35.

**УДК: 657:336.717**

**Методика внесения изменений в учетной политике**

**Байрамов Вусал Элданиз оглы**

## Резюме

Учетная политика важна для всех предприятий, независимо от их организационно-правовой формы. Это объясняют особенно те, которые публикуют бухгалтерскую отчетность полностью или частично. Учетная политика каждого субъекта должна самостоятельно ссылаться на законодательство и нормативные акты бухгалтерского учета. Любые изменения в учетной политике приводят к расхождениям в отчетах и искажению результатов финансового анализа. Учетная политика организации может изменяться на основе новых подходов, если для обеспечения достоверности финансовой отчетности используются новые принципы бухгалтерского учета. Поэтому, прежде всего, чтобы принять решение об изменениях в принципах бухгалтерского учета, целесообразно изучить и оценить как влияют эти изменения на сравнение отчетов.

**Ключевые слова:** учетная политика, финансовая отчетность, бухгалтерский учет, нормативные акты.

**UDC: 657:336.717**

**Methodology for making changes in accounting policy**

**Bayramov Vusal Eldaniz oqlu**

**Resume**

**Key words:** accounting policy, financial reporting, accounting, regulations.

Accounting policy is important for all enterprises, regardless of their organizational and legal form. This is especially true for those who publish full or partial accounting reports. The accounting policies of each entity should independently refer to legislation and accounting regulations. Any change in accounting policy leads to discrepancies in the reports and distortion of the results of financial analysis. An entity's accounting policies may change on the basis of new approaches if new accounting principles are used to ensure the reliability of the financial statements. Therefore, first of all, in order to decide on changes in accounting principles, it is expedient to study and evaluate how these changes will affect the comparison of reports.

Redaksiyaya daxilolma 28.10.2019
Çapa qəbul olunma 05.04.2020

**№ 3/2020** **səh.107-109**

**UOT:334.6:63**

# AZƏRBAYCANDA RƏQƏMSAL MARKETİNQİN İNKİŞAFI İSTİQAMƏTLƏRİ

**Qarayeva Şəhla Nadir qızı**
**Azərbaycan Texnologiya Universiteti**
**Gəncə şəhəri, Şah İsmayıl Xətai prospekti 103**
sehlaqarayeva@yandex.ru

***Xülasə:**Məqalədə Azərbaycanda Rəqəmsal marketinqin inkişafı istiqamətləri göstərilir,onunfirmaların inkişafı üçün zəruriliyi əsaslandırılır.*

***Açar sözlər:** məhsul, dizayn, rəqəmsal, marka, biznes, istehlakçı, internet, seqment, reklam.*

**Giriş:**Azərbaycanın azad bazar iqtisadi sisteminə keçidi firma və müəssələrin fəaliyyətlərində müəyyən dəyişiliklərə gətirib çıxarmışdır. Belə ki müəssələr məhsulun keyfiyyəti, istehsalın səmərəliliyi və mənfəətin artırılması barədə düşünmürdülər. Buna səbəb həmin müəssələr ictimai mülkiyyətə əsaslanırdı və şəxsi maraq güdülmürdü. Müasir bazar iqtisadiyyatı şəraitində isə müəssələrin fəaliyyət mexanizmi əsaslı şəkildə dəyişdi. Bu onu göstərirki bazar iqtisadiyyatı şəraitində müəssənin növündən, idarəetmə formasından, böyüklüyündən asılı olmayaraq onun əsas məqsədi və prinsipi istehsal etdiyi malı satmaq və mənfəət əldə etməkdən ibarətdir. İnkişaf etmiş ölkələrin təcrübələri göstərir ki, bu məqsədin reallaşması üçün müasir marktinq sisteminin tətbiqi olduqca vacib məsələdir, bu isə öz nönbəsində aşağıdakı problemlərin həyata keçirilməsini tələb edir:

- məhsulun istehsal həcminin bazarda tələbin öyrənilməsi əsasında təşkili;
- istehsalın və satışın stimullaşdırılması;
- reklamdan istifadə edilməsi;
- malların saxlanma şəraitinin və nəql edilməsinin müasir formalarının tətbiq ediməsi;
- istehlakçılara satışdan əvvəl və satış sonrası xidmətlər və s.

Müasir dövrdə firmaların xarici bazarlara çıxışının təmin edilməsində və milli məhsulların dünya bazarına rəqabətədavamlı məhsul çıxarmasında rəqəmsal marketinqin rolu böyükdür.

**Tədqiqatın metodikası:**yerli xarici iqtisadçı alimlərin rəqəmsal marketinq sahəsində apardıqları tədqiqat və araşdırmalar.

**Tədqiqatın praktiki əhəmiyyəti:** Rəqəmsal marketinq fəaliyyətinin əsas məqsədi web saytına izləyici cəlb etməkdir. Bunun üçün saytın necə idarə edilməsi çox önəmlidir. Uğurla idarə edilən web sayt, izləyicini abone və satış prosesinə yönəldir. Satış prosesi də ayrıca ələ alınması olan bir prosesdir. Satışın kiçik addımlarla tamamlana bilməsi, ödəmə seçimlərinin çox olması, addımlarda asan anlaşıla biləcək dildə məlumatlandırma uğurlu bir satış prosesi üçün vacibdir. Satış sonrası xidmətlərin müştəri məmnunniyyəti yaradacaq şəkildə idarə edilməsi rəqəmsal fəaliyyət üçün olduqca önəm daşıyır. İnternetdə eyni və ya bənzər xidmətləri göstərən bir çox web saytlar vardır. Buna görə də insanların eyni məhsul və ya xidmət üçün başqa bir firma seçməsi çox asandır. Əgər satış sonrası xidmətlər mükəmməl olmazsa müştərini birdəfəlik itirmə ehtimalı yaranar.

Rəqəmsal dünyanın və fəaliyyətlərin ən gözəl tərəfi bütün fəaliyyətlərin bir çox parametrlər üzrə və detallı bir şəkildə ölçüləbilən olmasıdır. internet istifadəsi üçün texnoloji

№ 3/2020 səh.107-109

bazanın sürətli inkişafı bütün sahələrdə genişlənməkdədir. Xüsusilə 2005-ci ildən başlayaraq internet istifadəçilərinin sayında sürətli artım Azərbaycandakı şirkətləri də rəqəmsal sferaya daxil olmağa məcbur etmişdir. Ölkəmizdə rəqəmsal marketinqin daha da inkişaf etdirilməsi üçün həlli vacib olan problemləri 3 qrupa bölmək olar;

a) Texnolojibazanıninkişafetdirilməsi,

b) Hüquqibazanınyaradılması,

c) Bu sahədəbeynəlxalqəlaqəläringenişləndirilməsi.

RəqəmsaldünyanınsürətliinkişafıAzərbaycandafəaliyyətgöstərənbirsıraşirkətlərinRəqəmsalmarketinqəmarağınıartırdı.Qeydetməklazımdırki, insanlarınsosialşəbəkələrdənkütləvişəkildəistifadəetməsi,reklamyayımlarınıntəqdimolunmasıüçün yenimühityaratdı.Buna görədəRəqəmsalmarketinqsahəsindəyüksəkbiliyəvətəcrübəyəmalikmütəxəsislərəehtiyyacartdı.Rəqəmsalmarketinqşirkətibazardatanıtmaq, istehlakçılarlaəlaqəqurmaq, onlara müxtəlif xidmətlər göstərmək, şatışı təşkil etmək, həmçinin ixtisaslı kadr seçmək və s. üçünuğurlumarketinqfəaliyyətindənbiridir. Bu marketinqfəaliyyətiMəzmunmarketinqi(Content marketing), Dizaynqaydaları, E-mail marketinqi, Video marketinq, Sosial media marketinqi, Rəqəmsalbannerlər, Viralmarketinq, Tərəfdaşlıqmarketinqi(Affiliate marketing) və s. texnologiyalarıözündəbirləşdirir.*Məzmunmarketinqi*-marketinqi hədəf kütləni cəlb etmək üçün kütlə üçün maraqlı olan məzmunu yaradıb təqdim etməklə istifadə edilən bir marketinq texnologiyasıdır.*Sosial media marketinqi(SMM)*- sosial platformalardakı hədəf kütlə ilə əlaqəyə girməklə məhsul və xidmətlər barədə məlumat vermək texnologiyasından ibarətdir. *E-mail marketinq*-Azərbaycanda rəqəmsal marketinq alətlərinin müştərilər ilə əlaqə qurmaq və satış həyata keçirmək üçün ən uğurlu alətlərdən biri e-mail marketinqidir. Aparılan tədqiqatlardan bir daha görünür ki, rəqəmsal marketinq ənənəvi marketinq vasitələrindən daha münasibdir. Qeyd etmək lazımdır ki, marketinqin rəqəmsal şəkildə qurulmasının ən mühüm faydalarından biri nəticələrin müntəzəm olaraq izlənilməsi və monitorinqinin asanlaşmasıdır. Bu zaman yüksək xərclər nəticəsində əmələ gələn müştəri tədqiqatlarını aparmaqdansa biz müştərinin reaksiyasını aydın görə və aparılan marketinq siyasətinin müvəffəqiyyət dərəcəsini ölçə bilərik.

## Nəticə

Texnologiyanın getdikcə inkişaf etdiyi günümüzdə, istehlakçılar hər keçən gün daha çox sosial mediya platformalarına üz tuturlar. istehlakçıların davranışlarına ən çox təsir edən sosial mediya platforması isə facebook və forumlardır. Artıq sosial mediya marketinqi həm istehlakçılar üçün həm də sahibkarlar üçün daha faydalı fəaliyyət növünə çevrilmişdir. Qeyd etmək lazımdır ki, rəqəmsal marketinq xidmətləri bazarının effektiv təşkili yalnız bu bazar subyektləri üçün deyil, ölkədə marketinq xidmətləri potensialının güclənməsində və onun səmərəliliyinin yüksəldilməsində mühüm rol oynayır.Bundan başqa, rəqabət mühitinin dərinləşdiyi müasir dövrdə marketinq xidmətləri, təkcə, bazar subyektlərinin səmərəli fəaliyyət göstərmələri üçün deyil, həm də, bu münasibətlərin uğurlu şəkildə tənzimlənməsində zəruri vasitə hesab olunur.

**Tədqiqat işinin elmi yeniliyi:**aşağıdakılardan ibarətdir:

Rəqəmsal marketinq bazarında müasir texnologiyaların tətbiqinin təkmilləşdirilməsi;

Xarici təcrübədən istifadə etməklə daxili problemlərin həlli yollarının sistemləşdirilməsi;

Rəqəmsal marketinq xidmətləri bazarının hüquqi-normativ mexanizmlərinin standartlara uyğunluq səviyyəsinin araşdırılması;

**№ 3/2020** **səh.107-109**

Rəqəmsal marketinq xidmətləri bazarının inkişafına maneə olan məsələlərin kompleks öyrənilməsi və təsnifləşdirilməsi.

**İstifadə edilmiş ədəbiyyatlar**

1. İ.Z. Seyfullayev " Marketinqin əsasları" Bakı-2003
2. Yenimediayagirish.blogspot.com
3. A.Dadaşov "Kütləvi informasiya vasitələrində reklam və marketinq problemləri", Bakı-2001
4. KotlervəArmstrog 2004. "Principle of Marketing"
5. KOTLER, P. 2000 "Marketing Management", London
6. www.marketingpower.com www.marketing.az
7. Евстигнеева Т.В., Рыбченко С.А., Маркетинговое консультирование. Ульяновск: УлГТУ, 2007,

**УДК:334.6:63**

## НАПРАВЛЕНИЯ РАЗВИТИЯ ЦИФРОВОГО МАРКЕТИНГА В АЗЕРБАЙДЖАНЕ

**Караева Шахла Надир кызы**

**РЕЗЮМЕ**

**Ключевые слова: продукт, дизайн, цифровой, марка, бизнес, потребитель, интернет, сегмент, реклам.**

**В статье показаны направления развития цифрового маркетинга в Азербайджане, обоснована его необходимость развития фирм.**

**UDC:334.6:63**

## DIRECTIONS OF DEVELOPMENT OF DIGITAL MARKETING IN AZERBAIJAN

**Garayeva Shahla Nadir**

**RESUME**

**Keywords:** product, design, digital, brand, business, consumer, Internet, segment, advertisements.

The article shows the directions of development of digital marketing in Azerbaijan, substantiates its need for the development of firms.

Redaksiyaya daxilolma 19.03.2020
Çapa qəbul olunma 05.04.2020

**№ 3/2020** **səh.110-116**

**UOT 334**

# YÜNGÜL SƏNAYE ISTEHSALIN RƏQABƏT QABİLİYYƏTİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

**Məmmədova Xədicə Fizuli qızı**

**Azərbaycan Texnologiya Universiteti**
**Gəncə ş.Ş. İ. Xətayi pr. 103**

**кh. məmmədova @uteca.edu.az**

***Xülasə:*** *Məqalədə Azərbaycanda yüngül sənaye üzrə istehsalın rəqabətqabiliyyətliyinin nəzəri-metodoloji əsasları örənilmiş və rəqabətqabiliyyətliyinin yüksəldilməsi üçün çox saylı təklif və tövsiyyələr təklif edilmişdir. Bunun üçün xarici və ölkamizdə olan iqtisadçı alimlərin bu sahədə apardıqları işlər geniş təhlil edilmişdir.*

***Açar sözlər:*** *rəqabətqabiliyyətlilik, müəssisə, yüngül sənaye, iqtisadi, toxuculuq*

Son illərdə hayata keçirilən tədbirlər yüngül və toxuculuq sənaye müssisələrinin inkişafında mühüm nailiyyətlər əldə edilməsinə imkan vermişdir. Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixli 24 nömrəli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramında" (2004-2008-ci illər), Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 aprel tarixli 80 nömrəli fərmanı ilə təsdiq edlimiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramında (2009-2013-cü illər)" və Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 27 fevral tarixli 118 nömrəli fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramında (2014-2018-ci illər)", həmçininAzərbaycan Respublikası Prezidentinin 26 dekabr 2014-cü il tarixli sərncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət proqramı"nda Azərbaycan Respublikası regionlarında toxuculuq və yüngül sənayenin inkişafı üzrə önəmli tədbirlər nəzərdə tutulmuş, bu tədbirlər əsasən icra edilmiş və icra edilməkdədir. Proqramın icrası toxuculuq, tikiş və ayaqqabı sənayesinin inkişafına müsbət təsir göstərmişdir. Proqramın icrası nəticəsində regionlarda çoxsaylı sənaye müəssisələri fəaliyyətə başlamış, bəzi sənaye müəssisələrinin fəaliyyəti yenidən qurulmuşdur.

30 aprel 2016-cı ilə tarixdə Hörmətli Prezidentimiz cənab İlham Əliyev Ağsu rayonuna səfərində keçirdiyi müşavirədə pambıqçılığın inkişafı ilə bağlı aşağıdakıları demişdir: "Sovet dövründə Azərbaycanda Ulu Öndər Heydər Əliyevin böyük zəhməti, səyləri nəticəsində hər il 800 min, 900 min, həttə 1 miyon ton pambıq istehsal olunurdu. Mən statistikaya baxdım keçən il cəmi 35 min ton pambıq istehsal olunub. Bu il 50 min hektarda pambıq əkiləcək əkin başlayıb və biz ən azı 100 min ton məhsul gözləyirik. Oxşar məsələ baramaçılığa və digər sahələrə dəaiddir."

Xüsusilə müəssisələrin fəaliyyətində daxili və xarici amillərin təsiri ilə rəqabət qabiliyyətli istehsalılın formaşdırılmasına daha geniş yer verilmişdir. Bundan başqa bu prosesdə dövlətin rolu məsələləri də həmin alimlərin araşdırmalarında önə çəkilən məqamlardır. Lakin son illərdə baş verən maliyyə böhranı və iqtisadi proseslərdə baş verən müxtəlif istiqamətli dalğalanmalar şəraitində yüngül və toxuculuq sənayesində rəqabətqabiliyyətli istehsalın stimullaşdırılması

məsələlərinin kompleks araşdırılmasına geniş şəkildə rast gəlinnmir. Bu baxımdan qeyd edilən problemin tədqiqi nəzərdə tutulmuşdur.

**Elmi işin məqsədi:** İşin məqsədi müasir iqtisadi şərasiti nəzərə alınmaqla yüngül sənaye və toxuculuq sənayesi məhsullarının rəqabətqabiliyyətinin yüksəldilməsi üzrə nəzəri, metodiki və habelə praktiki tövsiyyələr işlənib hazırlanmasından ibarətdir.

**Tədqiqat obyekti.**Tədqiqatın obyekti yüngül və toxuculuq sənayesi müəssisələridir.

**Tədqiqatın predmeti.** Yüngül və toxuculuq sənayesi müəssisələrinin innovasiyalı inkişaf əsasında rəqabət qabiliyyətinin təmin edilməsi və yüksəldilməsi tədbirləri tədqiqatın predmetini təşkil edir.

**Tədqiqatın metodikası.** Tədqiqatın elmi müddəaları yerli və xarici iqtisadçı alimlərin əsərlərinə, araşdırma ilə bağlı informasiyalar Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materiallarına, Azərbaycan Respublikasının qanunvericilik sənədlərinə əsaslanır

İqtisadiyyatda böhran meyllərinin qarşısını almaq təşkilat nəzəriyyəsinin qanunauyğunluqlarından istifadə etməyi, toxuculuq və yüngül sənayeyə uyğunlaşdırılmış tədbirlərin işlənib hazırlanmasını tələb edir. Hazırda bu istiqamətdə nəzəri müddəalar və metodiki tövsiyyələr təşkilat nəzəriyyəsinin baza müddəalarına əsaslanır və "klassik məktəbə" aiddir. Təşkilat nəzəriyyələri və təşkilat davranışı sahəsində işləmələrin bir sıra prinsipial fərqləri var. Bu, əsasən ictimai-siyasi qurluşun xüsusiyyətləri ilə əlaqədardır. Belə ki, istehsal proseslərinin səmərəli təşkili üsullarının, əməliyyat bölgüsünün, normalaşdırmanın, itkilərin istisna edilməsi, əmək vasitələrinin müvafiq olaraq səmərəli istifadəsi (F.Teylorda, H.Fordda, L.Cilbertdə olduğu kimi) və idarəetmə sistemlərinin qurulmasının (M.Veberdə və A.Fayolda olduğu kimi) zahirən oxşar olmasına baxmayaraq, "klassik yanaşmanın" bir sıra prinsipial fərqləri var. Nəzəriyyələrin çoxunun təməlində idarəetmənin "klassik məktəbi" və A.A. Boqdanovun nəzəriyyəsi durur. A.A.Boqdanovun nəzəriyyəsi inkişafın ümumi meyilləri və müəssisənin inkişafının idarəedilməsi zərurətində məhdud istifadə edilirdi. Həmin nəzəriyyədə idarəetməyə sistemli yanaşmanın prinsipləri və riyazi təminatı formalaşdırılmışdır. Bu baxımdan sistemli yanaşmanın aşağıdakı prinsipləri öz aktuallığını saxlayır:

1. İdarəetmə ilə, o cümlədən qərarların qəbul edilməsi ilə bağlı olan hər hansı bir fəaliyyətinformalaşdırılması.
2. Məqsədlərə nail olmanın metod və alternativ yollarının müqayisəli təhlili yolu ilə minimal xərclərlə məqsədə çatmada maksimal nəticələrin əldə edilməsi və müvafiq seçimin edilməsi.
3. Məqsədlərin və onlara nail olmağın üsul və vasitələrinin kəmiyyət baxımından qiymətləndirilməsi.

Kəmiyyət və keyfiyyət elementləri olan "zəif strukturlaşdırılmış" yanaşmalar da maraqlıdır. Onlara müəssisənin xarici mühit, makro, mikro ətraf mühit amilləri aiddir. Bu cür vəziyyət yüngül sənaye müəssisələri üçün çox aktualdır, çünki burada rəqabət mühitinin, tələbin dəyişməsinin və s. təsiri çox böyükdür. İqtisadi hadisələrin kəmiyyət təsviri nəzəriyyəsini qiymətləndirərkən aşağıdakıların nəzərə alınması vacibdir: məlumatların olmaması və ya kifayət qədər olmaması, müşahidələrin miqyasının az olması, müəssisələrin ölçüsünün azalması.

Yüngül və toxuculuq sənayesi müəssisələrinin təşkilinə aid olaraq aşağıdakı müəlliflərin elmi əsərləri də öz aktuallığını saxlayır: Liberman A.M, Ovçinnikov, Polyak T.B., Puşkina P.S. və bu müəlliflərin əsərlərində toxuculuq və yüngül sənaye müəssisələrində təşkil və idarəetmə məsələlərinə fundamental şəkildə baxılır /1, 65/.

**№ 3/2020** **səh.110-116**

Libermanın işlərində təşkilin ümumi qanunları və onların sahəvi xüsusiyyətləri strukturlaşdırılır. İstehsaldaxili hesablamalara və əsaslandırmalara daha çox diqqət yetirilir. Başlama, axın tipinin, avadanlığın uçotu variantının seçilməsi üzrə tövsiyyələr bu gün də istifadə edilir. Ümumiyyətləbu işlərdə istehsal və idarəetmə fəaliyyətinə ayrı-ayrılıqda deyil, vahid bir sistem kimi baxılır. Qeyd etmək lazımdır ki, təcrübənin dərk olunmasının nəzəri səviyyəsi qat-qat yüksəkdir. Həm idarəetmə, həm istehsal baxımından təşkil fəaliyyətinin təkmilləşdirilməsi məsələləri yerli elmdə və təcrübədə həmişə təşkil fəaliyyətində iştirak edən bütün işçilərin təhsili səviyyəsinin artırılmasına əsaslanaraq qurulur. Sistemli yanaşmanın, strateji idarəetmənin, sosial yönümlü iqtisadi sistemlərin, proqram məqsədli strukturların və s. prinsipial müddəalarının çoxu ilk dəfə bu müəlliflər tərəfindən işlənmişdir.

Müasir iş şəraitinə uyğun olaraq prinsiplərin çoxu dəyişməkdədir. M.N.Titova (2, s.39) qeyd edir ki, A.A.Boqdanovun təşkil və idarəetmə nəzəriyyəsi daha çox maraq doğurur. Bütün təşkilatı-texnoloji yanaşmalardan fərqli olaraq A.A.Boqdanov ehtimal etmişdir ki, bütün idarəetmə növlərinin (təbiətdə, texnikada, cəmiyyətdə) ümumi xüsusiyyətləri var. O, həmin elmin predmetini, əsas kateqoriyalarını, qanunlarını və bütün təşkilatiinkişafını müəyyən etdi. A.A.Boqdanovun fikrincə, təşkil elminin predmeti ümumi təşkil prinsipləri və qanununları olmalıdır ki, onlar üzrə üzvi və qeyri-üzvi dünyanın bütün sferalarında təşkil prosesləri baş verir. Onlar texnikada, iqtisadiyyatda, ideologiyada işləyir. Təşkilin mahiyyətini təhlil edərkən A.A.Boqdanov sistemli yanaşmanın banilərindən çox-çox əvvəl onun öyrənilməsinə sistemli yanaşmanın zəruriliyi fikrini irəli sürmüş, sistemin və elementlərin nisbətinin xarakteristikasını vermişdir /3, 116/.

Qeyd edilən nəzəriyyə istehsal olunmuş məhsulların rəqabətqabiliyyətini təmin etmək baxımından onun qiymətləndirilməsində bilavasitə nəzərə alınan ətraf mühit amillərinin olmasını önə çəkir. Təşkil nəzəriyyəsi hesab edir ki, istənilən təşkilatın nail olduğu parametrləri uzun müddətdə qoruyub saxlamaq mümkün deyil. Eyni zamanda istənilən həyat tsiklində əyintilərsiz stasionar dövr var. Beləliklə, müəyyən böhran nöqtələri mövcuddur ki, onlarda müəyyən dəyişikliklr baş verir. Bu isə nəticədə təşkilatın mütərəqqi və ya sıçrayışlı inkişafını şərtləndirir. Bu nöqtələrə böhran, iqtisadi artım, çiçəklənmə, tənəzzül və dönüş şəraiti, yəni bir vəziyyətdən o birisinə keçid şəraiti aiddir.

Bu nəzəri müddəalar yüngül sənaye müəssisələrinin inqilabi və təkəmmüllü inkişafında dalğavari dinamika və stasionar dövrün olmasını istisna etmir. Belə şəraitdə təhlil obyektinin nail oduğu səviyyənin kəmiyyət parametrləri qorunub saxlanılır. Həmçinin təklif edilən yanaşmanı həm makro, həm də mikrosəviyyədə tədbiq etmək olar. Məhz mikrosəviyyənin və sənaye müəssisələrinin müvafiq problemlərinin tədqiqində qeyd edilənlərin cəmləşdirilməsi iqtisadi inkişfda müstəsna rol oynaya bilər.

Təşkilatı böhran baş verən zaman, yəni onların arasında sərhədlər qırıldıqda və keyfiyyət baxımından hansısa yeni sistem yarandıqda, komplekslərin birləşdirilməsi bilavasitə və ya "inqressiya"-bağlantı vasitəsi ilə baş verir. Komplekslərin birləşməsi ilə yanaşı qoşulmuş sistemlərin ayrılması, dağılması və yeni ayrıca sərhədlərin yaranması, yəni sistemin yaranmasını şərtləndirir.

Təşkil nəzəriyyəsi formalaşma mexanizmindən başqa, tənzimləmə mexanizminə də malikdir. Bu mexanizmin əsası elementlərin ən yaxşı əlaqələndirmənin seçilməsidir. İdarəetmə təcrübəsində A.A.Boqdanovun sistemin dinamik tarazlıq barədə ideyası geniş istifadə edilir.

Boqdanov sistemin tarazlı vəziyyətinə böhranlı vəziyyətin xüsusi bir halı kimi baxır. Sonralar bu yanaşma şəbəkə planlaşdırılmasında istifadə edildi.

Təşkilatı strukturlar öz sabitliyinin, ictimai əmək bölgüsündə öz yerini, bazarda mövqeyini, öz nüfuzunu qoruyub saxlamaqda maraqlıdırlar. Bunlar quruluşun konservativ əsasları öz əksini tapır. Digər tərəfdən struktura təşkilatın funksional tərəfini ifadə edən dəyişkənlik, inkişaf qabiliyyəti xasdır. Mərkəzləşdirilmiş və sərbəst qurumları öyrənərkən belə bir nəticəyə gəlmək olar ki, bu və ya digər qurumun səmərəliliyi ilk növbədə xarici mühitin şərtləri ilə müəyyən edilir. Təşkilatın bir sistem kimi elementləri arasında tarazlıq, uyğunluq, mütənasiblik problemi də bununla bağlıdır. Tarazlaşdırılmış və tarazlaşdırılmamış sistemləri seçərək onların bir vəziyyətdən o birinə keçmək imkanlarını öyrənmək olar. Məsələn, böhranlı-böhransız vəziyyət. Tarazlıq vəziyyətində olan sistem tədricən bu keyfiyyəti itirir və bu vəziyyətini böhran kimi başadüşür. Vəziyyəti düzəldərək o, öz inkişafının yeni səviyyəsində yeni tarazlığa nail olur. Çevik tarazlıq prinsipi müəssisənin inkişaf istiqamətlərinin əsas izahıdır: yaradılması və ya ləğv edilməsi, birləşməsi və ya ayrılması, müəssisənin strukturlarının kiçilməsi və ya mürəkkəb təşkilati qurumlaradək (iqtisadiyyatın sahələri, idarələr, ərazi vahidləri, dövlət və s.) böyüdülməsi.

Müəssisəyə iqtisadi sistem kimi baxarkən ziddiyyətlar və onların dəf olunması məsələlərini vurğulamaq lazımdır. Sistemin differansiallaşdırılması, daxili əlaqələrinin zənginliyi onun inkişaf səviyyəsini ifadə edir. Sistemin elementləri arasında fərqlərin artması onun daxilində struktur nisbətlərin dahada dayanıqlı olmasına gətirib çıxarır. Sistem uyğunsuzluqları əlavə əlaqələrə istiqamətlənən inkişaf meyllərini əhatə edir. Eyni zamanda sistem uyğunsuzluqları qeyri-sabitliyin bəzi şərtlərini inkişaf etdirən başqa meylləri də əhatə edir, o cümlədən xərclərin artması səbəbindən müəssisənin rəqabət qabiliyyətinin aşağı düşməsi kimi sistem ziddiyətlərinin kəskinləşməsini. İstənilən sistem, elementlərinin differensiallaşdırılması yolu ilə müəyyən həddə qədər proqressiv inkişaf edir, o zamana qədər ki, tamın hissələri təşkilatda bir-birindən həddən çox fərqli olmağa başlayır. Bu mərhələdə yığılmış sistem ziddiyyətlərinın nəticəsi olan dağıdıçı meyl hissələr arasında olan əlavə əlaqələri üstələyir və bu əlaqələrin qırılmasına, tamın təşkilatı formasının ümumi məhv olmasına gətirib çıxarır. Nəticə isə ya strukturun şəklinin dəyişdirilməsi və ya sadəcə dağılması omalıdır. Toxuculuq və yüngül sənaye müəssisələrinin quruluşu bu ideyaları təsdiq edir.

Bu sistemdən yeni müəssisələr yaradarkən nəzərə almaq lazımdır ki, bu onların da böhranıdır. Bütün bu böhranlar ümumi dinamik proseslərin (tərəddüdlərin) üstünə düşür və onları ya hamarlaşdırır, yaxud daha da gücləndirir. Komplekslərin qorunub saxlanmasının dinamik elementi onun fəallığının mühit hesabına artması barədə ideya böyük təcrübi əhəmiyyətə malikdir.

**Yüngül sənayedə təşkilatı formalara dair yanaşma:**

Təşkilatı formaların dəyişməsi hesabına rəqabət qabiliyyətinin dəyişməsi məsələlərini araşdırarkən, ayrı-ayrı hissələrdən ibarət olan sistemdə elementlərin sistemli differensiallaşmasını və ona müvafiq sistemli uyğunsuzluğu ayırmaq çox vacibdir. Bir halda ki, tamın hissələri fərqliliyə malikdir, onda fərqlərin artması daha dayanıqlı struktur nisbətlərinin yaranmasına aparır.

Təşkilatın yumşaqlığı və təşkilatı formaların mürəkkəbləşdirilməsi əlaqələrin yüngül şəkildə dağıdılması yolu ilə həyata keçirilə bilər, təbii olaraq təşkilatın təməlinin qorunub saxlanması şərti ilə. Təşkilatın həyat fəaliyyətində müdafiə forması kimi tədbiqi məhz bundan

irəli gəlir. Təşkil qanunlarının tədbiqi mikroiqtisadi səviyyədə rəqabət qabiliyyətinin bütün formalarını qanunauyğun və ehtimal olunacaq hesab etməyə və yaranmış makroiqtisadi nisbətləri istifadə etməyə imkan verir.

İstehsal olunan məhsulun və bütövlükdə müəssisələrin rəqabət qabiliyyətinin yüksəldilməsi üçün bütün adıçəkilən mexanizmlər zəruri və tələb oluna bilər: əmlak kompleksinin azaldılması, onun sıxlaşdırılması, fəaliyyət məqsədlərinin optimallaşdırılması, məhsul çeşidinin və istehsalın diversifikasiyası, təşkilati quruluşun azaldılması və ya xarakterinin dəyişdirilməsi, müəssisənin strukturunun dəyişdirilməsi və sair tədbirlər.

Göstərilən nəzəri müddəalar ondan xəbər verir ki, ayrı-ayrı yerli dəyişikliklər rəqabət qabiliyyətinin tələb olunan səviyyəsini təmin etmir. Böhran meyylərinin dəf olunması üzrə tədbirlərin zəruri təminatı spesifik xarakterli idarəedici təsir tələb edir. Buna iqtisadi dinamikanın müxtəlif mərhələləri üzrə biznesin səmərəliliyinin artırılması elementləri daxildir.

Beləliklə, demək olar ki, təşkilin və idarəetmənin bir sıra məsələləri var ki, onlar nəzəri planda kifayət qədər işlənilməmiş və ya təcrübətə istifadə etmək üçün uyğun olmayan kimi qiymətləndirilirlər. Onların həll edilməsi yüngül sənaye müəssisələri üçün çox vacib və aktual məsələdir. Bu baxımdan aşağıdakı məsələləri həlli və ya nəzərə alınması zəruridir:

-yüngül və toxuculuq sənayesi müəssisələrinin istehsal etdiyi məhsulun yüksək rəqabət qabiliyyəti səviyyəsini təmin edən inkişafının şərtlərini və istiqamətlərini müəyyən etmək;

- yüngül və toxuculuq sənayesi müəssisələrinin səmərəli dəyişiklikər və rəqabət qabiliyyətliliyi əsasında strateji inkişafın meyarlar sistemini hazırlamaq;

- müəssisəlırin həyat dövrünün mərhələlərini strukturlaşdırmaq və onların inkişaf şərtlərini və idarəedici təsirlərin istiqamətlərini əsaslandırmaq;

- müəssisələrin maliyyə-iqtisadi fəaliyyətinin çoxsəviyyəli kompleks qiymətləndirilməsi metodikasından istifadə etmək;

- yüngül sənaye müəssisələrində məhsul istehsalı və satışı həcminin proqnozunu həyata keçirmək.

**Nəticə:** Azərbaycan Respublikasında yüngül və toxuculuq sənayesinin müasir vəziyyətinin təhlili göstərdi ki, daxili bazarda, eləcə də ümumi daxili məhsulda və sənayenin ümumi məhsulunun tərkibindəbu sahə məhsullarınınxüsusi çəkisi çox aşağıdır. Araşdırmalar göstərir ki, son illərdəyüngül və toxuculuq sənayesi məhsullarının ixrac potensialı və rəqabətqabiliyyəti də aşağı olmuşdur. Bunun əsas səbəblərindən biri xammal istehsalı müəssisələri ilə yüngül sənaye müəssisələri arasında inteqrasiya münasibətlərinin zəif inkişafı və rəqabətqabiliyyətiistehsalın stimullaşdırılması tədbirlərinin reallaşdırılmasında yol verilən nöqsanlardır. Bu isə mövcud iqtisadi şəraitdə yüngül sənaye müəssisələrinin rəqabət statusunu əvvəlcədən müəyyən etməyə imkan verir. Qeyd edilənləri ümumiləşdirərək müasir mərhələdə sahə müəssisələrinin fəaliyyətinin və rəqabətqabiliyyətli istehsalın əsas problemlərininaşağıdakılardan ibarət olduğunu qeyd etmək olar:

- xammal istehsalı ilə məşğul olan müəssisələrləyüngül və toxuculuq sənayesi müəssisələri arasında qarşılıqlıfəaliyyətin pərakəndəliyi;

- toxuculuq sənayesi üçün zəruri olan yerli xammal və materialın (pambıq lifi, yüksək keyfiyyətli yun, kimyəvi və sintetik liflər, rəngləyicilər və s.) kifayət qədər olmaması;

- daxili bazarda idxal əmtəələrinin yerli məhsullarla müqayisədəxüsusi çəkisinin daha yüksək olması;

- avadanlığın texniki səviyyəsinin aşağı olması və əsas istehsal fondlarının müəyyən hissəsinin yüksək dərəcədə köhnəlməsi;
- əsas fondların təzələnməsində investissiyaların həcminin azalması;
- xərclərin tərkibində material xərclərinin artması və ilk növbədə təbii inhisarçılıq subyektlərinin əmtəə və xidmətlərinin qiymətlərinin artması;
- sahənin texnoloji proseslərində, avadanlıqlarda innovasiyaların demək olar ki, tətbiq olunmaması;
- istehsal güclərindən istifadə faizinin aşağı olması;
- nəqliyyat xidmətlərinin dəyərinin yüksək olması, nəticədə daşınma xərclərinin baha başa gəlməsi;
- işçilərinmüəyyən qisminin peşəkarlıq səviyyəsinin aşağı səviyyəsi;
- əməyin stimullaşdırılması tədbirlərinin aşağı səviyyəsi.

Toxuculuq və yüngül sənayedə rəqabətqabiliyyətliistehsalın dövlət stimullaşdırılması tədbirlərinin təhlili deməyə imkan verir ki, əsas diqqət kəmiyyət və keyfiyyət xarakteristikalarına yönəlsə də makro amillər nisbətən arxa plana keçmiş, mikro amillər üstünlük təşkil etmişdir. Bu isə idxalla müqayisədə daxili istehsalın rəqabət münasibətlərində uduzması ilə nəticələnir. Yüngül və toxuculuq sənayesi müəssisələrinin inkişafının nəzəri problemləri müxtəlif miqyaslı və müxtəlif istiqamətli dəyişikliklərin mənimsənilməsini nəzərdə tutur. Araşdırmalar göstərdi ki, bu zaman çox tez baş verən dəyişikliklərə, həmçinin sabitliyə can atmağa əsaslanan yanaşmalar özünü döğrultmur.

**Tədqiqat işinin elmi yeniliyi.** Elmi yeniliyi xarakterizə edən əsas müddəalar aşağıdakılardır:

- yüngül və toxuculuq sənayesi müəssisələrinin fəaliyyətinin səmərəliliyinə və rəqabət qabiliyyətliliyinə nail olmaq əsasında strateji inkişafının sxemi işlənib hazırlanmışdır;
- müəssisələrin böhransız vəziyyətə nail olma şərtlərinin və onların fəaliyyətinin normativ variantının sxemi təklif edilmişdir;
- müəsisənin maliyyə-iqtisadi fəaliyyətinin kompleks qiymətləndirilməsi əsasında daha rəqabət qabiliyyətli məhsul istehsalı üzrə təkliflər işlənib hazırlanmışdır.

**İşin təcrübi əhəmiyyəti.** Tədqiqatın elmi müddəaları və nəticələri tədbiqi xarakter daşımaqla yüngül və toxuculuq sənayesi müəsisələrinin maliyyə-iqtisadi fəaliyyətini, rəqabət qabiliyyətliliyini, maliyyə dayanaqlılığını möhkəmlətməyə və yüksəltməyə imkan verə bilər. Müəssisənin vəziyyətinin kompleks qiymətləndirilməsinin praktiki əhəmiyyəti müəssisələrə öz maliyyə-iqtisadi vəziyyətini hərtərəfli qiymətləndirməyə və bu məlumatları proqnozlaşdırma üçün istifadə etməyə imkan verir.

Ədəbiyyat

1.Məmmədova X.F. Azərbaycan Respublikasında toxuculuq sənayesi müəssisələrinin rəqabət qabiliyyətinin yüksəidilməsi yolları B. İqtisad üzrə fəlsəfə doktoru dissertasiya işi. 2016, 117 s.

2.Титова М.Н. Мониторинг реформирования и методология рейтинговых оценок промышленных предприятий. - СПб, 2002.

3. Богданов А.А. Технология — всеобщая организационная наука. — М.: Экономика. - Т. 1,2, 1989.

№ 3/2020 səh.110-116

**Теоретическо-методологическая основа развития предприятий легкой промышленности и повышения конкурентоспособности**
**Мамедова Хадижа Физули**

«Теоретическо-методологическая основа развития предприятий текстильной промышленности и повышения конкурентоспособности» рассматривается теоретическая концепция экономического роста текстильной и легкой промышленности, проблемы конкурентоспособности предприятий, особенности конкурентоспособности текстильной материалов.

Summary

**The theoretical methodological basis of the development and increase of competitiveness of textile industry enterprises**

Mamedova Khadija Fizuli

“Theoretical and methodological fundamentals of competitiveness of production in the textile industry enterprises” investigatesthe theoretical concept of economic growth of the textile and light industry, the problems of competitiveness of enterprises and especially the competitiveness of textile materials.

Redaksiyaya daxilolma 22.02.2020
Çapa qəbul olunma 05.04.2020

**№ 1/2020** **səh.117 - 122**

**UOT**

# AQRAR SFERADA RİSKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Gəncəyev Fərhad İlqar oğlu**

**Azərbaycan Dövlət Aqrar Universitet,**
**Gəncə şəhəri, Adil İskəndərov küç. 64**

**email:**

***Xülasə:****Risklərin qiymətləndirilməsi iqtisadi proseslərin nəticələrinə əvvəlcədən təminat formalaşdırılmasının əsas vasitələrindəndir. Risklərinin qiymətləndirilməsi hesabına baş verə biləcək risklərin təsirinin azaldılmasına və onların baş vermə ehtimalının əvvəlcədən müəyyənəşdirilməsinə nail olmaq mümkündür. Kənd təsərrüfatı istehsalının təbii-iqlim amillərindən əhəmiyyətli dərəcədə asılılığını nəzərə alsaq hazırda risklərinin təsirinin azaldılması və ya risk ehtimalının aradan qaldırılması istiqamətində müvafiq tədbirlərin görülməsinin zəruriliyini qeyd etmək olar.*

***Açar sözlər:*** *risk, sığorta, zərər, mənfəət, məhsuldarlıq, qiymətləndirmə.*

Risklərin sığortalanması vəziyyətinin qiymətləndirilməsi iqtisadi proseslərin nəticələrinə əvvəlcədən təminat formalaşdırılmasının əsas vasitələrindən hesab edilir. Ehtimal olunan hadisələrin təsadüfi bir kəmiyyət səviyyəsində risk təzahürü əldə olunacaq mənfəətin azalmasına və ya tam şəkildə itirilməsinə səbəb olur. Nəticədə bu və ya digər dəyəri əldə etmə ehtimalı azalır. Beləliklə zərərin təsadüfi dəyəri mənfəətin tam itirilməsinə və dəyər baxımından onun dəyərinə bərabərləşməyə gətirib çıxarır.

Risk təsadüfi bir hadisənin təsiri nəticəsində itirilə bilinəcək mümkün dəyərlərlə müvafiq ehtimallar arasında baş verə biləcək zərərin təsadüfi dəyişəninin paylanması qanunu ilə daha çox səciyyələnir. Başqa sözlə, təsadüfi bir dəyişənin ayrılmaz paylanma funksiyası təsadüfi dəyişənin müəyyən bir dəyərdən artıq olmamasını şərtləndirən hadisənin ehtimal olunan paylanma funksiyasıdır.

Qeyd edilənlər göstərir ki, sığorta münasibətləri formalaşdırılarkən ehtimal olunan risk vəziyyəti qiymətləndirilməlidir, çünki əks halda sığortaçı bunun üçün ödəməni müəyyən edə bilməyəcək və bu riskin məsuliyyətini üzərinə götürməyəcəkdir. Buna görə risklərin qiymətləndirilməsi sığortaçı üçün ən vacib məsələlərdən biridir.

***Tədqiqatın metodikası.*** Tədqiqat işinin nəzəri-metodoloji əsasını iqtisadçı alimlərin risklərin qiymətləndirilməsi və azaldılması ilə bağlı apardıqları tədqiqatlar, bu sahədə Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi qanunlar, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq normativ-hüquqi sənədləri və digər qanunvericilik sənədləri təşkil edir.

***Tədqiqatın praktiki dəyəri.***İşin praktiki əhəmiyyəti əldə olunan nəticələrin təşkilati-iqtisadi strukturlar tərəfindən risklərinin qarşısının alınması üçün tədbir kimi istifadə edilə bilməsi ilə müəyyən edilir. Xüsusilə, riskləri qiymətləndirmək üçün hazırlanmış təkliflər risklərin mənfi nəticələrini azaltmağa imkan verə bilər.

## MATERIALLAR VƏ MÜZAKIRƏLƏR

Araşdırmalar göstərir ki, statistik risk anlayışı təzahür statistikasına əsaslanmaqla qiymətləndirmə metodlarını özündə əks etdirir. Ümumiyyətlə isə risklərin identifikasiyası və keyfiyyətinin (ehtimal və təsir səviyyəsinin) qiymətləndirilməsi üçün tez-tez risk xəritələrindən istifadə olunur. Bu zaman məhdud sayda risklərin təsviri verilməklə və riskə məruz qalma gücü göstərilməklə hadisələrin ehtimal və ya baş verməsinin tezliyi müəyyən edilir.

Təcrübədə ehtimal olunan hadisələrin parametrlərinin kəmiyyətcə qiymətləndirilməsi üçün risk növü və zərərin müəyyənləşdirilməsi üçün statistik hesablamaların müvafiq metodlarından istifadə olunur. Təsadüfi itkilərin faktiki bölgüsü statistik materiallar əsasında əldə edilir. Zəruri hallarda və zərərin sonrakı araşdırmalarının sadəliyi üçün bu paylanmalar təsadüfi dəyişənlərin paylanmasının məlum qanunlarına yaxınlaşdırıla bilər. Odur ki, sığortada itkilərin təsadüfi bölüşdürülməsində adətən aşağıdakı qanunlardan istifadə edilir: normal paylama; anormal paylama; tələbə görə bölgü və s.

Bununla birlikdə, araşdırmalardan məlum olur ki, bütün sığorta riskləri statistik sayıla bilməz. Risklər nadirdir, lakin bəzi hallarda dağıdıcı nəticələrə səbəb olur - zəlzələ, sunami, nüvə fəlakətləri və s. Bu cür risklərə fəlakətli risklər deyilir. Belə risklərin statistikası nadir olduqlarına görə praktik olaraq mövcud deyildir, buna görə də onların kəmiyyət qiymətləndirilməsi üçün analoji metodlardan - sistemlərin sabitliyi nəzəriyyəsindən və s. istifadə olunur. Qeyd edilənləri nəzərə alaraq taxılçılıq üzrə risklərin qiymətləndirilməsi metodikası əsaasında araşdırmalar bir sıraproblemləri aşkar etməyə imkan verir.

Cədvəl

Azərbaycan Respublikası üzrə taxılçılıqda məhsuldarlığın dəyişməsi amilləri

| İllər | sırasayı, n | Məhsuldarlıq, sen/ha,y | $y^2$ | T | $t^2$ | y*t | $\tilde{y}_t$ | $(\tilde{y}_t - \tilde{y})^2$ |
|---|---|---|---|---|---|---|---|---|
| 2010 | 1 | 20,7 | 428,49 | -4 | 16 | -82,8 | 23,32 | 26,01 |
| 2011 | 2 | 25,4 | 645,16 | -3 | 9 | -76,2 | 24,34 | 16,65 |
| 2012 | 3 | 27,2 | 739,84 | -2 | 4 | -54,4 | 25,36 | 9,36 |
| 2013 | 4 | 27,5 | 756,25 | -1 | 1 | -27,5 | 26,38 | 4,16 |
| 2014 | 5 | 24 | 576 | 0 | 0 | 0 | 27,4 | 1,04 |
| 2015 | 6 | 31,5 | 992,25 | 1 | 1 | 31,5 | 28,42 | 0 |
| 2016 | 7 | 30,6 | 936,36 | 2 | 4 | 61,2 | 29,44 | 1,04 |
| 2017 | 8 | 29,8 | 888,04 | 3 | 9 | 89,4 | 30,46 | 4,16 |
| 2018 | 9 | 30 | 900 | 4 | 16 | 120 | 31,48 | 9,36 |
| Cəmi: | 45 | 246,7 | 60860,89 | 20 | 60 | 61,2 | 246,6 | 71,79 |

Cədvəl-də verilən ilkin məlumatlar əsasında taxılçılıqda məhsuldarlığın dəyişməsinə təbii və aqrotexniki amillərin təsirini müəyyənləşdirərkən məlum olur ki, 2010-2018-ci illərdə məhsuldarlığa aqrotexniki amillər 10,3% (2,82/27,4*100=10,3%), təbii-iqlim amilləri 89,7%

(100-10,3=89,7%) təsir etmişdir. Belə ki, məhsuldarlığı y, il sayını n, sıra sayını t ilə işarə etməklə hesablamalar göstərilə nəticəni əldə etməyə imkan verir.

$$\sigma=\sqrt{\frac{\sum(\tilde{y}_t-\tilde{y})^2}{n}}=\sqrt{\frac{71,79}{9}}=\sqrt{8}=2,82$$

$$\tilde{y}=27,4+1,02=28,42$$

$$a=\frac{\sum y}{n}=\frac{246,7}{9}=27,4$$

$$b=\frac{\sum yt}{\sum t^2}=\frac{61,2}{60}=1,02$$

Ümumiyyətlə, təbii risklərin qiymətləndirilməsində müxtəlif metodlardan istifadə olunur. Keçmişdə baş verən müxtəlif nadir təbii fəlakətlərə dair tarixi arayışları öyrənməklə, dövrümüzdə belə hadisələrdən mümkün zərərləri dəqiq qiymətləndirmək mümkündür. Bənzər bir təbii fəlakət ehtimalının qiymətləndirilməsi məsələsində aşağıdakı metodlardan istifadə edərək təxmini qiymətləndirmə aparmaq mümkündür:

- statistik olaraq bəzi fəlakətli hadisələrin vahid statistik məcmusu təkrarlanan fəlakətli hadisələrin meydana gəlməsini təklif edir. Bu metodun mənfi tərəfi statistik nümunənin kiçik olması və statistik materialın özünün qiymətləndirmələrinin əhəmiyyətli dərəcədə dağınıqlığı və aşağı dəqiqliyidir;
- qlobal səviyyədə fəlakətli hadisələrin riyazi modelləşdirilməsi. Bu metodun neqativ cəhəti keyfiyyət nəzəriyyəsinin və hesablama gücünün olmaması, modelləşdirmə üçün ilkin məlumat toplamaqda çətinliyin yaranması ilə bağlıdır[4, s.61].

"Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən risklər aşağıdakı kimi qiymətləndirilir:

- sığorta qaydalarında və aqrar sığorta məhsulunun şərtlərində nəzərdə tutulan hallarda, sığorta müqaviləsi bağlanmamışdan əvvəl müstəqil ekspert sığorta predmetinə baxış keçirir və onun məruz qala biləcəyi riskləri qiymətləndirir;
- müstəqil ekspert sığorta predmeti ilə bağlı olan risklər üzrə sığorta qaydaları ilə müəyyən edilən məlumatları aqrar sığorta informasiya sisteminə daxil edir (1).

Böyük, mürəkkəb texniki sistemlərdə fəlakətli qəzaların baş vermə ehtimalını qiymətləndirmək üçün sabitlik nəzəriyyəsinin məlum metodlarından istifadə olunur. Sistemdə, onun məhv olmasına səbəb olan və bu cür hadisələr nəticəsində başqalarına zərər verən elementlərin həlqələri mövcuddur.

Təbii ki, qeyd edilən hadisələr riskləri formalaşdırmaqla iqtisadiyyatın müxtəlif sferalarının fəaliyyətində də özünü biruzə verir. Bu baxımdan sahibkarlıq fəaliyyəti ilə bağlı olan risklərin müəyyənləşdirilməsi və onun təsirlərinin qiymətləndirilməsi xüsusiə əhəmiyyət kəsb edir. Sahibkarlıq fəaliyyəti gəlir əldə etmək məqsədi daşıyır, ona görə də adətən təşəbbüskarlıq riski hər hansı bir istehsal və biznes fəaliyyətində yaranan riskə aid edilir. Sahibkarlıq məhsulların, malların və xidmətlərin istehsalı ilə əlaqəli olan, onların reallaşdırılması, pul və maliyyə əməliyyatları, ticarət, elmi və texniki layihələrin icrası kimi mühüm məsələlərin həllini həyata keçirən fəaliyyət növüdür. Sahibkarlıq riski qeyri-müəyyənliyə görə obyektiv bir əsasa malikdir. Sahibkarlıq fəaliyyəti ilə əlaqədar xarici mühitin təsiri nəticəsində bir sıra gözlənilməyən hadisələr müşahidə olunur[2, s.83]. Xarici mühit obyektiv iqtisadi, sosial və siyasi şərtləri əhatə

etməklə sahibkarın hərəkətlərində özünü əhəmiyyətli şəkildə biruzə verir, müəyyən dəyişiklikləri həyata keçirməyə məcbur edir.

İqtisadi fəaliyyətdə qeyri-müəyyənlik və risk nəticəyə əhəmiyyətli dərəcədə təsir göstərdiyindən planlaşdırılan nəticə ilə risk amili arasında ziddiyyətin yaranması labüddür. Sahibkarlıq özündə mühüm fəaliyyət növlərini birləşdirdiyindən onun iqtisadi inkişafdakı əhəmiyyəti əldə edilmiş faydanın dayanıqlığının təmin edilməsini tələb edir. Ona görə də sahibkarlıq riskinin nəzərə alınması və qiymətləndirilməsi iqtisadi sərbəstliyin ən vacib tərəfidir. Bir sahibkarın sərbəst fəaliyyəti müəyyən vaxtla müşayiət olunur, digər sahibkarların azadlığı və buna görə də onlar arasında yaranan rəqabət əvvəlcədən nəzərdə tutulmayan qeyri-müəyyənliklərlə şərtlənir. Bu isə mənfəət əldə etmək üçün sahibkarların şüurlu şəkildə riskli bir qərar verməyə məcbur olması ilə nəticələnir.

Sahibkarların istehsalla məşğul olaması prosesi son dərəcə risklidir və bu risklərin sığortalanması problemləri hələ də mövcuddur. Digər sığorta problemləri arasında istehsalla bağlı risklər hazırda ən vacib risklərdən hesab olunur. Sahibkarlıq riski həm də fərqliliyi ilə müşayət olunur – təbii fəlakətlər, qanunvericilikdəki dəyişikliklər, inflyasiya və digər maneələr riski yaradan əsas amillərdəndir. Bununla yanaşı, risklərin ortaq cəhətləri də vardır. Risk anlayışları risk dərəcəsinin nəticəyə təsirini əks etdirməklə subyektivlik və təşəbbüskarlıq keyfiyyətlərinə kölgə salmaq iqtidarındadır.

Risklər istənilən təsərrüfatçılıq subyektində ola bilər, lakin risklərə və onların təsirinin azaldılmasına yönəldilmiş fəaliyyətə laqeyd yanaşma mənfi hallara gətirib çıxara bilir. Buna görə də sahibkarlıq risklərinin sığortalanmasının əhəmiyyəti özünü daha qabarıq şəkildə göstərir. Burada başlıca məsələlərdən biri obyektiv risk faktorlarını subyektdən ayırmaqdır, əks halda aktiv sığorta riskləri ümumiyyətlə qəbul edilmir[3, s.36].

Sahibkarlıq riskləri əsasən iqtisadi fəaliyyət növündən – biznes, istehsal, ticarət, xidmətlər və s. asılıdır. Bundan asılı olaraq əmlak və ya məsuliyyət sığortasının bu və ya digər növü tətbiq olunur. Sığorta münasibətlərində təbii olaraq sahibkarın maraqlarını qorumaq başlıca şərtlərdəndir. Biznes risklərinin sığortasının müxtəlif növləri mövcuddur. Onlardan biri maliyyə sığortasıdır və bu zaman bank və bank riskləri, habelə xarici ticarət əməliyyatları risklərinin sığortası həyata keçirilir. Maliyyə riski adətən maliyyə ilə əlaqədar yaranan risk kimi başa düşülür. Bu risk maliyyə nəticələri ilə əlaqədardır. Deməli, gəlir əldə etmək və ya pul itkisi ilə qarşılaşmaq əslində riskin hansı səviyyədə nəzərə alınmasının və qiymətləndirilməsinin ən mühüm göstəricilərindəndir. Buna görə maliyyə risklərinin yalnız obyektiv hissəsi tərəfdaş şirkətin sığorta maraqlarına daxil olur. Digər bir maliyyə riski investisiya riski ilə müşayət olunur. Bu, investisiya qoyuluşunun xüsusiyyətləri ilə əlaqələndirilir və müxtəlif layihələrdə vəsait qoyuluşlarının etibarlılığına təminatın əsas göstəricilərindən hesab edilir. Maliyyə risklərinin sığortası sığorta münasibətlərində ən vacib növlərdəndir. İstehsaldakı maliyyə sabitliyinin pozulması, yanğın səbəbindən zərərlərin yaranması, investisiyanın nəticəsinin qeyri-müəyyənliyi maliyyə risklərinin sığortalanmasının labüdlüyünü əsaslı şəkildə təsdiq edir.

## NƏTICƏLƏR

Göstərilənlərdən aydın olur ki, riskin səviyyəsi ilə istehsalın daxili həyat dövrünün birbaşa əlaqəli olan mərhələsi daxili rəqabət mühitini formalaşdırır. Üstəlik, sektordaxili rəqabətin səviyyəsi bu sahədəki strukturların davamlılığı haqqında məlumat mənbəyi rolunu oynayır. Bir

qayda olaraq rəqabət mühitində yüksək riskin qiymətləndirilməsi və neytrallaşdırılması məqsədilə aşağıdakılara nəzər salmaq vacibdir:

- qiymət və qeyri-qiymət rəqabət dərəcəsi;
- bazara daxil olmağın asanlığı və ya çətinliyi;
- yaxın və rəqabətli əvəzedicilərin olması və ya olmaması;
- müştərilərin bazara daxil olma qabiliyyəti;
- tədarükçülərin bazara daxil olma qabiliyyəti;
- siyasi və sosial mühit.

Əlavə olaraq qeyd etmək lazımdır ki, uyğunsuzluqla əlaqəli olan yenilikçi risklər də mövcuddur. Yeni istehsal sahələri üçün zəruri olan tələblər, mal və ya xidmətlərin satılmamış vəziyyəti müəyyən risk yaradır. Qeyd edilənlərdən aydın olur ki, risklərin təsirinin azaldılması, mümkün itkilərin minimuma endirilməsi və aradan qaldırılması prosesində uğur qazanmaq üçün hər bir riski düzgün qiymətləndirmək vacibdir.

Risklərin təhlili və qiymətləndirilməsi prosesi aşağıdakı prosedurları əhatə edir:

- problemin mümkün həll yollarının müəyyənləşdirilməsi;
- qərarın həyata keçirilməsinin mümkün nəticələrinin müəyyən edilməsi;
- kəmiyyət və keyfiyyət aspektləri baxımından risklərin qiymətləndirməsi.

Ümumiyyətlə, risk amilinin kritik dəyərlərini hesablayarkən zəif cəhətlər müəyyənləşdirir və bu cəhətləri gücləndirmək üçün fəaliyyət proqramı hazırlanır. Qeyd edildiyi kimi bu cür problemləri həll etmək üçün sığorta ən əhəmiyyətli vasitələrdəndir. Ona görə risklərin qiymətləndirilməsinin nəticələrindən asılı olaraq onların sığortalanmasına xüsusi önəm verilməlidir.

Risklərinin qiymətləndirilməsi göstərir ki, risklərin təsirinin azaldılması və onların baş vermə ehtimalının əvvəlcədən müəyyənəşdirilməsində müəyyən problemlər mövcuddur. Belə ki, sığortaçıların sığorta münasibətlərinin qurulmasındakı fəaliyyətinin əsas istiqaməti gəlir əldə etməyə və risklər nəticəsində dəyən zərərin ödənilməsinə, sığortalıların başlıca hədəfi isə daha çox sığorta ödənişi əldə etməyə yönəldilir. Bu isə risklərin təsirinin neytrallaşdırılması tədbirlərinin müəyyənləşdirilməsinə və risk amilinin qiymətləndirilməsinə marağı azaldır.

Qeyd edilənlər sığorta risklərinin qiymətləndirilməsi, risklərinin təsirinin azaldılması və ya risk ehtimalının aradan qaldırılması istiqamətində müəyyən işlərin görülməsinin zəruriliyini göstərir. Beləliklə, əksər risklərin obyektiv təbiətinə baxmayaraq, iqtisadi proseslərin inkişaf mərhələləri risklərin idarə oluna biləcəyini və idarə edilməli olduğunu sübut edir. Ona görə risklərin idarə edilməsi təcrübəsindən faydalanaraq müsbət nəticələrə hədəflənmək hər bir subyektin başlıca vəzifələrindən hesab edilir.

## RISK ASSESSMENT IN THE AGRICULTURE SPHERE

**Ganjayev Farhad Ilgar**

***Key words: risk, insurance, loss, profit, productivity, assessment.***

***Abstract:*** *Risk assessmentisone of themaintoolstoform a preliminaryguarantee of theresults of economicprocesses. It ispossibletoreducetheimpact of risksthat may occurthrough risk assessment and topredicttheirprobability. Consideringthesignificantdependence of*

**№ 1/2020** **səh.117 - 122**

*agriculturalproduction on natural and climaticfactors, it ispossibletoemphasizetheneedtotakeappropriatemeasures on risk reductionorelimination of risk*

**ОЦЕНКА РИСКОВ В АГРАРНОЙ СФЕРЕ**

**Гянджаев Фархад Ильгар оглы**

***Ключевыеслова: риск, страхование, убыток, прибыль, урожайность, оценка.***

***Резюме:***_Оценкарисковявляетсяосновнымсредствомпредварительногоформированияг арантии результатам экономических процессов. За счет оценки рисков можно достичь уменьшения последствий рисков, которые могут возникнуть и заранее определить вероятность их возникновения. Если принять во внимание значительную зависимость сельскохозяйственного производства от природно-климатических факторов, то можно отметить наличие в настоящее время необходимости в проведении соответствующих мер в направлении снижения рисков или предотвращения вероятности риска._

## ƏDƏBİYYAT

1. "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu. 27 iyun 2019-cu il.
2. Коршунова Л.Н., Проданова Н. А. Оценка и анализ рисков. Издательство: Феникс, 2007 г. 96 с.
3. Скамай Л. Г. Страхование: учебник и практикум для прикладного бакалавриата / Л. Г. Скамай. - 3-е изд., перераб. и доп. - Москва: Издательство Юрайт, 2017. - 293 с.
4. Уколов А. И. Оценка рисков: учебник. Издательство: Директ-Медиа - 2018. 627с.

Redaksiyaya daxilolma 11.03.2020
Çapa qəbul olunma 05.04.2020

**№ 1/2020** **səh.123 - 131**

**UOT-314:001.**

# BEYNƏQLXALQ MALİYYƏ MÜNASİBƏTLƏRİ VƏ AZƏRBAYCAN RESPUBLİKASININ ONLARDA YERİ

*[1]Qasımova Yetər İsrail qızı,baş müəllim*

Azərbaycan Texnologiya Universiteti
Gəncə şəh., Ş.İ.Xətai pr., 103

***E-mail:etabdullaeva@mail.ru***

***Xülasə:** Azərbaycanın maliyyə sistemi nisbətən cavandır, ancaq demək olar ki, dinamik inkişaf edir və cari makroiqtisadi konyunkturu numayiş etdirir. Müasir zamanda az ölkə tapılar ki, beynəlxalq əmək bölgüsünün, ixtisaslaşma və kooperasiyanın üstünlüklərindən istifadə etməsin. Istehsalın sürətlə artan benəlmilliləşməsi iqtisadi subyektləri dünya bazarlarına çıxmağa vadar edir. Beləliklə beynəlxalq maliyyə münasibətəri inkişaf edir və mürəkkəbləşir. Və bennəlxalq maliyyə münasibətlərində səmərəli istifadə edərək ölkə iqtisadiyyatını inkişaf etdirmək ən aktual məsələlərdən biridir. Bunun üçün də beynəlxalq maliyyə münasibətləri öyrənilməli, onun verdiyi üstünlüklər və gətirdiyi təhlükələr araşdırılmalı, ölkənin bu münasibətlərdən yararlanması yolları aşkar edilməlidir. Təqdim edilən məqalədə beynəlxalq maliyyə münasibətlərinin mahiyyəti, funksiyaları və tərkib elementləri araşdırılıb, Azərbaycanın beynəlxalq maliyyə münasibətlərində yeri təhlil edilib.*

***Açar sözlər:** maliyyə, qloballaşma, beynəlxalq maliyyə münasibətləri, beynəlxalq maliyyə, maliyyə bazarları, qiymətli kağızlar, xarici investisiya, portfel investisiya, birbaşa investisiya.*

**Giriş.**Beynəlxalq maliyyə təsərrüfatçılığın iqtisadi mexanizmi kimi Azərbaycan Respublikasının dünya iqtisadiyyatına inteqrassiyasını həyata keçirmək üçün istifadə edilir. Beynəxalq iqtisadi münasibətlr sistemində formalaşan maliyyə mexanizmi hökümətin beynəlxalq əməkdaşlıq sahəsində maliyyə siyasətinin reallaşdırılmasının əsas alətlərindən biridir. Beynəlxalq sferada fəaliyyət göstərən maliyyə beynəlxalq əlaqələrin iştirakçılarının iqtisadi maraqlarına təsir edir və beynəlxalq iqtisadi inteqrassiyanın inkişafını stimullaşdırır. Büynəlxalq maliyyə münasibətləri müxtəlif ölkələr və onların təsərrüfat subyektləri arasında həyata keçirilən beynəlxalq maliyyə resurslarının axınlarının formalaşdırılması və idaə edilməsinə dair münasibətərin məcmusudur. Maliyyə resurslarının xarici ölkələrdə beynəlxalq müstəvidə yerləşdirilməsinin təkanverici əsasını milli maliyyə resurslarını inflyassiyadan qorumaq və daha yüksək mənfəət əldə etmək istəyi təşkil edir. Bu baxımdan Azərbaycanın beynəlxalq malyyə münasibətlərində iştirakı zəruridir.

Tədqiqatın aktuallığı. Qlobal miqyasda baş verən maliyyə-itisadi böhranlar dünya təsərrüfat əlaqələri sisteminin əsasını silkələdi, beynəlxalq maliyyə sisteminin kövrəkliyini və ölkələrin iqtisadi inkişafındakı qeyrimütənasibliyi aşkar etdi. Dünya iqtisadiyyatının bir balaca canlanması zamanı böhranın başa çatması barədə deyilsə də bu heç də belə deyildir. Ayrı-ayrı ölkələrdə baş verən müxtəlif mənşəli və miqyaslı iqtisadi böhranlar dünya maliyyə sistemində

sabitliyin nə qədər zəif olmasını və beynəlxalq maliyyə münasibətləri sferasında yeni daha dərin və əlaqələndirilmiş beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsinin zəruri olmasını göstərdi. Apardığımız araşdırmanın aktuallığı da bununla şərtlənir.

Tədqiqat metodları: Nəzəri tədqiqatlar, mövcud ədəbiyyatlar və internetdə verilən materialların təhlili və s.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

Qloballasmanın dünya iqtisadiyyatında ən çox dəyisikliklər etdiyi sahələrdən biri maliyyə münasibətləridir. Amerikalı professor Lester Turonulun fikrincə qloballasma maliyyə əlaqələrinin beynəlmililləşməsinin yeni mərhələsidir. Beynəlxalq maliyyə münasibətləri beynəlxalq əmək bölgüsünün labüd nəticəsi kimi əvvəllər də mövcud olmusdur. Lakin o indi yeni məzmun, yeni forma almıs, daim təkmilləsən və yeniləsən infrastruktura çevrilmisdir. Qloballasma inkisaf etməkdə olan ölkələrdə maliyyə sistemlərinin təcrid olması hissini azaltmıs, kapital axını, miqrasiya qaydalarını yeniləsdirməklə maliyyə münasibətlərinin inkisafına təkan vermisdir.[3]

Qloballaşma bütün təsərrüfat proseslərinin beynəlmilliləşməsi və transmilliləşməsi meyillərini gücləndirdi və bütün ölkələrin dünya maliyyə mərkəzləri ilə qarşılıqlı əlaqədə olan hətta nisbətən balaca bir ölkədə baş verən hadisələrdən asılıolmasını göstərdi. Buna misal kimi Yunanıstanın dövlət borcunun artmasının Aİ ölkələri qrpunu böhrana sürükləməsini göstərmək olar. qloballaşma beynəlxalq maliyyə sistemində risk potensialını və qeyri dayanıqığı artırdı.
Bu cür hallar beynəlxalq maliyyə münasibətlərinin dərindən öyrənilməsini və dünya iqtisadiyyatının şah damarı olan beynəlxalq maliyyə axınlarının təhlilinin aktuallığını şərtləndirir. Cünki beynəlxalq maliyyə münasibətləri bazar təsərrüfatının tərkib hissəsi və ən mürəkkəb sahələrindəndir. Beynəlxalq maliyyə münasibətərində parallel axını olan və sıx çarpazlaşan milli və dünya iqtisadiyyatının problemləri fokuslaşır. Təsərrüfat əlaqələri inkişaf etdikcə əmtəə, xidmət və xüssəndə kapital axınları artır.

Hal hazırda çox az ölkə ölkə tapılar ki, beynəlxalq əmək bölgüsünün, ixtisaslaşma və kooperasiyanın üstünlüklərindən istifadə etməsin. Istehsalın sürətlə artan benəlmilliləşməsi iqtisadi subyektləri dünya bazarlarına çıxmağa vadar edir. Beləliklə beynəlxalq maliyyə münasibətəri inkişaf edir və mürəkkəbləşir.

Beynəqlxalq maliyyə münasibətləri beynəlxalq iqtisadi münasibətərin valyuta və kredit menasibətəri ilə sıx bağlı olan xüsusi sferasıdır. Beynəlxalq maliyyə münasibətlərinin yaranması əmtəə-pul münasibətərinin və dövlətərin yarnmasından başlayır. Dövət və özəl pul-kredit menasibətləri inkişaf etdikcə maliyyə öz fəaliyyət dairəsini genişləndirdi və milli sərhədləri aşaraq dövlətlərarası münasibətləri də əhatə etdi.

Büynəlxalq maliyyə münasibətləri müxtəlif ölkələr və onların təsərrüfat subyektləri arasında kapitalın maliyyə resursları (qiymətli kağızlar, beynəlxalq kreditlər və xarici investissiyalar) şəklində həyata keçirilən beynəlxalq axınlarının formalaşdırılması və idaə edilməsinə dair valyuta-krdit münasibətərinin məcmusudur. Maliyyə resurslarının xarici ölkələrdə beynəlxalq müstəvidə yerləşdirilməsinin təkanverici əsasını milli maliyyə resurslarını inflyassiyadan qorumaq və daha yüksək mənfəət əldə etmək istəyi təşkil edir. Eyni zamanda ölkələr arasında gömrük maneələrini, vergitutmada, mülkiyyət hüqqunda və əldə edilən mənfəətin repatriassiyasında olan fərqləri nəzərə almaq lazımdır.

**№ 1/2020** **səh.123 - 131**

Beynəlxalq maliyyə sistemi borc kapitalının beynəlxalq hərəkatında və maliyyə resurslarının digər yerdəyişməsində iştirak edən və bu yerdəyişmələri beynəlxalq qaydalar (razılaşmalar, müqavilələr və s.) əsasında tənzimlənməsini həyata keçirən tarixən təşəkkül tapmış milli maliyyə sistemlərinin, üstmilli (dövlətlərarası) maliyyə təşkilatlarının, transmilli bankların (TMB) və transmilli korporassiyaların (TMK) maliyyə fəaliyyətinin məcmusudur. [4]

Beynəlxalq maliyyə sistemi – beynəlxalq maliyyə münasibətlərinin elə bir təşkili formasıdır ki, buraya maliyyə bazarları, vasitəçilər, maliyyə xidmətləri təqdim edən firmalar və özəl şirkətlər və hökümət təşkilatları qəbul etdiyi maliyyə qərarlarını reallaşdırdıran digər institutlar daxildir.

Beynəlxalq maliyyə bazarı qlobal iqtisadi məkanda maliyyə resurslarının alqı-satqı əməliyyatlarına dair iqtisadi münasibətlər sferasıdır. Burada beynəlxalq maliyyə resurslarının hərəkəti təmin edilir. Institusional baxımdan beynəlxalq maliyyə bazarı maliyyə resurslarını cəmləşdirən və yenidən bölgüsünü təmin edən transmilli şirkətlərin, transmilli banklar, beynəlxalq və regional valyuta-kredit və maliyyə təşkilatlarının, fond və valyuta birjalarının məcmsudur. [5]

“Qlobal maliyyə bazarları bütün dünyada iqtisadi səraitə güclü təsir göstərir. Maliyyə kapitalı imtiyazlı vəziyyətdədir. Ümumiyyətlə götürüldükdə, kapital digər istehsal amillərinə nisbətən daha mobildir. Maliyyə bazarları ayrı-ayrı ölkələr üçün kapitalın vergiyə cəlb edilməsini hədsiz dərəcədə çətinləsdirmisdir, çünki onu hara istəsələr apara bilərlər. Nəzərə alınsa ki, beynəlxalq maliyyə kapitalı ayrı-ayrı ölkələrin həyatında həlledici rol oynayır, bu gün artıq qlobal kapitalist sistemi haqqında danısmaq olar.” [6]

Beynəlxalq maliyyə sisteminin obyektiv ünsürlərinə aşağıdakılar aid edilir:

•beynəlxalq maliyyə resursları
•beynəlxalq maliyyə fondları
•beynəlxalq maliyyə nəzarəti orqanları;
•beynəlxalq maliyyə münasibətlərinin iştirakçıları;
•beynəlxalq maliyyə fəaliyyətinin maliyyə mexanizmləri.

Beynəlxalq maliyyə resursları beynəlxalq maliyyə fəaliyyətində istifadə edilən valyuta vəsaitləri və qiymətli kağızlardır. Beynəlxalq maliyyə resursları özünün və cəlb edilmiş (borc alınmış) ola bilər. Öz maliyyə rsursları xarici iqtisadi fəaliyyət prosesində subyektin özü tərəfindən yaradılan resurslardır. Borc xarici resurslar ödənişli, geri qaytarma və müddətli prinsiplər əsasında qeyri-rezidentlərdən daxil ola bilərlər (beynəlxalq kreditlər). Cəlb edilmiş beynəlxalq maliyyə resursları isə əvəzsiz alınan resurslarıdr (beynəlxalq maliyyə yardimi, xarici səhmli kapitalda iştirak və s.). beynəlxalq maliyyə resursları həm pul formasında, həm də qiymətli kağız formasında ola bilərlər. Pul formasında resurslar aparıcı valyutalarda olan vəsaitlərdir (ABŞ dolları, avro və s.). Xarici emitentlər tərəfindən buraxılan, xarici investorlar tərəfindən alınan, beynəlxalq maliyyə bazarlarında dövriyyə edən qiymətli kağızlar beynəlxalq maliyyə alətlərindir ki, beynəlxalq maliyyə münasibətlərinin subyektləri onlarla əməliyyatlar aparır.

Beynəlxalq maliyyə fondları beynəlxalq maliyyə resurslarının fondlarıdır. Onlar mərkəzləşdirilmiş və qeyrimərkəzləşdirilmiş ola bilərlər. Mərkəzləşdirilmiş fondlara mərkəzi hakimmiyət iştirak etdiyi fondlar aiddir:

• ixtisaslaşdırılmış beynəlxalq fondlar (beynəlxalq valyuta fondu və s.) – BMT himayəsi altında yaradılırlar. Belə fondların resursları həmin təşkilatın məqsədlərindən irəli gələrək istifadə edilir;

•regional büdcələr – inteqrassiya olunmuş birliyə daxil olan bir neçə ölkənin mərkəzləşdirilmiş beynəlxalq fondları. Bu büdcələr iştirakçı ölkələrin dövlət büdcəsindən ayırmalar, habelə xüsusi regional vergilər, gömrük rüsumları hesabına formalaşır. Vəsaitlər regional proqramlara, regionun daha az inkişaf etmiş ölkələrinə maliyyə dəstəyinin göstərilməsinə və s. xərclənir. Məsələn, Aİ büdcəsi;
•müvəqqəti məqsədli proqramların maliyyələşdirilməsi üçün bir neçə ölkənin təsis etdiyi xüsusi dövlətlərarası fondlar.
Beynəlxalq maliyyə fondlarından biridə Beynəlxalq Valyuta fondudur. Bu fond Azərbaycan üçün maliyyə resurslarının ən vacub mənbələrindən biridir. Beynəlxalq Valyuta Fondunun məqsədli fondları və kreditləri hesabına Azərbaycanın dünya iqtisadiyyatına inteqrassiyası dəstəklənir.

Beynəlxalq maliyyə nəzarəti orqanlarına Beynəlxalq valyuta Fondfu, Dünya Bankı Qrupu, beynəlxalq hesablaşmalar Bnkı, Kreditorların Paris və London klubu və s. aiddir. Beynəlxalq maliyyə münasibətlərinə nəzarət edən və tənzimləyən beynəlxalq maliyyə nəzarətinin milli orqanları iştirakçı ölkələrin maliyyə nazirlikləri, xəzinədarlıqları, xüsusi komitələridir (məsələn, Azərbaycanda Maliyyə Bazarlarına Nəzarət Palatası ).

Beynəlxalq maliyyə münasibətlərinin iştirakçılarına demək olar ki, xarici iqtisadi fəaliyyətin bütün iştirakçıları aiddir. Çünki, heç bir iqtisadi proses maliyyəsiz keçinmir. Beynəlxalq maliyyənin əsas iştirakçıları transmilli korporassiyalar və banklar, dövlət maliyyə institutları, beynəlxalq maliyyə təşkilatlarıdır. Onlar beynəlxalq maliyyə resurslarını bölüşdürür və idarə edir. Dövlət maliyyə institutları təkcə nəzarət orqanı kimi deyil, həmdə beynəlxalq maliyyə münasibətlərinin iştirakçıları kimi çıxış edirlər (o cümlədən beynəlxalq maliyyə bazarlarında dövlətin qiymətli kağızlarının emissiyasını apararaq). Bunlardan başqa, bank müəssisələri, qeyri-bank maliyyə-kredit institutları, özəl və dövlət korporassiyaları, fərdi sahibkarlar beynəlxalq maliyyə münasibətlərinin fəal iştirakçəlarıdırlar. Ikinci dərəcəli iştirakçılar beynəlxalq maliyyə proseslərinə onların səmərəliliyini təmin edərək xidmət göstərirlər. Bunlara birjaları,məlumat xidmətlərini, reytinq agentliklərini, konsdaltinq firmalarını, li məktəbləri və s. aid etmək olar.

Maliyyə mexanizmi, beynəlxalq maliyyə sisteminin ünsürü kimi beynəlxalq maliyyə fəaliyyətinin müxtəlif forma və üsullarının məcmusudur. Onlar maliyyə münasibətlərinin subyektlərindən asılıdırlar. Dövlətin beynəlxalq maliyyə fəaliyyəti dövlət büdcəsinin oldurulması və dövlət proqramlarının maliyyələşdirilməsi üzərində çəmləşir. Eyni zamanda, beynəlxalq maliyyə əlaqələndirməsinin və inteqrassiyasının formalarında, beynəlxalq maliyyə resurslarının cəlb edilməsi, büynəlxalq dövlət investissiyalarının edilməsi və dövlət korporassiyalarının beynəlxalq maliyyə fəaliyyətinin üsllarında fərqlər mövcuddur.

Özəl beynəlxalq maliyyə fəaliyyəti rəqabət prinsiplərinə əsaslanır və məqsədi mənfəət əldə etməkdir. onun forma və üsulları mənfəəti maksimallaşdırmaq imkanından asılıdır. bu müxtəlif ölkələrdə və müxtəlif dövrlərdə maliyyə resurslarının istifadəsindən yüksək gəlirlərin əldə edilməsi, ofşor biznesi n vaitəsiylə vergilərin minimallaşdırılması, transmilli korporassiyaların müştəri dairəsinin genişləndirilməsi və xərclərinin azaldılmaası ola bilər.
Beynəlxalq maliyyə münasibətlərinin əsasında beynəlxalq maliyyə durur.

Beynəlxalq maliyyənin əsas funksiyaları aşağıdakılardır:
• bölgü funksiyası maliyyə resurslarını beynəlxalq maliyyə bazarları, habelə birbaşa və portfel investissiya qoyuluşları vasitəsiylə bölüşdürməyə imkan verir;

• kapitalın səfərbər edilməsi. İri kapital bölgü prosesində ən çox mənfəət gətirən sahələrdə, sferalarda və ölkələrdə yığılır. [5]

Beynəlxalq maliyyənin funksiyaları beynəlxalq maliyyə fəaliyyətinin müxtəlif istiqsmətlərinin köməyi ilə reallaşır. Prioritet istiqamət investissiyaların edilməsidir: birbaşa və portfel invstissiyalar. Birbaşa investisiyalar müəssisəərin nizamnamə fonduna edilən qoyuluşlardır və firmanin idarə edilməsində investorun birbaşa iştirak etməsini nəzərdə tutur. Portfel investissiyalar isə qiymətli kağızlara qoylan investissiyalardır. Portfel (maliyyə) investisiyaları müxtəlif maliyyə aktivlərinə qoyulan vəsaitə deyilir. Maliyyə investisiyası vasitəsilə investor öz maliyyə kapitalını artırmaqla, qiymətli kagızlara görə dividend alır.

Beynəlxalq maliyyə fəsliyyətinin ayrıca bir cahəsi də beynəlxalq maliyyə bazarlarında təqdim edilən beynəlxalq borclardır. Borc qiymətli kağızlar bazarı bu bazarların bir seqmentidir. Bunlardan başqa beynəlxalq maliyyə dəstəyi də vardır ki, b da beynəlxalq maliyyə münasibətlərinin bir hissəsidir. Beynəlxalq maliyyə dəstəyinə güzəştli (faizsiz, güzətli ödəmə müddət ilə) beynəlxalq kreditlərin təqdim edilməsini, əvəzsiz məqsədli dəstəyin edilməsini, qrantları, borcların silinməsini aid etmək olar.

Beləliklə beynəlxalq maliyyə münasibətləri aşağıdakı formalarda çıxış edə bilər:

•investissiyaların edilməsi (portfel və birbaşa);

•dünya bazarında beynəlxalq borcların verilməsi;

•beynəlxalq maliyyə dəstəyinin göstərilməsi.

Gördüyümüz kimi, beynəlxalq mliyyə münasibətlərində investissiyaların edilməsi birinci yerdə durur. Xarici investorun ölkə iqtisadiyyatatına vəsait qoyması üçün ölkədə əlverişli investisiya mühiti olmalıdır. İnvestisiya mühiti isə öz növbəsində siyasi, iqtisadi, hüquqi, sosial və digər amillərdən asılıdır. Bundan başqa investisiya edən üçün investissiya qoyuluşundan gözlənilən gəlir və risk səviyyəsi də mühüm rol oynayır. Azərbaycanda qəbul edilən ilk iqtisadi qanunlardan biri 1992-ci ildə qəbul edilmiş «Xarici investisiyanın qorunması haqqında» qanun olmuşdu. Ölkədə investisiya mühitinin yaxsılasdırılması üçün vergi və gömrük qanunvericiliyində bir çox yeniliklər tətbiq edilmisdir ki, bu da xarici investorların ölkəyə gəlməsinə yaxsı təminat verir. «Xarici investisiyanın qorunması haqqında» qanuna uyğun olaraq xarici investorların mənfəət əldə etmək məqsədilə sahibkarlıq fəaliyyəti və başqa növ fəaliyyət obyektlərinə qoyduqları əmlakın və əmlak hüquqlarının bütün növləri, o cümlədən intellektual fəaliyyətin nəticələrinə hüquqlar və əşya hüquqlarına aid olmayan digər hüquqlar xarici investisiyadır. [1] Bu qanun sayəsində ölkədə kifayət qədər cəlbedici investisiya mühiti formalasmısdır. Dünya İqtisadi Forumunun Qlobal Rəqabətqabiliyyətlilik İndeksində Azərbaycan 2010-cu ildəki 51-ci yerdən (133 ölkə arasında) 2018-ci ildə 35-ci yerə (137 ölkə arasında) yüksəlib. Bununla belə İndeksin tərkibində hesablanan maliyyə bazarlarının inkişafı 79-cu yerdədir.

Azərbaycan Respublikasında xarici investorlar qismində aşağıdakılar ola bilər: a) xarici hüquqi şəxslər; b) xarici vətəndaşlar, vətəndaşlığı olmayan şəxslər və xaricdə daimi yaşayış yeri olan Azərbaycan Respublikası vətəndaşları; bu şərtlə ki, onlar vətəndaşı olduqları və ya daimi yaşadıqları ölkədə təsərrüfat fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış olsunlar; v) xarici dövlətlər; q) beynəlxalq təşkilatlar.

Xarici investorlar Azərbaycan Respublikası ərazisində aşağıdakı yolla investisiya qoya bilərlər: a) Azərbaycan Respublikasının hüquqi şəxsləri və vətəndaşları ilə birlikdə yaradılan müəssisələrdə, təşkilatlarda payçılıq iştirakı; b) tamamilə xarici investorlara məxsus olan

müəssisələr yaradılması; v) müəssisələrin, əmlak komplekslərinin, binaların, qurğuların, müəssisələrdə iştirak payının, səhmlərin, istiqrazların və digər qiymətli kağızların, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə xarici investorlara məxsus ola bilən başqa əmlakın əldə edilməsi; q) torpaqdan və başqa təbii ehtiyatlardan istifadə hüquqlarının, habelə digər əmlak hüquqlarının əldə edilməsi; ğ) Azərbaycan Respublikasının hüquqi şəxsləri və vətəndaşları ilə xarici investisiya qoyuluşunun başqa formalarını nəzərdə tutan müqavilələr bağlanması.[1]

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra, xüsusən də 1995-ci ildən bəri ölkə iqtisadiyyatına xarici investisiyaların daxil olması başlanmışdır. “Əsrin Müqaviləsinin” imzalanması ölkəyə birbaşa xarici investisiyaların gəlməsinə yol açdı.

Dövlət statistika komitəsinin məlumatına əsasən ölkə iqtisadiyyatına 1995-2017-ci illər ərzində 125 mlrd. ABŞ dolları məbləğində xarici investisiya daxil olmuşdr. Onların 121 mlrd. dolları (96 %-i) 2000-2017-ci illər dövründə baş verib. Bu illərdə ölkəyə daxil olan xarici investisiyanın təqribən 29 mlrd. dolları (24 %-i) beynəlxalq maliyyə-kredit təşkilatlarından Azərbaycan hökumətinin və ayrı-ayrı dövlət və özəl qurumların cəlb etdikləri maliyyə kreditləridir, 78 mlrd. dolları (65%-i) birbaşa investisiyalar, 218 mln. dolları (0.2%-i) neft bonusu, qalan 13.4 mlrd. dolları (11.1%-i) isə digər investisiyalar (əsasən portfel investisiyalar) olub.[7]

Azərbaycan höküməti iqtisadiyyatın və ixracın şaxələndirilməsinə, qısa müddətdə neft-qaz gəlirlərindən asılılıq səviyyəsinin azaldılmasına nail olmağa istiqamət götürmüşdür. Bunun üçün qeyri-neft sektoru sahələrinə, xüsusilə emal sənayesinə birbaşa xarici investisiyaların cəlb edilməsinə xüsusi diqqət yetirilir. Bu səbəbdən də Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində 2025-ci llədək hökumətin nail olmağı qarşısına qoyduğu 4 hədəf indikatorunun birincisi “qeyri-neft sektoruna yönəldilmiş xarici investisiyaların qeyri-neft ÜDM-dəki payının 4 faizə çatdırılması” müəyyən edilib. [2]

Tədqiqat apardığımız dövr ərzində Azərbaycan iqtisadiyyatına yönəldilən 78 mlrd. dollar xarici investisiyaların 67 mlrd. dolları (86%-i) neft sektorunda, qalan 11 mlrd. dolları (14%-i) isə qeyri-neft sahələrində reallaşdırılıb. Bu dövr ərzində qeyri-neft sektoruna daxil olmuş ümumi xarici investisiyaların 2,6 milyard dolları (24%-i) Türkiyə, 1,6 milyard dolları (15%-i) Böyük Britaniya, 1,1 milyard dolları (10.3%-i) Niderland, 0,9 milyard dolları (8%-i) ABŞ, 0,8 milyard dolları (7%-i) Rusiya Federasiyası, 0,7 milyard dolları (7%-i) Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), 0,6 milyard dolları (6 %-i) Almaniya, 0,1 milyard dolları (1%-i) İtaliya, 0,1 milyard dolları (1%-i) Fransa də digər ölkələrin şirkətlərinin payına düşüb. [7]

Xarici investissiaları cəlb etməklə yanaşı, Azərbaycan özü də xarici ölkələrin iqtisadiyyatina investisiyalar edir. Avrasiya İnkişaf Bankının “Avrasiya İqtisadi Birliyi və Avrasiya materiki ölkələri: birbaşa investisiyaların monitorinqi və analizi – 2017” adlı bir tədqiqatına əsasən Azərbaycan Avrasiya İqtisadi Birliyindən kənarda olan MDB ölkələri arasında kapital ixracına görə liderdir: tədqiqat dövründə həmin regiona Azərbaycanın xarici investisiyalarının məbləği cəmi 16.9 mlrd. ABŞ dolları olmuşdur. Həmin ölkələrə Azərbaycandan daxil olan xarici investisiyaların orta illik artım tempi 41% olub və onların yarıdan çoxu Türkiyə iqtisadiyyatına yönəldilib.

## Nəticələr

Müasir dövrdə hər bir ölkənin inkişafında beynəlxalq maliyyə münasibətləri xüsusi əhəmiyyət kəsb edir. Beynəlxalq maliyyə institutları ilə əməkdaşlıq təhlükəsiz iqtisadi artımı və

ölkə iqtisadiyyatında rəqabət qabiliyyətini təmin edir, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə zəmin yaradır.

Beynəlxalq maliyyənin tərkib hissəsi olan xarici investissiyalar ixrac və idxal ölkələri üçün müxtəlif nəticələrə səbəb olur. İxracatçı ölkələr üçün aşağıdakı mənfi nəticələr ola bilər:

- xarici investisiyaların cəlb edilməsinə adekvat olmayan kapital ixracı bu ölkələrin iqtisadi inkişafını müəyyən qədər zəiflədir;
- ölkədə məşğulluğun səviyyəsinə mənfi təsir edir;
- ölkənin tədiyyə balansına pis təsir edir.

Idxal edən ölkələr üçün isə xarici investissiyaların müsbət nəticələri aşağıdakılardır:

- investisiyaların idxalı tənzimlənərsə iqtisadi inkişafa yönəldici təsir göstərər;
- ölkəyə yeni texnologiyaların, effektiv menecment gəlməsinə səbəb olur.
- ölkədə yeni iş yerlərinin açılması və məşğulluq səviyyəsinin artmasına səbəb olur;
- ölkə iqtisadiyyatında canlanmanı və dinamikliyi artırır, daxili rəqabəti qüclәndirir və daxili bazara yönələn istehsalı genişləndirərək xarici konvertassiya olunan valyuta qənaətini təmin edir.
- maliyyə qaynaqlarını və investisiyaları artırır, fondların qaynağını çeşidləndirərək stabilliyə müsbət təsir göstərir. Bu da ölkənin xarici borc ehtiyacını azaldır.
- ölkəyə vergi gəliri qazandırır. Bu da ölkənin potensial büdcə defisitlərinə müsbət təsir göstərir.
- birbaşa xarici investisiyalar ev sahibi ölkənin xarici iqtisadi inteqrasiyasının təmin edilməsinə müsbət təsir göstərir.
- ölkənin tədiyyə balansını yaxşılaşır.

Bunlarla yanaşı xarici investisiyalar bir çox mənfi nəticələrə də gətirib çıxarır:

- xarici kapital gəlirli sahələrə axır və yerli kapitalı gəlirli sahələrdən uzaq salır. Bu isə ölkə iqtisadiyyatının biryönlü inkişafına gətirib çıxara bilər və bununla da ölkənin iqtisadi təhlükəsizliyi pozula bilər;
- kapital idxalı bəzən ucuz və keyfiyyətsiz malların yerli bazara daxil olmasına da səbəb ola bilər;
- borc kapitalının idxalı xarici dövlət borclarını artırır;
- beynəlxalq korporasiyaların transfert qiymətlərdən istifadəsi nəticəsində idxalçı ölkənin vergi və gömrük daxilolmalarını aşağı salır və büdcə kəsirinin yaranmasına səbəb ola bilər.

Müasir dövrdə beynəlxalq maliyyə münasibətlərinin verdiyi üstünlüklərdən istifadə edib ölkə iqtisadiyyatını daha da unkişaf etdirmək, ölkəyə valyuta axınını gücləndirmək, iqtisadiyyatı şaxəli və balanslaşdırılmış inkişaf etdirmək qarşıda duran ən vacib məsələlərdən biridir.

**Tədqiqatın elmi yeniliyi:** Qloballaşma şəraitində maliyyə münasibətlərinin beynəlxalq mühitin elmi yeniliklərinə əsaslanaraq qurulması.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti:** Azərbaycan Respublikasının maliyyə münasibətlərinin beynəlxalq aləmə inteqrasiyasının genişləndirilməsi və onların daha da dərinləşdirilməsi, möhkəmləndirilməsi məsələlərinin öyrənilməsi

ƏDƏBİYYAT SİYAHISI

1. «Xarici investisiyanın qorunması haqqında» Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 15 yanvar 1992-ci il. № 57.

2. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsin", Bakı, dekabr 2016-cı il.
3. N.R.Quliyev, M.M.Mahmudov Beynəlxalq maləyyə münasəbətləri, ADİU Nəşriyyatı, Bakı 2011
4. Хасбулатов, Р. И. Международные финансы : учебник для магистров / Р. И. Хасбулатов. — М. : Издательство Юрайт, 2014. — 567 с. — Серия : Магистр.
5. N.A.Baburina Beynəlxalq valyuta-kredit və maliyyə münasibətləri. Dərs vəsaiti. Moskva. Юрайт.2017
6. Corc Soros – "Açıq cəmiyyət, qlobal kapitalizm islahat edilərkən" Moskva 2001-ci il

**УДК-314:001.**

# МЕЖДУНАРОДНЫЕ ФИНАНСОВЫЕ ОТНОШЕНИЯ И МЕСТО АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ В НИХ

Касумова Йетар Исраилькызы

***Ключевые слова:*** финансы, глобализация, международные финансовые отношения, международные финансовые ресурсы, финансовые рынки, международный кредит, ценные бумаги, иностранные инвестиции, портфельные инвестиции, прямые инвестиции, международный валютный фонд

Финансовая система Азербайджана относительно молодая, но можно сказать, что она динамично развивается и демонстрирует текущую макроэкономическую конъюнктуру. В современное время найдется мало стран которые не использовали бы преимущества международного разделения труда, специализации и кооперации. Растущая интернационализация производства, вынуждает экономических субъектов выходить на международные рынки. Таким образом, международные финансовые отношения развиваются, усложняются и одним из самых актуальных задач становится эффективное использование международных финансовых отношений для дальнейшего развития экономики страны. для этого должны быть изучены международные финансовые отношения, рассмотрены их преимущества и недостатки, которые могут быть для дальнейшего развития экономики страны. В представленной статье рассмотрены сущность, функции и составные элементы международных финансовых отношений, проанализировано место Азербайджана в этих отношениях.

***Ключевые слова:*** финансы, глобализация, международные финансовые отношения, международные финансовые ресурсы, финансовые рынки, международный кредит, ценные бумаги, иностранные инвестиции, портфельные инвестиции, прямые инвестиции, международный валютный фонд

**№ 1/2020** **səh.123 - 131**

**UDC-314:001.**

## INTERNATIONAL FINANCIAL RELATIONS AND THE PLACE OF THE REPUBLIC OF AZERBAIJAN IN THEM

**GasimovaYetar İsrail**

The financial system of Azerbaijan is relatively young, but we can say that it is developing dynamically and demonstrates the current macroeconomic situation. In modern times, there are few countries that do not take advantage of the international division of labor, specialization and cooperation. The growing internationalization of production forces economic entities to enter international markets. Thus, international financial relations are developing, becoming more complex, and one of the most urgent tasks is the effective use of international financial relations for the further development of the country's economy. to do this, we must study international financial relations, consider their advantages and disadvantages, which may be for the further development of the country's economy. The article deals with the essence, functions and components of international financial relations, and analyzes the place of Azerbaijan in these relations**.**

***Keywords:***Finance, globalization, international financial relations, international financial resources, financial markets, international credit, securities, foreign investment, portfolio investment, direct investment, international monetary fund.

Redaksiyaya daxilolma 15.01.2020
Çapa qəbul olunma 05.04.2020

**№ 1/2020** **səh.132 - 140**

**UOT 330.8.33.005**

# BİZNES TƏŞKİLATLARINDA RƏHBƏRLƏ TABEÇİLİKDƏ OLANLARIN QARŞILIQLI MÜNASİBƏTLƏRİNİN ETİK – PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***[1]Rizvan Hacı oğlu Məcidov***
***[2]Gülgün Zeynal qızı Abdiyeva***

Azərbaycan Texnologiya Universiteti
Gəncə şəh., Ş.İ.Xətai pr., 103

**[1]hrizvanh@mail.ru**
**[2]g.abdiyeva@mail.ru**

***Açar sözlər: idarəetmə, menecment, rəhbər, lider, üslub, motivləşdirmə, etik, psixoloji, inteqrasiya, intizam, tənqid.***

***Xülasə:*** Biznes təşkilatlarında rəhbərlə tabeçilikdə olanların qarşılıqlı münasibətlərinin aşağıdakı etik – psixoloji xüsusiyyətləri tədqiq olunmuşdur:

- idarəetmə tarixi və idarəetmə münasibətləri;
- rəhbərlik üslubu;
- rəhbərlik etməyin başlıca şərtləri;
- idarəetmədə menecer, liderlik və rəhbərin nüfuzu;
- rəhbərin xarakterik əlamət və xüsusiyyətləri
- idarəetmə mədəniyyəti

**Giriş:** Dahi Çin filosofu Konfutsi belə hesab edirdi ki, rəhbər öz silahdaşlarının xarakter və hisslərinə incəliklə və dərindən nüfuz etməyi bacarmalıdır.

Homerin dövründə yunanlar ideal rəhbər üçün zəruri olan 4 əsas keyfiyyəti göstərirlər: 1) Nestorun müdrikliyi; 2) Aqamemonun ədalətliliyi 3) Odisseyin bicliyi; 4) Axillesin enerjiliyi.

Bu gün rəhbər peşəsindən çətin peşə yoxdur. Rəhbər peşəsi kompleks peşədir, çünki o, rəhbərdən çox şey bilmək və müxtəlif biliklərə sahib olmağı tələb edir. Belə ki, müasir istehsalatda idarəetmə qərarları qəbul edən rəhbərlərdən daha yüksək bilik və bacarıq tələb olunur. Tutduğu vəzifələrdən asılı olmayaraq rəhbərlər yüksək peşə bilikləri və vərdişlərinin məcmusuna malik olmalıdır. Rəhbərin biliyinin həcmi onun səviyyəsində olan başqa mütəxəssislərin biliklərinin həcmindən çox olmalıdır. Rəhbər idarəetmə nəzəriyyəsindən başqa marketinq sirlərindən tutmuş maliyyə elminin hiyləgərliyinə, müasir istehsal fəaliyyətinin təşkili metodlarından tutmuş insan psixologiyasının dərinliklərinə qədər hər şey haqqında müəyyən biliklərə malik olmalıdır. Rəhbər olmaq üçün tabeçilikdə olanlara sahib olmaq lazımdır. Rəhbər nə qədər istedadlı və əməksevər olsada, əgər onun səyləri tabecilikdə olanlar tərəfindən dəstəklənmirsə ümumən bölmənin fəaliyyətinin nəticəsi çox çətin ki uğurlu olsun.

Homer qeyd edirdi ki, həqiqətdə ideal rəhbər mövcud deyildir. Əgər rəhbərlər onlara xas olan keyfiyyətlərlə məqsədyönlü istiqamətdə birgə fəaliyyət göstərirlərsə ideal rəhbərə yaxınlaşmaq olar. Ona görə də rəhbər özünün zəif və güclü tərəfləri haqqında daim düşünməlidir. Əks halda o, tutduğu yüksək vəzifənin qurbanı ola bilər.

№ 1/2020 səh.132 - 140

Rəhbərlərin özlərinə və tabeçilikdə olanlara qarşı yüksək təşəbbüskarlığı psixoloji takta, sağlam düşüncələrə və istənilən şəraitə uyğunlaşmaq bacarığı ilə əlaqələndirilməlidir. [5]

İnsanları özünə cəlb etmək bacarığı rəhbərin ən mühüm keyfiyyətlərindən biridir. Hər bir sahədə rəhbər idarəetmə prosesini rasional təşkil etmək üçün o nəzəri və praktiki məsələləri dəqiq müəyyən etməlidir.

Bu nöqteyi nəzərdən idarəetmənin sosial – psixoloji xüsusiyyətlərinə tədqiqat sahəsi kimi böyük önəm verilmiş və bu aspektdə araşdırmalar aparılmışdır. Buna görə də tədqiq olunan bu sahə öz aktuallığı ilə diqqəti cəlb edir.

**Mövzunun aktuallığı:** İdarəetmədə rəhbərlə tabeçilikdə olanlar arasında qarşılıqlı münasibətləri zamanın tələbləri səviyyəsində qurmaqla zəmanətli müvəffəqiyyətin əldə edilməsi.

**Təqdqiqatın məqsədi:** Rəhbərlə tabeçilikdə olanların qarşılıqlı münasibətlərinin etik – psixoloji xüsusiyyətlərinin tədqiqi.

**Tədqiqat obyekti:** İdarəetmədə rəhbərlə tabeçilikdə olanlar arasında qarşılıqlı münasibətlərin etik – psixoloji xüsusiyyətlərinin kompleks şəkildə düzgün formalaşdırılması.

**Tədqiqat metodları:** Tədqiqatın əsasını rəhbərlə tabeçilikdə olanların qarşılıqlı münasibətlərində insan münasibətlərinin idarə edilməsi üsullarından istifadə edilməsi; rəhbərin peşə bilikləri, vərdişləri, təcrübəsi, səyləri, təşkilati qabiliyyətləri hesabına təşkilatın idarə olunması mexanizmlərinin tətbiqi; son məqsədə nail olmaq üçün rəhbərin kollektivə təsiretmə alət və vasitələrindən istifadə edilməsi; rəhbərin özünə və tabeçilikdə olanlara qarşı psixoloji taktı, sağlam düşünmə qabiliyyəti, istənilən şəraitə uyğunlaşa bilmə bacarığından idarəetmədə səmərəli istifadə olunması; rəhbərlikdə idarəetmə nəzəriyyələri və mexanizmlərindən rasional istifadəyə əməl olunması təşkil edir.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

İdarəetmənin çox qədim olmasına baxmayaraq o bir elm təsərrüfatçılıq və tədqiqat sahəsi kimi nisbətən yenidir. Menecment anlayışı bəzən idarəetmə ilə eyni mənada işlədilsə də bunlar fərqli məfhumdular. Idarəetmə daha genişdir və bütün sahələrdə işlədilə bilər. Menecment isə idarəetmənin bir sahəsidir və yalnız sosial iqtisadi proseslərdə işlədilir. Menecment sərbəst elm və fəaliyyət sahəsi kimi XX əsrin əvvəllərində özünü təsdiq etmişdir. Menecmentin inkişafına təkan verən qüvvə İngiltərədə baş vermiş sənaye inqilabi olmuşdur. Lakin idarəetmənin inkişafı və uğurlarında olan irəliləmə ilk dəfə Amerikada yaranmışdır.

Müasir idarəetmənin əsası Amerikalı mühəndis-mexanik F.U. Teylor tərəfindən qoyulmuşdur. Bir idarəedici kimi F.U. Teylor 1911-ci ildə çap etdirdiyi "Elmi idarəetmənin əsasları" adlı məşhur əsərində idarəetmənin müəyyən qanun qayda və əlaqələrlə bağlı bir elm olduğunu meydana çıxatrdı. Idarəetmənin elm kimi qəbul edilməsi və müstəqil tədqiqat obyekti olmasının əsasını qoydu. Elə o vaxtdan da menecment ənənəvi olaraq idarəetmə elmi və müstəqil fəaliyyət sahəsi kimi qəbul edilir.

İdarəetmə elminin məzmunu aşağıdakılardan ibarətdir: idarəetmə nəzəriyyəsi, idarəetmə metodları, idarəetmənin təşkili, idarəetmə texnikası.

Göstərilən bölmələrin hər biri bir sıra idarəetmə məsələlərindən ibarətdir. İdarəetmənin məğzi əsasən idarəetmə fəaliyyətini və münasibətlərini ifadə edir. Digər elm sahələri kimi idarəetmə elmi də dünyagörüşün yaranmasında fəal rol oynayır. Belə ki, bu elmin problemləri,

**№ 1/2020** **səh.132 - 140**

müddəaları müasir dövrdə ön plana keçmişdir. İdarəetmədə insani münasibətlərin düzgün və dəqiq şəkildə qurulması xüsusi əhəmiyyət kəsb edir. [6]

İdarəetmə sahəsində insani münasibətlər məktəbinin yaranması və inkişafında ən böyük xidməti olan - Amerikan sosioloqu Meri Parker Folett və Amerikan psixoloq və sosioloqu Elton Meyonu göstərmək olar. [6]

Elmi idarəetmə Amerika alimləri T. Qilbert, L.Qilbert, Amerika mühəndis – mexanikləri F.Teylor və H.Hantın adları ilə daha çox bağlıdır. Bu konsepsiyanın yaradıcıları hesab edirlərki, məntiq müşahidə ölçmə və təhlildən istifadə etməklə əl əməyini təkmilləşdirmək və onu daha səmərəli etmək olar. Bu konsepsiya XIX əsrin ortalarından XX əsrin 1920 – ci illərini əhatə etmişdir. [4]

Qeyd edək ki, adamlar arasında olan qarşılıqlı əlaqələr zamanı yaranan münasıbətlər çox vaxt rəhbərlərin səylərini üstələyir. Bəzən işçilərin istək və maddi stimullarına rəğmən öz qruplarındakı iş yoldaşlarının istəklərinə daha üstün reaksiya verirlər.

Görkəmli amerikan psoxoloqu A. Maslou və başqa psixoloqların da tədqiqatları bu hadisənin səbəblərini başa düşməyə imkan verdi. A.Maslouya görə adamların işə münasibətləri və hərəkətləri, hec də pulun köməyi ilə qismən yerinə yetirilə bilən yalnız iqtisadi maraqlarla yox, həm də müxtəlif tələbatlarla bağlıdır. Bu nəticələrə əsaslanaraq davranış məktəbinin tədqiqatçıları hesab edirlər ki, əgər rəhbərlik öz işçilərinə çox qayğı və səmimiyyət göstərirsə, onda onların razılığının səviyyəsi artar, bu isə məhsuldarlığın artmasına gətirib çıxarar. Onlar insan münasibətlərinin idarə edilməsi üsullarından istifadə etməyi məsləhət görürdülər. Ümumiyyətlə insani münasibətlər məktəbinin əsas məqsədi insanların qabiliyyəti və səyləri hesabına təşkilatların effektlivliyini artırmaq idi.[3]

İnsani münasibətlər məktəbi əmək əldə edilməsi üçün şəxsi münasibətlərin idarə olunmasını, onların sosial və psixoloji vəziyyətlərinin nəzərə alınmasını, rəhbərlərin işçilərə qayğı ilə yanaşması amillərini aşkar etdi. Bu məktəb bir sıra amillərin menecmentdə nəzərə alınmasını zəruri etdi: psixologiya, ictimai münasibətlər, insan amili, hakimiyyət və nüfuz, motivləşdirmə (həvəsləndirmə), işin məzmunu və iş şəraiti, rəftar və səriştə. [4]

Rəhbərlik üslubu idarəetmədə xüsusi önəm kəsb edir. Bəzi mütəxəssislər rəhbərlik üslublarını idarəetmə metodları ilə eyniləşdirirlər (qarışdırırlar). Rəhbərlik üslubları idarəetmə metodları ilə sıx qarşılıqlı münasibətlərdə və təsirdə olsalar da onlar bir – birindən fərqlidilər. İdarəetmə metodları rəhbərin işçilərə və kollektivə məqsədyönlü təsir üsullarıdır. Bu üsullar tabeçilikdə olanların hərəkətlərini əlaqələndirir. Rəhbərlik üslubu isə təşkilatın qarşısındakı məqsədə çatmaqda onları həvəsləndirmək məqsədilə onlara münasibətdə dayanıqlı davranış manerasıdır və rəhbərin şəxsi keyfiyyətləri ilə xarakterizə olunur. Səlahiyyətlərin bölüşdürülməsi dərəcəsi, istifadə olunan hakimiyyət tipləri, insani münasibətlərə və vəzifələrin yerinə yetirilməsinə qaygı rəhbərlik üslubunu əks etdirir.

Mütərəqqi rəhbərlik üslubuna malik olan rəhbər geridə qalan kollektivə başçılıq edərək, kollektivi yenidən təşkil edə bilir ki, bu da kollektivin qabaqcıllar sırasına çıxmasına səbəb olur. Hər bir rəhbər obyektiv mövcud olan vəziyyətlərdə özünün şəxsi keyfiyyətlərinə əsaslanaraq öz üsulunu yaradır. Üslub rəhbərlə tabeçilikdə olanlar arasındakı münasibətləri ifadə edir.

Rəhbərlik üslubu konsepsiyası keçən əsrin ortalarında intensiv şəkildə inkişaf etməyə başlamışdır. Rəhbərlik üslubunu iki üsulla müəyyən etmək olar:

1. Rəhbərin öz tabeçiliyində olanlara qarşı istifadə etdiyi rəhbərlik tərzi qabiliyyətinin aydınlaşdırılması vasitəsi ilə;

2. Rəhbərin davranışına qarşı əməkdaşların inteqrasiyasına və təşkilatın məqsədlərinə nail olmasına və onlardan istifadə edilməsinə istiqamətlənmiş tipik tələblər kompleksinin nəzəri cəhətdən işlənib hazırlanması yolu ilə.

Rəhbərlik üslubunun üç növünü direktiv (avtoritar), demokratik və liberal (passiv və ya səhlənkarlıq) fərqləndirmək lazımdır.

**Avtoritar üslub.** Təcrübə göstərir ki, bu stil eynitipli, gündəlik məsələlərin həlli zamanı effektiv ola bilər. Bütün qərarlar rəhbər tərəfindən qəbul olunur və tabelikdə olanlar qarşısında əsaslandırma aparmadan, məqsədləri müəyyən edir, vəzifələri bölüşdürür və onların yerinə yetirilməsini nəzarətdə saxlayır.

**Demokratik üslub.** Rəhbər əməkdaşlarla birgə təşkilatın fəaliyyət məqsədlərini və qrup üzvlərinin fərdi istəklərini uzlaşdırır, əmək bölgüsü aparır, o işçilərin qiymətləndirilməsində obyektiv, hamıya məlum olan meyarlara istinad edir, tabeçilikdə olanlara lazımi köməklik göstərir. Bu üslubda rəhbəri özünətənqid, ünsiyyətçilik, özünəzarət və tabeçilikdə olanlara bərabər münasibət fərqləndirir.

**Liberal üslub.** Bu rəhbərin qərar qəbulundan boyun qaçırması və bu vəzifəni başqalarının çiyninə qoyması kimi tamamilə laqeydliyi ilə ifadə olunur. Belə rəhbərlik stili seçən rəhbər, öz tabeliyində olanların işini öz axarına buraxaraq onlar üçün tam azadlıq fəaliyyəti təmin edir. O, əməkdaşlarla ünsiyyətdə gülərüzdür, lakin passiv rol oynayır, təşəbbüskarlıq etmir, zəruri informasiyaları əməkdaşlara yalnız onlar istədikdə verir. Qrupda əməyin hər hansı strukturlaşması, vəzifə, hüquq və öhdəliklərin dəqiq bölgüsü mövcud olmur.

Rəhbər və tabeçilikdə olanlar arasındakı münasibətlər sahəsində aparılan sosioloji tədqiqatlar rəhbərlik üslubunu bu amillərlə müəyyənləşdirir: məsuliyyətlilik, fəallıq və təşəbbüskarlıq, səlahiyyətlərin formalaşması, tabeçilikdə olanların araşdırılması, yaxın ətraf və s. [2]

Vurğulayaq ki, biznes təşkilatlarında idarəetmə sisteminin səmərəli və etibarlı fəaliyyət göstərməsi üçün rəhbərlik etməyin aşağıdakı üç əsas şərtinə riayət etmək zəruridir:

1) hər hansı bir işi yerinə yetirmək üçün tapşırıq və sərəncamların verilməsi, onların icra olunması müddəti və bu işi icra edən məsul şəxsin müəyyən edilməsi (Məsul şəxsin s.a.a. və vəzifəsi);
2) verilmiş tapşırığın vaxtında yerinə yetirilməsi üçün müəyyən olunmuş icra müddətinə heç bir güzəştə yol verməmək şərti ilə nəzarət edilməsi;
3) zəruriliyindən və əhəmiyyətindən asılı olmayaraq, yerinə yetirilən hər bir iş rəhbər tərəfindən ətraflı təhlil edilməli, düzgün və ədalətli şəkildə qiymətləndirilməlidir. Belə ki, işi vaxtında yerinə yetirən əməkdaşlara təşəkkür edilməli, işi vaxtında icra etməyənlər isə əksinə hər hansı bir formada tənbeh və ya tənqid edilməlidir.

Qeyd edək ki, müasir dövrdə rəhbərlə tabeçilikdə olanların qarşılıqlı münasibətlərinin etik – psixoloji xüsusiyyətlərinin müəyyən edilməsi və formalaşmasında menecerin, liderin və rəhbər nüfuzunun rolu böyükdür.

Menecer inzibatıcıdır o, əmr edir və digərlərinin məqsəd üçün işləyir. Lidersə innovatordur, insanları ruhlandırır və öz məqsədləri üçün işləyir.

Müasir menecer idarəetmə prosesində mövcud şəraitin tələblərini hərtərəfli və düzgün dəyərləndirib fərqli mövqe nümayiş etdirməyə və reallaşdırmağa qabil olmalıdır. [4]

Menecerin biznes fəaliyyətinin müxtəlif sferasında məharəti özündə aşağıdakıları ifadə edir:

**№ 1/2020** **səh.132 - 140**

- lider olmaq, tabeçilikdə olanlara rəhbərlik etmək qabiliyyəti;
- münaqişələri həll etmək, onların baş verə biləcəyi haqqında işçiləri xəbərdar etməyi bacarmaq və psixoloji stresi tənzimləmək qabiliyyəti;
- sahibkar olmaq – özünü doğruldan riskə getmək və təşkilatda yenilikləri tətbiq etməyə hazır olmaq;
- təşkilatda rolunu və mövqeyini obyektiv qiymətləndirmək;
- işçilərlə münasibətlər sistemini qurmaq və onu gözləmək qabiliyyəti;
- təşkilatın malik olduğu resursları rasional şəkildə bölüşdürmək bacarığı ;
- menecerlər o işçilərdir ki, hər şey düz edirlər;
- lidersə düz şeyləri edirlər;
- liderliyin ən effektiv üslubu və forması yoxdur.

Liderliyin müasir tədqiqatçılarından biri N.Ticinin təqdim etdiyi liderliyin əsas ideyası odur ki, uzunmüddətli, sabit uğur qazanan təşkilatlarda liderlərin əsas diqqəti idarəetmənin müxtəlif səviyyələrində liderliyin formalaşdırılmasıdır. Lider təkcə özünün müyyən keyfiyyətlər və qabiliyyətlərə malik olmaqla yanaşı həm də peşəkar davamçılar və ardıcılları yetişdirməyə nail olmalıdır. N.Ticiyə görə peşəkar liderlər məqsədlərə nail olaraq, təkcə ardıcıllardan istifadə etməməli, eyni zamanda onları öyrədərək icraçılardan müstəqil fikirləşən liderlərə çevrilməyə istiqamətlənməlidirlər.

Lider – xüsusi münasibətlər tipi olub, daha çox sosial qarşılıqlı təsirə, təşkilatlarda qarşılıqlı münasibətə əsaslanır. İdarəetmədən fərqli olaraq, liderlik təşkilatlarda tabeçilərə deyil, ardıcıllara əsaslanır. Beləliklə "müdir - tabeçi" münasibətləri "lider - davamçı" münasibətləri ilə əvəz edilir. [4]

1935-ci ildə Amerika tətqiqatçısı Tid bəzi liderlərin keyfiyyətlərini müəyyən etmişdir: fiziki və emosional dözümlülük (iradə), təşkilatın missiyasının başa düşülməsi və onun fəaliyyətinin təşkili, ruh yüksəkliyi, dostseverlik, digərlərinə müsbət yanaşma , intizam. [1]

İdarəetmənin əsas amillərindən biri də, rəhbərin nüfuzudur. O rəhbərə olan yüksək inamı möhkəmləndirir və onun göstərişlərinin təsirliyini artırır. Nüfuzun möhkəmləndirilməsinə bir çox amillər təsir edir ki, onun da ən əsasları aşağıdakılardır:

- işə həvəslə, sədaqətlə yanaşmaq və münasibətlərdə xeyirxahlıq;
- düzlük, saflıq , alicənablıq humanistlik;
- rəhbər öz işciləri üçün etalon kimi qəbul edilir, onu qiymətləndirirlər və ondan nümunə götürürlər;
- rəhbər qətiyyətli olmalı və lazım gəldikdə "yox" deməyi bacarmalıdır;
- rəhbər inciməməlidir, o təhlil etməlidir;
- nəzakət və dözüm rəhbərin nüfuzunu daha da yüksəldir;
- rəhbər həmişə və hər yerdə öz davranışına fikir verməli, səliqəli geyinməli, lakin moda dalınca qaçmamalıdır;
- rəhbər götürdüyü öhdəliklərə ciddi əməl etməli və emosiyalarını idarə etməyi bacarmalıdır.

Müasir idarəetmə şəraitində müvəffəqiyyət o halda təmin edilir ki, rəhbər kollektivdə sağlam və əlverişli psixoloji mühit yaradır. [5]

Belə mühitin yaradılması üçün bir sıra vacib qaydalara əməl etmək lazımdır:

- psixoloji mühit kollektivdə lider formalaşdırır;

№ 1/2020 səh.132 - 140

- vəhdət və fəallıq, kollektivdə sağlam psixoloji mühiti möhkəmləndirmək üçün yaxşı baza olmalıdır;
- kollektivdə inam, xeyirxahlıq və qarşılıqlı kömək şəraiti yaradılmasına nail olmaq;
- hər hansı bir qazanılmamış mükafatlandırma və düzgün olmayan xidmətə istinad etmək kollektivə pozucu təsir göstərir;
- sosial məsələlərdə rəhbər kollektivinin tələbatlarını bilmək və onları ödəməyə cəhd etməlidir;
- rəhbərin kollektiv üzvlərinə qarşı ədalətsiz münasibəti onun birliyini pozur;
- rəhbərin vaxta dürüst əməl etməsi və reqlamenti göstərməsi kollektivi intizamlı edir və işgüzar mühit yaradır;
- rəhbərin kobudluğu, diqqətsizliyi kollektivə əziyyət verir, onun təşəbbüskarlığını əlindən alır və əməyi bir növ cəzaya çevirir.

İdarəetməni təkmilləşdirməyin ən kəsərli alətlərindən biri tənqiddir. Tənqidsiz irəliləyiş yoxdur.

Özünü tənqid rəhbərlərə idarəetmə metodlarını və rəhbərlik üslubunu təkmilləşdirməyə imkan verən etibarlı vasitədir. Zərurət olmadan tabeçilikdə olanları tənqid etməyə ehtiyac yoxdur. Tənqid vasitədir, məqsəd deyil.

Tənqid işçinin şəxsiyyətinə deyil, onun qeyri-qənaətbəxş işinə istiqamətləndikdə daha səmərəli olur. Tənqid işçini alçaltmamalı və onun təşəbbüskarlığını söndürməməlidir. Tənqiddən nəticə çıxaran işçini rəhbər sonradan tərifləmirsə onun tənqidinə işçinin fəal reaksiya verdiyini gözləmək olmaz. Tənqid edərkən obyektiv olmaq lazımdır. Əgər rəhbər tənqid edilirsə o, tənqiddən əhval-ruhiyyəsinin pozulduğunu biruzə verməməlidir.

Tənqidə qəzəb və istehza ilə yanaşmaq, onu zarafata çevirmək olmaz. Tənqidə sakit, əsaslandırılmış formada cavab verərək tənqid edənin şəxsi keyfiyyətlərinə toxunmaq lazım deyildir.

Qeyd edək ki, formalizm rəhbərlərin əsas “xəstəlik”lərindən biridir. Rəhbər vəd etdiklərini yerinə yetirməyə çalışmalıdır. Nəyi etmək mümkün deyilsə onu vəd etmək lazım deyildir.

Hər bir rəhbər öz xarakterinin və davranış manerasının daha da təkmilləşdirilməsi üzərində daima işləməlidir. Rəhbər qənaətçiliyə böyük diqqət yetirməli və belə bir fikri ciddi qəbul etməlidir ki, məhz qəpiklər manatı qoruyur.

Qeyd edək ki, etik qaydalarına ciddi əməl olunması yüksək mədəniyyətin və əxlaqın vacib şərtidir. Etika qaydalarına bələd olmasına görə şəxs haqqında ilkin təsəvvür yaranır. Belə ki, ən ali elmə və etiket normalarına yiyələnmiş şəxslər də müxtəlif şəraitlərdə qüsurlardan tam sığortalana bilməz. Etiket davranış qaydaları olmaqla vicdanlı davranış məcəlləsidir. Xidməti etiketdə xarici görünüş, nitq, jest, mimika, tərz, səsin tonu və s. əhəmiyyətə malikdir. Etiketə və ədəb qaydalarına əməl olunması şəxsi mədəniyyətin tərkib hissəsidir. Rəhbərlər bunları bilməklə işçinin şəxsiyyətinin səviyyəsinə əsaslı şəkildə bələd ola bilirlər. [1]

İstənilən səviyyə rəhbəri kütlə qarşısında açıq çıxış etməyi bacarmalıdır. Bu keyfiyyətə malik olmadan yüksək nüfuz saxlamaq olmaz.

Bunun üçün aşağıdakılara əməl etmək lazımdır:
- rəhbər haqqında danışmaq istədiyi məsələni dəqiq bilməli;
- danışmaq tərzi inamlı və nəzarətli olmalıdır;
- qısa və dəqiq təkliflərlə fikirlərini tam ifadə etməli;

- çıxış nəzəri cəlb edən şəkildə və sadə məzmunda çatdırılmalı;
- imkan daxilində məruzəni qısa yazmağı çalışmalı;
- məruzə vaxtı hərəkətsiz dayanmaqdan qaçmalı;
- fikirlərinizi əlinizin və bədənimizin hərəkətlərinə uyğunlaşdırmalı.

Rəhbərlər üçün işgüzar ünsiyyətə nail olmaq son dərəcədə vacibdir. Bacarıqsız ünsiyyət şəraitində rəhbər həmsöhbətinə yersiz ifadələr işlətməklə və hörmətsiz münasibət bəsləməklə çox vaxt itirərək məqsədə nail ola bilmir. İnsan münasibətlərinin daxili gözəlliyində ünsiyyət mədəniyyəti öz ifadəsini tapır. İşgüzar ünsiyyət zamanı bir sıra məsləhətlərə əməl etmək faydalı hesab olunur. [1]

- söhbət zamanı təbəssümlü olmağı;
- həmsöhbətinizə və onun fikirlərinə hörmətlə yanaşmağı;
- mübahisədən qaçmağı;
- həmsöhbətinizi düzgün söyləmədiyini ona bir başa yox “hə”,”lakin” ifadələri ilə çatdırmağa cəhd etməyi söhbət zamanı xeyirxah tonda danışmağı;
- sübutlar əvəzinə həmsöhbətinizə çox suallar verməyi;
- qəzəbinizi emosional sürətdə göstərməkdən çəkinməli;
- həmsöhbətimizin razılığına nail olmağa cəhd etməli;
- vaxtın çox hissəsini həmsöhbətinizə verməyi.

Etik qaydalara ciddi əməl olunması yüksək mədəniyyətin və əxlaqın vacib şərtidir. Belə ki, etiket qaydalarına bələdliyinə görə, şəxs haqqında ilkin təsəvvür yaranır. Etiket ciddi davranış qaydasıdır, cəmiyyətdə vicdanlı davranış məsələsidir. [5]

İdarəetmədə mədəniyyət də əsas rol oynayır. Belə ki, insan dəyərinin meyarı mədəniyyətdir.

Mədəniyyət təşkilatın bütün əməkdaşları üçün etiqat, münasibət, davranış norması və dəyərlərin toplusudur. Bu münasibətlər əsasında rəhbərlərin aşağıdakı etik, davranış qaydaları durmalıdır:

- yaddan çıxarmayın ki, yalnız işdə siz müdir olmalısınız, digər hallarda həmsöhbət olmağa çalışın.
- inandırma zamanı bütün imkanlar və vasitələr tükənməmiş hakimiyyətinizdən istifadə etməyin.
- qışqırmayın, qışqıran adam pis qəbul edilir. İşgüzar söhbətlərdə təhqirlərə yol verməyin.
- imkan daxilində yumor hissini itirməyin və gərginliyi aradan qaldırmaq üçün ondan istifadə etməyi bacarın.
- yaxşı olar ki, nöqsanı dərhal göstərəsiniz. Onu öyüd, nəsihət üçün toplamaq lazım deyil.
- əgər sizi təmin etmirsə, təklifi kəskin və kobud şəkildə rədd etməyin. Nəzakətlə faydasız təklifin qəbul edilə bilməməsini deyin və təklif üçün təşəkkür edin.
- kənar şəxslərin yanında tabeçiliyinizdə olanların nöqsanlarını göstərmək qəbul edilən cəza tədbiri deyil və belə şəraitdə nöqsanları göstərilməsindən uzaqlaşın.
- rəhbər öz günahını tabeçiliyində olanların üzərinə yıxmamalıdır. Əksinə, kənar şəxslərin yanında işçilərin günahını öz üzərinə götürməlidir.
- etik normalara - əxlaq, mədəniyyət, davranış normalarına ciddi riayət olunmalıdır.

## Nəticələr

**№ 1/2020 səh.132 - 140**

Yüksək mənəvi – psixoloji mühit idarəetmədə kollektivin əhval – ruhiyyəsinin yüksəlməsinə kömək edir, sağlamlığı, özünə inamı, şəxsi keyfiyyətləri təşəbbüskarlığı və s. artırır. Təşkilatın idarə edilməsi şəxsiyyətlərarası münasibətlər vasitəsilə başlayır və bitir. İdarəetmə prosesində belə bir qarşılıqlı münasibətlər nəzərdə tutulur ki, burada hər iki tərəf qarşıya qoyulan məqsədlərə çata bilsin və bundan məmnun olsunlar. Təşkilatlarda idarəetmə o vaxt səmərəli alınır ki, rəhbər tabeçilikdə olanın fəaliyyətinə məharətlə rəhbərlik edir. Belə qarşılıqlı münasibətlər rəhbərlə tabeçilikdə olanların fəaliyyətlərinə daha aktiv və sərbəst olmaq imkanı yaradır. Bu aktivliyi daha səmərəli və əsaslı formada düzgün idarəetməklə tabeçilikdə olanların şəxsiyyətində müsbət yönümlü dəyişikliklərin baş verdiyini görmək olar, eyni zamanda təşkilatlarda qarşılıqlı münasibətlərin sağlam mühitdə qurulması səmərəli idarəetmədə böyük rol oynayar.

**Tədqiqatın elmi yeniliyi:** Aparılan tədqiqat işinin elmi yenilikləri aşağıdakılardan ibarətdir:
- təşkilata savadlı rəhbərlik etməyin mühüm şərtlərinə əməl olunmasının zəruriliyi;
- rəhbər nüfuzunun idarəetmədə kollektivə təsirinin ən əsas vasitə olması;
- müasir idarəetmədə rəhbərlə tabeçilikdə olanların qarşılıqlı münasibətlərinin bəzi etik – psixoloji xüsusiyyətlərinin mahiyyətinin açıqlanması;
- rəhbərin idarəetmənin müxtəlif səviyyələrində lider kimi formalaşması (müdir – tabeçi münasibətlərinin lider – davamçı münasibətlərinə çevrilməsi).

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti:** Aparılan tədqiqat işinin praktiki dəyəri aşağıdakılardan ibarətdir:
- rəhbərin idarəetmə funksiyalarını dəqiq bölüşdürmə bacarığı və vəzifələrin məsuliyyətlə yerinə yetirilməsinə yanaşma tərzi təşəbbüsünün aşılanması;
- səmərəli idarəetmədə rəhbər nüfuzunun möhkəmləndirilməsinə təsir edən əsas amillərin nəzərə alınması;
- müasir idarəetmə şəraitində rəhbərin kollektivdə sağlam və əlverişli psixoloji mühit yaratması üçün bir sıra vacib qaydalara əməl etməsinin məqsədə uyğunluğu;
- rəhbərin işgüzar ünsiyyət zamanı prinsipial əhəmiyyət kəsb edən məsləhətlərə əməl etməsinin vacibliyi

## ƏDƏBİYYAT SİYAHISI

1. K. A. Şahbazov və başqaları. Menecment (Dərslik), Bakı, 2005, 1000 s.
2. A. B. Abbasov və başqaları. Biznesin təşkili və idarə ediılməsi (Dərslik), Bakı, 2011, 464 s.
3. S. İ. Seyidov və başqaları, Psixologiya (Dərslik), Bakı, 2007, 626 s.
4. Х.М.Мескон и др., Основы менеджмента. М:, 2002, 496 с.
5. М. И. Акимова, Психологическая диагностика, Р. Питер, 2005, 293 с
6. Н. И. Архирова и др.Организационное управление М., 2007, 733 с.

**УДК 330.8.33.005**

## ЭТИКО – ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ВЗАИМООТНОШЕНИЙ ПОДЧИНЁННЫХ С РУКОВОДИТЕЛЕМ В ОРГАНИЗАЦИЯХ БИЗНЕСА

**№ 1/2020** **səh.132 - 140**

**Меджидов Ризван Гаджи оглы**
**Абдиева Гюльгюн Зейнал кызы**

***Ключевые слова:*** управление, менеджмент, руководитель, лидер, метод, мотивирование, этичность, психологический, интеграция, дисциплина.

Проведён анализ научного обоснования по определению этико-психологических особенностей взаимоотношений подчинённых с руководителем.

**UDC 330.8.33.005**

## ETHICAL - PSYCHOLOGICAL FEATURES OF RELATIONSHIPS SUBORDINATES WITH THE HEAD IN BUSINESS ORGANIZATIONS

**Majidov Rizvan Haji**
**Abdiyeva Gulgun Zeynal**

***Keywords:*** administration, management, head, leader, method, motivation, ethicality, psychological, integration, discipline

The advanced analysis of the scientific researches on the identification of ethical and psychological features of interdisciplinary manuscripts.

Redaksiyaya daxilolma 23.01.2020
Çapa qəbul olunma 05.04.2020

**№ 1/2020** **səh.141 - 150**

**UOT 35.08-057.17**

# İŞGÜZAR TƏŞKİLATLARDA KARYERANIN İDARƏ EDİLMƏSİ SİSTEMİNİN BƏZİ PARAMETRLƏRİ

**Rəsulov Zaur Yusif oğlu**

Mingəçevir Dövlət Universiteti, D.Əliyeva küçəsi 21, Mingəçevir/Azərbaycan
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), İstiqlaliyyət küçəsi 6, Bakı/Azərbaycan

**zyrasulov@mail.ru**

***Xülasə:*** ***Məqalədə işgüzar təşkilatlarda karyeranın idarə edilməsi sisteminin bəzi parametrləri tədqiq edilmişdir. Tədqiqatın nəticəsi bundan ibarət olmuşdur ki, işgüzar karyeranın müvəffəqiyyətli davam etməsi, onun planlaşdırılması və inkişafı, yəni idarə edilməsi üçün məqsədyönlü fəaliyyətin həyata keçirilməsi mütləqdir.***

***Düzgün qurulmuş karyera idarəetmə sistemi şirkətlərə öz divarları arasında mütəxəssis yetişdirməyə, kənardan gələn mütəxəssislərin hazırlanması üçün vaxt itkisinin qarşısını almağa imkan verir, işçi axının qarşısını alır, əmək məhsuldarlığını yüksəldir və əmək bazarında həmin şirkətə rəqabət üstünlüyü verir***

***Aşar sözlər: karyera, işgüzar karyera, karyeranın idarə edilməsi, karyera planlaşdırması, karyeranın idarə edilməsi sistemi, karyera məsləhətçisi***

**Giriş**: İşgüzar karyeranın idarə edilməsi işçinin məqsədindən, tələbatlarından bacarıqlarından, eləcə də təşkilatın məqsədlərindən, tələbatlarından, imkanlarından və ya sosial-iqtisadi şərtlərindən çıxış edərək işçinin xidməti artımının planlaşdırılması, təşkili, motivasiyası və nəzarəti üzrə müvafiq struktur bölməsi (insan resursları, kadrlar, heyətin idarə edilməsi ilə əlaəqədar digər şöbə və departamentlər) tərəfindən həyata keçirilən tədbirlərin məcmusudur. İşgüzar karyeranın idarə edilməsi işçinin təşkilatın maraqlarına sadiqliyinə nail olmağa, əmək məhsuldarlığının artırılmasına, kadr axıcılığının azalmasına və insan qabiliyyətlərinin daha tam aşkara çıxarılmasına imkan verir [2].

**Tədqiqatın metodikası**: Tədqiqatın metodologiyasını müqayisəli təhlil, sistemli yanaşma təşkil edir. Bundan başqa məruzədə tədqiqat predmeti karyera ilə əlaqədar olduğu üçün karyeranın idarə edilməsinin nəzəri-metodoloji məsələləri araşdırılmışdır.

**Tədqiqatın praktiki dəyəri**: İşgüzar təşkilatlarda karyeranın səmərəli idarə edilməsi sisteminin qurulması və inkişaf etdirilməsi üzrə tövsiyələr tədqiqatın praktiki əhəmiyyətinin göstəricisidir.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

Karyeranın idarə edilməsi təşkilatın idarə edilmsi sisteminin bir elementi olaraq əməkdaşın təşkilati strukturda mühüm mövqe tutmasana şərait yaradır, heyətin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi üzrə idarəetmə subyektlərinin fəaliyyətini əlaqələndirir. Ona görə də bütün iyerarxik səviyyələrdə hazırlıqlı işçi, qulluqçu, mütəxəssis və menecerlərə olan tələbatın




**Şəkil 1. İşgüzar karyeranın idarə edilməsi sxemi**

ödənilməsinə zəmanət vemək; perspektiv mütəxəsisləri onların çata biləcəkləri səviyyədə işləmələrinə imkan verən təlim və praktiki təcrübə ilə təmin etmək; potensialı olan mütəxəssislərə təşkilada karyera artımı vasitəsilə özlərini reallaşdırmaq, təsdiq etmək imkanı yaratmaq karyeranın idarə edilməsinin məqsədləri sırasına aid etmək olar.

Karyeranın idarə edilməsi bir-birilə qarşılıqlı təsirdə olan üç məsələnin həlli ilə əlaqədardır.

1. İnsan davranışı modelini, istehsal qabiliyyətini elə formalaşdırmaq və təkmiləşdirmək lazımdır ki, onlar təşkilatın istehsal-kommersiya fəaliyyətinin tələblərinə uyğun gəlsinlər.
2. İstehsalatda elə sosial-iqtisadi və istehsal-texniki şərait yaratmaq lazımdır ki, işçilərin əmək qabiliyyətlərindən maksimum istifadə etmək mümkün olsun.
3. Bu proseslər də öz növbəsində işçinin maraqları ziddinə baş verməməlidir.

Ümumi formada təşkilatda işçilərin işgüzar karyerasının idarə edilməsi sxemi şəkil 1-də göstərilmişdir.

Karyeranın idarə edilməsi təşkilatda menecmentin vəzifəsi hesab edilir və bir sıra funksiyaların həyata keçrilməsini nəzərdə tutur. Bir sıra təşkilatlarda heyətin idarə edilməsi sistemi çərçivəsində işgüzar karyeranın idarə edilməsi üzrə funksiyalar toplusu yaranır. Bu funksiyaları 2 qrupa bölmək olar: əsas və təminedici funksiyalar [3]. Əsas funksiyalar insan kapitalının formalaşdırılması və səmərəli istifadəsi ilə əlaqədar konkret məsələlərin həll edilməsinə; təminedici funksiyalar karyeranın idarə edilməsi sisteminin normal fəaliyyəti üçün şəraitin yaradılmasına yönəldilmişdir. Əsas funksiyalar arasında ümümi və xüsusi funksiyalar fərqləndirilir. Ümumi funksiyalara aşağıdakılar aiddir:

1. Planlaşdırma: təşkilatda kadrlara tələbatın müəyyənləşdirlməsi; kadrlara tələbatın təmin edilməsi planlarının işlənib hazırlanması; işgüzar karyeranın idarə edilməsi üzrə planın tərtibi; işgüzar karyera üzrə fərdi planların tərtib edilməsi; kadr ehtiyatı üzrə planların tərtibi; ehtiyat kadrların hazırlanması, yenidən hazırlanması və ixtsaslarının artırılması üzrə proqramların formalaşdırılması; vəzifələrn tutulması prosesinin təkmilləşdirilməsinin planlaşdırılması və s.

2. Təşkil: karyerada irəliləmə sisteminin formalaşdırılması; işgüzar karyeranın idarə edilməsi; heyətin seçilməsi və yerləşdirilməsi, karyerada irəliləmə prosesində adaptasiyası; yeni mütəxəssislərin adaptasiyası; tələbələrin istehsalat təcrübələrinin təşkili; heyətin attestasiyasının həyata keçirilməsi; əməkdaşların işgüzar və şəxsi keyfiyyətlərinin öyrənilməsi; vakant vəzifələrin tutulması üçün müsabiqələri keçirilməsi; ehtiyat kadrların hazırlanması, yenidən hazırlanması və ixtsaslarının artırılması üzrə proqramların reallaşdırılması və s.

3. Koordinasiya və tənzimləmə: karyerada irəliləmə qaydalarının işlənib hazırlanması; vakant vəzifələrin tutulma sxemlərinin tərtibi; işçilərin karyeroqramlarının tərtibi; ixtisas xarakteristikalarının işlənib hazırlanması; attestasiya komissiyasının formalaşdırılması; və s.

4. Motivasiya və həvəsləndirmə: işgüzar karyera sahəsində uğurlara görə təltiflərin həyata keçirilməsi; karyera artımına görə həvəsləndirmə; karyera artımına görə heyətin motivasiyası; rəhbər vəzifələrə irəli çəkilmə; əmək haqqının artırılması və s.

5. Nəzarət və uçot: işgüzar karyeranın idarə edilməsi üzrə rəhbərlərin gördüyü işlərə nəzarət; mütəxəssislərin hazırlanması üzrə planın reallaşdırılmasına nəzarət; heyətdən düzgün istifadəyə nəzarət; ehtiyat kadrların hazırlanması, yenidən hazırlanması və ixtisaslarının artırılması üzrə proqramların reallaşdırılmasına nəzarət; işgüzar karyeranın idarə edilməsi üzrə hesabatların tərtibi; kadrların hərəkətinin uçotu və s.

6. Təhlil: işgüzar karyeranın idarə edilməsinin səmərəliliyinin təhlili; ehtiyat kadrların

№ 1/2020 səh.141 - 150

hazırlanması, yenidən hazırlanması və ixtsaslarının artırılması üzrə proqramların səmərəliliyinin təhlili; heyətin seçilməsi, yerləşdirilməsi və istifadəsinin təhlili; əməkdaşların attestasiyasının, testlərdən keçməsinin və qiymətləndirilməsinin nəticələrinin təhlili və s.

Karyeranın idarə edilməsi sisteminin xüsusi funksiyalarına insan kapitalının formalaşdırılması və inkişafı, onların bölüşdürülməsi və istifadəsi aiddir.

İşgüzar karyeranın idarə edilməsi sisteminin təminedici funksiyalarına isə aşağıdakıları aid etmək mümkündür:

1. Kadr təminatı. Bu, karyera inkişafının idarə edilməsi funksiyalarının reallaşdırılması üçün mütəxəssislərin formalaşdırılması, bölüşdürülməsi, yenidən bölüşdürülməsi, istifadəsi üzrə fəaliyyətlərin məcmusdur.
2. Sənəd təminatı. Bu, karyeranın idarə edilməsi sisteminin işinin sənədlərlə təşkili üzrə fəaliyyətdir.
3. İnformasiya və texniki təminat. Bu, informaiya axınlarının, informasiya emalının texnolji proseslərinin işlənib hazırlanması üzrə tədbirlər komleksidir.
4. Maliyyə təminatı. Karyeranın idarə edilməsi sisteminin səmərəli fəaliyyəti üçün zəruri maliyyə resurslarının formalaşdırlması, istifadəsi və bərpası üzrə tədbirlərin məcmusudur.
5. Hüquqi təminat. Karyeranın idarə edilməsi sisteminin öz məqsədlərinə çatması üçün idarəetmə orqanlarına və obyektlərinə hüquqi təsir vasitələri və formalarından istifadə imkanları ilə əlaqədardır.

Funksiyaları rəhbərlik, kadr şöbəsi, təşkilatın idarəetmə aparatının funksional bölmələrinin rəisləri, həmkarlar ittifaqı komitələri, məsləhət mərkəzləri yerinə yetirirır.

İşgüzar karyeranın idarə edilməsi prosesində funksional qarşılıqlı əlaqələr cədvəl 1-də göstərilmişdir.

**Cədvəl 1.**

**İşgüzar karyeranın idarə edilməsi prosesində funksional qarşılıqlı əlaqələr**

| İdarəetmə funksiyaları | Rəhbərlik | Heyətin idarə edilməsi xidməti | Şöbə müdirləri | Həmkarlar ittifaqı komitəsi |
|---|---|---|---|---|
| İşgüzar karyeranın və kadr ehtiyatı üzrə planların tərtibi | Q | T | İ | R |
| Kadr ehtiyatı üzrə işlərin yerinə yetirilməsinə görə mükafatlandırma və ya cəza tədbirlərinin görülməsi | Q | T | TE | R |
| Kadrların yerləşdrilməsinin təkmilləşdiilməsi | Q | T | İ | R |
| Vakant vəzifələrin tutulması üçün müsabiqələrin keçirilməsi | Q | T | TE | İ |
| Ehtiyata götürülmüş işçilərin ixtisaslarının artırılması | Q | T | İ | R |
| Ehtiyata götürülmə və vəzifədə irəli çəkilmə | Q | T | TE | İ |
| İşgüzar karyeranın və ehtiyatların idarə | Q | T | TE | R |

**№ 1/2020** **səh.141 - 150**

| | | | | |
|---|---|---|---|---|
| edilməsi üzrə uçotun təşkili | | | | |
| İşçilərin yerləşdirilməsi və istifadəsinin, habelə işgüzar keyfiyyətlərinin öyrənilməsi | Q | T | TE | R |
| İrəli çəkilmə üçün kadr ehtiyatının yaradılması | Q | T | İ | R |
| İşgüzar karyeranın idarə edilməsi işlərinin bölmə rəhbərləri tərəfindən yerinə yetirilməsinə nəzarət | Q | T | TE | İ |
| Kadrların hərəkətinin öyrənilməsi | Q | T | TE | R |
| İşgüzar karyeranın idarə edilməsi üzrə hesabatların tərtibi | Q | T | TE | R |
| İşgüzar karyeranın inkişafı üzrə fərdi plan və yerləşdirmə sxemlərinin işlənib hazırlanması | Q | T | TE | R |
| Kadr ehtiyatına seçilmiş mütəxəssislərin hazırlanması planlarının reallaşdırılmasına nəzarət | Q | T | İ | İ |
| Kadr ehtiyatı üzrə proqramın yerinə yetirilməsi | Q | T | TE | R |

Q – qərar qəbul edir, sənədləri təsdiq edir;
T – funksiyanın yerinə yetirilməsinə cavabdehdir, təşkil edir, yekun sənədləri tərtib edir;
İ – funksiyanın yerinə yetirilməsində iştirak edir;
TE – funksiyanın yerinə yetirilməsi üçün ilkin informasiya təqdim edir;
R – funksiya üzrə sənədləri razılaşdırır.

Təşkilatda heyətin səmərəli motivasiyası üçün işgüzar karyeranın idarə edilməsi üçün ilk növbədə karyera planlaşdırılması sistemi işlənib hazırlanmalı və tətbiq edilməlidir.

Karyera planlaşdırması – təşkilatda yeni mütəxəssislərin inkişafı, irəliləməsi strategiyasının və mərhələlərinin müəyyənləşdirilməsinə yönəlmiş heyət üzrə işlərin bir istiqamətidir [4].

Karyera planlaşdırması – işçinin potensial imkanlarının, qabiliyyətlərinin və məqsədlərinin təşkilatın peşə və vəzifə artımı üzrə proqramında öz əksini tapan tələbləri, inkişaf strategiyası ilə tutuşdurulmasıdır. Düzgün planlaşdırılmış karyera artımı trayektoriyası əməkdaşa təşkilatda öz yerini dəqiq təyin etməyə imkan verir, onun peşə, işgüzar keyfiyyətlərinin tam və hərtərəfli üzə çıxmasını motivləşdirir. Optimal karyera planlaşdırması şirkətdə işgüzar mühitin formalaşına da müsbət təsir edir.

Planlaşdırma hər bir işçi üçün həyata keçirilməlidir. Gənc mütəxəssis karyerasını özü planlaşdırmalı, hansı şirkətdə işləyəcəyini və hansı mövqelərə çatacağı barədə özü qərar verməlidir. Onun işlədiyi təşkilatda xidməti artım perspektivləri və ixtisas artımı imkanları, eləcə də bunun üçün yerinə yetirəcəyi şərtləri bilmək istəməsində qeyri-adi bir şey yoxdur. Əks halda davranış molivasiyası zəif olur, insan tam gücü ilə işləmir, ixtisasını artırmağa çalışmır və təşkilata yeni daha perspektivli işə keçməzdən əvvəl müəyyən müddət gözləmək imkanı olan bir yer kimi baxır.

Karyera planlaşdırmasını aşağıdakı mərhələlərlə həyata keçirmək mümkündür:

**Özünüqiymətləndirmə**. İşə düzələn şəxs öz işgüzar keyfiyyətlərini, zəif cəhətlərini və çatışmamazlıqlarını real qiymətləndirməyi bacarmalıdır. İnsan öz işgüzar keyfiyyətlərini təşkilatın, işin onun qarşısında qoyduğu tələblərə uzlaşdırmalıdır. Məhz onun karyerasının bütün uğuru bundan asılıdır.

**İmkanların öyrənilməsi.** İşə düzələrkən insan əmək bazarını bilməlidir. Əmək bazarını bilmədən o, ona ilk rast gəlinən cəlb edici işə düzələ bilər. Özünü qiymətləndirmək imkanına malik olmaqla və əmək bazarını bilməklə o, işləmək və yaşamaq istədiyi sahə və regionu seçə bilər.

**Qərar qəbulu və məqsədlərin müəyyənləşdirlməsi.** Planlaşdırma həm də işçinin peşəkar inkişaf məqsədlərinin və bu məqsədlərə nail olunma yollarının müəyyən edilməsindən ibarət olur. Karyeranın məqsədləri insanın konkret işə malik olmaq, iyerarxik vəzifələr nərdivanında müəyyən pilləyə sahib olmaq istəyinin səbəblərini aydınlaşdırır. Karyeranın məqsədləri yaşla, eləcə də bizim özümüzün dəyişməymizlə, ixtisasımızın artımı və s. ilə dəyişir. Karyeranın məqsədlərinin dəyişməsi daimi prosesdir.

**Fəaliyyətin planlaşdırlması**. Bu mərhələ karyera inkişafı planına əsaslanır. Bu mərhələdə dəqiq plana və zəruri xarakteristikalara malik olmaq lazımdır ki, bu və ya digər vəzifəyə iddialı olmaq mümkün olsun.

**Nəzarət**. Nəzarət mərhələsində heç olmazsa ildə bir dəfə qarşıya qoyulmuş məqsədlərə yenidən baxmaq və nail olunmuş nəticələri dərindən təhlil etmək lazımdır.

Azərbaycan şirkətlərində işçilərin fərdi inkişaf planının hazırlanması, işgüzar karyera strategiyasının formalaşdırılması baxımından görülən nümunəvi tədbirlər sırasında SOCAR-da həyata keçirilən tədbirləri göstərmək olar. Belə ki, SOCAR davamlı inkişaf prinsipini əsas götürərək insan resurslarının idarə edilməsi sahəsində də innovativ həlləri tətbiq edir. SOCAR-ın bir sıra struktur bölmələrində tətbiq edilərək icrasına start verilən və şirkət üzrə, təxminən, rəhbər işçilər də daxil olmaqla, 51 min nəfəri əhatə edən "İnsan resursları funksiyasının transformasiya proqramı" layihəsi çərçivəsində, işçilərin hədəf, məqsəd, inkişaf etdirə biləcəkləri sahələr onlarla rəhbərlər arasında razılaşdırılmış və tərtib edilmiş Fərdi İnkişaf Planında (FİP) öz əksini tapır. Bu plana əsasən, səriştəliliyin qeyd edilməsi və müəyyən edilmiş dövrün yekununda müvafiq meyarlara görə qiymətləndirməsi nəzərdə tutulur. Əməkdaşların fərdi hədəfləri müəssisənin və şirkətin hədəfləri ilə əlaqələndirilməklə yanaşı, fərdi inkişaf tədbirləri həyata keçirilir, işçilərin sistemli karyera inkişafı təmin edilir [5].

Ümumilikdə, layihə aşağıdakı 4 istiqaməti əhatə edir:

1. Səriştəliliyin idarə edilməsi. Layihənin əsas məqsədi işçilərin bilik, bacarıq və davranışlarını şirkətin tələbləri səviyyəsində inkişaf etdirməkdən ibarətdir.

2. Fəaliyyətin effektivliyi. Effektivliyin idarə edilməsi ilə hər bir işçi üçün konkret hədəflər müəyyən edilir və xidməti fəaliyyətin qiymətləndirməsi aparılır.

3. İşə qəbulun idarə edilməsi. Vacib vəzifələr müəyyən edilərək, həmin vəzifələrə davamçıların hazırlanması nəzərdə tutulur. Hər bir vəzifə üçün karyera inkişaf imkanları vəzifə standartlarında aydın təsvir edilib. Bundan başqa, işçilər arasında daha yüksək nəticələr göstərən əməkdaşların karyera imkanlarının da artırılması nəzərdə tutulur.

4. Təlim və inkişafın idarə edilməsi. Layihənin tətbiqi nəticəsində, işçilərin təlimə olan ehtiyacları daha peşəkar formada müəyyən edilir. Belə ki, xidməti fəaliyyəti və işçinin fərdi xüsusiyyətləri nəzərə alınaraq, hər bir işçi üçün inkişaf proqramları hazırlanır.

№ 1/2020 səh.141 - 150

Qeyd etdik ki, karyeranın planlaşdırılması və idarə edilməsi zamanı əsas məsuliyyət isə işçinin üzərinə düşür. Həm də karyeranın idarə edilməsi əməkdaşın işə qəbul edildiyi andan başlamalıdır. Yeni əməkdaş təşkilatda inkişaf perspektivlərini, mümkün karyera yüksəlişini müəyyən etməlidir. Məhz o, karyera planını həyata keçirir.

Təşkilatlarda baş verən restrukturzasiya tədbirləri, ixtisarlar, başqa təşkilati dəyişikliklər karyera inkişafı barədə bəzi nəticələrə gətirib çıxarır. Karyeranın qurulması, yönəldilməsi və inkişafı üçün təşkilat deyil, işçi özü cavabdeh olur [1]. Şirkət karyeranın inkişafı üçün yalnız şərait yaradır, heyətin idarə edilməsi xidməti isə sadəcə bu karyeranın idarə edilməsi prosesini koordinasiya edir.

Bununla belə heyətlə iş üzrə xidmətin, menecerin karyera planalşdırması və idarə edilməsi zamanı fəaliyyəti qaçılmazdlr. Bu xidmət karyera üzrə yekun məqsədlərin qoyulmasında, planların tərtib edilməsində, onların reallaşdırılmasında iddialı mütəxəssislərə köməkçi olurlar. Xidmət əsas fəaliyyətini mütəxəssislərin daxili imkanlarının aşkar edilməsinə, xarici şəraitin onların təşkilat daxilində fərdi karyeralarının qurulmasına yardımçı olmasına yönəldirlər.

Şirkətdə mütəxəssisin inkişaf trayektoriyası karyera mərkəzlərinin, heyətin idarə edilməsi üzrə xidmətin, menecerlərin məsləhətləri vasitəsilə həyata keçirilməsi məqsədəuyğundur. Karyeranın idarə edilməsinə məsul olan karyera məsləhətçisi və ya menecer şirkətin yüksək ixtisaslı mütəxəssislərə tələbatı mövqeyindən çıxış edir. Səlahiyyətlərindən istifadə edərək karyera məsləhətçisi mütəxəssisin fəsliyyətinin əsas xarakteristikalarını – işçi funksiyalarının yerinə yetirilməsi üçün zəruri olan bacarıq və vərdişləri; onların əsasında duran və inkişafına təkan verən biliklərini; şirkətdə səmərəli və nəticəyönümlü fəaliyyətinə dəstəkçi olan şəxsi keyfiyyətlərini müəyyələşdirir. Bundan başqa konkret işçi yerinə, funksiyalara və şirkətin gözləntilərinə uyğun gələn mütəxəssisin motivasiyası da mühüm əhəmiyyət kəsb edir.

Karyera məsləhətçisi bu kompetensiyaların inkişaf sxeminə daha yaxşı bildiyinə görə mütəxəssislərin xüsusiyyətləri ilə onun yerinə yetriə biləcəyi vəzifə və funkisyaları yan-yana gətirə bilir. İlk öncə məsləhətçi işçinin karyera problemini tədqiq edir: problem nə ilə əlaqədardır, nə üçün baş verib və necə həll edilə bilər. Buradan alınan nəticə gələcək strategiyanın formalaşması üçün əsas, o da öz növbəsində işçinin özünürealladırılmasına səbəb olacaqdır. Əksəriyyət hallarda problemin kökləri işçinin özündə əks olunduğuna görə işçinin bütün səviyyələri üzrə (mənəvi, intelektual, sosial, peşə) məsələlər həllini tapmış olur.

Karyera məsləhətçisi işçinin müəyyən ixtisasa yiyələnməyə sövq edən əsas dəyərlərə təsir edir. Odur ki, karyera məsləhətçisi karyera məqsədlərinin işçi üçün cəlbedici olduğunu, onu bu və ya digər şirkətə bağlayan maraqlarını müəyyən etməlidir. Karyera məsləhətləri işçi üçün çətin psixoloji məsələdir. Belə ki, məsləhətləşmə zamanı işçinin özündə daxili özünüdərk prosesi baş verir, öz nailiyyətlərini, mövcud statusunu, gələcək prioritetləri qiymətləndirir və ya yenidən qiymətləndirir.

İşgüzar karyeranın idarə edilməsi sisteminin əsas parametrlərindən biri də kadrların rotasiyasıdır. Kadrların rotasiyası dedikdə şirkətin ayrı-ayrı istehsal məsələləri ilə tanışlıq məqsədilə işçilərin üfüqi istiqamətdə bir işçi yerindən digərinə yerdəyişməsi başa düşülür. Belə ki, rotasiyanın əsas xarakterik cəhəti ondan ibarətdir ki, yerdəyişmə eyni şirkət daxilində eyni iyerarxik səviyyədə baş verir. Rotasiya – işçilərin planlı şəkildə xidməti yerdəyişməsidir. Eyni vəzifənin tutulmasının ən yaxşı dövrü rəhbər üçün 5 il, mütəxəssislər üçün isə 3-5 ildir. Eynicinsli vəzifələr üçün eyni müddətin müəyyən edilməsi məqsədəuyğun deyildir. Hər hansı şəraitdə işçi tərəfindən vəzifənin tutulması dövrünə təsir edən şərtləri nəzərə almaq lazımdır.

İşçinin bir vəzifədə olmasının ən münasib müddətinə təsir edən əsas amillər aşağıdakılardır: yeni vəzifə üçün bilik, bacarıq və vərdişlərin əldə edilməsi, kollektivə daxil olması, yəni adaptasiyası üçün zəruri olan müddət və s.

Beləliklə, işgüzar karyeranın səmərəli idarə edilməsi təşkilatın fəaliyyətinin nəticəsinə təsir göstərir: iş və xidmətlərin keyfiyyəti yüksəlir, gəlirin səviyyəsi və heyətin stabilliyi yüksəlir. Bu təsir və onun nəticəsində əldə olna biləcək səmərə şəkil 2-də daha ətraflı verilmişdir.




**Şəkil 2. İşgüzar karyeranın səmərəli idarə edilməsinin təşkilatın fəaliyyətinin nəticəsinə təsiri**

## NƏTİCƏ

Karyera planlaşdırılması və idarə edilməsi, şirkətdə heyətlə əlaqədar fəaliyyətin prioritet istiqamətlərindəndir. Əgər xarici şirkətlər bu işlərlə əvvəllərdən məşğuldurlarsa, yerli şirkətlər üçün bu sahə yenidir. Düzdür, karyera planlaşdırılması və idarə edilməsi əsas material və müzakirələrdə də qeyd etdiyimiz kimi şirkət tərəfindən vəsait tələb edən böyük əmək tutumlu fəaliyyətdir. Bununla belə, karyera planlaşdırması şirkətə əmək bazarında rəqabət üstünlüyü vəd edir. Odur ki, bu sahəyə yönəldilmiş investisya şirkətin stabil inkişafının və uğurlu sabahının təminatçısıdır. Əgər rəhbərlər öz əməkdaşlarının karyerasının vacibliyini dərk etmiş olurlarsa, şirkətin inkişafı istiqamətində ciddi addım atmış olurlar.

**Tədqiqatın elmi yeniliyi:** Beləliklə, düzgün qurulmuş karyera idarəetmə sistemi şirkətlər üçün aşağıdakı üstünlüklərin əldə edilməsinə yardımçı olacaqdır:

- eyni təşkilatda peşəkar yüksəlişin bütün mərhələlərini keçmiş əməkdaş həmin təşkilatın xüsusiyyətlərini, zəif və güclü tərəflərini daha yaxşı bilir (məhz bu amil işçini daha məhsuldar

edir);

- kənardan gələn mütəxəssisdən fərqli olaraq ona korporativ mədəniyyəti mənimsəmək və ona uyğunlaşmaq üçün müyyən vaxt tələb olunmur (o, artıq vahid tamın bir hissəsi kimi çıxış edir);
- məhz karyera planlaşdırması və onun idarə edilməsi şirkərə öz divarları arasında mütəxəssis yetişdirməyə imkan verir.
- düzgün formalaşdırılmış və reallaşdırılmış karyera planlaşdırması işçi axının qarşısını alır və əmək bazarında şirkətə rəqabət üstünlüyü verir.

## ƏDƏBİYYAT

1. Robbins S.P., Koulter M., DeSenzo D.A. İdarəetmənin əsasları (İngilis dilindən tərcümə). Bakı: TEAS Press Nəşriyyatı evi, 2019
2. Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S. Menecment. Bakı: Təhsil EİM, 2005
3. Лачугина Ю. Н. Карьера сотрудника в организации. Ульяновск: УлГТУ, 2010
4. Кибанов А.Я. Управление персоналом организации. М.: ИНФРА-М, 2014
5. Azərbaycan Dövlət Neft Şirkətinin illik hesabatı. Bakı, SOCAR, 2017

УДК 35.08-057.17

## НЕКОТОРЫЕ ПАРАМЕТРЫ СИСТЕМЫ УПРАВЛЕНИЯ КАРЬЕРОЙ В ДЕЛОВЫХ ОРГАНИЗАЦИЯХ

***Расулов Заур Юсиф оглы***

***Ключевые слова: карьера, деловая карьера, управление карьерой, планирование карьеры, система управления карьерой, карьерный консультант***

**Резюме**: В статье рассматриваются некоторые параметры системы управления карьерой в деловых организациях. Результатом исследования стало то, что необходимо проводить целенаправленные мероприятия для успешного продолжения, планирования и развития, то есть управление деловой карьеры.

Хорошо отлаженная система управления карьерой позволяет компаниям готовить специалистов в своих стенах, предотвращать потери времени на подготовку внешних специалистов, предотвращать поток работников, повышать производительность труда и давать компании конкурентные преимущества на рынке труда.

UDC 35.08-057.17

## SOME PARAMETERS OF A CAREER MANAGEMENT SYSTEM

**№ 1/2020** **səh.141 - 150**

IN BUSINESS ORGANIZATIONS

***Rasulov Zaur Yusif***

***Key words: career, business career, career management, career planning, career management system, career consultant***

**Summary**: The article discusses some parameters of a career management system in business organizations. The result of the study was that it is necessary to carry out targeted activities for the successful continue, planning and development, management of a business career.

A well-established career management system allows companies to train specialists within their walls, to prevent the loss of time for training external specialists, to prevent the flow of workers, increase labor productivity and give the company a competitive advantage in the labor market.

Redaksiyaya daxilolma 04.02.2020
Çapa qəbul olunma 05.04.2020

**№ 3/2020** **səh.151 - 158**

**UOT 338.4.62**

# RESPUBLIKAMIZDA SƏNAYELƏŞMƏ SİYASƏTİNİN ƏSAS PRİORİTETLƏRİ

***Hümbətov Yusif Əbülfət oğlu***
***Məmmədli Zeynəb Tahir qızı***

Azərbaycan Texnologiya Universiteti
Gəncə şəh., Ş.İ.Xətai pr., 103

***Açar sözlər: iqtisadi siyasət, sənayeləşmə, layihələr, dövlət proqramları, sənaye potensialı.***

**Xülasə:** Məqalədə ölkəmizdə həyata keçirilən davamlı iqtisadi siyasət nəticəsində sənayeləşmə prosesiningenişlənməsi məsələlətinə baxılmışdır. Düzgün neft - qaz siyasətinin həyata keçirilməsi ölkənin mövcud sənaye potensialından səmərəli istifadə imkanlarının genişləndirilməsinə səbəb olmuşdur.

Neft - qaz sektorundan əldə edilən gəlirlərin bir hissəsi sənayenin müxtəlif sahələrinin inkişafına yönəldilməsi, regionlarda sənaye strukturunun optimallaşdırılması üçün dövlət proqramları tərtib edilməsi, enerji təminatının həlli ümumi infrastrukturun yaxşılaşdırılması, yeni istehsal obyektlərinin açılması istiqamətində çoxsaylı layihələrin həyata keçirilməsinə zəmin yaratmışdır. Sənayenin inkişafında ölkədə yaradılan əlverişli biznes mühitinin, həmçinin sahibkarlığın tənzimlənməsi sahəsində mühüm qərarların böyük rolu olmuşdur.

**Mövzunun aktuallığı** Müasir dövrdə ölkədə sənayesinin inkişaf etdirilməsi və rəqabət qabiliyyətinin yüksəldilməsi aktual problemlərdən biri olaraq qalır. Azərbaycan iqtisadiyyatının neftdən asıllığınım azaldılması üçün ölkədə sənayenin inkişaf etdirilməsi əsas prioritet sahələrdən biridir. Odur ki, sənaye məhsulları istehsalının artırılması, qiymət, keyfiyyət, stimullaşdırma, kooperasiya və inteqrasiya amillərinə xüsusi diqqət yetirilməlidir. Bu sahənin inkişafını təmin etmək üçün bazar iqtisadi münasibətlərinə uyğun qanunvericilik bazası formalaşmalıdır.

**Tədqiqatın məqsədi.** Tədqiqatın məqsədi müasir şəraitdə Azərbaycanda sənaye sahələrinin müasir vəziyyətinin qiymətləndirilməsi, onun inkişaf istiqamətlərinin, potensial imkanlarının müəyyənləşdirilməsi, ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf Proqramlarının sənayenin inkişafına təsirinin təhlil edilməsi əsasında istehsalın artırılması və bu sahə məhsullarının ixrac potensialının artırılması məsələlərindən ibarətdir.

Tədqiqatın vəzifələri aşağıdakılardır:

- müasir dövrdəsənayenin ayrı-ayrı sahələrinin inkişaf istiqamətlərini təhlil olunması;
- sənayenin bir sıra sahələrinin makroiqtisadi göstəricilərinin araşdırılması;
- sənaye siyasətinin əsas istiqamətlərinin müəyyən edilməsi və elmi əsaslandırılması;
- sənaye sahələrinin regionlarda yerləşdirilməsinin qanunauyğunluqları və xüsusiyyətlərinin araşdırılması;
- sənaye məhsullarının rəqabətqabiliyyətinin yüksəldilməsi istiqamətlərinin müəyyənləşdirilməsi;
- yeyinti sənayesində rəqabətə davamlı istehsalın təşkili və ixrac imkanlarını araşdırmaq, dünya təcrübəsi ümumiləşdirməklə onun həyata keçirilməsi üçün əsaslandırılmış təkliflərin işlənib hazırlanması

**Tədqiqat obyekti** Azərbaycan Respublikasında mülkiyyət formasından asılı olmayaraq

sənayedə fəaliyyət göstərən dövlət və biznes yönümlü müəssisələr, sənayenin xüsusi əhəmiyyətli bir sahəsi kimi seçilmişdir..

**Tədqiqat metodları** Tədqiqat prosesində iqtisadi - statistik, statistik qruplaşdırma, müqayisəli iqtisadi təhlil və müşahidə metodlarından istifadə olunmuşdur.

2004-cü ildən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sənayenin yeni inkişaf dövrü başlanmışdır. Bu dövrdə neft - qaz sektorundan əldə edilən gəlirlərin bir hissəsi sənayenin müxtəlif sahələrinin inkişafına yönəldilmiş, regionlarda sənaye strukturunun optimallaşdırılması üçün dövlət proqramları tərtib edilmiş, enerji təminatının həlli istiqamətində mühüm işlər görülmüş, ümumi infrastrukturun yaxşılaşdırılması, yeni istehsal obyektlərinin açılması üçün çoxsaylı layihələr icra edilmişdir. Sənayenin inkişafında ölkədə yaradılan əlverişli biznes mühitinin, həmçinin sahibkarlığın tənzimlənməsi sahəsində mühüm qərarların böyük rolu olmuşdur.

Görülən işlərin məntiqi davamı olaraq Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 10 yanvar tarixli 212 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasında 2014-cü il "Sənaye ili" elan olunmuş, sənayenin inkişafı üzrə tədbirlər planı icra edilmişdir. Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli 964 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015 - 2020-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir.(1)

Məlum olduğu kimi, sənaye məhsullarına olan tələbatın ödənilməsi regional səviyyədə əhalinin həyat səviyyəsini xarakterizə edən mühüm arqument, göstərici olmaqla, cəmiyyət üzvlərinin yaşayış imkanlarının nə dərəcədə reallaşdırmasını şərtləndirir. Bu proses əslində fasiləsiz, davamlı xarakter daşıyır, ən azı ona görə ki, bəşəriyyət heç bir zaman istehlakı dayandıra bilməz.

Müşahidələrimiz onu göstərir ki, müasir şəraitdə sənaye sahələrinə ümumilikdə yönəldilmiş investisiyaların həcmi digər sahələrə nisbətən azdır. Lakin son illərdə kənd təsərrüfatı məhsulları istehsalının artırılması yeyinti sənayesinin inkişafı üçün zəmin yaratmış, istehsalın səmərəliliyinin yüksəldilməsinə, bu sahədə sahibkarlığın daha da inkişaf etdirilməsinə səbəb olmuşdur.

Son on ildə sənayenin həcmi iki dəfəyə yaxın artmışdır ki, bu da əsasən qeyri - neft sənayesi hesabına baş vermişdir. Belə ki, son illərdə qeyri - neft sənayesinin artım tempi davamlı olaraq ümumi sənayenin artım tempini üstələyir. Dünya iqtisadi böhranının davam etdiyi 2015-ci ildə qeyri - neft sənayesi 8,4 faizlik artım nümayiş etdirmişdir . Qeyri - neft sənayesinə daxil olan metallurgiya və maşınqayırma sahələrində də son on ildə ciddi irəliləyiş müşahidə olunmuşdur. Belə ki, bu dövrdə maşınqayırma sənayesində məhsul istehsalı 15 dəfəyə yaxın artmış, sahənin qeyri - neft emal sənayesində payı 21,5 faizə çatmışdır.(3)

Təkcə 2015-ci ildə maşınqayırma sənayesi sahələrinin istehsal etdikləri məhsul və xidmətlər iki dəfə çoxalmışdır. Bu artımda maşınqayırma kompleksinin vacib sahəsi hesab olunan maşın və avadanlıq quraşdırılması və təmirinin, habelə elektrik avadanlıqları istehsalının böyük rolu vardır.

Ötən illər ərzində sənaye strukturunda tədricən optimallaşdırma prosesləri getmiş, mədənçıxarma sektorunun payı azalmış, emal sektorunun payı isə artmışdır. 2015-ci ildə əsas kapitala yönəldilmiş vəsait 16 milyard manata çatmış, onun 53 faizi sənayeyə yatırılmışdır. Görülmüş tədbirlər nəticəsində sənayedə çalışan işçilərin sayı 187,1 min nəfəri ötmüş, sənayedə

orta aylıq əməkhaqqı isə ölkə üzrə orta aylıq əməkhaqqını təxminən iki dəfə üstələyərək 809,3 manata çatmışdır.

Azərbaycanın ağır sənaye və maşınqayırma sahəsində fəaliyyət göstərən təsərrüfat subyektləri, əsasən, Bakı və Sumqayıt şəhərlərində və ətraf rayonlarda cəmləşmişdir. Bununla yanaşı, ötən dövr ərzində ölkənin digər əraziləri də ağır sənaye və maşınqayırmanın müəyyən növləri üzrə ixtisaslaşmışdır.

Müasir bazar iqtisadiyyatı şəraitində milli iqtisadiyyatın qarşısında duran əsas məsələlərdən biri də qeyri - neft sektorunun dayanıqlı inkişafını formalaşdırmaq, qeydedilən sahə üzrə rəqabətqabiliyyətini yüksəltmək, eləcə də onun innovasiyalı inkişafını həyata keçirmək və s. hesab olunur. Son illər üzrə mövcud beynəlxalq təcrübəyə nəzər salsaq görərik ki, artıq sənaye sahələri üzrə artım templəri üzrə artım templəri ölkələrin gəlir səviyyəsinə mütənasib şəkildə fərqləndirilir. Ölkələr inkişaf etdikcə əsasən orta texnologiyalı maşın və avadanlıq istehsalı sahələrinin fəaliyyəti daha da genişlənir. Bu istiqamətlərdə dövlətlər tərəfindən sənaye müəssisələrinin fəaliyyətinin dəstəklənməsi tədbirləri daha geniş yayılmışdır. Sənayenin inkişafının dəstəklənməsi istiqamətində əsas prioritet sənaye müəssisələrinin rəqabətqabiliyyətini yüksəltmək və onların istehsal etdikləri məhsulların dünya bazarlarına çıxışını təmin etməkdir.(3)

Müasir şəraitdə Azərbaycanda sənaye siyasətinin aşağıdakı istiqamətlər üzrə həyata keçirilməsi məqsədəuyğun hesab edilir:

- siyasət çox uzun müddətə deyil, nisbətən orta müddətə yönəldilməlidir;
- illik müddətə yönəlməlidir, yəni çox da uzun müddətli olmamalıdır;
- sənayenin inkişafında emal sənayesinin inkişafı ön planda olmalı, xüsusilə özəl biznesin inkişafi yönümlü olmalıdır;
- infrastrukturun inkişafına yönəldilməlidir;
- investisiyalari stimullaşdıran olmalıdır;
- iqtisadiyyatimizin rəqabətqabiliyyətini artırmalıdır;

iqtisadiyyatimizi dünya iqtisadiyyatına qovuşduran, inteqrasiya etməsinə təkan verən olmalıdır.

Son dövrlər ölkəmizdə həyata keçirilən davamlı iqtisadi siyasət nəticəsində sənayeləşmə prosesi daha da genişlənmişdir. Düzgün neft - qaz siyasətinin həyata keçirilməsi ölkənin mövcud sənaye potensialından səmərəli istifadə imkanlarının genişləndirilməsinə səbəb olmuşdur. Məsələn, son on ildə sənaye məhsulları istehsalı təqribən 2,7 dəfə, o cümlədən tikinti məmulatlarının istehsalı 2,5 dəfə, elektrik avadanlıqlarının istehsalı 2,1 dəfə, metallurgiya sənayesi üzrə istehsal həcmi 2,2 dəfə, geyim istehsalı 2,5 dəfə yüksəldilmişdir ki, bunlar da kifayət qədər yüksək göstəricilər hesab olunurlar. Davamlı olaraq həyata keçirilən sənayeləşmə tədbirləri istiqamətində qabaqcıl hasilat sahələrində əldə edilmiş uğurlarla yanaşı, sənayenin şaxələndirilməsi prosesi genişləndirilmiş, müasir innovativ proseslərə əsaslanan müasir müəssisələr təşkil olunmuşdur. Son dövrlər ərzində Sumqayıt texnologiyalar parkının, Alüminium və Polad istehsalı kompleksinin eləcə də, paytaxtımızda Gəmiqayırma zavodunun fəaliyyətə başlaması, dağlıq rayonlarımızda qızıl-mis emalı zavodlarının təşkili, neft-kimya sənayesində yenilənmə işlərinə start verilməsi və Karbomid Zavodunun inşası, Qaradağda Sement Zavodunun istehsal gücünün yüksəldilməsi və yeni zavodun inşası, Qazaxda, Naxçıvanda yeni sement zavodlarının tikilib istifadəyə verilməsi mühüm tədbirlərdən hesab olunur.

Azərbaycan Respublikası üzrə sənaye sahəsində müasir vəziyyətin araşdırılması bu gün öz aktuallıgı ilə seçilir. Artıq Azərbaycan Respublikasında maşınqayırma, avadanlıq istehsalı,

cihazqayırma və tikinti materialının istehsalı sahələrində yeni qabaqcıl texnologiyalara əsaslanan qabaqcıl müəssisələr formalaşdırılmışdır. Eyni zamanda, Naxçıvanda avtomobil, Mingəçevirdə elektron avadanlıqlar, paytaxtı ətrafında günəş panelləri istehsalı müəssisələri təşkil olunmuşdur. Artıq güclü müdafiə sənayesinin təşkili istiqamətində də mühüm layihələr reallaşdırılmış, qısa müddətdə bu sahədə 45-ə yaxın yeni istehsal sahəsi yaradılmış və onlar tərəfindən hərbi və mülki təyinatı məhsulların da istehsalı təşkil olunmuşdur. Nəticədə onların istehsal həcmi son illərdə təqribən 2 dəfə artırılmışdır.

Bakıda və regionlar üzrə geyim istehsalı, dəri məmulatları və ayaqqabı istehsalı, kağız və karton istehsalı, mebel istehsalı və digər qeyri-neft emal sənayesi sahələrində fəaliyyət göstərən yeni müəssisələr tikilib istismara verilmişdir. Bundan başqa infrastruktur təminatının yaxşılaşdırılması müasir ərzaq məhsullarınınistehsalı sahəsində yeni müəssisələrin yaradılmasını da ilk öncə təmin etmişdir. Məsələn, paytaxt ətrafında yeni Duz Zavodu, Sumqayıtda Bitki Yağları Emal Zavodu, Oğuzda Qarğıdalı Emalı və Qlükoza İstehsalı Zavodu, müxtəlif bölgələrdə süd kombinatları və müxtəlif məhsulları istehsalı müəssisələri formalaşdırılmışdır.

Azərbaycanda regionlar üzrə müxtəlif sənaye parklarının yaradılması müasir dövrdə iqtisadi baxımdan mühüm rol oynayır. Məsələn, Sumqayıt şəhəri üzrə Texnologiyalar parkı və Kimya sənaye parkı, Balaxanı sənaye və Yüksək texnologiyalar parkı regionda ən qabaqcıl parklardan hesab olunur. Müasir, sənaye siyasətinin mühüm istiqamətlərindən biri də sənaye sahələrinin rəqabətqabiliyyətinin yüksəldilməsinə yönəldilmiş tədbirlərin reallaşdırılması hesab olunur.

Sənaye sahələrinin rəqabətqabiliyyətinin yüksəldilməsi üçün effektiv tarif siyasəti əlverişli vergi vəgömrük rejimi, çevik məzənnə siyasəti ilə uyğunlaşdırılmalıdır. Eyni zamanda müxtəlif sənaye sahələrinə yerli və xarici sərmayələrin cəlb edilməsi üçün imkanlar genişləndirilməli, bu sahəyə istiqamətlənən güzəştli kreditlərdən və lizinq imkanlarından istifadə imkanları artırılmalıdır.

Aparılmış təhlillər göstərir ki, ölkəmizdə sənaye üzrə mebel, toxuculuq, kimya qida və digər sahələrində istehsal üzrə iqtisadi artım müşahidə olunmuş, dünya iqtisadiyyatının böhranla qarşılaşdığı şəraitdə belə respublikamızın sənayesinin qeyri-neft sahəsində inkişafanail olunmuşdur.

Qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək, ölkədə innovativ və yüksək texnologiylar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı üçün əlverişli şərait yaratmaq, müasir texnologiyalara əsaslanan sənaye müəssisələrini təşkil etmək, əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq istiqamətində Sumqayıt texnologiyalar parkının, Sumqayıt kimya sənaye və Balaxanı sənaye parklarının, Yüksək texnologiyalar parkının yaradılması və s. çox böyük əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikası üzrə son dövrlər sənaye sahələrinin fəaliyyəti üzrə ümumi iqtisadi göstəricilərdə ciddi dinamik dəyişikliklər qeydi alınmışdır. Məsələn, keçən il ölkəmizdə sənaye sahəsi üzrə işçilərin orta sayı 187,2 min nəfər, orta aylıq nominal əmək haqqı 809,3 manat, ölkə üzrə orta aylıq əmək haqqı ilə müqayisədə faizlə artım 173,3% olmuşdur. Sənaye sektoru üzrə yaranmış əlavə dəyər cari qiymətlərlə 18440 mln. manat, əlavə dəyərin ÜDM - də payı faizlə 33,9 faiz təşkiledilmişdir. 2015-ci il üzrə ÜDM - in strukturunda sənaye sektorunun payı 34 faizə atmışdır.(4)

Azərbaycan Respublikası üzrə son dövrlər sənaye sahələrinin fəaliyyəti üzrə ümumi iqtisadi göstəricilərdə ciddi dinamik dəyişikliklər qeydə alınmışdır. Təbii resursların istehsalı sahələrinin

**№ 3/2020** **səh.151 - 158**

inkisafı ölkədə elmi - texniki tərəqqini təmin etmir. Belə ki, elmi - texniki tərəqqini təmin edən sahələr əsasən emal sənayesi sahələri oldugundan və bu sahələrdə elmi - texniki nəailiyyətlərin mənimsənilməsi böyükdür. Nəticədə, əməlk məhsuldarlıgının artırılması və məşğulluq imkanları baxımından qeyri-neft sektorunun inkisafı əhəmiyyətli olur.

Araşdırmalar göstərir ki, neft sektoru rentaya əsaslanan və əsasən fondtutumlu sahədir. Belə səraitdə ölkədə neft və qaz hasilatı sahəsinin birtərəfli inkişafı məşğulluğun təmin edilməsi baxımından mənfi haldır.

Bu baxımdan, qeyri - neft sektorunun inkisafı məsgulluq səviyyəsinin təmin edilməsi və milli iqtisadiyyatın diversifikasiyasının yüksəldilməsində mühüm rol oynayır. Qeyri-neft sektorunun inkişaf zəruriliyi həm də milli iqtisadiyyatın mövcud potensialından istifadə ilə də bağlıdır.

Cədvəl 1.1.1

Sənaye sektoru üzrə əsas makro-iqtisadi göstəricilər (milyon manat)

| **İllər** / **Göstəricilər** | **2013** | **2014** | **2015** | **2016** | **2017** |
|---|---|---|---|---|---|
| Əlavə dəyər,cariqiymətlərlə,milyonmanat | 26442 | 24169 | 17912 | 22398 | 28087 |
| Ümumimənfəət, cariqiymətlərlə, milyonmanat | 24440 | 22215 | 15803 | 19903 | 24958 |
| Xalis mənfəət, cari qiy-mətlərlə, milyon manat | 23554 | 21140 | 14318 | 18338 | 22996 |
| Muzdlu işçilərin orta illik sayı, min nəfər | 197,2 | 197,2 | 187,1 | 186,1 | 197,1 |
| Orta aylıq nominal əmək haqqı, manat | 630,8 | 694,8 | 809,3 | 927,6 | 969,2 |
| Əsas fondlar (ilin axırına), milyon manat | 53529,0 | 61809,4 | 71978,8 | 111009,6 | 123408,4 |
| Əsas kapitala investisiyalar, milyon manat | 7499,6 | 7639,5 | 8499,9 | 9949,8 | 10610,1 |

**Mənbə:** Azərbaycan sənayesi DSK-ın məlumatları, Bakı-2018, 339 səh.

Cədvəl 1.1.2

Ölkə iqtisadiyyatında sənayenin payı, faizlə

| **İllər** / **Göstəricilər** | **2013** | **2014** | **2015** | **2016** | **2017** |
|---|---|---|---|---|---|

| | | | | | |
|---|---|---|---|---|---|
| Əlavə dəyər | 45,4 | 41,0 | 32,9 | 37,1 | 40,0 |
| Ümumi mənfəət | 55,7 | 50,7 | 41,4 | 46,1 | 47,1 |
| Xalis mənfəət | 57,1 | 52,4 | 41,5 | 46,8 | 48,3 |
| İşçilərin orta illik sayı | 13,1 | 12,8 | 12,1 | 12,7 | 12,9 |
| Orta aylıq nominal əməkhaqqı [1)] | 148,4 | 156,3 | 173,3 | 185,6 | 183,4 |
| Əsas fondlar | 57,9 | 59,9 | 58,5 | 65,7 | 65,8 |
| Əsas kapitala investisiyalar | 42,0 | 43,4 | 53,3 | 63,1 | 60,9 |

1) Ölkə üzrə ortaaylıq əməkhaqqı ilə müqayisə, faiz

**Mənbə:** Azərbaycan sənayesi DSK-ın məlumatları, Bakı-2018, 339 səh.

Statistik məlumatlar əsasında tərtib edilmiş cədvəllərdən belə məlum olur ki, ölkəmizdə sənaye sektorunda 2013-2017-ci illərdıə əsas makro-iqtisadi göstəricilər olan əlavə dəyər, ümumi mənfəət, orta aylıq nominal əmək haqqı əsas fondların dəyərinin artımı (yeni sənaye müəssisələrinin yaradıl-ması və mövcud müəssisələrdə yeni texnologiyaların tətbiqi hesabına), əsas kapitala investisayalar və s. artım, bəzi göstəricilərdə isə xalis mənfəət, muzdlu işçilərin sayında isə azalmalar müşahidə edilmişdir. (cədvəl 1.1.1, 1.1.2)

Cədvəl 1.1.3

Fəaliyyət göstərən sənaye müəssisələrinin sayı (mülkiyyət növlərinə görə), vahid

| İllər / Göstəricilər | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|
| **Bütün mülkiyyət növləri üzrə** | 2527 | 2534 | 2583 | 2561 | 2582 |
| Dövlət mülkiyyəti | 564 | 560 | 577 | 573 | 529 |
| Qeyri-dövlət mülkiyyəti | 1963 | 1974 | 2006 | 1988 | 2053 |
| xüsusi mülkiyyət | 1730 | 1717 | 1752 | 1734 | 1780 |
| birgə (qarışıq) mülkiyyət | 82 | 80 | 75 | 73 | 78 |
| xarici mülkiyyət | 151 | 177 | 179 | 181 | 195 |
| **Mədənçıxarma sənayesi** | 318 | 322 | 325 | 298 | 281 |
| Xam neft və təbii qaz hasilatı | 29 | 29 | 31 | 32 | 31 |
| Metal filizlərinin hasilatı | 3 | 3 | 4 | 5 | 5 |
| Daş, qum, çınqıl, duz və digər mədənçıxarma sənayesi məhsullarının hasilatı | 208 | 203 | 203 | 173 | 156 |
| Mədənçıxarma sənayesi sahəsinə xidmətlər göstərilməsi | 78 | 87 | 87 | 88 | 89 |
| **Emal sənayesi** | 1764 | 1762 | 1778 | 1775 | 1826 |
| Qida məhsullarının istehsalı | 439 | 389 | 382 | 391 | 361 |
| İçki istehsalı | 110 | 118 | 120 | 119 | 110 |
| Tütün məmulatlarının istehsalı | 8 | 6 | 7 | 7 | 9 |
| Toxuculuq sənayesi | 72 | 66 | 68 | 66 | 67 |
| Dəri və dəri məmulatları. Ayyaqabı istehsalı | 23 | 22 | 23 | 21 | 27 |
| Ağac emalı və ağacdan məmulatların istehsalı | 51 | 48 | 35 | 34 | 38 |
| Kağız və karton istehsalı | 20 | 19 | 23 | 22 | 20 |
| Poliqrafiya fəaliyyəti | 142 | 147 | 157 | 140 | 153 |
| Neft məhsullarının istehsalı | 4 | 4 | 3 | 3 | 4 |
| Kimya sənayesi | 70 | 72 | 69 | 75 | 81 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Əczaçılıq məhsulları istehsalı | 8 | 8 | 11 | 10 | 11 |
| Rezin və plastik kütlə məmulatlarının istehsalı | 89 | 95 | 98 | 92 | 103 |
| Tikinti materialları istehsalı | 209 | 230 | 239 | 224 | 229 |
| Metallurgiya sənayesi | 20 | 27 | 27 | 29 | 41 |
| Maşın və avadanlıqlardan başqa hazır metal məmulatlarının istehsalı | 86 | 85 | 75 | 83 | 93 |
| Kompüter və digər elektron avadanlıqların istehsalı | 23 | 24 | 24 | 25 | 23 |
| Elektrik avadanlıqları istehs | 39 | 40 | 41 | 43 | 48 |
| Maşın və avadanlıqlar istehs | 59 | 61 | 59 | 58 | 58 |
| Avtomobil və qoşquların istehsalı | 6 | 6 | 5 | 5 | 5 |
| Sair nəqliyyat vasitələrinin istehsalı | 8 | 9 | 9 | 9 | 9 |
| Mebellərin istehsalı | 84 | 94 | 97 | 97 | 87 |
| Zərgərlik məmulat, musiqi alətləri, idman malları və tibb avadanlıqları istehsalı | 36 | 31 | 34 | 32 | 42 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 220 | 223 | 239 | 239 | 228 |
| Sutəchizatı, tullantılarıntəmizlənməsivə emalı | 225 | 227 | 241 | 249 | 247 |

**Mənbə:** Azərbaycan sənayesi DSK-ın məlumatları, Bakı-2018, 339 səh.

Təhlil göstərir ki, 2013-cu ildə fəaliyyət göstərən sənaye müəssisələrinin sayı (mülkiyyət növlərinə görə) **dövlət mülkiyyəti** - 564, **Qeyri - dövlət mülkiyyəti** - 1963 ədəd, 2017-ci ildə isə **dövlət mülkiyyəti** - 560, **qeyri - dövlət mülkiyyəti** isə 1974 ədəd olmuşdur. Bu tendensiya demək olar ki, qeyri - neft sənayesinin bütün sahələrində sənayedə özəl sektorun artımı ilə müşahidə edilmişdir.(4)

Sənaye siyasətinin regionlar üzrə müəyyənləşdirilməsinin əsas istiqamətlərinə nəzər salsaq görərik ki, 2017-ci ilin əvvəllərində yaradılması nəzərdə tutulan Mingəçevir sənaye parkı ölkəmizin regionlar üzrə ən böyük müəssisəsi olacaqdır. Nəzərdə tutulan sənaye parkının tərkibində ayaqqabı istehsalı, toxuma, parça boyama, tikiş, pambıq iplik, akril iplik, yun iplik, corab məhsulları, tibbi kosmetika fabrikləri yaradılaraq istismara veriləcəkdir. Bundan başqa Mingəçevir sənaye parkı nəzdində yaradılacaq pambıq iplik fabrikdə ilk öncə on min tona qədər, sonrakı illərdə isə iyirmi min tona yaxın pambıq iplik istehsalı planlaşdırılır. Burada hər il istehsal olunan on min tona qədər iplik məhsulları xarici dövlətlərə ixrac edilməklə, respublikamıza təxminən iyirmi beş miliyon ABŞ dollarından artıq xarici valyuta gətiriləcəkdir.

## Nəticələr

Tədqiqat nəticəsində aydın olur ki, sənaye siyasətinin müəyyənləşdirilməsinin əsas istiqamətləri ölkədə mövcud potensialdan səmərəli istifadə edilməsinə və regionların xam- mal potensialını nəzərə almaqla sənaye parklarlnln yaradılmasına yönəldilməlidir. Sənaye parkları ölkəmizin regionlar üzrə yaradılmaqla geniş çeşiddə sənaye məhsullarının istehsalı həyata keçirilməli və ən xarici dövlətlərə ixrac edilməklə, respublikamıza xarici valyuta gətirimələdir.

Araşdırmalar göstərir ki, neft sektoru rentaya əsaslanan və əsasən fondtutumlu sahədir. Belə səraitdə ölkədə neft və qaz hasilatı sahəsinin birtərəfli inkişafı məşğulluğun təmin edilməsi

**№ 3/2020** **səh.151 - 158**

baxımından mənfi haldır.

Bu baxımdan, qeyri - neft sektorunun inkisafı məsgulluq səviyyəsinin təmin edilməsi və milli iqtisadiyyatın diversifikasiyasının yüksəldilməsində mühüm rol oynayır. Qeyri-neft sənayesinin inkişaf etdirilməsi ölkəmizdə məşğulluğun təmin edilməsinə və milli iqtisadiyyatın mövcud potensialından səmərəli istifadə olunmasına şərait yaratmış olar.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- müasir dövrdəsənayenin ayrı-ayrı sahələrinin inkişaf istiqamətləriaraşdırılmışdır;
- sənayenin bir sıra sahələrinin makroiqtisadi göstəriciləri təhlil edilmişdir;
- sənaye siyasətinin əsas istiqamətləri müəyyən edilmiş və elmi əsasları müəyyənləşdirilmişdir;
- sənaye sahələrinin regionlarda yerləşdirilməsi qanunauyğunluqları və xüsusiyyətləri geniş şəth edilmişdir;
- sənaye məhsullarının rəqabətqabiliyyətinin yüksəldilməsi istiqamətlərinə aydınlıq gətirilmişdir;
- sənayedə rəqabətə davamlı istehsalın təşkili və ixrac imkanlarını araşdırılmış, dünya təcrübəsi ümumiləşdirməklə onun həyata keçirilməsi üçün əsaslandırılmış təkliflər verilmişdir.

## Ə D Ə B İ Y Y A T


1. Azərbaycan Respublikasında 2014-cü il "Sənaye ili"elan edilməsi barədə 10 yanvar 2014-cü il tarixli Sərəncamı.
2. ."Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020 – ci illər üçün Dövlət Proqramı Bakı, Elm, 2016.
3. Abbasov.İ.M., Əliyev.T.N Qeyri-neft sənayesinin iqtisadiyyatı. Dərslik. Bakı, Elm və Təhsil 2017, 501 səh.
4. Azərbaycan sənayesi DSK-ın məlumatları, Bakı-2018, 339 səh.
5. Hümbətov.Y.Ə. "Sənayenin təşkil və idarə edilməsi" Dərs vəsaiti. Bakı, Avropa nəşriyyatı- 2018. 355 səh.


Redaksiyaya daxilolma 10.01.2020
Çapa qəbul olunma 05.04.2020